

9

# COĞRAFİYA

## METODİK VƏSAİT

LAYİHƏ

ELBRUS ƏLİZADƏ  NƏRMİNƏ SEYFULLAYEVA
İRKƏN AKTOPRAK, YELENA ŞABANOVA

# COĞRAFİYA

9

Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün
Coğrafiya fənni üzrə dərsliyin
METODİK VƏSAİTİ

Bu nəşrlə bağlı irad və təkliflərinizi
bn@bakineshr.az və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

B A K I N Ə Ş R

LAYİHƏ

MÜNDƏRİCAT

DƏRSLİYİN HAZIRLANMASI PRİNSİPLƏRİ ........ 3
DƏRSLİYİN MƏZMUNU VƏ STRUKTURU ........ 5
IX SİNİF ÜZRƏ MƏZMUN STANDARTLARI ........ 10
FƏNN ÜZRƏ MƏZMUN STANDARTLARININ REALLAŞMA CƏDVƏLİ ........ 12
FƏNLƏRARASI İNTEQRASİYA CƏDVƏLİ ........ 14
İLLİK PLANLAŞDIRMA NÜMUNƏSİ ........ 17
ÜMUMİ TƏLİM FƏALİYYƏTİ BACARIQLARI, VƏRDİŞLƏRİ VƏ QABİLİYYƏTLƏRİ ........ 18
DƏRSİN GÜNDƏLİK PLANLAŞDIRILMASININ METODİKİ CƏHƏTDƏN HAZIRLANMASI TEXNOLOGİYASI ÜZRƏ TÖVSİYƏLƏR ........ 20
GÜNDƏLİK PLANLAŞDIRMA NÜMUNƏSİ ........ 25
MƏTNLƏ İŞ ÜSULLARI ........ 28
ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ PRİNSİPLƏRİ VƏ ÜSULLARI ........ 32
MÖVZULAR ÜZRƏ TƏLİM MATERİALLARI İLƏ İŞ TEXNOLOGİYASININ ŞƏRHİ ........ 36

**I BÖLMƏ**
**YER KÜRƏSİNİN TƏBİƏTİ VƏ ONUN TƏSƏRRÜFAT ƏHƏMİYYƏTİ**

1. RELYEF VƏ ONUN TƏSƏRRÜFATA TƏSİRİ ........ 41
   KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ NÜMUNƏSİ ........ 61
2. İQLİM VƏ ONUN TƏSƏRRÜFATDA ROLU ........ 64
   KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ NÜMUNƏSİ ........ 93
3. SU EHTİYATLARI VƏ ONLARIN İQTİSADİ ƏHƏMİYYƏTİ ........ 96
   KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ NÜMUNƏSİ ........ 118
4. BİOEHTİYATLARIN MÜXTƏLİFLİYİ VƏ ONDAN İSTİFADƏ ........ 120
   KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ NÜMUNƏSİ ........ 141

**II BÖLMƏ**
**CƏMİYYƏT VƏ İQTİSADİYYAT**

5. QƏDİM VƏ MÜASİR SİVİLİZASİYALAR ........ 143
   KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ NÜMUNƏSİ ........ 159
6. DÜNYA ƏHALİSİNİN MÜXTƏLİFLİYİ ........ 162
   KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ NÜMUNƏSİ ........ 178
7. İQTİSADİ-SOSİAL HƏYAT VƏ ONUN İNKİŞAF YOLLARI ........ 181
   KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ NÜMUNƏSİ ........ 201

TÖVSİYƏ OLUNAN MƏNBƏLƏR ........ 203

LAYİHƏ

## Dərsliyin hazırlanması prinsipləri

IX sinif üçün Coğrafiya dərslik komplekti ümumi təhsil pilləsinin dövlət standartları və proqramları (kurikulumları) əsasında hazırlanmışdır. Dərslik komplekti coğrafiya fənn kurikulumunda əks olunan məzmun standartları və təlim nəticələrinə, təlim prosesinin təşkili qaydalarına, həmçinin qiymətləndirmə konsepsiyasına uyğundur.

Dərslik hazırlanarkən onun aşağıdakı funksiyaları və təlim materialların təqdimolunma prinsipləri nəzərə alınmışdır:

*Öyrədici/inkişafetdirici funksiya* – şagirdlərin məntiqi, tənqidi, yaradıcı təfəkkürünün inkişafını, informasiya və kommunikasiya texnologiyaları ilə iş vərdişlərinin formalaşdırılmasını nəzərdə tutur.

Dərslik coğrafiya elminin əsaslarını şərh etməklə yanaşı, təlim materialının mənimsənilməsi məqsədilə şagirdlərin müstəqil fəaliyyətini təşkil edir, öyrənməyi öyrədir. Dərsliklə iş zamanı özünütəlim, özünənəzarət, informasiyanın axtarılması və sistemləşdirilməsi, konspektləşdirilməsi, ümumiləşdirilməsi, əsas anlayışların çıxarılması üçün zəruri olan bilik, bacarıq və vərdişlər inkişaf etdirilir. Dərslik şagirdlərə formalaşan anlayışların, təsəvvürlərin, obrazların, öyrəndikləri qayda, qanun və nəticələrin düzgünlüyünü müstəqil yoxlamağa imkan verir. Təlim materialları ilə iş şagirdləri bilik əldə etməyə və yaradıcı fəaliyyətə sövq edir, tədqiqetmə, proqnozvermə, ideyaların ümumiləşdirilməsi və təqdim edilməsi, təbiətdə və cəmiyyətdə baş verən hadisə və proseslərin təhlili və qiymətləndirilməsinə dair vərdişlərin formalaşdırılmasına imkan yaradır.

*Tərbiyəedici funksiya* dərsliyin məzmununun şagirdlərdə mənəvi dəyərlərin formalaşmasına təsiri, dərsliklə iş prosesində onlarda tolerantlıq, vətənpərvərlik hissi, zəhmətsevərlik, öz həyatında davamlı inkişaf konsepsiyası prinsiplərinə uyğun hərəkət etmək kimi şəxsi keyfiyyətlərin inkişafını nəzərdə tutur. Bütün bunlara dərsliyin məzmununun humanistləşdirilməsi, sosiallaşdırılması (ümumbəşəri dəyərlərə, inkişafın sosial istiqamətdə aparılmasına diqqət yetirilməsi) və ekolojiləşdirilməsi (insanı onun yaşadığı mühitlə, həyatın bərpa olunması şəraiti ilə sıx əlaqədə nəzərdən keçirmək) yolu ilə nail olmaq olar. Bununla bərabər təklif olunan bir çox tapşırıqların yerinə yetirilməsi onların qrup və ya cütlər şəklində yerinə yetirilməsini nəzərdə tutur, deməli, ünsiyyət qurma, birlikdə qərar qəbul etmə kimi vərdişlərin inkişafına imkan yaradır.

*İnformasiya prinsipi* – şagirdləri vacib, müasir, dəqiq və lazımi həcmdə məlumatla təmin edir, onların dünyagörüşünü formalaşdırır.

*Transformasiyaedici (dəyişdirici) prinsip* – dərslikdəki material şagirdlərin yaş xüsusiyyətləri və didaktik tələblər nəzərə alınaraq işlənmişdir və problemlilik, yaradıcı qavrama baxımından sadədir. Dərslikdəki mətn əsas anlayışların, nəticələrin izahı baxımından mümkün qədər sadəliyi və dəqiqliyi ilə seçilir.

*Sistemləşdirici prinsip* – dərslikdəki material sistemli şəkildə, məntiqi və xronoloji ardıcıllıq nəzərə alınaraq verilmişdir.

*İnteqrasiya prinsipi* – fiziki, iqtisadi və sosial coğrafiya, xəritəşünaslıq arasında inteqrasiyanın olması şagirdlərə dünyada baş verən təbii, sosial-iqtisadi hadisə və

LAYİHƏ

prosesləri, təbiət və cəmiyyət arasında qarşılıqlı əlaqələri daha dərindən dərk etməyə, insanın hərtərəfli fəaliyyəti və məskunlaşması üçün coğrafi mühit şəraitini qiymətləndirməyə imkan verir.

Coğrafiya kursunun strukturunun əsas prinsiplərindən biri fəndaxili və fənlərarası əlaqənin nəzərə alınmasıdır. O, digər fənlərə aid olan bir sıra anlayışların məzmuna daxil edilmədən onlara əsaslanmasına imkan verir. Dərslikdə, həmçinin ölkəşünaslıq prinsipi də nəzərə alınmışdır.

*Əyanilik prinsipi* – materiallar üzərində iş prosesinə müxtəlif təlim vasitələrinin (xəritələr, slaydlar) cəlb edilməsinə imkan verir. Dərslik şəkil, xəritə, sxem, diaqram, foto şəklində verilmiş zəruri illüstrasiyalarla təmin edilmişdir.

## Təlim prosesinin dərslikdə öz əksini tapmış metodoloji mərhələləri

Materiallar izah edilərkən fəal dərsin mərhələləri nəzərə alınmışdır.




LAYİHƏ

**A** blokunda verilən materiallar (şəkil, xəritə, sxem, sual və tapşırıqlar və s.) dərsdə motivasiyanın yaradılması üçün nəzərdə tutulmuşdur. Onlar şagirdlərdə yalnız maraq oyatmaq, onların idraki fəaliyyətini fəallaşdırmaq üçün deyil, eyni zamanda onların bilik və bacarıqlarının səviyyəsini müəyyən etməyə imkan verir.

**B** blokunun materialları mövzunun izahını təmin edən mətndir.

**C** blokunda şəkil, sxem, cədvəl, qrafik, diaqramlardan müəllim şagirdlərin tədqiqat fəaliyyətinin təşkil edilməsi məqsədilə istifadə edə bilər.

Şagirdlərin təlim nailiyyətlərinin qiymətləndirilməsi üçün dərslikdə hər paraqrafın və blokun sonunda sual və tapşırıqlardan ibarət hissə – **D** bloku materialları verilmişdir.

**E** bloku tapşırıqları yaradıcı tətbiqetmə məqsədilə hazırlanmış və məktəbdənkənar vaxtda yerinə yetirilməsi, əlavə informasiyanın tədqiqi, təhlili, ümumiləşdirilməsi və təqdim edilməsi üçün nəzərdə tutulmuşdur.

Metodiki vəsaitdə şagirdlərin qiymətləndirilməsi və refleksiyasına dair tövsiyələr təqdim edilmişdir.

## DƏRSLİYİN MƏZMUNU VƏ STRUKTURU

Dərslikdə təlim materialları aşağıdakı kimi qruplaşdırılmışdır.

### I bölmə. Yer kürəsinin təbiəti və onun təsərrüfat əhəmiyyəti

1. RELYEF VƏ ONUN TƏSƏRRÜFATA TƏSİRİ
2. İQLİM VƏ ONUN TƏSƏRRÜFATDA ROLU
3. SU EHTİYATLARI VƏ ONLARIN İQTİSADİ ƏHƏMİYYƏTİ
4. BİOEHTİYATLARIN MÜXTƏLİFLİYİ VƏ ONDAN İSTİFADƏ

### II bölmə. Cəmiyyət və iqtisadiyyat

5. QƏDİM VƏ MÜASİR SİVİLİZASİYALAR
6. DÜNYA ƏHALİSİNİN MÜXTƏLİFLİYİ
7. İQTİSADİ-SOSİAL HƏYAT VƏ ONUN İNKİŞAF YOLLARI

## DƏRSLİYİN FƏSİLLƏR ÜZRƏ MƏZMUNU

Dərsliyin ilk iki mövzusu şagirdləri coğrafi informasiyanı əldə etmək və onu təqdim etməyin müxtəlif üsulları ilə – xəritə-sxemlər, kartodiaqramlar, kartoqramlarla tanış edir. Onlar yeni informasiya əldə edir və aşağı siniflərdə aldıqları biliklər əsasında məhəllin topoqrafik planını oxumaq vərdişinə yiyələnirlər.

Birinci “RELYEF VƏ ONUN TƏSƏRRÜFATA TƏSİRİ” fəslində materiklərin relyefi, bütövlükdə Yerdə və ayrı-ayrı materiklərdə baş verən tektonik proses və hadisələr haqqında biliklər verilmişdir. Materiklərin relyefinin təsviri ilə yanaşı, şagirdlərin diqqəti tektonik hərəkətlər nəticəsində baş verən təbii hadisələrin (sunami, qar uçqunu,

LAYİHƏ

daş uçqunu, sürüşmə və s.) iqtisadi cəhətdən qiymətləndirilməsinə yönəldilir. Şagirdlər Azərbaycan ərazisinin tektonik quruluşu və geoloji inkişaf tarixində dəyişməsi nəticəsində baş verən relyef dəyişmələri haqqında məlumat əldə edirlər.

İkinci fəsil – "İQLİM VƏ ONUN TƏSƏRRÜFATDA ROLU" iki blokdan ibarətdir. Birinci blokda şagirdlərə günəş radiasiyası, onun növləri, Yer kürəsində paylanması haqqında məlumat verilir. Şagirdlərin planetin orbit xətti boyunca və öz oxu ətrafında hərəkətinin səbəb və nəticələrinə dair nəzəri və praktiki bilikləri dərinləşdirilir. Onlar günün uzunluğunun hesablanması, qurşaq vaxtının, günəş şüalarının düşmə bucağının təyini, yer səthinə gələn və ondan əks olunan günəş radiasiyasının miqdarının təyin edilməsinə dair praktik vərdişlərə yiyələnirlər. İkinci blokda şagirdlər hər bir materikin iqlim xüsusiyyətləri ilə tanış olurlar. İqlimin dövlətin iqtisadi inkişafına, əhalinin təsərrüfat fəaliyyətinə təsirinə xüsusi diqqət verilir və atmosfer hadisələrinin yaratdığı problemlər, onların həlli yollarına aid məlumatlar qeyd olunur. Materiallar elə təqdim olunmuşdur ki, şagirdlər yalnız nəzəri biliklər əldə etmir, həm də sinoptik və iqlim xəritələrini oxumaq vərdişlərinə yiyələnirlər.

Üçüncü "SU EHTİYATLARI VƏ ONLARIN İQTİSADİ ƏHƏMİYYƏTİ" fəsli şagirdləri materiklərin, o cümlədən Azərbaycanın hidroenerji potensialı ilə tanış edir. Onlar çay sistemləri və göllər, onların təsərrüfatda istifadəsi haqqında məlumat əldə edir, materiklərin su ehtiyatları ilə təminatlılığını dəyərləndirirlər. Burada Dünya okeanının təsərrüfat əhəmiyyətinə xüsusi diqqət yetirilir, onun enerji, bioloji, mineral ehtiyatları nəzərdən keçirilir, nəqliyyat, rekreasiya əhəmiyyəti, Yer kürəsində şirin su probleminin həll olunmasında okean sularından istifadə imkanları qiymətləndirilir.

Dördüncü "BİOEHTİYATLARIN MÜXTƏLİFLİYİ VƏ ONDAN İSTİFADƏ" fəslində Şimal və Cənub materiklərinin biopotensialı nəzərdən keçirilir. Şagirdlər Azərbaycan Respublikasının nümunəsində landşaft anlayışı (təbii, antropogen, zonal, intrazonal) barədə məlumat alırlar. Fəsildə verilən məlumatlar şagirdlərdə ekoloji təfəkkürü formalaşdırır: insanın ətraf mühitə getdikcə artan təsiri, "ekoloji böhran", "ekoloji monitorinq" və "ekoloji siyasət" anlayışları ətraf mühitin qorunmasına yönəldilən iqtisadi, siyasi, qanunvericilik, təhsil və təbliğat tədbirləri sistemi kimi nəzərdən keçirilir.

Beşinci "QƏDİM VƏ MÜASİR SİVİLİZASİYALAR" fəslində planetimizin qədim və müasir sivilizasiyaları haqqında məlumat təqdim olunur. Bu anlayış uzun müddət mövcud olmuş, sabit ərazi sərhədlərinə malik olan, iqtisadi, sosial-siyasi, mənəvi həyatın spesifik formalarını yaradan və fərdi tarixi inkişaf yolu keçən böyük sosiomədəni birlik kimi izah olunur.

Şagirdlər türk dünyası – türk xalqlarının səciyyəvi xüsusiyyətləri, onların yayıldığı ərazilərin sərhədləri, müstəqil türk dövlətləri, Rusiya Federasiyası və Çinin tərkibində olan türk dövlət qurumları haqqında daha ətraflı məlumat alırlar.

Cənubi Avropa, Cənub-Şərqi Avropa, Cənub-Qərbi Asiya (Yaxın və Orta Şərq) və Şimali Afrikanın nümunəsində verilən məlumatlar şagirdlərə region və ölkələrin inkişafını tarixi-coğrafi nöqteyi-nəzərdən təhlil etməyə imkan verir.

LAYİHƏ

Bu blokda, həmçinin dünyanın əsas iqtisadi mərkəzləri, onların coğrafiyasının tarixən dəyişməsi, region və ölkələrin iqtisadi inkişafına təkan verən amillər də nəzərdən keçirilmişdir.

"DÜNYA ƏHALİSİNİN MÜXTƏLİFLİYİ" fəslində şagirdlərin əhali təzələnməsinin tipləri, əhalinin təbii hərəkətinin tipindən asılı olaraq region və ölkələrin demoqrafik siyasəti, əhalinin yaş-cins strukturu haqqında biliklərini dərinləşdirməyə xidmət edən nəzəri materiallarla yanaşı, yaş-cins piramidalarının tərtib olunması və təhlili ilə bağlı praktik vərdişlərin formalaşmasına imkan verən materiallar da daxildir. Bundan başqa bu bölmədə şagirdlər iqtisadiyyat haqqında əsas biliklərə yiyələnirlər: "işsizlik", "əmək ehtiyatları", "iqtisadi cəhətdən fəal əhali" anlayışları nəzərdən keçirilir; əhalinin işsizlik səviyyəsinin hesablanması üsulu izah olunur. Məlumatların ümumiləşdirmə və təhlil üçün nəzərdə tutulan müəyyən hissəsi cədvəl, sxem, qrafik və diaqramlar şəklində verilmişdir.

"İQTİSADİ-SOSİAL HƏYAT VƏ ONUN İNKİŞAF YOLLARI" fəsli təsərrüfatın sahəvi və ərazi strukturuna həsr edilmişdir. Hər sahənin strukturu sxem şəklində verilmiş, maddi istehsal (sənaye və kənd təsərrüfatı) və qeyri-maddi istehsal sahələrinin yerləşmə amilləri nəzərdən keçirilmişdir. Tələb və təklif nəzərə alınaraq azad bazar rəqabəti prinsipləri əsasında formalaşan bazar iqtisadiyyatının xüsusiyyətləri, mülkiyyət formaları (dövlət, bələdiyyə, xüsusi) izah olunmuşdur. Bu bölmədə turizmə xüsusi diqqət yetirilmiş, turizmin növləri (LLL və SSS), dünyanın əsas turizm regionları, bu sferanın inkişafına təkan verən və mane olan amillər haqqında informasiya təqdim olunmuşdur.

DƏRSLİYİN MÖVZULAR ÜZRƏ STRUKTURU

| FƏSİL | MÖVZU |
|---|---|
| GİRİŞ | 1. Coğrafi informasiyanın təqdimolunma üsulları<br>2. Topoqrafik xəritələri necə oxumalı |
| **I bölmə. Yer kürəsinin təbiəti və onun təsərrüfat əhəmiyyəti** | |
| 1. Relyef və onun təsərrüfata təsiri | 3. Avropanın relyefi<br>4. Asiyanın relyefi<br>5. Şimali Amerikanın relyefi<br>6. Cənubi Amerikanın relyefi<br>7. Afrikanın relyefi<br>8. Avstraliyanın relyefi<br>9. Azərbaycanın relyefi və tektonik quruluşu |



LAYİHƏ

2. İqlim və onun təsərrüfatda rolu

10. Günəş işığı və istiliyinin Yer kürəsində paylanması
11. Günəşli saatlardan istifadə
12. Praktik dərs. Saat qurşaqları
13. Günəş radiasiyası və iqlim
14. Avropanın iqlimi
15. Asiyanın iqlimi
16. Şimali Amerikanın iqlimi
17. Cənubi Amerikanın iqlimi
18. Afrikanın iqlimi
19. Avstraliyanın iqlimi
20. Praktik dərs. Azərbaycanın iqlimi

3. Su ehtiyatları və onların iqtisadi əhəmiyyəti

21. Avropanın daxili suları
22. Asiyanın daxili suları
23. Şimali Amerikanın daxili suları
24. Cənubi Amerikanın daxili suları
25. Afrikanın daxili suları
26. Avstraliyanın daxili suları
27. Dünya okeanından istifadə
28. Azərbaycanın su anbarları və kanalları

4. Bioehtiyatların müxtəlifliyi və ondan istifadə

29. Şimal materiklərinin bioehtiyatları və ölkələrin iqtisadi inkişafında onların rolu
30. Cənub materiklərinin bioehtiyatlarından istifadənin xüsusiyyətləri
31. Praktik dərs. Antarktida – bioloji ehtiyatlarla zəif təmin olunmuş materikdir
32. Azərbaycanın landşaftı bioehtiyatların mənbəyidir
33. Ekoloji siyasət
34. Ekoloji monitorinq
35. Təbiətə ekskursiya

LAYİHƏ

## II bölmə. Cəmiyyət və iqtisadiyyat

**5. Qədim və müasir sivilizasiyalar**

36. Sivilizasiyaların tarixi-coğrafi inkişafı
37. Türk dünyasının sivilizasiyalararası əlaqələrdə rolu
38. Azərbaycanın sivilizasiyalararası mövqeyi
39. Debat dərs. Azərbaycan: Avropa, yoxsa Asiya?
40. Tarixi-coğrafi regionların müasir vəziyyəti
41. Müasir dünyanın "iqtisadi gücləri"
42. Yer kürəsinin mənimsənilməsi

**6. Dünya əhalisinin müxtəlifliyi**

43. Əhalinin sayının artımı və onun tənzimlənməsi
44. Dünya əhalisinin yaş-cins tərkibi. Əmək ehtiyatları
45. Praktik dərs. Yaş-cins piramidasının qurulması
46. Asiya, Afrika və Latın Amerikasının əhalisi
47. Avropa, Şimali Amerikanın və Avstraliyanın əhalisi
48. Praktik dərs. Azərbaycanda demoqrafik vəziyyət

**7. İqtisadi-sosial həyat və onun inkişaf yolları**

49. Təsərrüfatın sahəvi quruluşu
50. İstehsal və qeyri-istehsal sahələri
51. Sənaye sahələri necə yerləşdirilir
52. Kənd təsərrüfatı sahələrinin yerləşdirilmə prinsipləri
53. Bazar iqtisadiyyatı
54. Mülkiyyət formaları
55. Azərbaycanın iqtisadi inkişafı
56. "Tüstüsüz sənaye"– turizm

LAYİHƏ

## IX sinif üzrə məzmun standartları

**IX sinfin sonunda şagird:**

- Yeni coğrafi kəşf və tədqiqatları cəmiyyətin inkişafı ilə əlaqələndirir;
- Kartoqrafik təsvirlərin cəmiyyətin həyatında əhəmiyyətini izah edir;
- İl ərzində Günəşin düşmə bucağının dəyişməsini hesablayır;
- Coğrafi təbəqədə baş verən hadisə və proseslərin ölkələrin iqtisadi həyatına təsirini izah edir;
- Əhalinin dinamikasını ölkələrin iqtisadi inkişafı ilə əlaqələndirir;
- Təsərrüfat sahələrinin yaratdığı ekoloji dəyişkənliyi müəyyən edir.

## Məzmun xətləri üzrə əsas və alt standartlar

**1. Coğrafi məkan**

**Şagird:**

*1.1. Coğrafi kəşflər nəticəsində cəmiyyətdə və xəritədə baş verən dəyişikliklərə aid bilik və bacarıqları nümayiş etdirir.*

1.1.1. Sivilizasiyaları coğrafi baxımdan təhlil edir.

*1.2. Yerin Günəş sistemində mövqeyi və hərəkətlərinə dair bilik və bacarıqlar nümayiş etdirir.*

1.2.1. Yerin hərəkətinin cəmiyyətin inkişafındakı rolunu əsaslandırır.

1.2.2. Vaxt və fəsil dəyişkənliyinə aid hesablamalar aparır.

*1.3. Kartoqrafik təsvirlər üzərində bilik və bacarıqlar nümayiş etdirir.*

1.3.1. Kartoqrafik təsvirlərin cəmiyyətin inkişafında əhəmiyyətini izah edir.

1.3.2. Kartoqrafik elementlər əsasında topoqrafik xəritələri oxuyur.

**2. Təbiət**

**Şagird:**

*2.1. Coğrafi təbəqədə baş verən hadisə və proseslərin ekocoğrafi nəticələrini mənimsədiyini nümayiş etdirir.*

2.1.1. Yer qabığında baş verən hadisə və proseslərin iqtisadi həyata təsirini dəyərləndirir.

2.1.2. Geoloji xəritələri oxuyur.

2.1.3. Atmosferdə baş verən hadisə və proseslərin iqtisadi həyata təsirini təhlil edir.

2.1.4. İqlim xəritələrini oxuyur, nəticələrini təqdim edir.

2.1.5. Hidrosferin iqtisadi həyata təsirini izah edir.

2.1.6. Kontur xəritədə hidroehtiyatların yerləşməsini qeyd edir.

LAYİHƏ

2.1.7. İqtisadiyyatın inkişafında bioehtiyatların və alternativ enerji ehtiyatlarının rolunu qiymətləndirir.
2.1.8. Yaşadığı ərazinin təbii komponentlərinə dair topladığı məlumatları təqdim edir.

**3. Cəmiyyət**
**Şagird:**
*3.1. Dünya əhalisinin müxtəlifliyinin səbəblərinə dair bilik və bacarıqlar nümayiş etdirir.*
3.1.1. Əhalinin artım dinamikasını ölkələrin iqtisadi inkişaf səviyyəsi ilə əlaqələndirir.
3.1.2. Topladığı statistik məlumatlar əsasında hesablamalar aparır.
*3.2. Cəmiyyətlə iqtisadiyyatın qarşılıqlı əlaqəsinə aid bilik və bacarıqlar nümayiş etdirir.*
3.2.1. Ölkələrin inkişafını tarixi-coğrafi baxımdan təhlil edir.
3.2.2. Tarixi-coğrafi regionları kontur xəritədə qeyd edir.
3.2.3. Təsərrüfat sahələrinin səciyyəsini verir.
3.2.4. Təsərrüfat sahələrinin yerləşməsinin əlaqə prinsiplərinin sxemini qurur.
3.2.5. Ətraf mühitdə yaranmış ekoloji vəziyyəti qiymətləndirir.

LAYİHƏ

## FƏNN ÜZRƏ MƏZMUN STANDARTLARININ REALLAŞMA CƏDVƏLİ

Cədvəldə kurikulumda tələb olunan bacarıqlar əsasında tövsiyə edilən standartların reallaşma cədvəli və illik iş planı verilmişdir. İş planı həftədə 2 saat olmaqla ildə 34 həftəyə və ya 68 saata nəzərdə tutulmuşdur. Müəllim mövzulara şəxsi münasibətindən asılı olaraq tövsiyə edilən illik planlaşdırılma nümunəsinə müəyyən dəyişikliklər edə bilər.

| FƏSİL VƏ MÖVZULAR | | 1-Cİ MƏZMUN XƏTTİ | | | | | 2-Cİ MƏZMUN XƏTTİ | | | | | | | | 3-CÜ MƏZMUN XƏTTİ | | | | | | | saatlar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | M. st. 1.1 | M. st.1.2 | | M. st.. 1.3 | | M.st.. 2.1 | | | | | | | | M. st.. 3.1 | | M. st.. 3.2 | | | | | |
| | | 1.1.1 | 1.2.1 | 1.2.2 | 1.3.1 | 1.3.2 | 2.1.1 | 2.1.2 | 2.1.3 | 2.1.4 | 2.1.5 | 2.1.6 | 2.1.7 | 2.1.8 | 3.1.1 | 3.1.2 | 3.2.1 | 3.2.2 | 3.2.3 | 3.2.4 | 3.2.5 | |
| | 1. Coğrafi informasiyanın təqdimolunma üsulları | | | | + | | | | | | | | | | | | | | | | | 1 |
| | 2. Topoqrafik xəritələri necə oxumalı | | | | | + | | | | | | | | | | | | | | | | 1 |
| 1. Relyef və onun təsərrüfata təsiri | 3. Avropanın relyefi | | | | | | + | | | | | | | | | | | | | | + | 1 |
| | 4. Asiyanın relyefi | | | | | | + | | | | | | | | | | | | | | | 1 |
| | 5. Şimali Amerikanın relyefi | | | | | | + | + | | | | | | | | | | | | | | 1 |
| | 6. Cənubi Amerikanın relyefi | | | | | | + | | | | | | | | | | | | | | | 1 |
| | 7. Afrikanın relyefi | | | | | | + | + | | | | | | | | | | | | | | 1 |
| | 8. Avstraliyanın relyefi | | | | | | | + | | | | | | | | | | | + | | | 1 |
| | 9. Praktik dərs. Azərbaycanın relyefi və тектоник quruluşu | | | | | | + | | | | | | | | | | | | | | | 1 |
| | 10. Kiçik summativ qiymətləndirmə | | | | | | | | | | | | | | | | | | | | | 1 |
| 2. İqlim və onun təsərrüfatda rolu | 11. Günəş işığı və istiliyinin Yer kürəsində paylanması | | + | + | | | | | | | | | | | | | | | | | | 1 |
| | 12. Günəşli saatlardan istifadə | | + | | | | | | | | | | | | | | | | | | | 1 |
| | 13. Praktik dərs. Saat qurşaqları | | + | | | | | | | | | | | | | | | | | | | 1 |
| | 14. Günəş radiasiyası və iqlim | | + | + | | | | | + | | | | | | | | | | | | | 1 |
| | 15. Avropanın iqlimi | | | | | | | | + | + | | | | | | | | | | | | 1 |
| | 16. Asiyanın iqlimi | | | | | | | | + | + | | | | | | | | | | | | 1 |
| | 17. Şimali Amerikanın iqlimi | | | | | | | | + | + | | | | | | | | | | | | 1 |
| | 18. Cənubi Amerikanın iqlimi | | | | | | | | + | + | | | | | | | | | | | | 1 |
| | 19. Afrikanın iqlimi | | | | | | | | + | + | | | | | | | | | | | | 1 |
| | 20. Avstraliyanın iqlimi | | | | | | | | + | + | | | | | | | | | | | | 1 |
| | 21. Praktik dərs. Azərbaycanın iqlimi | | | | | | | | | + | | | | | | | | | | | | 1 |
| | 22. Kiçik summativ qiymətləndirmə | | | | | | | | | | | | | | | | | | | | | 1 |
| 3. Su ehtiyatları və onların iqtisadi əhəmiyyəti | 23. Avropanın daxili suları | | | | | | | | | | + | + | | | | | | | | | | 1 |
| | 24. Asiyanın daxili suları | | | | | | | | | | + | + | | | | | | | | | | 1 |
| | 25. Şimali Amerikanın daxili suları | | | | | | | | | | + | + | | | | | | | | | | 1 |
| | 26. Cənubi Amerikanın daxili suları | | | | | | | | | | + | + | | | | | | | | | | 1 |
| | 27. Afrikanın daxili suları | | | | | | | | | | + | + | | | | | | | | | | 1 |
| | 28. Avstraliyanın daxili suları | | | | | | | | | | + | + | | | | | | | | | | 1 |
| | 29. Dünya okeanından istifadə | | | | | | | | | | + | + | | | | | | | | | | 1 |
| | 30. Azərbaycanın su anbarları və kanalları | | | | | | | | | | + | + | | | | | | | | | | 1 |
| | 31. Kiçik summativ qiymətləndirmə | | | | | | | | | | | | | | | | | | | | | 1 |
| | 32. Böyük summativ qiymətləndirmə | | | | | | | | | | | | | | | | | | | | | 1 |
| 4. Bioehtiyatların müxtəlifliyi və ondan istifadə | 33. Şimal materiklərinin bioehtiyatları və ölkələrin iqtisadi inkişafında onların rolu | | | | | | | | | | | | + | | | | | | | | | 1 |
| | 34. Cənub materiklərinin bioehtiyatlarından istifadənin xüsusiyyətləri | | | | | | | | | | | | + | | | | | | | | | 1 |
| | 35. Praktik dərs. Antarktida – bioloji ehtiyatlarla zəif təmin olunmuş materikdir | | | | | | | | | | + | | + | | | | | | | | | 1 |

LAYİHƏ

| FƏSİL VƏ MÖVZULAR | | 1-Cİ MƏZMUN XƏTTİ | | | | | 2-Cİ MƏZMUN XƏTTİ | | | | | | | | 3-CÜ MƏZMUN XƏTTİ | | | | | | | saatlar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | M. st. 1.1 | M.st.1.2 | | M. st.. 1.3 | | M. st.2.1 | | | | | | | | M. st.. 3.1 | | M. st.3.2 | | | | | |
| | | 1.1.1 | 1.2.1 | 1.2.2 | 1.3.1 | 1.3.2 | 2.1.1 | 2.1.2 | 2.1.3 | 2.1.4 | 2.1.5 | 2.1.6 | 2.1.7 | 2.1.8 | 3.1.1 | 3.1.2 | 3.2.1 | 3.2.2 | 3.2.3 | 3.2.4 | 3.2.5 | |
| | 36. Azərbaycanın landşaftı bioehtiyatların mənbəyidir | | | | | | | | | | | | | + | | | | | | | | 1 |
| | 37. Ekoloji siyasət | | | | | | | | | | | | | | | | | | | | + | 1 |
| | 38. Ekoloji monitorinq | | | | | | | | | | | | | | | | | | | | + | 1 |
| | 39. Təbiətə ekskursiya | | | | | | | | | | | | | + | | | | | | | + | 1 |
| | 40. I bölmə üzrə ümumiləşdirici dərs | | | | | | | | | | | | | | | | | | | | | 1 |
| | 41. Kiçik summativ qiymətləndirmə | | | | | | | | | | | | | | | | | | | | | 1 |
| 5. Qədim və müasir sivilizasiyalar | 42. Sivilizasiyaların tarixi-coğrafi inkişafı | + | | | | | | | | | | | | | | | | | | | | 1 |
| | 43. Türk dünyasının sivilizasiyalararası əlaqələrdə rolu | + | | | | | | | | | | | | | | | | | | | | 1 |
| | 44. Azərbaycanın sivilizasiyalar arası mövqeyi | + | | | | | | | | | | | | | | | + | | | | | 1 |
| | 45. Debat dərs. Azərbaycan: Avropa, yoxsa Asiya? | + | | | | | | | | | | | | | | | | | | | | 1 |
| | 46. Tarixi-coğrafi regionların müasir vəziyyəti | | | | | | | | | | | | | | | | + | + | | | | 1 |
| | 47. Müasir dünyanın “iqtisadi gücləri” | | | | | | | | | | | | | | | | | + | + | | | 1 |
| | 48. Yer kürəsinin mənimsənilməsi | | | | | | | | | | | | | | | | | + | | | | 1 |
| | 49. Kiçik summativ qiymətləndirmə | | | | | | | | | | | | | | | | | | | | | 1 |
| 6. Dünya əhalisinin müxtəlifliyi | 50. Əhalinin sayının artımı və onun tənzimlənməsi | | | | | | | | | | | | | | + | | | | | | | 1 |
| | 51. Dünya əhalisinin yaş-cins tərkibi. Əmək ehtiyatları | | | | | | | | | | | | | | | + | | | | | | 1 |
| | 52. Praktik dərs. Yaş-cins piramidasının qurulması | | | | | | | | | | | | | | | + | | | | | | 1 |
| | 53. Asiya, Afrika və Latın Amerikasının əhalisi | | | | | | | | | | | | | | + | | | | | | | 1 |
| | 54. Avropa, Şimali Amerikanın və Avstraliyanın əhalisi | | | | | | | | | | | | | | + | | | | | | | 1 |
| | 55. Praktik dərs. Azərbaycanda demoqrafik vəziyyət | | | | | | | | | | | | | | + | + | | | | | | 1 |
| | 56. Kiçik summativ qiymətləndirmə | | | | | | | | | | | | | | | | | | | | | 1 |
| 7. İqtisadi-sosial həyat və onun inkişaf yolları | 57. Təsərrüfatın sahəvi quruluşu | | | | | | | | | | | | | | | | | | + | | | 1 |
| | 58. İstehsal və qeyri-istehsal sahələri | | | | | | | | | | | | | | | | | | + | + | | 1 |
| | 59. Sənaye sahələri necə yerləşdirilir | | | | | | | | | | | | | | | | | | + | + | | 1 |
| | 60. Kənd təsərrüfatı sahələrinin yerləşdirilmə prinsipləri | | | | | | | | | | | | | | | | | | + | + | | 1 |
| | 61. Bazar iqtisadiyyatı | | | | | | | | | | | | | | | | | | + | | | 1 |
| | 62. Mülkiyyət formaları | | | | | | | | | | | | | | | | | | + | | | 1 |
| | 63. Azərbaycanın iqtisadi inkişafı | | | | | | | | | | | | | | | | | | + | + | | 1 |
| | 64. Tüstüsüz sənaye – turizm | | | | | | | | | | | | | | | | | | | | + | 1 |
| | 65. Təqdimat dərsi | | | | | | | | | | | | | | | | | | | | | |
| | 66. Kiçik summativ qiymətləndirmə | | | | | | | | | | | | | | | | | | | | | 1 |
| | 67. II bölmə üzrə ümumiləşdirici dərs | | | | | | | | | | | | | | | | | | | | | 1 |
| | 68. Böyük summativ qiymətləndirmə | | | | | | | | | | | | | | | | | | | | | 1 |
| | CƏMİ | | | | | | | | | | | | | | | | | | | | | 68 |

LAYİHƏ

# FƏNLƏRARASI İNTEQRASİYA CƏDVƏLİ

| FƏSİL VƏ MÖVZULAR | | FƏNNİN ADI VƏ ALT STANDART |
|---|---|---|
| | 1. Coğrafi informasiyanın təqdimolunma üsulları | Riy. 5.1.1. Cədvəl, diaqram, histoqram və ya qrafik şəklində verilmiş məlumatları oxuyub təhlil edir. |
| | 2. Topoqrafik xəritələri necə oxumalı | Riy. 5.1.1. |
| Relyef və onun təsərrüfata təsiri | 3. Avropanın relyefi | Az.t. 1.2.2. Müxtəlif mənbələr əsasında təqdimatlar hazırlayır.<br>B. 4.2.1. Regional ekoloji problemlərlə bağlı müşahidələrini ümumiləşdirib, təqdimatlar hazırlayır. |
| | 4. Asiyanın relyefi | |
| | 5. Şimali Amerikanın relyefi | |
| | 6. Cənubi Amerikanın relyefi | |
| | 7. Afrikanın relyefi | Riy.5.1.1. |
| | 8. Avstraliyanın relyefi | Riy.1.2.5. Praktik məsələlərin həllinə (bank əməliyyatlarında, satış qiymətinin dəyişməsində) faizin düsturlarını tətbiq edir. |
| | 9. Azərbaycanın relyefi və tektonik quruluşu | |
| İqlim və onun təsərrüfatda rolu | 10. Günəş işığı və istiliyinin Yer kürəsində paylanması | |
| | 11. Günəşli saatlardan istifadə | Riy. 5.1.1. |
| | 12. Praktik dərs. Saat qurşaqları | |
| | 13. Günəş radiasiyası və iqlim | Riy.1.2.5. |
| | 14. Avropanın iqlimi | Riy 5.1.1. |
| | 15. Asiyanın iqlimi | Riy 5.1.1. |
| | 16. Şimali Amerikanın iqlimi | |
| | 17. Cənubi Amerikanın iqlimi | Riy 5.1.1. |
| | 18. Afrikanın iqlimi | B. 4.2.1. |
| | 19. Avstraliyanın iqlimi | |
| | 20. Praktik dərs. Azərbaycanın iqlimi | |
| Su ehtiyatları və onların iqtisadi əhəmiyyəti | 21. Avropanın daxili suları | |
| | 22. Asiyanın daxili suları | Az.d.1.2.4. Ümumiləşmiş fikirləri yığcam şəkildə təqdim edir.<br>B. 4.2.1. |
| | 23. Şimali Amerikanın daxili suları | Riy. 5.1.1. |
| | 24. Cənubi Amerikanın daxili suları | |
| | 25. Afrikanın daxili suları | Riy. 5.1.1. |
| | 26. Avstraliyanın daxili suları | |
| | 27. Dünya okeanından istifadə | Riy.1.2.5. |
| | 28. Azərbaycanın su anbarları və kanalları | Riy. 5.1.1. |

LAYİHƏ

| | | |
|---|---|---|
| Bioehtiyatların müxtəlifliyi və ondan istifadə | 29. Şimal materiklərinin bioehtiyatları və ölkələrin iqtisadi inkişafında onların rolu | |
| | 30. Cənub materiklərinin bioehtiyatlarından istifadənin xüsusiyyətləri | |
| | 31. Praktik dərs. Antarktida – bioloji ehtiyatlarla zəif təmin olunmuş materikdir | Riy 5.1.1. |
| | 32. Azərbaycan landşaftı bioehtiyatların mənbəyidir | |
| | 33. Ekoloji siyasət | H.b.1.2.1. Qlobal ekoloji problemlərin həllinə dair təqdimat və layihələr hazırlayır. |
| | 34. Ekoloji monitorinq | |
| | 35. Təbiətə ekskursiya | B. 4.2.1. Regional ekoloji problemlərlə bağlı müşahidələrini ümumiləşdirib, təqdimatlar hazırlayır. |
| | | |
| Qədim və müasir sivilizasiyalar | 36. Sivilizasiyaların tarixi coğrafi inkişafı | Ü.t. 5.1.1. Mədəniyyətlərin inkişafına təsir edən amilləri izah edir. 5.1.2. Mədəniyyətlərarası və sivilizasiyalararası qarşılıqlı təsiri və ziddiyyətləri izah edir. |
| | 37. Türk dünyasının sivilizasiyalararası əlaqələrdə rolu | Ü.t. 5.1.2. |
| | 38. Azərbaycanın sivilizasiyalararası mövqeyi | Az.t. 5.1.1. Azərbaycan sivilizasiyası və mədəniyyətinin xarakterik əlamətlərini şərh edir. |
| | 39. Debat dərs. Azərbaycan: Avropa, yoxsa Asiya? | Az.t. 5.1.2. Azərbaycan sivilizasiyası və mədəniyyətinin xarakterik əlamətlərini dünya sivilizasiyası və mədəniyyətlərinin xarakterik əlamətləri ilə müqayisə edir. |
| | 40. Tarixi-coğrafi regionların müasir vəziyyəti | Ü.t.1.1.1. Müxtəlif ölkələrdə oxşar tarixi faktların müxtəlif zamanlarda baş verməsinin səbəb və nəticələrini izah edir.<br>Az.t. 1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir. |
| | 41. Müasir dünyanın "iqtisadi gücləri" | Riy 5.1.1. |
| | 42. Yer kürəsinin mənimsənilməsi | |

LAYİHƏ

| | | |
|---|---|---|
| | | |
| Dünya əhalisinin müxtəlifliyi | 43. Əhalinin sayının artımı və onun tənzimlənməsi | Riy.5.1.1. |
| | 44. Dünya əhalisinin yaş-cins tərkibi. Əmək ehtiyatları | Riy. 5.1.1. |
| | 45. Praktik dərs. Yaş-cins piramidasının qurulması | Riy. 5.1.1. |
| | 46. Asiya, Afrika və Latın Amerikasının əhalisi | Riy. 5.1.1 |
| | 47. Avropa, Şimali Amerikanın və Avstraliyanın əhalisi | Riy. 5.1.1. |
| | 48. Praktik dərs. Azərbaycanda demoqrafik vəziyyət | Riy. 5.1.1. |
| | | |
| İqtisadi-sosial və onun inkişaf yolları | 49. Təsərrüfatın sahəvi quruluşu | Riy.5.1.1. |
| | 50. İstehsal və qeyri-istehsal sahələri | |
| | 51. Sənaye sahələri necə yerləşdirilir? | |
| | 52. Kənd təsərrüfatı sahələrinin yerləşdirilmə prinsipləri | |
| | 53. Bazar iqtisadiyyatı | |
| | 54. Mülkiyyət formaları | Az.t.1.2.2. Müxtəlif mənbələr əsasında təqdimatlar hazırlayır. |
| | 55. Azərbaycanın iqtisadi inkişafı | Riy.5.1.1. |
| | 56. Tüstüsüz sənaye-turizm | Az.t.1.2.2. Riy.5.1.1. |
| | | |

*R– riyaziyyat, H. b.- Həyat bilgisi, Az. t. –Azərbaycan tarixi, Ü.t.-Ümumi tarix, B.- Bilogiya*

LAYİHƏ

# İLLİK PLANLAŞDIRMA NÜMUNƏSİ

| Mövzu üzrə reallaşdırılan standartlar | Bölmələr | Mövzular | İnteqrasiya | Resurslar | Qiymətləndirmə üsulu və vasitələri | Mövzu üzrə saatların miqdarı | Tarix (həftələr) |
|---|---|---|---|---|---|---|---|
| 2.1.1<br>3.2.5 | Relyef və onun təsərrüfata təsiri | 3. Avropanın relyefi | Az.t. 1.2.2.<br>B. 4.2.1 | Dərslik, Avropanın fiziki xəritəsi | Rubriklər (nailiyyət səviyyələrini qiymətləndirmək üçün şkala), tapşırıqlar | 1 | Sentyabr |
| 2.1.1<br>2.1.2 | | 4. Asiyanın relyefi | | Dərslik, Asiyanın fiziki xəritəsi | Rubriklər (nailiyyət səviyyələrini qiymətləndirmək üçün şkala), tapşırıqlar | 1 | |
| 2.1.1<br>2.1.2 | | 5. Şimali Amerikanın relyefi | | Dərslik, Şimali Amerikanın fiziki xəritəsi | Rubriklər (nailiyyət səviyyələrini qiymətləndirmək üçün şkala), tapşırıqlar | 1 | Oktyabr |
| 2.1.1 | | 6. Cənubi Amerikanın relyefi | | Dərslik, Cənubi Amerikanın fiziki xəritəsi | Rubriklər (nailiyyət səviyyələrini qiymətləndirmək üçün şkala), tapşırıqlar | 1 | |
| 2.1.1<br>2.1.2 | | 7. Afrikanın relyefi | Riy.5.1.1. | Dərslik, Afrikanın fiziki xəritəsi | Rubriklər (nailiyyət səviyyələrini qiymətləndirmək üçün şkala), tapşırıqlar çalışmalar) | 1 | |
| 2.1.1<br>3.2.3 | | 8. Avstraliyanın relyefi | Riy.1.2.5. | Dərslik, Avstraliyanın fiziki xəritəsi | Rubriklər (nailiyyət səviyyələrini qiymətləndirmək üçün şkala), tapşırıqlar çalışmalar) | 1 | |
| 2.1.2 | | 9. Azərbaycanın relyefi və tektonik | | Dərslik, Azərbaycanın fiziki xəritəsi | Rubriklər (nailiyyət səviyyələrini qiymətləndirmək üçün şkala), tapşırıqlar çalışmalar) | 1 | |
| Kiçik summativ qiymətləndirmə | | | | | | 1 | |

LAYİHƏ

## ÜMUMİ TƏLİM FƏALİYYƏTİ BACARIQLARI, VƏRDİŞLƏRİ VƏ QABİLİYYƏTLƏRİ

Əsas təhsilin məzmununun mənimsənilməsi nəticəsində şagird öz bilik, bacarıq və vərdişlərini təkmilləşdirmək, onların dairəsini genişləndirmək imkanı əldə etməlidir. Bu, məktəblilərin inkişafı və ictimai həyata inteqrasiyası üçün zəruri şərtdir.

***Dərketmə fəaliyyəti***
***(şagirdlərin təfəkkür qabiliyyətinin inkişaf etdirilməsi)***

Aşağıdakı fəaliyyət növləri şagirdlərdə idrak prosesini təkmilləşdirməyə xidmət edir:

– Ətraf mühitin dərk edilməsi üçün müxtəlif üsullardan – müşahidə, ölçmə, təcrübə, eksperiment, modelləşdirmə və s. istifadə edilməsi.
– Hər hansı obyekti öyrənərkən onun quruluşu, müxtəlif hissələri arasında əlaqə və münasibətlərin müəyyən edilməsi. Bu zaman prosesi mərhələlərə bölmək və səbəb-nəticə əlaqələrini axtarmaq bacarığı xüsusi əhəmiyyət daşıyır.
– Verilən tapşırıqların həlli üçün şagirdlərin əvvəllər öyrəndikləri alqoritmlərə əsasən üsulları müəyyən etmək, konkret bir üsulun tətbiqi mümkün olmadıqda isə müxtəlif üsulların yaradıcı sintezini həyata keçirmək.
– Obyektlərin bir və ya bir neçə əlamətə görə müqayisəsi, qarşılaşdırılması, təsnifatı, sıralanması, həmçinin faktları, fikirləri, isbatı, nəzəriyyə və aksiomları fərqləndirmək.
– Sadə praktik vəziyyətlərin təhlili, nəzəri fikir yürütmək, onların təcrübədə yoxlanılması zərurətini anlamaq. Layihə yaradıcılığında iştirak etmək, praktik işlərdən istifadə, irəli sürülən nəzəriyyələrin sadə eksperimentlərini aparmaq, bu işlərin nəticələrini təqdim etmək.

***İnformasiya-kommunikasiya fəaliyyəti***
***(şagirdlərin ünsiyyət qurmaq qabiliyyətinin inkişaf etdirilməsi)***

Bu fəaliyyət aşağıdakı bacarıqların inkişaf etdirilməsinə xidmət edir:

– Dinlənilən mətni təlim materiallarının məqsədinə uyğun olaraq qısa və ya ətraflı şəkildə ifadə etmək qabiliyyəti.
– Müxtəlif səpkidə və janrda olan mətnləri sürətlə oxuyub-anlamaq, onların informativ və məzmun nöqteyi-nəzərdən təhlilini aparmaq.
– Müxtəlif oxu növlərindən istifadə (tanışlıq, nəzərdən keçirmə, axtarış və s.).
– Monoloji və dialoji nitqə malik olmaq. Nitq ünsiyyətinə girmək, dialoqda iştirak etmək (həmsöhbətinin fikrini anlayışla qarşılama, onunla əks olan başqa fikir yürütmə hüququnu etiraf etmək). Qulaq asdığı və oxuduğu informasiyanı verilən yığcamlıq dərəcəsində (qısa, seçkin, tam) uyğun (adekvat) formada ifadə edən yazılı mülahizələr yaratmaq. Plan, tezis, konspekt tərtib etmək. Nümunələr gətirmək, dəlillərin (arqumentlərin)

LAYİHƏ

seçilməsi, nəticələrin qısa ifadə edilməsi. Öz fəaliyyətinin nəticələrini şifahi və ya yazılı formada əks etdirmək.

– Öz fikrini başqa formada ifadə etmək (“öz sözləri ilə” izah etmək). Ünsiyyətin məqsədi və şəraitinə uyğun olaraq dilin ifadə vasitələri və işarələr sisteminin seçilməsi və istifadəsi.
– Dərketmə və ünsiyyət məqsədlərinə nail olmaq üçün ensiklopediyalar, lüğətlər, internet resursları və digər informasiya mənbələrindən istifadə etmək.

***Reflektiv fəaliyyət***
***(şagirdlərin şəxsi keyfiyyətlərinin inkişaf etdirilməsi)***

– Təlim fəaliyyətinin müstəqil təşkili (məqsədlərin çıxarılması, planlaşdırma, vasitələrin seçilməsi). Öz fəaliyyətinə nəzarət və onun qiymətləndirilməsi vərdişlərinə malik olmaq, öz fəaliyyətinin mümkün nəticələrini qabaqcadan görmək bacarığı. Çətinliklərin axtarılması və aradan qaldırılması.
– Birgə fəaliyyət göstərmək bacarığına yiyələnmək: fəaliyyətini onun digər iştirakçıları ilə razılaşdırmaq və əlaqələndirmək. Kollektivin ümumi vəzifələrinin yerinə yetirilməsində öz rolunu obyektiv qiymətləndirmək, müxtəlif rollarda (lider, tabe olan və s.) davranışın xüsusiyyətlərini nəzərə almaq.
– Öz fəaliyyətini əxlaqi, hüquqi normalar, estetik dəyərlər nöqteyi-nəzərindən qiymətləndirmək. Öz hüquqlarından istifadə, cəmiyyətin və təlim kollektivinin bir üzvü kimi vəzifələrini icra etmək.

LAYİHƏ

## DƏRSİN GÜNDƏLİK PLANLAŞDIRILMASININ METODİKİ CƏHƏTDƏN HAZIRLANMASI TEXNOLOGİYASI ÜZRƏ TÖVSİYƏLƏR

Müəllimin dərsə hazırlığı gündəlik dərs planını tərtib etməsindən başlayır. Dərsin konspektini tərtib etməzdən əvvəl bəzi hazırlıq işlərini görmək vacibdir:

1. Şagirdlərin hazırlıq səviyyəsini müəyyən etmək (diaqnostik və summativ qiymətləndirmələrin nəticələrini, şagirdlərin portfoliolarını nəzərdən keçirmək).
2. Mövzuda reallaşdırılacaq alt standartları tədqiq etmək və mövzuya aid zəruri metodik ədəbiyyatı toplamaq, müxtəlif mənbələrdən istifadə etməklə tədris olunacaq təlim materiallarını yada salmaq.
3. Dərsdə gözlənilən təlim nəticələrini çıxarmaq, bunun üçün şagirdlərin mənimsəməli olduqları yeni məlumatları, anlayışları, qanunları, qanunauyğunluqları müəyyən etməli.

*Dərs konspektinin planı:*

1. Sinif
2. Alt standart
3. Dərsin mövzusu
4. Təlim nəticələri (dərsin məqsədləri)
   a) öyrədici b) inkişafetdirici c) tərbiyəedici
5. Təchizat (təlim vasitələri) və resurslar
6. İnteqrasiya
7. Təlim üsulları (metodları)
8. Dərsdə təlim fəaliyyəti formaları
9. Dərsin gedişi
   9.1. Motivasiya. Problemin qoyuluşu
   9.2. Tədqiqatın aparılması
   9.3. Məlumat mübadiləsi
   9.4. Ümumiləşdirmə və nəticənin çıxarılması
   9.5. Yaradıcı tətbiqetmə
   9.6. Qiymətləndirmə və refleksiya

**Dərsin bəzi mərhələlərinin qısa izahı:**

• ***Təlim nəticələrinin müəyyən edilməsi.*** Təlim nəticəsi tədris prosesinin nəticəsi olub dərsin sonunda əldə olunacaq şagird nailiyyətləridir. Deməli, müəllim təlim nəticələrini müəyyən etməklə şagirdin dərsin sonunda əldə edəcəyi bilik və bacarıqları planlaşdırır. Təlim nəticələri bir sıra suallara cavab verməlidir:

– Dərs şəxsiyyətin inkişafına hansı səmərəni verməlidir?
– Şagirdin inkişafı üçün baza rolunu oynayacaq hansı biliklər mənimsənilməlidir?
– Bu biliklərə əsaslanan hansı bacarıqları formalaşdırmaq lazımdır?

Təlim nəticələri konkret, aydın, bir dərs ərzində reallaşdırılması mümkün olan; yoxlanıla bilən (ölçülə bilən) olmalıdır, yəni təlim nəticələrinə nail olunmasını yoxlamaq üçün vasitə və imkanlar mövcud olmalıdır. Məsələn:

LAYİHƏ

| Düzgün deyil | Düzgündür |
|---|---|
| 1. Şagirdlərə yaş-cins piramidasının necə qurulmasını izah etmək (*bu, şagirdin deyil, müəllimin məqsədidir*). | Statistik məlumatlardan istifadə edərək respublikanın yaş-cins piramidasını tərtib edir. |
| 2. Şimali Amerikanın relyefini təsvir edir *(konkretlik prinsipi pozulmuşdur).* | Şimali Amerikanın dağ silsilələrini və düzənliklərini sadalayır. |
| 3. Ölkələri müəyyən əlamətlərinə görə qruplaşdırır *(konkretlik prinsipi pozulmuşdur).* | Asiya ölkələrini dövlət quruluşuna görə qruplaşdırır. |
| 4. Kartoqrafik vərdişlər formalaşdırmağı davam etdirmək (*konkretlik, yoxlanılmanın mümkünlüyü prinsipləri və bir dərs müddətində nəticənin reallaşdırılması prinsipləri pozulmuşdur).* | Türk dövlətlərini xəritədə göstərir. |

Təlim nəticələri müəyyən edilərkən şagirdin nəticədə əldə edəcəyi **ümumi təlim bacarıqları, vərdişləri və qabiliyyətləri** nəzərə alınmalıdır. Təlim nəticələri özündə 3 cəhəti birləşdirməlidir: *öyrədici, inkişafetdirici* və *tərbiyəedici.*

*Öyrədici* (təlim məqsədləri) – yeni faktlarla tanış olur, yeni anlayışları, qanun və qanunauyğunluqları öyrənir;

*İnkişafetdirici* (inkişafetdirici məqsəd) – ümumi olaraq bir neçə hissəyə bölmək olar:

a) Nitqin inkişafı: dilin bədii, obrazlı ifadə xüsusiyyətlərinə yiyələnmək.

b) Təfəkkürün inkişafı. Bu, təhlil etməyi, əsas cəhəti ayırmağı, müqayisə etməyi, analogiya (uyğunluq) qurmağı, ümumiləşdirmək və sistemləşdirməyi, isbat etmək və inkar etməyi, anlayışları müəyyən etməyi və izah etməyi, problem qoymaq və həll etməyi və s. bacarmaq deməkdir.

c) Kommunikativ (ünsiyyət) vərdişlər.

*Tərbiyəedici* (tərbiyəvi məqsəd) – dərs şagirdlərdə çoxlu sayda şəxsi keyfiyyətin yaranmasına imkan verir. Dərsdə tərbiyəedici məqsədi müəyyən etməklə müəllim şagirdlərdə ətraf mühitlə əxlaqi münasibətlərin əsasını qoymağa və inkişaf etdirməyə nail olur. Bu, əməyə, cəmiyyətə, vətənə və insanlara olan münasibətdir. Təlim nəticələri dərsin konspekti tərtib olunmazdan əvvəl müəyyən edilməlidir. Təlim nəticələrinə əsasən dərsin quruluşu, fəaliyyət xətləri və şagirdlərə verilən tapşırıq növləri müəyyən olunur.

- ***Təchizat (təlim vasitələri) – resurslar.***

Təlim vasitələri dedikdə, dərs prosesini anlaşılan, əyani formada, səmərəli təşkil etmək üçün lazım olan obyektlər, əşyalar, cihazlar və s. kompleksi başa düşülür. Məktəb coğrafiyası üçün təlim vasitələrinə daxildir:

| Verbal – informativ | Əyani | Audiovizual |
|---|---|---|
| Metodik vəsaitlər<br>Dərsliklər<br>Dərs vəsaitləri | Xəritələr, şəkillər, paylayıcı materiallar, cədvəllər, diaqramlar, çertyojlar, sxemlər, qrafiklər, modellər, kolleksiyalar, herbarilər | Kompüter proqramları<br>Videofilmlər<br>Televiziya verilişləri |



LAYİHƏ

• ***Təlim üsulları.*** Təlim üsulları müəllim və şagirdlərin qarşıya qoyulan məqsəd və vəzifələrin yerinə yetirilməsinə yönəldilən birgə fəaliyyətinin üsullarıdır. Təlim üsulları aşağıdakılardır:

| № | METOD | Üsullar |
|---|---|---|
| 1. | Beyin həmləsi | o “Beyin həmləsi” və ya “Əqli hücum” (Brainstorming)<br>o BİBÖ (KWL)<br>o Auksion (Auction)<br>o Klaster (Cluster)<br>o Suallar (Questioning)<br>o Anlayışın çıxarılması<br>o Söz assosiasiyaları<br>o Sinektika |
| 2. | Müzakirələr | o Diskussiya (Discussion)<br>o Çarpaz müzakirə (Debate)<br>o Müzakirə xəritələri (Discussion map)<br>o Klassik dialoq<br>o “Akvarium”<br>o Açıq iclas (Forums)<br>o Dairəvi müzakirə |
| 3. | Rollu oyunlar | o Rollu oyun (Role play)<br>o Modelləşdirmə (Simulation)<br>o İşgüzar oyunlar (Business play)<br>o Səhnələşdirmə (Dramatize) |
| 4. | Prezentasiyalar | o Təqdimatlar (Demonstration)<br>o Ekspert qrupu (Panels)<br>o Esse (Esse) |
| 5. | Tədqiqatın aparılması | o Problemin həlli (Problem solving)<br>o Kublaşdırma (The cube)<br>o Konkret hadisənin tədqiqi (Case study)<br>o Venn diaqramı (Venn diagram)<br>o Layihələrin hazırlanması (Projects)<br>o Sosioloji sorğu (Sorğu vərəqləri)<br>o Müsahibə (Interview)<br>o “Qərarlar ağacı”<br>o “İdeyalar xalısı”<br>o Refleksiya (Reflection)<br>o Komitələr (Committees or Task Force) |
| 6. | Məntiqi təfəkkür proseslərinin inkişafına yönəldilmiş metodlar | o “Alqoritmin çıxarılması – analizdən sintezə”<br>o “Ən mühümü”<br>o “Tapşırıqlar qrupu üçün süjet əsasının yaradılması” |

LAYİHƏ

| | | |
|---|---|---|
| | | o Qaydalara əsasən oyunlar: oyun-tapmaca, oyun-yarış<br>o Alqoritm üzrə təsvir (zəncirlər) |
| 7. | Tənqidi təfəkkür proseslərinin inkişafına yönəldilmiş metodlar | o Meyar üzrə qiymətləndirmə<br>o Ambivalent qiymətləndirmə<br>o Cisim və ya hadisəyə müxtəlif nöqteyi-nəzərdən baxılması (Viewpoint) |
| 8. | Yaradıcılığa yönəldilmiş metodlar | o Yaradıcı əsərlərin yaradılması<br>o Əşyaların qeyri-adi istifadəsi<br>o Proqnozlaşdırma (Prognosis)<br>o Atalar sözləri üzrə iş<br>o Fantaziyanın binomu<br>o Sərbəst prefiks (ön şəkilçi)<br>o Fantaziyanın polinomları<br>o Fokal obyektlərin metodu<br>o Morfoloji analiz (Morfoloji qutu, təkmilləşdirmə)<br>o Sinektika |
| 9. | Təşkilati metodlar | o Ziqzaq və ya Mozaika (Jigsaw Puzzle)<br>o Karusel (Carousel) |
| 10. | Qruplara bölünmə | o “Say”<br>o “Ad günləri sırası üzrə say”<br>o “Ümumi xüsusiyyət”<br>o “Püşkatma”<br>o “Mozaika”<br>o Sosiometrik üsul<br>o “Mahnı axtarışında” |
| 11. | Fəallaşdırma | o Müsbət iş iqliminin yaranmasına imkan yaradan oyunlar (Climate setters)<br>o Buz əridən oyunlar (Ice breakers)<br>o Fəallaşdırma oyunları (Energizers) |

• ***İnteqrasiya.*** Dərsin konspekti tərtib edilərkən metodik vəsaitdə verilən inteqrasiya cədvəlindəki məlumatlardan istifadə etmək olar.

• ***Dərsdə təlim fəaliyyətinin formaları.*** Bu, müəllim və şagird, həmçinin şagirdlər arasında ünsiyyətin xarakteridir. Təlim fəaliyyəti frontal (kollektiv), fərdi, qrup və cütlər formalarına ayrılır. Əvvəllər coğrafiyanın tədrisində daha çox frontal iş tətbiq olunurdusa, hazırda coğrafiya dərslərində qrup və cütlər formalarının tətbiqinin genişlənməsi müşahidə olunur.

LAYİHƏ

- ***Dərsin gedişi***

| Dərsin quruluşu | Müəllimin fəaliyyəti | Şagirdlərin fəaliyyəti |
|---|---|---|
| 1 | 2 | 3 |
| Motivasiya/tədqiqat sualının qoyulması | Şagirdlərin fəallaşması, təlim maraqlarının artırılması üçün şərait yaradır, bilik səviyyəsini aşkara çıxarır, səciyyəvi çatışmazlıqları müəyyən edir (formalar, metodlar qeyd olunur). Tədqiqat üçün tapşırıqlar hazırlanır (onların aparılması formaları və metodları qeyd olunur). | Dərsdə tədqiq olunacaq sual qoyulur, məqsədlər müəyyənləşdirilir, mövzu dəqiqləşdirilir (şagirdlərin konkret fəaliyyəti qeyd olunur). |
| Tədqiqatın aparılması | Yeni materialın izahı (aparılma forması və üsulu yazılır). | Tədqiqat aparılır: cədvəl doldurulur, obyektlər kontur xəritəyə köçürülür, atlas, dərslik, əlavə ədəbiyyat və s. üzərində iş gedir. Tədqiqatın nəticələri qeyd olunur. Material izah olunarkən vacib hissələr dəftərlərdə qeyd edilir. (şagirdlərin konkret fəaliyyəti qeyd olunur). |
| Məlumatın mübadiləsi və müzakirəsi | Məlumat mübadiləsi və müzakirəsini təşkil edir (aparılma forma və metodları qeyd olunur). | Tədqiqatın nəticələrini təqdim edirlər (şagirdlərin konkret fəaliyyəti qeyd olunur). |
| Ümumiləşdirmə və nəticə | Məlumatın ümumiləşdirilməsini təşkil edir (aparılma forma və metodları qeyd olunur), şagirdləri müvafiq nəticələr çıxarmağa istiqamətləndirir. | Nəticə çıxarırlar, dərsin əvvəlində irəli sürülmüş nəzəriyyələri yeni mənimsənilən informasiya ilə müqayisə edirlər (şagirdlərin konkret fəaliyyəti qeyd olunur). |
| Yaradıcı tətbiqetmə | Analiz və sintezetmə bacarıqları tələb olunan müxtəlif tapşırıqlar hazırlayır (aparılma forma və metodları qeyd olunur). | Müstəqil işləyirlər, işlərin təqdimatını aparırlar (şagirdlərin konkret fəaliyyəti qeyd olunur). |
| Qiymətləndirmə və refleksiya | Qiymətləndirmə aparır və refleksiyanı təşkil edir (aparılma forma və metodları qeyd olunur). | Öz təlim fəaliyyətlərini qiymətləndirirlər, məqsəd və nəticələri müqayisə edir, onların bir-birinə nə dərəcədə uyğun olduğunu yoxlayırlar (şagirdlərin konkret fəaliyyəti qeyd olunur). |

LAYİHƏ

# GÜNDƏLİK PLANLAŞDIRMA NÜMUNƏSİ

**Dərsin mövzusu: Sivilizasiyaların tarixi-coğrafi inkişafı**

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 1.1.1. Sivilizasiyaları coğrafi baxımdan təhlil edir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • "Sivilizasiya" anlayışını izah edir.<br>• Qədim və müasir sivilizasiyaları sadalayır və onların yayıldığı regionları xəritədə göstərərək coğrafi baxımdan təhlil edir. |
| **TƏLİM FORMALARI** | fərdi, cütlər |
| **TƏCHİZAT** | Dərslik, Dünyanın siyasi xəritəsi |
| **ÜSULLAR** | Cədvəlin tamamlanması, mətn üzərində iş (əsas ideyaların müəyyən edilməsi), xəritə üzərində iş |
| **FƏNLƏRARASI İNTEQRASİYA** | Ü.t.5.1.1. Ü.t.5.1.2. |

**Dərsin gedişi**

<table>
<tr><th></th><th>Müəllimin fəaliyyəti</th><th>Şagirddən gözlənilən fəaliyyət</th></tr>
<tr><td>Motivasiya</td><td>1. Şagirdlərin diqqətini dərslikdəki şəklə cəlb etmək.<br>2. İstiqamətləndirici sualların köməyi ilə şagirdlərdə cəmiyyətin daim inkişaf etməsi ideyasını yaratmaq.</td><td>Şagirdlər şəklə baxır və bir neçəsi onu sözlə təsvir edir.</td></tr>
<tr><td>Tədqiqat</td><td>3. Şəkilaltı tapşırığı yerinə yetirməyi təklif etmək: "Anlayışları cəmiyyətin tarixi inkişafına uyğun olaraq qruplaşdırın".<br><br>4. Cədvəlin düzgün doldurulmasını yoxlamaq.<br><br>5. Sualı müzakirə etmək: "Sivilizasiya mərhələsi cəmiyyətin inkişafında hansı dəyişikliklərə səbəb oldu?"</td><td>Şagirdlər cütlər formasında işləyir və A4 ölçülü vərəqdə aşağıdakı cədvəli tamamlayırlar:<br><table><tr><th>Sivilizasiya-dan qabaq</th><th>Sivilizasiya</th></tr><tr><td>Yığıcılıq, daş silah, ovçuluq, heyvanlara sitayiş</td><td>dəmir qılınc, odlu silah, maldarlıq, qəbilə, əkinçilik, dulusçuluq, manufaktura, kağız</td></tr></table><br>Şagirdlərdən biri cütlərin gördüyü işin nəticələrini təqdim edir, digər şagirdlər isə öz işlərini yoxlayır.<br><br>İdeyalar irəli sürürlər.</td></tr>
</table>

LAYİHƏ

<table>
<tr>
<td>Tədqiqat</td>
<td>6. Tərtib edilən cədvəli və üzə çıxan ideyaları təhlil etməyi və “sivilizasiya” anlayışına tərif verməyi təklif etmək.<br><br>7. Şagirdlərlə birgə tapşırığı həll etmək:<br>Qədim sivilizasiya mərkəzlərinin təsvir olunduğu xəritəyə əsasən suallara cavab verin.<br><br>8. Rubriklərə əsasən qiymətləndirmə aparmaq (II meyara əsasən)<br>9. Dərslik mətni ilə işi təşkil etmək.</td>
<td>Cütlər şəklində işləyən şagirdlər cədvəlin altında “sivilizasiya” termininin tərifini yazırlar<br><br>Tapşırığı fərdi olaraq cədvəl şəklində tərtib edir və dəftərlərində çəkirlər.
<table>
<tr><th>Sivilizasiyanın yarandığı vaxt</th><th>Sivilizasiya</th><th>Müasir dövrdə oradakı dövlət</th></tr>
<tr><td>e.ə. IV minillik</td><td>Mesopotamiya, Misir</td><td>Misir</td></tr>
<tr><td>e.ə. III minillik</td><td>Hind, Krit</td><td>Hindistan</td></tr>
<tr><td>e.ə II minillik</td><td>Çin</td><td>Çin</td></tr>
<tr><td>e.ə. I minillik</td><td>Cənubi Amerika, Afrika</td><td>Çili, Peru</td></tr>
</table>
Mətni oxuyur və dəftərdə hər abzas üçün sivilizasiyaya aid fikirləri üzə çıxarır.<br>Fərdi işləyir və dəftərdə qeyd edirlər.<br>1-ci abzas: sivilizasiyalar əbədi deyil.<br>2: sivilizasiyalar müəyyən təbii landşaft daxilində formalaşır.<br>3: yaşadıqları təbii şərait xalqların həyat tərzinə təsir edir.<br>4: sivilizasiyalar tarix boyu bir-birinə təsir etmişdir.</td>
</tr>
<tr>
<td>Məlumat mübadiləsi və müzakirəsi</td>
<td>10. Tapşırığın yerinə yetirilməsini yoxlamaq. Şagirdlərdən dəftərə yazdıqları qeydləri oxumağı və onlara nümunələr gətirməklə bu fikirlərini əsaslandırmağı xahiş etmək.</td>
<td>Öz işlərini təqdim edirlər.</td>
</tr>
</table>

LAYİHƏ

| | | |
|---|---|---|
| **Ümumiləşdirmə və nəticənin çıxarılması** | 11. Şagirdlərə dərsin əvvəlində dəftərlərinə yazdıqları "siviliza-siya" anlayışının tərifini bir daha oxumağı və dərs prosesində aldıqları məlumatla tutuşduraraq dəftərdə qeyd etmələrini (4-5 cümlə ilə) tapşırmaq. | Dəftərdə işi yerinə yetirirlər, 1-2 şagird gördüyü işi təqdim edir. |
| **Yaradıcı tətbiqetmə** | 12. "Müzakirə edin" başlıqlı tapşırıq verilir. | Qruplarda işləyir və nəticəni təqdim edirlər. |
| **Qiymət-ləndirmə** | 13. Rubriklərə əsasən qiymətlən-dirmə aparmaq (I meyara əsasən) Qrup fəaliyyətinin qiymətləndirilməsi | Özünüqiymətləndirmə |

*Qiymətləndirmə meyarları: izahetmə, təhliletmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| "sivilizasiya" anlayışını çətinliklə izah edir. | Müəllimin istiqamət-ləndirici suallarının köməyi ilə "sivilizasi-ya" anlayışını izah edir. | "sivilizasiya" anlayışını müstəqil, lakin qeyri-dəqiq izah edir. | "sivilizasiya" anlayışını müstəqil olaraq tamamilə düzgün izah edir. |
| Qədim və müasir sivilizasiyaları sadalamaqda və onların yayıldığı regionları xəritə-də göstərərək coğrafi baxımdan təhlil etməkdə çətinlik çəkir. | Qədim və müasir si-vilizasiyaları müəllimin istiqamətləndirici sual-larının köməyi ilə sada-layır və onların yayıldığı regionları kö-məkliklə xəritədə gös-tərərək coğrafi baxım-dan zəif təhlil edir. | Qədim və müasir sivilizasiyaları sa-dalayaraq və onla-rın yayıldığı regi-onları xəritədə gös-tərib coğrafi baxımdan təhlil edərkən bəzi qeyri-dəqiqliklərə yol verir. | Qədim və müasir sivilizasiyaları səhvsiz sadalayır və onların yayıldığı regionları xəritədə göstərərək coğrafi baxımdan düzgün təhlil edir. |

***Qrup daxilində şagirdin şəxsi fəaliyyətinin qiymətləndirmə meyarları (özünüqiymətləndirmə):***

| Meyarlar | | Hə | Yox |
|---|---|---|---|
| 1 | İdeya verdim | | |
| 2 | İşi təqdim etdim | | |
| 3 | Digərlərinin irəli sürdüyü ideyalara diqqətlə qulaq asdım | | |
| 4 | İrəli sürdüyüm ideyaları əsaslandırdım | | |
| 5 | Razılaşmadığım digər ideyalara qarşı əsaslı dəlillər söylədim | | |
| 6 | Qrupdakı fəaliyyətimdən razı qaldım | | |



LAYİHƏ

## MƏTNLƏ İŞ ÜSULLARI

Müasir dövrdə məktəbdə coğrafiya fənninin məqsədi təkcə müəyyən coğrafi informasiyanı mənimsətmək deyil, həm də şagirdlərdə universal bacarıqlar olan kommunikativ, idraki, reflektiv bacarıqları formalaşdırmaqdır. Mətnlə aşağıda təsvir olunan iş üsulları bu bacarıqların formalaşdırılmasına yardım edir. Qeyd olunan üsulların tətbiqinə aid nümunələr metodik vəsaitdə dərslərin tədris materialları ilə iş texnologiyalarının şərhində verilmişdir.

1. **Seçmə oxu.** Mətnin ayrı-ayrı abzasları seçilərək nəzərdən keçirilir, yəni şagirdlərin diqqəti mətnin yalnız onlar üçün zəruri olan hissələrinə yönəldilir. Oxu üçün informasiyanın seçilməsi dərsin məqsədindən asılıdır.

2. **Mətni öz sözləri ilə danışma.**

3. **Mətnin planının tərtib edilməsi.** Plan sadə və ya mürəkkəb ola bilər. *Sadə plan* mətnin əsas hissələrinin siyahısıdır. Şagirdlər mətnin abzaslara bölünməsinə diqqət etməlidirlər. Hər abzasın məğzi qısa qeyd olunur. Onlar ardıcıllıqla dəftərə yazılır. Abzaslar həmişə mətnin məzmun bölgüsünü tam əhatə etmir. Şagirdlər mətnin hansı hissələrini birləşdirmək, hansı hissələrini ayırmağa diqqət etməlidirlər. Bunu mətnin həcminə diqqət etməklə həll etmək olar: adətən, böyük abzaslar bir neçə əsas fikri birləşdirir, kiçik abzaslar isə birlikdə vahid məzmun fraqmentinin yaranmasına tabe olur. *Mürəkkəb planın* tərtibi zamanı şagirdlər təkcə əsas hissələrin qısa icmalını vermir, həm də onları daha kiçik hissələrə bölərək məzmunu daha ətraflı ifadə edirlər.

4. **Konspekt tərtibetmə.** Mətnin məzmununun ifadə olunması. Konspektləşdirmə müxtəlif formalarda ola bilər:

   a) *xətti konspektləşdirmə.* Mətnin məzmununun tezislər şəklində qısa ifadəsi.
   b) *klaster qurulması.* Metodik ədəbiyyatda bu strategiyanın dərsin müxtəlif mərhələlərində, məsələn, motivasiyada, yaxud müəyyən mövzunu öyrəndikdən sonra ümumiləşdirmə və refleksiyada tətbiq edilməsi tövsiyə olunur. Lakin o, informasiyanın konspektləşdirilməsi üçün də səmərəlidir.
   c) *cədvəl formasında konspektin tərtibi.* Sual-cavab formasında tərtib edilir.
   d) *dayaq siqnallar əsasında konspekt tərtibi.* Dayaq siqnallar hər bir insanın beynində müəyyən şəxsi assosiasiyalar yaradan işarələr – simvollardır. Fərqli insanlar üçün bu işarələr fərqli ola bilər. Konspekt tutarkən bir çox sözlərin əvəzinə şəkil, sxem, simvol və ya işarələrdən istifadə olunur.
   e) *məntiqi konspektlərin tərtibi.* Burada mətnin aşağıdakı məzmun elementləri göstərilir: anlayış və onların əsas xassələri; səbəb-nəticə əlaqələri; səciyyələndirilən obyektlərin ümumi xüsusiyyətləri; hər hansı prosesin inkişaf istiqamətləri; iqtisadi-coğrafi obyektləri, hadisə və prosesləri səciyyələndirən ən vacib faktlar.

5. **Mətndə əsas sözlərin çıxarılması üsulu (açar sözlər, anlayışlar, terminlər).** *Əsas sözlər və söz birləşmələri təlim materialını yadda saxlamağa kömək edir.*

LAYİHƏ

Adətən, əsas sözlər mətndə yağlı şriftlə ayrılır. Bu sözlərin köməyi ilə mətnin əsas məzmununu bərpa etmək olar. Şagirdlər mətni oxuyaraq onları dəftərlərinə yazırlar. Şagirdlərə seçdirilmiş sözlər əsasında mətnin məzmununu danışmağı və ya lüğət tərtib etməyi tapşırmaq olar.

6. **Mətnə sualların hazırlanması:**

a) *ardıcıl suallar üsulu.* Bu üsulu cütlərlə həyata keçirmək daha məqsədəuyğundur. Şagirdlər növbə ilə öyrənilən mətni abzaslar üzrə ucadan oxuyurlar. Bir abzası oxuduqdan sonra ikinci şagird oxunan abzasa aid sual verir, birinci isə onları cavablandırır. Sonra onlar rollarını dəyişir. Sual verən şagird mətni oxumağa davam edir, ikinci isə oxunan abzasa aid ona suallar verir.

b) *Açar sözlər əsasında mətnə suallar hazırlamaq.* Bu üsulu da cütlərlə həyata keçirmək daha məqsədəuyğundur. Cütlərə daxil olan şagirdlər mətni növbə ilə abzaslar üzrə oxuyurlar. Birlikdə hər abzasda açar sözlər müəyyən edilir və dəftərə qeyd edilir. Sonra hər bir şagird fərdi olaraq bu sözlərə aid suallar tərtib edir və sualları öz dəftərinə yazır. Cütlərə daxil olan şagirdlər tərtib etdikləri sualları bir-birinə verməklə sorğu keçirirlər: növbə ilə şagirdlərdən biri sualı oxuyur, digəri isə onu cavablandırır.

c) *Mətndə anlaşılmayan fikirləri müəyyən etmək və onlara aid suallar hazırlamaq.*

7. **Mətndə səbəb və nəticə əlaqələrinin aşkar edilməsi.**




8. **İnformasiyanın müxtəlif təqdimetmə formalarından istifadə edərək mətnin dəyişdirilməsi.** Mətnin məzmununu sistemləşdirici və təsnifedici cədvəllərin, sxemlərin, qrafik və diaqramların köməyi ilə vermək.

9. **Mətndən nomenklaturanın kontur xəritəyə köçürülməsi.**

10. **Mətnin kontur xəritədə modelləşdirilməsi.**

11. **İNSERT.** “İnsert” sözünün ingilis dilindən tərcüməsi “səmərəli oxu və düşünmə üçün interaktiv qeydetmə sistemi” deməkdir. Onun tətbiqi bir neçə mərhələ üzrə aparılır.

*Birinci mərhələdə* şagirdlər mətnin nişanlanma sistemi ilə tanış olurlar. Dərsin məqsədindən, sinfin hazırlıq səviyyəsindən, şagirdlərin yaş xüsusiyyətindən asılı olaraq bu, müxtəlif cür aparıla bilər.

LAYİHƏ

"✓" qeyd işarəsi şagirdlərə məlum olan informasiya qarşısında qoyulur.

"–" işarəsi onlara məlum olan biliklərə zidd olan məlumatlar aşkar edildikdə qoyulur.

"+" işarəsi şagirdlər üçün maraqlı, yeni və gözlənilməz bir məlumat olduqda qeyd edilir.

"?" işarəsi aydın olmayan informasiya olduqda, nəyisə öyrənmək zərurəti yarandıqda qoyulur.

*İkinci mərhələdə* şagirdlər mətni oxuyaraq ayrı-ayrı abzas və cümlələri onların kənarında uyğun işarələrlə qeyd edirlər.

*Üçüncü mərhələdə* şagirdlər informasiyanı sistemləşdirir, öz sözləri ilə onu İNSERT cədvəlinə yazırlar.

| ✓<br>(məlumdur) | –<br>(əvvəlki biliklərimə ziddir) | +<br>(maraqlı və yeni məlumatdır) | ?<br>(aydın deyil, öyrənmək istərdim) |
|---|---|---|---|
| ... | ... | ... | ... |
| ... | ... | ... | ... |

*Dördüncü mərhələdə* şagirdlər ardıcıl olaraq cədvəlin hər qrafasını müzakirə edirlər.

12. **Mətn əsasında yaradıcılıq işləri:** rəsm çəkmə, kağız, gil, qum, plastilinlə müxtəlif konstruksiyalar qurma.

13. **Mətndə verilən informasiyanın praktik tətbiqi.**

14. **BİBÖ cədvəlinin doldurulması** ("Bilirəm – Bilmək istəyirəm – Öyrəndim"). Üsulun icra alqoritmi:

1. Lövhədə və dəftərlərdə cədvəl tərtib edilir:

| BİLİRƏM | BİLMƏK İSTƏYİRƏM | ÖYRƏNDİM |
|---|---|---|
| ... | ... | ... |
| ... | ... | ... |

2. Mətnlə tanış olmazdan qabaq şagirdlər müstəqil və ya qrup şəklində əvvəlcə "bilirəm", sonra isə "bilmək istəyirəm" sütunlarını doldururlar.
3. Mətni oxuyaraq və ya oxunanların müzakirəsi prosesində şagirdlər "Öyrəndik" sütununu doldururlar.
4. Nəticələrin çıxarılması, sütunların məzmununun tutuşdurulması.

Şagirdlərə əlavə olaraq daha iki sütunu – "informasiya mənbələri" və "nə anlaşılmadı" başlıqlı sütunları doldurmağı tapşırmaq olar.



LAYİHƏ

15. **Mətndəki materiallara uyğun cədvəl və sxemlərin tamamlanması.**
16. **Şərh olunan oxu.** Mətn oxunarkən izahat, mühakimə, fərziyyələr və şərhlərlə müşayiət olunur.
17. **Müqayisəli təhlil.** Tədqiq olunan iki və daha artıq obyektin (hadisə, proses) ümumi və fərqli əlamətlərinin aşkar edilməsi və tutuşdurulması üsulu.
18. **Özünənəzarət.** Mətnlə tanışlıqdan əvvəl müəyyən fərziyyələr yürüdülür və proqnozlar verilir. Mətnlə tanış olduqca proqnozlaşdırılan mülahizələr mətnlə yoxlanılır.

LAYİHƏ

## ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ PRİNSİPLƏRİ VƏ ÜSULLARI

Azərbaycan Respublikası təhsil nazirinin 28 dekabr 2018-ci il tarixli 8/2 qərarı əsasında Ümumi təhsil pilləsində təhsilalanların attestasiyasının (yekun qiymətləndirmə (attestasiya) istisna olmaqla) aparılması Qaydası təsdiq olunmuşdur.

Qiymətləndirmə təlim prosesinin ən mühüm mərhələlərindən biridir. Şagird nailiyyətlərinin qiymətləndirilməsi davamlı, dinamik, şəffaf olmalıdır.

Fənn kurikulumlarına görə, qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəldilir, onu idarə edən vacib amil kimi meydana çıxır. Məzmun standartlarının mənimsənilməsi səviyyəsini ölçmək üçün qiymətləndirmə standartları müəyyənləşdirilmişdir. Məktəbdaxili qiymətləndirmə *diaqnostik*, *formativ* və *summativ* qiymətləndirmələrdən ibarətdir.

**Diaqnostik qiymətləndirmə** dərs ilinin və ya fənn üzrə tədris resurslarında nəzərdə tutulmuş hər bölmənin əvvəlində aparılmaqla şagirdlərin bilik və bacarıqlarının, o cümlədən maraq və motivasiyasının ilkin qiymətləndirilməsi məqsədi ilə aparılır.

Diaqnostik qiymətləndirmədə tapşırıqvermə, müşahidə (müəllim tərəfindən şagirdlərin yeni mövzuya olan maraq səviyyəsinin müəyyən edilməsi) üsullarından istifadə olunur.

Diaqnostik qiymətləndirmənin nəticəsi ilə bağlı müvafiq yazılı qeydlər (nəticələrin qısa təsviri) təhsilalanın fərdi qovluğunda saxlanılır.

**Formativ qiymətləndirmə** təhsilalanın hər bir fənn üzrə təhsil proqramında (kurikulumda) müəyyənləşdirilmiş məzmun standartlarının mənimsənilməsinə yönəlmiş fəaliyyətlərini izləmək, bu prosesdə onun qarşısına çıxan çətinlikləri müəyyən edib onları aradan qaldırmaq məqsədi ilə aparılır. Formativ qiymətləndirmə şagird nailiyyətlərinin monitorinqi vasitəsilə tədrisin düzgün istiqamətləndirilməsinə xidmət edir. Müəllim formativ qiymətləndirmə vasitəsilə tədris prosesini tənzimləyir, şagirdlər tərəfindən məzmunun mənimsənilməsinə kömək edir.

Formativ qiymətləndirmə zamanı tapşırıqvermə, müşahidə (müəllim tərəfindən şagirdlərin yeni mövzuya olan maraq səviyyəsinin müəyyən edilməsi) üsullarından istifadə olunur.

***Formativ qiymətləndirmədə istifadə olunan metod və vasitələr***

| Metodlar | Vasitələr |
|---|---|
| Müşahidə | Müşahidə vərəqləri |
| Şifahi sual-cavab | Şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi |
| Tapşırıqvermə | Çalışmalar |
| Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq | Söhbət, sorğu vərəqi (şagirdin evdə və ya məktəbdəki fəaliyyəti ilə bağlı suallar yazılmış vərəq) |
| Oxu | Dinləmə üzrə qeydiyyat vərəqi |
| | Oxu üzrə qeydiyyat vərəqi |
| Yazı | Yazı bacarıqlarının inkişafı üzrə qeydiyyat vərəqi |

LAYİHƏ

| | |
|---|---|
| Layihə | Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəy-yən olunmuş meyar cədvəli |
| Rubrik | Nailiyyət səviyyələri üzrə qiymətləndirmə şkalası |
| Şifahi və yazılı təqdimat | Meyar cədvəli |
| Test | Test tapşırıqları |
| Özünüqiymətləndirmə | Özünüqiymətləndirmə vərəqləri |

Formativ qiymətləndirmənin nəticəsi ilə bağlı “Müəllimin formativ qiymətləndirmə dəftəri”ndə və “Məktəbli kitabçası”nda müvafiq yazılı qeydlər aparılır.

Müəllim dərs ilinin yarımillərinin sonunda “Müəllimin formativ qiymətləndirmə dəftəri”ndəki qeydlər əsasında təhsilalanın yarımillik fəaliyyətinin qısa təsvirini hazırlayır və həmin təsvir təhsilalanın ümumi təhsil müəssisəsindəki fərdi qovluğunda saxlanılır.

**Summativ qiymətləndirmə** hər bir fənn üzrə təhsil proqramında (kurikulumda) müəyyənləşdirilmiş məzmun standartlarının mənimsənilməsi ilə bağlı təhsilalanların əldə etdiyi nailiyyətlərin müəyyən olunması məqsədilə aparılır.

Summativ qiymətləndirmə aşağıdakı iki formada aparılır:

• hər bir fənn üzrə dərsliklərdə nəzərdə tutulmuş hər bölmənin daxilində və ya bölmənin sonunda keçirilən kiçik summativ qiymətləndirmə;

• hər yarımilin sonunda keçirilən böyük summativ qiymətləndirmə.

Summativ qiymətləndirmədə tapşırıqvermə üsulundan istifadə olunur.

Kiçik summativ qiymətləndirmə II-XI siniflərdə bütün fənlər üzrə hər yarımildə 3 dəfədən az 6 dəfədən çox olmamaqla müəllim tərəfindən aparılır. Hər fənn üzrə kiçik summativ qiymətləndirmələrin aparılacağı tarix haqqında məlumat tədris ilinin birinci həftəsi ərzində fənn müəllimi tərəfindən sinifdə təhsilalanlara elan olunur.

Hər bir fənn üzrə kiçik summativ qiymətləndirmə həmin fənnin tədris olunduğu 1 (bir) dərs saatı ərzində aparılır.

Kiçik və böyük summativ qiymətləndirmələr 100 ballıq şkala ilə ölçülür.

Summativ qiymətləndirmədə istifadə olunan qiymətləndirmə vasitələri (suallar) Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 13 yanvar tarixli 9 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası"nın tələbləri nəzərə alınmaqla hazırlanır. Suallar hər bir sinif və fənn üzrə 4 səviyyədə tərtib edilir. 1-ci səviyyə ən aşağı, 4-cü səviyyə isə ən yüksək səviyyəni əks etdirir. Suallar müxtəlif mürəkkəblik səviyyəsində hazırlanır. 1-ci və 2-ci səviyyəyə təhsilalanların əksəriyyətinin cavablandıra biləcəyi suallar aid edilir. 3-cü və 4-cü səviyyəyə daha hazırlıqlı şagirdlərin cavablandıra biləcəyi suallar aid edilir. Səviyyələr üzrə sualların qiymətləndirmə ballarının 100 ballıq şkalada bölgüsü aşağıdakı kimi nəzərdə tutulur:

– 1-ci səviyyə üzrə suallar qiymətləndirmənin 20%-ni (və ya 20 bal) təşkil edir;
– 2-ci səviyyə üzrə suallar qiymətləndirmənin 30%-ni (və ya 30 bal) təşkil edir;
– 3-cü səviyyə üzrə suallar qiymətləndirmənin 30%-ni (və ya 30 bal) təşkil edir;
– 4-cü səviyyə üzrə suallar qiymətləndirmənin 20%-ni (və ya 20 bal) təşkil edir.

Təhsilalanın summativ qiymətləndirmədə topladığı balların 2, 3, 4, 5 qiymətlərinə uyğunluğu aşağıdakı qaydada müəyyənləşdirilir (Qaydalar 4.19-ci bənd):

LAYİHƏ

| Bal aralığı | Qiymət |
|---|---|
| [0-30] | 2 (qeyri-kafi) |
| (30-60] | 3 (kafi) |
| (60-80] | 4 (yaxşı) |
| [80-100] | 5 (əla) |

**Yarımillik və illik qiymətlərin hesablanması**

Təhsilalanların kiçik və böyük summativ qiymətləndirmələrdə topladığı ballar əsasında yarımillik ballar hesablanır. Yarımillik balının 2, 3, 4 və ya 5 qiymətlərinə uyğunluğu bu Qaydanın 4.19-cu bəndinə müvafiq olaraq müəyyənləşdirilir. Yarımillik balların miqdarı və onların uyğunlaşdırıldığı qiymət sinif jurnalı və "Məktəbli kitabçası"nda yazılır.

Böyük summativ qiymətləndirmə aparılmayan fənlər üzrə yarımillik bal kiçik summativ qiymətləndirmələrdə toplanmış ballar əsasında aşağıdakı kimi hesablanır:

$$Y = \frac{ksq_1 + ksq_2 + \cdots + ksq_n}{n}$$

Y- təhsilalanın yarımillik üzrə balını;

$ksq_1, ksq_2, \ldots, ksq_n$ – hər kiçik summativ qiymətləndirmədə toplanmış balların miqdarı;

$n$ – kiçik summativ qiymətləndirmələrin sayını bildirir.

Böyük summativ qiymətləndirmə aparılan fənlər üzrə yarımillik bal kiçik və böyük summativ qiymətləndirmələrdə toplanılan ballar əsasında aşağıdakı kimi hesablanır:

$$Y = \frac{ksq_1 + ksq_2 + \cdots + ksq_n}{n} \cdot \frac{40}{100} + BSQ \cdot \frac{60}{100}$$

BSQ – hər yarımillik üzrə aparılan böyük summativ qiymətləndirmədə toplanmış balların miqdarı.

Təhsilalanın illik balları onun yarımillik ballarının ədədi ortası kimi hesablanır və illik balın 2, 3, 4 və ya 5 qiymətlərinə uyğunluğu bu Qaydanın 4.19-cu bəndinə müvafiq olaraq müəyyənləşdirilir. Qiymət sinif jurnalı və "Məktəbli kitabçası"nda yazılır.

İllik qiymətləndirmənin nəticələrinə əsasən təhsilalanların sinifdən-sinfə keçirilməsi Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilən qaydalarla tənzimlənir.

LAYİHƏ

# MÖVZULAR ÜZRƏ TƏLİM MATERİALLARI İLƏ İŞ TEXNOLOGİYASININ ŞƏRHİ

## Dərs 1 / Mövzu 1: COĞRAFİ İNFORMASİYANIN TƏQDİMOLUNMA ÜSULLARI

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 1.3.1. Kartoqrafik təsvirlərin cəmiyyətin inkişafında əhəmiyyətini izah edir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Müxtəlif üsullardan istifadə edərək coğrafi informasiyanı təqdim edir.<br>• Xəritə-sxemi, kartoqramı, kartodiaqramı oxuyur və fərqləndirir.<br>• Coğrafiya xəritələri, xəritə-sxem, kartoqram, kartodiaqramların informasiyanın təqdim olunması vasitəsi kimi ərazinin öyrənilməsi və mənimsənilməsində rolunu izah edir. |

A Dərsi "İnformasiya nədir? İnformasiya necə ötürülür?" sualının müzakirəsi ilə başlamaq olar.

**Şəkil üzrə iş**

1. Mətn və şəkillər arasında əlaqəni müəyyən edin:


Kainatın yaranması


Yerdə bitkilər aləminin yaranması


Yerin planet kimi formalaşması


Buzlaşma dövrü


Elektrik stansiyalarının inşası


İnsan qəbilələrinin formalaşması


Kosmosun fəthi


Göydələnlərin inşası

2. Təsvirlərə uyğun gələn dövrləri müəyyən edib cədvəli tamamlayın.

| Dövr | Dövrlərə uyğun hadisələr |
|---|---|
| Yüzillər | |
| Minillər | |
| Milyon illər | |
| Milyard illər | |

3. Yuxarıdakı təsvirlərdən hansılar diaqramdakı I, II, III və IV rəqəmlərinə uyğun gəlir?




**Müzakirə edin:**

– Yerin və cəmiyyətin yaşı haqqında informasiya hansı dörd üsulla təqdim olunub?

LAYİHƏ

1) Verilən şəkillər yuxarıdakı mətni əyani əks etdirir.
2) Cədvəli doldurarkən şagirdlərə əlavə misallar yazmağı da tapşırmaq olar.

| Dövr | Dövrlərə uyğun hadisələr |
|---|---|
| Yüzillər | Elektrik stansiyalarının tikintisi; Göydələnlərin tikilməsi; Kosmosun fəthi |
| Minillər | Buzlaşma dövrü; İnsan qəbilələrinin yaranması |
| Milyon illər | Yerdə bitkilərin əmələ gəlməsi Yerin planet kimi formalaşması |
| Milyard illər | Kainatın yaranması |

3) Tapşırıqda diaqram vasitəsilə təqdim olunan informasiyanın düzgün oxunması tələb olunur. Burada 2-ci tapşırıqda cədvəl formasında verilmiş coğrafi informasiya diaqram formasına çevrilmişdir. Diaqramla verilmiş informasiya isə yenidən aşağıdakı kimi cədvələ çevrilə bilər.

| | |
|---|---|
| 1 | Elektrik stansiyalarının tikintisi; Göydələnlərin tikilməsi; Kosmosun fəthi; Kənd təsərrüfatının inkişafı |
| 2 | Yerdə bitkilərin əmələ gəlməsi; Buzlaşma dövrü; İnsan qəbilələrinin yaranması |
| 3 | Yerin planet kimi formalaşması |
| 4 | Kainatın yaranması |

Yerin və cəmiyyətin yaşı haqqında informasiya 4 üsulla təqdim edilmişdir: mətn, şəkil (fotoşəkil), cədvəl və diaqram şəklində.

**B** Mətnlə iş zamanı şagirdlər İNSERT üsulunu tətbiq edə və ya məntiqi zəncirlər (ardıcıllıq yaratma) üsulundan istifadə edərək mətni aşağıdakı kimi sxemə çevirə bilərlər.

Peyklərin, çöl tədqiqatlarının, meteoroloji stansiyalardakı tədqiqatların və s. köməyi ilə informasiyanın *toplanması*

→

Kompüter proqramlarının və s. köməyi ilə laboratoriyalarda informasiyanın *təhlili*

↓

İnformasiyanın *təqdim olunması.* *Üsullar:* Qrafiklər, sxemlər, diaqramlar, cədvəllər, fotoşəkillər, mətn, coğrafiya xəritələri, xəritə-sxemlər, kartoqramlar,

**C Şəkil üzrə iş 2.**

– Göstərilən təsvirlərdən hansı ərazini daha dəqiq əks etdirir? (*xəritə*)
– Hansı təsvirlər daha böyük ərazini əhatə edir? *(kosmik şəkillər daha böyük əraziləri əhatə edir)*

LAYİHƏ

**Müzakirə edin:**

– Ərazini daha ətraflı öyrənmək üçün göstərilən hansı təsvirdən istifadə edərdiniz? (*ərazi haqqında informasiya əldə etmək üçün hər üç təsvirdən istifadə olunmalıdır) Kosmik şəkil ərazinin fəzada mövqeyi haqqında təsəvvür formalaşdırır; Aerofotoşəkillər ərazi haqqında daha ətraflı informasiya almağa imkan verir; Xəritələrdən coğrafi obyektlərin adlarını öyrənmək, lazımi hesablamalar aparmaq və s. mümkündür.*

**D Biliklərin tətbiq edilməsi və yoxlanılması**

1. Göstərilən coğrafi informasiyaların təqdimolunma formalarını dəftərinizə yazın və mövzudakı məlumatlardan istifadə edərək onların daha dörd üsulunu əlavə edin (1:*mətn; 2:şəkil; 3:cədvəl; 4:qrafik; 5:xəritə; 6:kartoqram; 7:xəritə-sxem; 8:kartodiaqram.)*
2. Şəkildəki uşaqların rastlaşdığı təsvir üsulu hansıdır? *(Xəritə-sxem)*.
3. Mövzuda verilən kartodiaqramdan istifadə edərək göstərilən dairələrin ölçülərini nəzərə almaqla suallara cavab verin.

a) Hansı sənaye sahələri hər iki şəhərdə inkişaf edib? (*yeyinti sənayesi, yüngül sənaye)*
b) Şəhərlərdən hansı yüngül sənaye üzrə ixtisaslaşmışdır? *(ikisi də)*
c) Xaçmazda, yoxsa Qusarda sənaye sahələri daha güclü inkişaf etmişdir? *(Xaçmazda)*

*Qiymətləndirmə meyarları: informasiya təqdimetmə, fərqləndirmə, izahetmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müxtəlif üsullardan istifadə etməklə coğrafi informasiyanı çətinliklə təqdim edir. | Coğrafi informasiyanın təqdim olunmasının müxtəlif üsullarını sadalayır, lakin tətbiq edə bilmir. | Müxtəlif üsullarla coğrafi informasiyanı təqdim edərkən qeyri-dəqiqliyə yol verir. | Müxtəlif üsullardan istifadə etməklə coğrafi informasiyanı səhvsiz təqdim edir. |
| Xəritə-sxemi, kartoqramı, kartodiaqramı çətinliklə fərqləndirir. | Xəritə-sxemi, kartoqramı, kartodiaqramı müəllimin köməyilə fərqləndirir. | Xəritə-sxemi, kartoqramı, kartodiaqramı fərqləndirərkən qeyri-dəqiqliyə yol verir. | Xəritə-sxemi, kartoqramı, kartodiaqramı səhvsiz fərqləndirir. |
| Coğrafiya xəritələri, xəritə-sxem, kartoqram, kartodiaqramların informasiyanın təqdim olunması vasitəsi kimi ərazinin öyrənilməsi və mənimsənilməsində rolunu çətinliklə izah edir. | Coğrafiya xəritələri, xəritə-sxem, kartoqram, kartodiaqramların informasiyanın təqdim olunması vasitəsi kimi ərazinin öyrənilməsi və mənimsənilməsində rolunu müəllimin köməyilə izah edir. | Coğrafiya xəritələri, xəritə-sxem, kartoqram, kartodiaqramların informasiyanın təqdim olunması vasitəsi kimi ərazinin öyrənilməsi və mənimsənilməsində rolunu izah edərkən qeyri-dəqiqliyə yol verir. | Coğrafiya xəritələri, xəritə-sxem, kartoqram, kartodiaqramların informasiyanın təqdim olunması vasitəsi kimi, ərazinin öyrənilməsi və mənimsənilməsində rolunu səhvsiz izah edir. |

LAYİHƏ

## Dərs 2 / Mövzu 2: TOPOQRAFİK XƏRİTƏLƏRİ NECƏ OXUMALI

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 1.3.2. Kartoqrafik elementlər əsasında topoqrafik xəritələri oxuyur. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Kartoqrafik elementləri fərqləndirir.<br>• Topoqrafik xəritələri oxuyur. |

**A Şəkil üzrə iş**

– "Sən burada nə yazıldığını oxuya bilərsənmi?"
– Burada ki heç nə yazılmayıb, ancaq şəkil çəkilib... Bunu necə oxumaq olar?



**Müzakirə edin:**

"Xəritəni oxumaq" olarmı? Əgər olarsa, bunu necə etmək olar?

*Topoqrafik xəritələrin oxunması xəritədə verilən şərti işarələri başa düşmək, burada təsvir olunan ərazi haqqında aydın təsəvvür yaratmaq deməkdir. Yəni şərti işarələri bir-biri ilə əlaqədə nəzərdən keçirmək lazımdır, çünki xəritənin yalnız belə formada oxunması ərazinin ümumi səciyyəsi barədə düzgün təsəvvür yarada bilər.*

**B** Dərslikdə verilən mətnlə işi izahedici oxu üsulu ilə təşkil etmək məqsədəuyğun olar.

**D Biliklərin tətbiq edilməsi və yoxlanılması.**




1. Şagirdlərə blokdakı tapşırığı verməzdən əvvəl onun yerinə yetirilməsi üçün lazım olan şərti işarələri təkrar etmək faydalı olar. Tapşırığı bütün siniflə yerinə yetirmək daha məqsədəuyğundur. Şagirdlərə fərdi iş üçün verilmiş paylayıcı material nümunəsindəki, yaxud oxşar tapşırıqlar vermək olar.

2. Topoqrafik xəritədə buraxılmış iki səhvi müəyyən edin.

1) Topoqrafik xəritələrdə bitki örtüyü yaşıl rənglə göstərilməlidir. Dərslikdə verilən xəritədə isə rəng düzgün verilməyib.
2) Nöqtə 150,3 m səhv verilib. Bataqlıq və gölün mütləq hündürlüyü 140 m-dən azdır.

LAYİHƏ

# ŞƏRTİ İŞARƏLƏR






LAYİHƏ

*Paylayıcı material nümunəsi*

Tapşırıq. A məntəqəsindən B məntəqəsinə qədər marşrut xəttini təsvir edin. Planın miqyası 1:100 000




*Qiymətləndirmə meyarları: fərqləndirmə, topoqrafik xəritəni oxuma*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Kartoqrafik elementləri çətinliklə fərqləndirir. | Kartoqrafik elementləri müəllimin köməyi ilə fərqləndirir. | Kartoqrafik elementləri fərqləndirərkən qeyri-dəqiqliyə yol verir. | Kartoqrafik elementləri düzgün fərqləndirir. |
| Topoqrafik xəritələri çətinliklə oxuyur. | Şərti işarələri sadalayır, lakin topoqrafik xəritəni oxuya bilmir. | Topoqrafik xəritələri oxuyarkən qeyri-dəqiqliyə yol verir. | Topoqrafik xəritəni düzgün oxuyur. |

LAYİHƏ

# FƏSİL – 1

# RELYEF VƏ ONUN TƏSƏRRÜFATA TƏSİRİ

## FƏSİL ÜZRƏ REALLAŞDIRILACAQ ALT STANDARTLAR

2.1.1. Yer qabığında baş verən hadisə və proseslərin iqtisadi həyata təsirini dəyərləndirir.
2.1.2. Geoloji xəritələri oxuyur.
3.2.3. Təsərrüfat sahələrinin səciyyəsini verir.
3.2.5. Ətraf mühitin ekoloji vəziyyətini qiymətləndirir.

FƏSİL ÜZRƏ ÜMUMİ SAATLARIN MİQDARI: **7 saat**
KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ: **1 saat**

LAYİHƏ

## Dərs 3 / Mövzu 3: AVROPANIN RELYEFİ

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 2.1.1. Yer qabığında baş verən hadisə və proseslərin iqtisadi həyata təsirini dəyərləndirir.<br>3.2.5. Ətraf mühitdə yaranmış ekoloji vəziyyəti qiymətləndirir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Avropanın morfostruktur vahidlərini xəritədə göstərir.<br>• Avropanın regionlarının relyef xüsusiyyətlərini fərqləndirir.<br>• Avropa ölkələrinin timsalında relyefin əhalinin təsərrüfat fəaliyyətinə təsirini izah edir.<br>• Avropa ölkələrinin rekreasiya ehtiyatlarına misallar göstərir. |

**A** Tapşırıqda şagirdlər Avropanın fiziki xəritəsini təhlil edərək suala cavab verməlidirlər: "Fiziki xəritəyə əsasən şimaldan cənuba doğru Avropa regionlarının ərazisinin hündürlüyü necə dəyişir?" Yaxşı olar ki, şagirdlərin cavabı "yüksəlir" kimi qısa cümlə ilə məhdudlaşmayaraq ovalıq, yüksəklik, yayla, mütləq hündürlük və Avropanın onlara məlum olan coğrafi toponimlərini də əhatə etsin. Şagirdlərin "Regionun hündürlüyünü nəzərə alaraq, Avropanın hansı regionu geoloji yaşına görə daha cavan ola bilər?" sualı haqqında mülahizələrini dinləyərkən onlara aşağı siniflərdə aldıqları bilikləri yada salaraq öz cavablarını əsaslandırmağı tapşırmaq daha məqsədəuyğun olar. Məsələn, ərazi nə qədər cavan olursa, onun hündürlüyü çox olur, dağlar ekzogen qüvvələrin təsiri ilə dağılaraq, vaxt keçdikcə düzənliklərə çevrilir.

| **Region** | **Regionun coğrafi toponimləri** | **Səciyyəvi relyef formaları və onlar haqqında məlumat** |
|---|---|---|
| Şimali Avropa | Skandinaviya dağları (Qalxepiggen dağı–2469 m) | Moren təpələri və moren tirələri – morenlərdən yaranan təpə və tirələr. Moren buzlağın gətirdiyi və onun əriməsindən sonra qalan süxurlardır.<br>Troq dərəsi (alman dilindən troq – təknə) – buzlağın yaratdığı təknəvarı profilə (U- şəkilli) malik, dibi enli və yamacları dik olan dərədir.<br>Fyord – materikə daxil olan dar, əyri-üyrü formaya, qayalı, dik yamaclara malik körfəzdir. |
| Orta Avropa | Almaniya Polşa ovalığı, Alp dağları (Monblan–4807m), Sudet dağları | Polder (niderl. *polder*) – əvvəllər dəniz dibi olmuş, sahili qurudulmuş və ovalığa çevrilmiş ərazi |
| Cənubi Avropa | Pireney, Apennin, Balkan, Etna, Vezuvi vulkanı, Karst platosu | Karst relyef formaları – qurunun əhəngdaşı, gips, daş duz və s. suda həll olan süxurların yayıldığı ərazilərində yeraltı suların fəaliyyəti nəticəsində yaranan relyef formaları |
| Şərqi Avropa | Şərqi Avropa düzənliyi, Karpat,Ural, Qafqaz dağları (Elbrus –5642 m) | Buzlaq relyef formaları |

**B** Mətnlə iş zamanı metodiki vəsaitin girişində verilən üsullardan birini tətbiq etmək olar. Mətndə əsas sözlərin (açar sözlər, anlayışlar, terminlər) çıxarılması üsulundan istifadə daha məqsədəuyğundur.

LAYİHƏ

İKT ilə təmin olunmuş siniflərdə *Google Earth* proqramının köməyi ilə Avropanın kosmosdan görünüşünü nümayiş etdirmək məqsədəuyğun olar.

**C Şəkil üzrə iş. Soqne-fyord. Norveç. Salpausselkya. Moren tirəsi. Finlandiya**

1. Əlavə sualların köməyi ilə şagirdləri belə cavaba istiqamətləndirmək lazımdır: *quruya çox daxil olmuş, dar və sıldırım qayalı sahillərə malik körfəz.*

2. Buzlaşma dövründən sonra Şimali Avropanın iqlimi və bitki örtüyü necə dəyişmişdir? *Şimali Avropanın iqlimi buzlaşma dövründən sonra istiləşməyə başlayır. Nəticədə bitki örtüyü əmələ gəlir.*

**Şəkil üzrə iş**



**Soqne-fyord.** Norveç



**Salpausselkya-moren tirəsi.** Finlandiya.

**Müzakirə edin:**
- Mətnə və şəklə əsasən fyordu təsvir edin və sxemini dəftərinizə çəkin.
- Buzlaşma dövründən sonra Şimali Avropanın iqlimi və bitki örtüyü necə dəyişmişdir?

**Mətn və şəkil üzrə iş. Polder. Niderland**

Hansı təbii proses Niderland sakinlərini süni düzənliklər yaratmağa məcbur edir? *Avropanın Atlantik okeanı sahillərində qurunun tektonik çökməsi baş verir.*

**Şəkil üzrə iş. Alp dağlarında Şermat kurortu. İşveçrə**

1. Turizmin inkişafı Alp ölkələrinin iqtisadiyyatına necə təsir göstərir?
– *Turizm Alp ölkələrində, xüsusilə İsveçrə və Avstriyada iqtisadiyyatın əsas sferası kimi dövlət büdcəsinin çox hissəsini təşkil edir, iş yerləri yaradır.*

2. Dağlıq ərazilərdə turizmin inkişafı ətraf mühitə hansı mənfi təsir göstərə bilər? Əgər bu sual ətrafında müzakirələr şagirdlərə çətinlik yaradarsa, onda onlara aşağıda materialı verib, debat təşkil etməyi təklif etmək olar.

**ƏTRAF MÜHİTƏ TƏSİR**

Dağların mənzərəsi zərifliyi ilə seçilir. Dağ ekosistemlərinə flora və faunası insan fəaliyyəti nəticəsində pozula bilən nadir ərazilər daxildir. Turizm fəaliyyəti zamanı yollar və cığırlar nəqliyyat vasitələri və piyadalar tərəfindən intensiv istifadə olunur. Gələnlərin çoxu, bir qayda olaraq kiçik ərazilərdə cəmləşir ki, bu da səs-küy və zibilin artmasına səbəb olur. Turizm mərkəzlərində zibilin emalı artıq çətin həll olunan problemə çevrilmişdir. Düzgün idarə olunmayan turizm fəaliyyəti nəticəsində sadalanan arzuolunmaz ekoloji nəticələr meydana çıxa bilər: bitki və heyvanat aləminin məhv edilməsi, torpaqların eroziyası və su axınlarının dəyişməsi, suyun və havanın çirklənməsi, həmçinin vəhşi təbiətin köçürülməsi və insanın təbiətlə düzgün olmayan rəftarı ilə bağlı dəyişikliklər.



LAYİHƏ

Turizmin inkişafı həm də sosial-mədəni dəyişikliklərə səbəb olur. Xarici adət-ənənələrin, həyat tərzinin və məhsulların mənimsənilməsi dağ əhalisinin bənzərsiz mədəniyyətinə və adət-ənənələrinə təhlükə yarada bilərr.

Lakin eyni zamanda turizm yerli əhalinin məşğulluq problemini xeyli dərəcədə həll edir, yaxşı planlaşdırılan və idarə olunan turizm ölkəyə gələn gəlirlərin artmasında, infrastrukturun yaxşılaşdırılmasında, yerli iqtisadiyyatın inkişafında böyük rol oynayır.

**Mətn və şəkil üzrə iş. Sloveniya, İspaniya, Yunanıstan**
Cənubi Avropanın relyefi onun iqtisadiyyatına necə təsir edir?
Şagirdlərin cavabları belə ola bilər: *Karst mağaraları, çimərliklər – rekreasiya ehtiyatları regionda turizmin inkişafı üçün şərait yaradır.*
*Ərazidə dağların üstünlüyü kənd təsərrüfatının strukturuna təsir edir, belə ki, dağlıq ərazilərdə heyvandarlıq üstünlük təşkil edir.*

**D Biliklərin tətbiq edilməsi və yoxlanılması**

3. Buzlaq və karst relyef formalarının, polder və fyordların geniş yayıldığı Avropa ölkələrini müvafiq olaraq sadalayın və xəritədə göstərin.

| **Relyef forması** | **Dərslikdə olan məlumat** | **Xəritədən alınan məlumat** | **Müəllim üçün məlumat** |
|---|---|---|---|
| Buzlaq relyef formaları | Skandinaviya yarımadası, Finlandiya | Norveç, İsveç | Şagirdlərin diqqətini Alp, Qafqaz dağlarında da ekzarasiya relyef formalarının (karlar, sirklər, troqlar) yarana biləcəyi haqqında məlumata yönəltmək olar. |
| Karst relyef formaları | Balkan yarımadası, Karst platosu, Sloveniya | Xorvatiya, Bosniya və Herseqovina, İtaliya, Yunanıstan, Albaniya | Karst mağaraları Avropanın 35- dən çox ölkəsində vardır. |
| Polderlər | Niderland | | Başlıca olaraq Şimal dənizi sahillərində (Niderland, Danimarka, Almaniya), həmçinin Polşada yayılmışdır. Litva, Latviya və Estoniyada qurudulmuş polder sahələr mövcuddur. |
| Fyordlar | Skandinaviya yarımadası, Norveç | İsveç | Şotlandiya, İslandiya, Qrenlandiya sahillərində rast gəlinir. |

**Dərsdən sonra:** Avropanın istənilən ölkəsinin rekreasiya ehtiyatları haqqında məlumat toplayın və təqdim edin.

Şagirdlərə izah etmək lazımdır ki, rekreasiya ehtiyatlarına təkcə təbiət obyektləri deyil (dəniz, çay, göl sahilləri, çimərliklər, dağlar, meşələr, mineral bulaqlar), həm də antropogen mənşəli obyektlər (tarixi-memarlıq abidələri) daxildir.

Şagirdlərlə onların topladıqları məlumatı hansı formada – şifahi və ya yazılı hesabat, kompüterlə təqdimat, stend – sərgi formasında təqdim edəcəklərini müzakirə edin.

LAYİHƏ

*Qiymətləndirmə meyarları: xəritə ilə işləmə, fərqləndirmə, izahetmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Avropanın dağları və düzənliklərini xəritədə çətinliklə göstərir. | Avropada dağları və düzənlikləri müəllimin köməyi ilə xəritədə göstərir. | Avropanın dağları və düzənliklərini xəritədə göstərərkən səhvlərə yol verir. | Avropada dağları və düzənlikləri düzgün sadalayır və xəritədə göstərir. |
| Avropa relyefinin xüsusiyyətlərini çətinliklə fərqləndirir. | Avropa relyefinin xüsusiyyətlərini müəllimin istiqamətləndirici suallarının köməyi ilə fərqləndir. | Avropa relyefinin xüsusiyyətlərini fərqləndirərək qeyri-dəqiqliyə yol verir. | Avropa relyefinin xüsusiyyətlərini səhvsiz fərqləndirir. |
| Avropa ölkələrinin timsalında relyefin insanların təsərrüfat fəaliyyətinə təsirini çətinliklə izah edir. | Avropa ölkələrinin timsalında relyefin insanların təsərrüfat fəaliyyətinə təsirini müəllimin istiqamətləndirici suallarının köməyi ilə izah edir. | Avropa ölkələrinin timsalında relyefin insanların təsərrüfat fəaliyyətinə təsirini izah edərkən qeyri-dəqiqliyə yol verir. | Avropa ölkələrinin timsalında relyefin insanların təsərrüfat fəaliyyətinə təsirini səhvsiz izah edir. |
| Rekreasiya ehtiyatları anlayışını çətinliklə izah edir. | Rekreasiya ehtiyatları anlayışını izah edir, lakin misallar göstərə bilmir. | Avropa ölkələrinin rekreasiya ehtiyatlarına misallar göstərərkən qeyri-dəqiqliyə yol verir. | Avropa ölkələrinin rekreasiya ehtiyatlarına misallar göstərir. |

## Dərs 4 / Mövzu 4: ASİYANIN RELYEFİ

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 2.1.1. Yer qabığında baş verən hadisə və proseslərin iqtisadi həyata təsirini dəyərləndirir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Asiyanın əsas morfostruktur vahidlərini (dağlar və düzənliklər) xəritədə göstərir.<br>• Asiyanın relyefi və geoloji quruluşunun xüsusiyyətlərini fərqləndirir.<br>• Tektonik hərəkətlərlə bağlı hadisələrin (sunami, vulkanizm) cəmiyyətin iqtisadi həyatına təsirini izah edir. |

**A** Şagirdlər Asiya xəritəsindən istifadə edərək cədvəli doldurmalı və aşağıdakı suala cavab verərək nəticə çıxarmalıdırlar: *“Asiyanın hansı regionunda relyefin mütləq hündürlüyünün yüksək olması əhalinin sayının azlığına və ərazinin zəif mənimsənilməsinə səbəbdir?”* Suala cavab vermək üçün şagirdlər 6-cı sinifdə aldıqları bilikləri yadlarına salmalıdırlar.

**Xəritə üzrə iş**

Şagirdlərin çıxarmalı olduğu nəticə: ən zəif məskunlaşmış regionlar – Şimali, Cənub - Qərbi və Mərkəzi Asiyadır. Şimali və Cənub-Qərbi Asiyada əhalinin sıxlığının az olmasına səbəb iqlim, Mərkəzi Asiyada isə ərazilərin mütləq hündürlüyünün çox olmasıdır.

LAYİHƏ

B Müəllim mətndə verilən izahı fiziki xəritədə dağları və düzənlikləri göstərməklə uzlaşdırmalıdır. Mətndə verilən 1-ci sxemin (platformanın quruluşu) təhlilinə xüsusi diqqət yetirilməlidir. Müəllim izahat verərkən platformanın quruluş sxemini lövhədə, şagirdlər isə dəftərlərində çəkə bilərlər.

Dərsdə şagirdlər aşağıdakı qanunauyğunluğu mənimsəməlidirlər: *Yer səthindəki geniş düzənliklər platformalara, dağlar isə litosfer tavalarının sərhəd zonalarına uyğun gəlir.*

Mətnlə iş zamanı cədvəli doldurmaq olar.

| Subregion | Dağlar | Düzənliklər |
|---|---|---|
| Şimali Asiya | Verxoyansk silsiləsi | Qərbi Sibir ovalığı, Orta Sibir yaylası |
| Cənub - Qərbi Asiya | Pont, Tavr, Elburs, Zaqros dağları | İran yaylası, Anadolu yaylası |
| Mərkəzi Asiya | Pamir (Konqur, İsmayıl Somoni), Hindiquş, Kunlun, Nan-Şan, Tyan-Şan dağları, Alaşan | Tibet dağlıq yaylası , Turan ovalığı |
| Şərqi Asiya | Böyük və Kiçik Xinqan | Böyük Çin düzənliyi |
| Cənub-Şərqi Asiya | Krakatau vulkanı | Mekonq düzənliyi |
| Cənubi Asiya | Himalay (Comolunqma və ya Everest – 8848 m) | Dekan yaylası |

Yeni mövzunun öyrənilməsi zamanı ZİQZAQ üsulundan da istifadə etmək olar.

Şagirdləri 6 qrupa bölün. Bu qruplar "doğma qruplar" adlanır. Qrup üzvləri 1, 2, 3, 4, 5, 6 sayırlar. Rəqəmlərin sayı keçilən materialın həcmindən asılıdır. Burada Asiyanın regionlarının sayına uyğun olaraq mətn 6 hissəyə bölünür: Şimali, Cənub-Qərbi, Mərkəzi, Şərqi, Cənub - Şərqi və Cənubi Asiya. Deməli şagirdlər 1-dən 6-ya qədər sayırlar.

Şagirdlərə izah edin ki, dərsin sonunda hər qrup mətnin məzmununu tamamilə mənimsəməlidir. Onların diqqətini mətnin 6 hissəyə bölünməsinə və qrupun 1 nömrəli üzvünün mətnin 1-ci hissəsinə, 2 nömrəli üzvünün mətnin 2-ci hissəsinə və s. cavabdeh olmasına cəlb etmək lazımdır.

Sonra eyni rəqəm almış şagirdlər "ekspert" qruplarında birləşirlər. Müəllim hər "ekspert" qrupunun məqsədinin mətnin onlara tapşırılan hissəsini diqqətlə öyrənməli olduğunu şagirdlərə izah edir. 1-ci qrup mətnin 1-ci hissəsi olan "Şimali Asiya", 2-ci qrup 2-ci hissəni və s. oxuyur və müzakirə edir. "Ekspert" qrupunun hər bir üzvü sonra öz doğma qrupuna qayıtmalı və öyrəndiyi informasiyanı bölüşməlidir. Beləliklə, bütün şagirdlər öyrənilən mövzu haqqında tam təsəvvür almış olurlar.

LAYİHƏ

«ZİQZAQ»ın sxemi




Yeni informasiya əldə edilən zaman şagirdlərə mətndə verilmiş bütün coğrafi obyektləri xəritədə tapmaq tapşırılır.

Şagirdlər yeni informasiyanı öyrəndikdən sonra onun müzakirəsini təşkil etmək lazımdır.

İKT ilə təmin olunmuş siniflərdə *Google Earth* proqramının köməyi ilə Asiya ərazisinin kosmosdan görünüşünü nümayiş etdirmək olar.

**C Mətn və şəkil üzrə iş. Yak və ya Tibet öküzü. Şerplər**

1. Tibetdə təsərrüfatın inkişaf etdirilməsinə hansı amillər mane olur?
2. Şerplərin əkinçiliklə məşğul olmamasının səbəbi nədir?

Müzakirə zamanı istiqamətləndirici sualların köməyi şagirdləri aşağıdakı cavablara yönəltmək olar: *Tibet üçün sərt iqlim səciyyəvidir, bundan başqa burada kənd təsərrüfatı işləri – şumlama, becərmə məhsul yığımı və onun daşınması əl əməyi vasitəsilə həyata keçirilir. Bu məqsədlə qoşqu heyvanı saxlanılır və istifadə olunur. Dağlıq relyef, avtomobil yollarının olmaması maşınlardan istifadəni çətinləşdirir. Bundan əlavə, yanacaq, elektrik enerjisi, avadanlıq, ixtisaslı kadrların çatışmazlığı problemləri də mövcuddur.*

**Mətn və şəkil üzrə iş. Yaponiya sahilində sunami**

– Yaponiyada baş verən faciənin aşağıdakı cəhətlər üzrə nəticələrini müzakirə edin: A) *sosial* (əhali, onun fəaliyyəti və həyat şəraiti ilə əlaqədar) B) *ekoloji*; C) *iqtisadi*.

Şagirdlər müzakirə zamanı aşağıdakı qənaətə gəlməlidirlər:

A) Faciə zamanı 15 min nəfərdən çox insan həlak olmuş, 5070 nəfər itkin düşmüşdür.

B) Qəza nəticəsində radiasiya axımı yaranmış, quru və okeansahili zona radioaktiv çirklənməyə məruz qalmışdır.

C) Yaponiyaya dəyən ziyanın miqdarı 309 mlrd. ABŞ dollarına yaxın idi. Faciə kütləvi dağıntılara səbəb olmuşdur.

Sualın müzakirəsi zamanı şagirdlərə http://video.i.ua/user/275884/28467/266293 internet ünvanından videoçarx izləməyi təklif etmək olar. Yaponiyada sunami 11 mart 2011-cü il (4 dəq).

***Müəllim üçün əlavə məlumat***

Dəymiş ziyan *sosial, iqtisadi, ekoloji* (birbaşa və dolayısı ilə) olmaqla üç yerə bölünür. **Sosial ziyan,** adətən, fövqəladə hadisə ocağında ölənlərin, yaralananların, zərərçəkənlərin sayı ilə ölçülür. Bu zaman yaralı və zərərçəkənlərin müalicəsinə, yaxud məişət itkilərinin

LAYİHƏ

kompensasiyası, psixoloji bərpasına çəkilən xərclər hesablanır. Sosial ziyana insanların psixoloji sarsıntıları və cəmiyyətdə yaranmış fikir müxtəlifliyi də daxildir.

**İqtisadi ziyan** xilasedici işlərin və digər təxirəsalınmaz tədbirlərin həyata keçirilməsinə çəkilən xərclər; həmçinin həlak olanların və zərərçəkənlərin ailələrinə maddi təzminatların ödənilməsi; zəruri dərmanlar və tibb avadanlıqlarının alınması xərcləri; fövqəladə vəziyyətin ləğv olunmasında iştirak edənlərə – xilasedicilər, səhiyyə işçiləri, yanğınsöndürənlərə və b. ödəmələr; evini itirmiş şəxslərin mənzil fondu ilə təmin olunması ilə bağlı xərclər; dövlət müəssisələri və infrastrukturun bərpasına çəkilən xərclər; zərər çəkmiş firmalara verilən subsidiyalar; fövqəladə vəziyyətlə bağlı əlil olmuş, yetim qalmış və b. insanlara ödənilən vəsaitlər; fövqəladə vəziyyətin məhvedici amillərinin təsiri ilə meydana çıxan ekoloji cəhətdən təhlükəli nəticələrin qısa təxirə salınmadan ləğv edilməsinə sərf olunan xərclərdən ibarətdir.

**Birbaşa ekoloji ziyan** – insanların, heyvanların, bitkilərin və digər canlı orqanizmlərin həyat və fəaliyyəti üçün əlverişsiz nəticələrin ləğv olunmasına sərf olunun əlavə xərclər, təsərrüfat və başqa fəaliyyət nəticəsində, həmçinin texnogen qəza və fəlakətlər nəticəsində ətraf mühit normativlərinin pozulması ilə bağlı ekoloji sistemlərin, təbii komplekslərin, landşaftların və digər obyektlərin vəziyyəti daxil olmaqla faktiki və mümkün itkilərin miqdarı.

**Dolayısı ilə ekoloji ziyan** – fəlakət zamanı insan sağlamlığı və təbiət üçün zərərli maddələrin istifadə və ya istehsal olunduğu müəssisələrin dağılması nəticəsində ətraf mühitin çirklənməsi.

**Mətn və şəkil üzrə iş. Pinatubo vulkanı**

1. Cənub-Şərqi Asiyada daha hansı vulkan püskürmüşdür? *(Cənub-Şərqi Asiyada Krakatau vulkanı püskürmüşdür)*

2. Vulkan püskürmələrinin təbii və iqtisadi fəsadlarını sadalayın.

- Lava axınları avtomobil və dəmir yollarını məhv edir, onun yüksək temperaturunun təsiri ilə evlər və təsərrüfat obyektləri yanır, meşələr və bitki örtüyü məhv olur.
- Püskürmə zaman çıxan külli miqdarda vulkan külü sonradan yer səthinə çökərək qatlar yaradır, bu isə ərazini uzun müddətə boş səhraya çevirir.
- Vulkan püskürməsi zamanı çıxan zəhərli qazlar turşulu yağışlarla yerə düşür, torpaq, bitki örtüyünə, insanların sağlamlığına mənfi təsir göstərir.



**Pinatubo vulkanı.** Filippin. 1991-ci ildə Pinatubo vulkanı püskürən zaman yaranan vulkan qazı və kül buludları

LAYİHƏ

**Şəkil üzrə iş. Hindistan yarımadasının litosfer tavasında hərəkəti**
Müzakirə edin. Litosfer tavalarının hərəkəti nəticəsində ərazidə hansı dəyişikliklər baş vermişdir?
*Avrasiyanın sahəsi böyümüş, Himalay dağları əmələ gəlmişdir.*

**D Biliklərin tətbiq edilməsi və yoxlanılması.**

4. Dağların yaşı ilə onların seysmikliyi arasında hansı əlaqə vardır? (*Dağların yaşı çox olduqda onların seysmikliyi zəif olur).*

5. Mətndə Asiyada yerləşən zirvələri seçin və onların hündürlüklərini dəftərinizdə qrafiklə təsvir edin.




*Qiymətləndirmə meyarları: sadalama, xəritə ilə işləmə, fərqləndirmə, qiymətləndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Asiyanın dağları və düzənliklərini sadalamaqda və xəritədə göstərməkdə çətinlik çəkir. | Asiyanın dağları və düzənliklərini sadalayır lakin xəritədə göstərə bilmir. | Asiyanın dağları və düzənliklərini sadalayarkən və xəritədə göstərərkən qeyri-dəqiqliyə yol verir. | Asiyanın dağları və düzənliklərini düzgün sadalayır və xəritədə göstərir. |
| Asiyanın relyefi və geoloji quruluşunun xüsusiyyətlərini çətinliklə fərqləndirir. | Asiyanın relyefi və geoloji quruluşunun xüsusiyyətlərini müəllimin istiqamətverici suallarının köməyi ilə fərqləndirir. | Asiyanın relyefi və geoloji quruluşunun xüsusiyyətlərini fərqləndirərək qeyri- dəqiqliyə yol verir. | Asiyanın relyefi və geoloji quruluşunun xüsusiyyətlərini düzgün fərqləndirir. |
| Tektonik hərəkətlərlə bağlı hadisələrin (sunami, vulkanizm) cəmiyyətin iqtisadi həyatına təsirini qiymətləndirməkdə çətinlik çəkir. | Tektonik hərəkətlərlə bağlı hadisələrin (sunami, vulkanizm) cəmiyyətin iqtisadi həyatına təsirini istiqamətləndirici sualların köməyi ilə qiymətləndirir. | Tektonik hərəkətlərlə bağlı hadisələrin (sunami, vulkanizm) cəmiyyətin iqtisadi həyatına təsirini qiymətləndirərkən qeyri-dəqiqliyə yol verir. | Tektonik hərəkətlərlə bağlı hadisələrin (sunami, vulkanizm) cəmiyyətin iqtisadi həyatına təsirini düzgün qiymətləndirir. |

LAYİHƏ

## Dərs 5 / Mövzu 5: ŞİMALİ AMERİKANIN RELYEFİ

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 2.1.1. Yer qabığında baş verən hadisə və proseslərin iqtisadi həyata təsirini dəyərləndirir.<br>2.1.2. Geoloji xəritələri oxuyur. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Şimali Amerikanın əsas morfostruktur vahidlərini xəritədə göstərir.<br>• Şimali Amerika relyefinin xüsusiyyətlərini fərqləndirir.<br>• Relyefin Şimali Amerika əhalisinin təsərrüfat fəaliyyətinə təsirinə dair misallar göstərir.<br>• Şimali Amerikanın tektonik xəritəsindən məlumat əldə edir. |

**A Xəritə üzrə iş**

1. Materikin hansı hissəsində ovalıqlar və yüksəkliklər üstünlük təşkil edir?
2. Materikin qərbində hansı dağ sistemi yerləşir? Dağların hansı hissəsi daha hündürdür?
3. Fiziki və tektonik xəritələri müqayisə edərək suallara cavab verin: a) Şimali Amerikanın hansı hissəsi platformadır? b) Şimali Amerikada litosfer tavalarının sərhədində və ondan kənarda yerləşən dağlar hansılardır? C) Appalac və Kordilyer dağları hansı qırışıqlıqda yaranmışdır?

Şagirdlər xəritə əsasında belə qənaətə gəlirlər:
1. Şimali Amerikanın şərq regionlarında düzənliklər, qərbində isə yüksək dağ silsilələri yerləşir.
2. Kordilyer dağları mərkəzi və şərq hissədə daha hündürdür.

3. Rənglərə əsasən bunu müəyyən etməlidirlər:
   A) Şimali Amerikanın şərq hissəsi platformadır.
   B) Şimali Amerikada Kordilyer dağları litosfer tavalarının sərhədində, Appalaç isə ondan kənarda yerləşir.
   C) Kordilyer–orta, Appalaç–qədim qırışıqlıqda yaranmışdır.

**B** Dərslikdəki materialı öyrəndikcə şagirdlər aşağıdakı formada sxem tərtib edə bilərlər:

Şimali Amerika

- Dağ silsilələri, vulkanlar
  - Kordilyer (Mak-Kinli (Denali)–6194m); Müqəddəs Yelena, Şasta, Kolima, Orisaba, Taxumulko, Popokatapetl vulkanları Qayalı dağlar, Qərbi Syerra-Madre,
- Düzənliklər
  - Böyük Hövzə, Kolorado və Kolumbiya platosu, Meksika-sahili və Atlantiksahili ovalıqlar, Meksika dağlıq yaylası. Mərkəzi və Böyük düzənliklər. Missisipi ovalığı.

LAYİHƏ

İKT ilə təmin olunmuş siniflərdə *Google Earth* proqramının köməyi ilə Şimali Amerikanın kosmosdan görüntüsünün nümayiş olunması məqsədəuyğundur.

**C Mətn və xəritə-sxem üzrə iş**

| | |
|---|---|
| Qərbi Kordilyer | Kaskad dağları, Syerra-Madre |
| Mərkəzi Kordilyer | Böyük Hövzə yaylası, Kolorado platosu, Meksika yaylası |
| Şərqi Kordilyer | Qayalı dağlar |

**Şəkil üzrə iş. Böyük Kanyon. ABŞ**

**Şəkil üzrə iş**

• Qeyri-adi relyef formaları turistlər üçün maraqlı obyektlərdən biridir. Bunlardan biri də Kolorado kanyonudur. Onun dərinliyi 2 km-ə çatır. Kordilyer dağlarında Kolorado çayının dərəsinə piyada, maşın və vertolyotla ekskursiyalar təşkil olunur.

**Müzakirə edin:**
1. Dağlıq regionlarda turizmin inkişafına nə mane ola bilər?
2. Azərbaycanda şəkildəkinə oxşar relyef formalarına harada rast gəlmək olar? Turistləri bu ərazilərə cəlb etmək üçün nə kimi tədbirlər görmək lazımdır?



**Böyük Kanyon.** ABŞ

**Müzakirə edin:**

1. Dağlıq regionlarda turizmin inkişafına nə mane ola bilər?

– Dağlarda turizmin inkişafına mane olan əsas problemlər:
- nəqliyyat sisteminin olmaması və onların xidmət etdiyi şəbəkənin aşağı inkişaf səviyyəsi;
- dağ rayonlarında mehmanxana təsərrüfatının zəif inkişafı;
- əlverişsiz (ekstremal) təbii şərait: dağlarda pis hava şəraiti, temperatur dəyişməsi, qar yağması, dağıntılar, uçqunlar.

2. Azərbaycanda şəkildəkinə oxşar relyef formalarına harada rast gəlmək olar? Turistləri bu ərazilərə cəlb etmək üçün nə kimi tədbirlər görmək lazımdır?
Şəkillə iş zamanı şagirdlərin diqqətini relyefin ölkə iqtisadiyyatındakı roluna yönəltmək lazımdır. Bu zaman son vaxtlar ölkədə turizmin inkişafı ilə bağlı görülən işlərdən danışmaq və Beşbarmaq, İlandağ, Qobustan, Aveydağ, Əsrik dərəsi, Təngəaltı dərəsi və s. adlarını sadalamaq faydalı olardı.

**Mətn və şəkil üzrə iş. ABŞ. Böyük Hövzə**

1. Ərazinin iqliminin formalaşmasında onu əhatə edən dağların rolu nədən ibarətdir? (*Dağlar rütubətli hava kütlələrinin qarşısını kəsərək, onu yaylaya buraxmır*)
2. Yaylanın bitki örtüyünün zəif olduğunu izah edin (*İqlimin quraqlığı*).
3. Şəkillə iş zamanı şagirdlərin diqqətini relyefin ölkə iqtisadiyyatındakı roluna yönəltmək lazımdır: yüksək dağ sistemləri rütubətli hava kütlələrinin qarşısını kəsir, quraq iqlim, zəif bitki örtüyü, qeyri-münbit torpaqlar, bitkiçiliyin inkişafı üçün şəraitin olmaması.

LAYİHƏ

## Biliklərin tətbiq edilməsi və yoxlanılması

2. Missisipi və Hudzon ovalıqlarını müqayisə edin, onların 3 ümumi və 3 fərqli cəhətlərini dəftərdə qeyd edin.
*Ümumi cəhətlər: ovalıqlardır, ekzogen amillərin təsirinə məruz qalmışlar. Eyni okeanın körfəzlərinin suları ilə əhatə olunurlar.*
*Fərqli cəhətlər: müxtəlif ölkələrin ərazisində yerləşirlər, Hudzon ovalığında buzlaq relyef formaları, Missisipi ovalığında çay akkumulyasiyası üstündür; Missisipi ovalığında neft yataqları vardır.*

3.




*Qiymətləndirmə meyarları: xəritə ilə işləmə, fərqləndirmə, məlumat əldə etmə, nümunə göstərmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Şimali Amerikanın dağları və düzənlik-lərini xəritədə çətin-liklə göstərir. | Şimali Amerikanın dağları və düzənlik-lərini xəritədə müəllimin köməyi ilə göstərir. | Şimali Amerikanın dağları və düzən-liklərini xəritədə göstərərkən qeyri-dəqiqliyə yol verir. | Şimali Amerikanın dağları və düzən-liklərini səhvsiz xəritədə göstərir. |
| Şimali Amerikanın relyefinin xüsusiy-yətlərini çətinliklə fərqləndirir. | Şimali Amerikanın relyefinin xüsusiy-yətlərini müəllimin suallarının köməyi ilə fərqləndirir. | Şimali Amerikanın relyefinin xüsusiy-yətlərini fərq-ləndirərək qeyri-dəqiqliyə yol verir. | Şimali Amerikanın relyefinin xüsusiyyətlərini səhvsiz fərqləndirir. |
| Şimali Amerikanın tektonik xəritə-sindən çətinliklə məlumat əldə edir. | Şimali Amerikanın tektonik xəritəsin-dən müəllimin sual-larının köməyi ilə məlumat əldə edir. | Şimali Amerikanın tektonik xəritəsin-dən məlumat əldə edərkən qeyri-dəqiqliyə yol verir. | Şimali Amerikanın tektonik xəritəsindən lazım olan tam məlumatı əldə edir. |
| Şimali Amerika relyefinin əhalinin təsərrüfat fəaliyyə-tinə təsirinə dair misalları çətinliklə göstərir. | Şimali Amerika relyefinin əhalinin təsərrüfat fəaliyyə-tinə təsirinə dair misalları müəllimin suallarının köməyi ilə göstərir. | Şimali Amerika relyefinin əhalinin təsərrüfat fəaliyyətinə təsirinə dair misallar göstərərkən qeyri-dəqiqliyə yol verir. | Şimali Amerika relyefinin əhalinin təsərrüfat fəaliyyətinə təsirinə dair misalları səhvsiz göstərir. |

LAYİHƏ

## Dərs 6 / Mövzu 6: **CƏNUBİ AMERİKANIN RELYEFİ**

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 2.1.1. Yer qabığında baş verən hadisə və proseslərin iqtisadi həyata təsirini dəyərləndirir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Cənubi Amerikanın əsas morfostruktur vahidlərini (dağlar və düzənliklər) xəritədə göstərir.<br>• Cənubi Amerika relyefinin xüsusiyyətlərini təsvir edir.<br>• Relyefin Cənubi Amerika əhalisinin təsərrüfat fəaliyyətinə təsirinə dair misallar göstərir.<br>• Cənubi Amerikanın tektonik xəritəsindən məlumat əldə edir. |

**A Müzakirə edin:**

1. Materikin qərb və şərq hissələri üçün hansı relyef formaları səciyyəvidir?
2. Cənubi Amerikanın hansı hissəsi litosfer tavalarının sərhədində yerləşir?
3. Cənubi Amerika platformasına hansı düzənliklər uyğun gəlir?

Şagirdlər müzakirə edərək aşağıdakı nəticələri çıxarırlar:

– Materikin şərqində geniş düzənliklər – Amazon, La-Plata, Orinoko, qərbində isə yüksək dağ silsiləsi And dağları yerləşir.

– Cənubi Amerikanın qərb hissəsi litosfer tavalarının sərhədində yerləşir.

– Cənubi Amerika platformasına Qviana, Braziliya yaylaları, Orinoko, Amazon, La-Plata ovalıqları uyğun gəlir.

**B** Mətni öyrənən zaman İNSERT üsulunu tətbiq etmək olar (İş dərslikdən *surəti çıxarılmış* mətn üzərində aparılır).

*Birinci mərhələdə* şagirdlərə mətndə qeydlər aparmaq təklif olunur. Şagirdlər mətni oxuyaraq uyğun işarələrlə səhifənin kənarında ayrı-ayrı abzas və cümlələri qeyd edirlər. Nümunə:

| | |
|---|---|
| And dağları Sakit okean və Cənubi Amerika litosfer tavalarının sərhədində yerləşir. Bu dağlar yüksək seysmikliyi, zəlzələlərin tez-tez baş verməsi və vulkanların fəallığı ilə fərqlənir. And dağları Sakit okean “odlu halqa”sının bir hissəsi olub, **subduksiya** zonasında yerləşir. | ✓<br>✓<br>✓ + |

*İkinci mərhələdə* şagirdlər məlumatları öz sözləri ilə İNSERT cədvəlinə yazaraq sistemləşdirirlər.

| ✓ (məlum olan informasiya) | – (məlum olanlara zidd informasiya) | + (maraqlı və yeni informasiya) | ? (aydın olmayan, öyrənilməsi arzu olunan informasiya) |
|---|---|---|---|
| And dağları Sakit okean və Cənubi Amerika litosfer tavalarının sərhədində yerləşir. Bu dağlar yüksək seysmikliyi, zəlzələlərin tez-tez baş verməsi və vulkanların fəallığı ilə fərqlənir. And dağları Sakit okean “odlu halqa”sının bir hissəsi olub, **subduksiya** zonasında yerləşir. | | And dağları **subduksiya** zonasında yerləşir. | And dağlarında sonuncu zəlzələ nə vaxt olmuşdur? |
| ... | ... | ... | ... |



LAYİHƏ

Sonda isə şagirdlər ardıcıl olaraq cədvəlin sütunlarını müzakirə edirlər.
İKT ilə təmin olunmuş siniflərdə *Google Earth* proqramının köməyi ilə ərazinin kosmosdan görünüşü nümayiş etdirilə bilər.

**C Mətn və şəkil üzrə iş. Altiplano**

*İqlimi quraq olduğundan Altiplano kənd təsərrüfatı bitkiləri üçün yararsızdır.*
Şəkillə iş zamanı şagirdlərin diqqəti yüksək dağlıq relyefin ərazinin ixtisaslaşmasında roluna cəlb edilir.

**D Biliklərin tətbiq edilməsi və yoxlanılması**

2. Oxşar: qərbdə cavan dağlar, şərqdə platforma sahələrinə uyğun gələn düzənliklər; dağlarda fəaliyyətdə olan vulkanlar; allüvial düzənliklər.
Fərqli: Şimali Amerikada düzənliklərin şimalında buzlaq relyef formaları, qədim Appalaç dağları, Cənubi Amerikada allüvial düzənliklər üstünlük təşkil edir, çoxlu şahid dağlar var (tepuillər, kəllə qənd).

3. 1) Orinoko ovalığı 2) Qviana yaylası 3) Amazon ovalığı 4) Braziliya yaylası 5) La-Plata ovalığı 6) Pataqoniya 7) And dağları 8) Altiplano

4. Aşağıda göstərilənlərdən hansılar uyğun regionların relyefi və iqtisadiyyatı arasında əlaqəni göstərir?
1) Neft Orinoko ovalığında çıxarılır 3) Braziliya yaylası filiz faydalı qazıntılar yerləşən ərazidir. 5) Dünyanın ən nəhəng mis yataqlarından biri olan “mis qurşağı” And dağlarında yerləşir.

*Qiymətləndirmə meyarları: xəritə ilə işləmə, təsviretmə, sadalama*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Cənubi Amerikanın əsas dağları və düzənliklərini xəritədə çətinliklə göstərir. | Cənubi Amerikanın əsas dağları və düzənliklərini sadalayır, lakin xəritədə göstərə bilmir. | Cənubi Amerikanın əsas dağları və düzənliklərini xəritədə göstərərkən qeyri-dəqiqliyə yol verir. | Cənubi Amerikanın əsas dağları və düzənliklərini səhvsiz xəritədə göstərir. |
| Cənubi Amerikanın relyefinin xüsusiyyətlərini çətinliklə təsvir edir. | Cənubi Amerikanın relyefinin xüsusiyyətlərini müəllimin suallarının köməyi ilə təsvir edir. | Cənubi Amerikanın relyefinin xüsusiyyətlərini təsvir edərkən qeyri-dəqiqliyə yol verir. | Cənubi Amerikanın relyefinin xüsusiyyətlərini səhvsiz təsvir edir. |
| Cənubi Amerika relyefinin əhalinin təsərrüfat fəaliyyətinə təsirinə dair misallar göstərməkdə çətinlik çəkir. | Cənubi Amerika relyefinin əhalinin təsərrüfat fəaliyyətinə təsirinə dair misalları müəllimin suallarının köməyi ilə göstərir. | Cənubi Amerika relyefinin əhalinin təsərrüfat fəaliyyətinə təsirinə dair misallar göstərərkən qeyri-dəqiqliyə yol verir. | Cənubi Amerika relyefinin əhalinin təsərrüfat fəaliyyətinə təsirinə dair misalları səhvsiz göstərir. |
| Cənubi Amerikanın tektonik xəritəsindən çətinliklə məlumat əldə edir. | Cənubi Amerikanın tektonik xəritəsindən müəllimin suallarının köməyi ilə məlumat əldə edir. | Cənubi Amerikanın tektonik xəritəsindən məlumat əldə edərkən qeyri-dəqiqliyə yol verir. | Cənubi Amerikanın tektonik xəritəsindən lazım olan tam məlumatı əldə edir. |

LAYİHƏ

## Dərs 7 / Mövzu 7: **AFRİKANIN RELYEFİ**

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 2.1.1. Yer qabığında baş verən hadisə və proseslərin iqtisadi həyata təsirini dəyərləndirir.<br>2.1.2. Geoloji xəritələri oxuyur. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Afrikanın əsas morfostruktur vahidlərini (dağlar və düzənliklər) xəritədə göstərir.<br>• Afrika relyefini təsvir edir.<br>• "Horst", "qraben", "sinklinal", "antiklinal" anlayışlarını izah edir. |

**A** Şagirdlər müzakirə edərək aşağıdakı nəticələri çıxarırlar:
1. Afrikanın qədim platforma örtüyü üzərində *Ahaqqar, Tibesti, Darfur yaylaları* üstünlük təşkil edir.
2. Yaşına görə Afrikanın ən cavan ərazisi *şimalda Atlas dağlarıdır.*
3. Mütləq hündürlüyü az olan regionda *düzənliklər – ovalıqlar* üstünlük təşkil edir.
4. *Şərqi və Cənubi Afrikada* daha yüksək mütləq hündürlüyə malik ərazilər üstünlük təşkil edir.
5. Şimali və Qərbi Afrika ilə Cənubi və Şərqi Afrika arasında iki fərqli cəhət: 1–*relyefin hündürlüyü, 2–tektonik sınmalar*.

**B** Mətnlə iş aşağıdakı cədvəlin doldurulması ilə müşayiət oluna bilər. 1-ci tapşırığı yerinə yetirin.

| Şimali və Qərbi Afrika | Cənubi və Şərqi Afrika |
|---|---|
| Atlas, Ahaqqar, Tibesti, Darfur; Niger, Seneqal çaylarının dərələri, Nil, Niger çaylarının deltaları, Tubkal, Konqo çökəkliyi | Kilimancaro, Böyük Afrika sınması, Ruvenzori horstu, Drakon, Kap dağları, Kalahari, Şərqi Afrika yaylaları, Efiopiya yaylası |

İKT ilə təmin olunmuş siniflərdə *Google Earth* proqramı vasitəsilə ərazinin kosmosdan görünüşünü nümayiş etdirmək olar.

**C** **Sxem üzrə iş. Atlas dağları. Mərakeş**
*Antiklinal–2,3, sinklinal–1,4.*

**Sxem üzrə iş. Livinqston şəlalələri**
Fotoşəkildəki hərflərlə verilmiş işarələrin sxemdəki rəqəmlərə uyğunluğu: 1-A, 2-B, 3-C, 4-D.

**Sxem üzrə iş. Şərqi Afrika qrabeni**
1. Litosfer tavaları aralanmaqda davam edərsə, Somali yarımadası gələcəkdə *Afrikadan ayrılar və ada ola bilər.*

LAYİHƏ

2. Tavanın aralanması nəticəsində Qırmızı dənizi Hind okeanı ilə birləşdirən boğaz genişlənərsə, dəniz suyunun duzluluğu *azalar, belə ki, okeanda orta duzluluq 35 promil, Qırmızı dənizdə 42 promildir.*

**Şəkil üzrə iş Drakon dağlarının hamarlanmış zirvələri. Kap dağlarında enli çay dərəsi**

Şəkildə Drakon və Kap dağlarının qədimliyini təsdiq edən əlamətlər bunlardır: *hamarlanmış zirvələr və enli çay dərələri.*

**D Biliklərin tətbiq edilməsi və yoxlanılması**

2. Dərsliyin mətnindən istifadə edərək cədvəli tamamlayın.

| Şimali və Qərbi Afrikanın relyefinin formalaşmasında iştirak edən amillər | |
|---|---|
| Endogen | Ekzogen |
| 1. Dağəmələgəlmə (Atlas dağlarının yaranması) | 1. Küləyin fəaliyyəti – qumlu düzənliklər, dyunlar, barxanlar, şahid dağlar (Böyük Səhra) |
| 2. Vulkanizm (Tubkal) | 2. Çayların işi (çay dərələri) |

| Cənubi və Şərqi Afrikanın relyefinin formalaşmasında iştirak edən amillər | |
|---|---|
| Endogen | Ekzogen |
| 1. Şaquli tektonik hərəkətlər (horst və qrabenlər) | 1. Fiziki aşınma (Kalahari, Namib) |
| 2. Vulkanizm (Kilimancaro) | 2. Çayların işi (çay dərələri) |

5.

| Region | | Relyef formaları | Tektonik fəallığı | |
|---|---|---|---|---|
| | | | Sabit | aktiv |
| | Şimali Afrika | Atlas dağları | | + |
| | Qərbi Afrika | Böyük Səhra | + | |
| | Şərqi Afrika | Şərqi Afrika yaylası, Kilimancaro | | + |
| | Mərkəzi Afrika | Konqo çökəkliyi | + | |
| | Cənubi Afrika | Drakon, Kap dağları, Kalahari | + | |

LAYİHƏ

*Qiymətləndirmə meyarları: xəritədə göstərmə, təsviretmə, izahetmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Afrikanın əsas morfostruktur vahidlərini (dağlar və düzənliklər) sadalayır və xəritədə çətinliklə göstərir. | Afrikanın əsas morfostruktur vahidlərini (dağlar və düzənliklər) sadalayır, lakin xəritədə göstərə bilmir. | Afrikanın əsas morfostruktur vahidlərini (dağlar və düzənliklər) xəritədə göstərərkən qeyri-dəqiqliyə yol verir. | Afrikanın əsas morfostruktur vahidlərini (dağlar və düzənliklər) xəritədə səhvsiz göstərir. |
| Afrika relyefini təsvir etməkdə çətinlik çəkir. | Afrika relyefini müəllimin istiqamətverici suallarının köməyi ilə təsvir edir. | Afrika relyefini təsvir edərkən qeyri-dəqiqliyə yol verir. | Afrika relyefini səhvsiz təsvir edir. |
| “Horst”, “qraben”, “sinklinal”, “antiklinal” anlayışlarını çətinliklə izah edir. | “Horst”, “qraben”, “sinklinal”, “antiklinal” anlayışlarını müəllimin suallarının köməyi ilə izah edir. | “Horst”, “qraben”, “sinklinal”, “antiklinal” anlayışlarını izah edərkən qeyri-dəqiqliyə yol verir. | “Horst”, “qraben”, “sinklinal”, “antiklinal” anlayışlarını səhvsiz izah edir. |

## Dərs 8 / Mövzu 8: AVSTRALİYANIN RELYEFİ

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 2.1.1. Yer qabığında baş verən hadisə və proseslərin iqtisadi həyata təsirini dəyərləndirir.<br>3.2.3. Təsərrüfat sahələrinin səciyyəsini verir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Avstraliyanın əsas morfostruktur vahidlərini (dağlar və düzənliklər) xəritədə göstərir.<br>• Avstraliyanın relyefini təsvir edir.<br>• Avstraliyanın fiziki və tektonik xəritəsindən istifadə edərək materikin tektonik strukturları ilə relyefi arasında qarşılıqlı əlaqəni izah edir.<br>• Emaledici sənaye sahələrinin yerləşmə prinsiplərini izah edir. |

**A Xəritə üzrə iş**

1. Litosfer tavasının sərhədi materikin sahil xəttinə uyğun gəlirmi?
2. Hansı hissədə materik litosfer tavalarının sərhədinə daha yaxın yerləşir?
3. Avstraliyada fəal vulkanların və zəlzələ ocaqlarının olmamasını necə izah edə bilərsiniz?

Şagirdlər müzakirə edərək aşağıdakı nəticələri çıxarırlar:

1. M*aterikin sərhədləri litosfer tavasının sərhədi ilə üst-üstə düşmür.*
2. Materik *şimalda* litosfer tavalarının sərhədinə daha yaxın yerləşir.
3. Qədim platforma üzərində yerləşir.

**B** Yeni materialın izahı zamanı şagirdlərin ərazinin relyefi və tektonik quruluşu arasında əlaqəni dərk etmələri vacibdir. Yeni mövzunun öyrənilməsi düzənliklərin xəritədə göstərilməsi ilə müşayiət olunmalıdır.

LAYİHƏ

Mətnlə iş zamanı mətn üzrə *sistemləşdirici və təsnifat cədvəlinin tərtib olunması* üsulundan istifadə etmək olar.

Mətnlə işləyərkən şagirdlər 1-ci tapşırığı yerinə yetirir.

| | **Düzənliklər** | **Dağlar, platolar** |
|---|---|---|
| Qərbi Avstraliya | Böyük Viktoriya səhrası, Böyük Qumlu səhra | Hamersli, Mak-Donnell, Uluru və ya Eyrs-Rok |
| Şərqi Avstraliya | Mərkəzi ovalıq, Karpentariya, Nallarbor | Böyük Suayırıcı dağlar, Avstraliya Alpları (Kostyuşka – 2228 m) |

İKT ilə təmin olunmuş siniflərdə *Google Earth* proqramının köməyi ilə ərazinin kosmosdan görünüşü nümayiş etdirilə bilər.

**C Mətn və şəkil üzrə iş. Qərbi Avstraliyada Super Pit qızıl mədəni**

Avstraliyanın mineral ehtiyatlar ixracı üzrə dünyada qabaqcıl yer tutmasının səbəbi *mineral ehtiyatların açıq üsulla çıxarılmasıdır.*

**Mətn üzrə iş. Uran filizi**

*Məsələ:* 1 kq uran əldə etmək üçün nə qədər filiz tələb olunduğunu hesablayın.

*Həlli:*

1000 kq filiz – 200 q uran (0,02%)

$x$ kq filiz – 1000 q uran

$x$ = 5000 kq. (5 ton)

Uran mədənlərinin mineral ehtiyatın mövcud olduğu ərazilərdə yerləşdirilməsinin səbəbi odur ki, *çıxarılan filizdə metalın payı az olduqda onu uzaq məsafələrə daşımaq sərfəli deyil.*

**Mətn və şəkil üzrə iş. Uluru**

1. Səhra iqlimi kəskin temperatur dəyişmələri ilə səciyyələnir: gecələr burada soyuqdur, günorta isti 38 °C-ə çatır. Daşlar, həmçinin bütün fiziki cisimlər qızaraq genişlənir, soyuyaraq sıxılır və nəticədə parçalanır.

2. *Arxeoloqlar hesab edirlər ki, Uluru yaxınlığındakı rayonlarda aborigenlər hələ 10 min il bundan əvvəl məskunlaşmışlar.* 1985-ci il oktyabrın 26-dan etibarən Uluru rəsmi olaraq ananqu tayfasına məxsusdur, hərçənd bu nəhəng daş milli park kimi 99 il müddətinə dövlətə icarəyə verilmişdir.

3. Uluru Azərbaycanın Qobustan ərazisi ilə müqayisə edilə bilər.

**D Biliklərin tətbiq edilməsi və yoxlanılması**

1. Böyük Viktoriya səhrası, Böyük Qumlu səhra, Hamersli, Mak-Donnell, Uluru və ya Eyrs-Rok, Mərkəzi ovalıq, Karpentariya, Nallarbor, Böyük Suayırıcı dağları, Avstraliya Alpları (Kostyuşka – 2228m).

*Qiymətləndirmə meyarları: Sadalama, təsviretmə, xəritə ilə işləmə, izahetmə, fərqləndirmə*

LAYİHƏ

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Avstraliyanın əsas morfostruktur vahidlərini (dağlar və düzənliklər) çətinliklə xəritədə göstərir. | Avstraliyanın əsas morfostruktur vahidlərini (dağlar və düzənliklər) xəritədə müəllimin köməyi ilə göstərir. | Avstraliyanın əsas morfostruktur vahidlərini (dağlar və düzənliklər) xəritədə göstərərkən qeyri-dəqiqliyə yol verir. | Avstraliyanın əsas morfostruktur vahidlərini (dağlar və düzənliklər) xəritədə səhvsiz göstərir. |
| Avstraliyanın relyefini çətinliklə təsvir edir. | Avstraliyanın relyefini səthi təsvir edir. | Avstraliyanın relyefini təsvir edərkən qeyri-dəqiqliyə yol verir. | Avstraliyanın relyefini səhvsiz təsvir edir. |
| Materikin tektonik strukturu və relyefi arasında qarşılıqlı əlaqəni çətinliklə izah edir. | Materikin tektonik strukturu və relyefi arasında qarşılıqlı əlaqəni izah edir, lakin izahının təsdiqini xəritədə tapa bilmir. | Materikin tektonik strukturu və relyefi arasında qarşılıqlı əlaqəni izah edir, lakin izahının xəritədə təsdiqini axtararkən qeyri-dəqiqliyə yol verir. | Materikin tektonik strukturu və relyefi arasında qarşılıqlı əlaqəni və onun izahının təsdiqini xəritədə səhvsiz tapır. |
| Emaledici sənaye sahələrinin yerləşmə prinsiplərini çətinliklə izah edir. | Emaledici sənaye sahələrinin yerləşmə prinsiplərini müəllimin suallarının köməyi ilə izah edir. | Emaledici sənaye sahələrinin yerləşmə prinsiplərini izah edərkən qeyri-dəqiqliyə yol verir. | Emaledici sənaye sahələrinin yerləşmə prinsiplərini düzgün izah edir. |

## Dərs 9 / Mövzu 9: Praktik dərs. AZƏRBAYCANIN RELYEFİ VƏ TEKTONİK QURULUŞU

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 2.1.2. Geoloji xəritələri oxuyur. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Tematik xəritələrdən istifadə edərək respublikanın tektonik və geoloji quruluşu haqqında məlumat alır. |

Dərsin məqsədi tektonik və geoloji xəritələrdən istifadə etməklə şagirdlərin ərazinin relyef formaları ilə geoloji quruluşunun xüsusiyyətlərini əlaqələndirməsidir.

İşə başlamazdan əvvəl yaxşı olar ki, şagirdlərə geoloji xəritələr haqqında qısa informasiya verilsin. Xəritənin təhlilini onun legendasının müzakirəsi ilə başlamaq daha faydalı olar. Şagirdlərə geoloji xəritənin məzmununu izah etmək məqsədəuyğun olardı (onlar xəritədən hansı məlumatı ala bilərlər). Ərazinin geoloji quruluşunu şagirdlər X sinifdə daha ətraflı öyrənəcəklər – *2.1.2. Geoxronoloji cədvəli oxuyur (geoxronoloji cədvəl və geoloji xəritələrin əlaqələndirilməsi).*

Şagirdlər yeni materialın öyrənilməsinə başlamazdan əvvəl ərazinin relyefini yadlarına salmalı, oroqrafik və ya fiziki xəritədə respublikanın əsas dağ sistemləri və düzənliklərini göstərməlidirlər.

**Xəritə üzrə iş. Azərbaycanın oroqrafik və tektonik sınma zonaları xəritələri**

LAYİHƏ

1. Böyük Qafqaz hansı tektonik zonaya uyğun gəlir? (*Böyük Qafqaz tektonik qalxması)*

2. Talış və Naxçıvanın dağ sistemləri hansı tektonik zonada yerləşmişdir? (*Kiçik Qafqaz tektonik qalxması*)

3. Kür-Araz ovalığı hansı tektonik zonadadır? (*Kür dağarası çökəkliyi*)

4. Samur-Dəvəçi ovalığının uyğun gəldiyi tektonik zona hansıdır? (*Ön Qafqaz çökməsi*)

5. Dağ sistemlərinin tektonik qalxmalara, düzənliklərin isə tektonik çökmələrə uyğun gəldiyini düzgün saymaq olarmı? *(Olar)*

Şagirdlər aşağıdakı nəticəni çıxarmalıdırlar:

– Azərbaycan ərazisində 5 tektonik zona ayrılır.

– Dağ sistemləri tektonik qalxmalara, düzənliklər isə tektonik çökmələrə uyğun gəlir.

**Sxem üzrə iş. Azərbaycanın litosfer tavalarının sərhədindəki mövqeyi**

1. Toqquşma sərhədləri hansı ölkələrin ərazisindən keçir? (*Azərbaycan, İran, Gürcüstan*)

2. Xəzər dənizinin hansı hissəsi seysmik cəhətdən daha fəaldır? (*cənub*)

**Xəritə üzrə iş. Tektonik qırılmalar**

Hansı ərazilərdə tektonik qırılmalar daha çoxdur? (*dağlıq*)

Şagirdlər aşağıdakı nəticəni çıxarmalıdırlar:

– Tektonik qırılmalar tektonik zonaların sərhədləri boyu keçir; onların mənşəyi litosfer tavalarının hərəkəti ilə bağlıdır;

– Tektonik qırılmalar üçün (litosfer tavalarının sərhədləri) güclü zəlzələlər baş verir.

**D Biliklərin tətbiq edilməsi və yoxlanılması**

Azərbaycanın fiziki və tektonik zonalar xəritələrinə əsasən relyef formalarının hansı tektonik zonada yerləşdiyini müəyyən edin, cədvəli tamamlayın:

| Tektonik zonalar | Coğrafi obyektlər |
|---|---|
| Ön Qafqaz tektonik çökməsi (əyilməsi) | 1, 12 |
| Böyük Qafqaz tektonik qalxması | 2, 19 |
| Kür dağarası çökəkliyi | 6, 8, 10, 11, 13, 15, 18 |
| Kiçik Qafqaz tektonik qalxması | 3, 4, 7, 9, 14, 16, 17, 20 |
| Araz cavan platforması | 5 |

*Qiymətləndirmə standartları: tematik xəritələrlə işləmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tematik xəritələri çətinliklə fərqləndirir. | Tematik xəritələrdən respublikanın tektonik və geoloji quruluşu haqqında məlumatı müəllimin köməyi ilə əldə edir. | Tematik xəritələrdən respublikanın tektonik və geoloji quruluşu haqqında natamam məlumat əldə edir və qeyri- dəqiqliyə yol verir. | Tematik xəritələrdən respublikanın tektonik və geoloji quruluşu haqqında tam məlumat əldə edir. |

LAYİHƏ

## DƏRS 10. I FƏSİL ÜZRƏ
## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ NÜMUNƏSİ

1. Sxemdə hansı relyef formaları təsvir edilmişdir?




A) 1–antiklinal, 2–sinklinal; B) 1–subduksiya, 2–qraben;
C) 1–horst, 2–qraben; D) 1–qraben, 2–horst; E) 1–sinkilinal, 2–antiklinal

2. Sxemdə təsvir edilmiş proses nəticəsində yaranmışdır:




A) Ural dağları; B) Himalay; C) And; D) Qafqaz; E) Alp.

3. Alp dağları üçün səciyyəvi *olmayan* xüsusiyyətləri müəyyən edin:
   1. Burada Avropanın ən hündür zirvəsi yerləşir.
   2. Karst relyef formaları səciyyəvidir.
   3. Qədim qırışıq-qaymalı (faylı) dağlardır.
   4. Dağ turizmi yaxşı inkişaf etmişdir.
   5. Zirvələri buzlarla örtülmüşdür.
   6. Qar uçqunları baş verir.

LAYİHƏ

4. Hansı variantda uyğunluq düzgün verilmişdir?

| Variant | Tektonik zona | Relyef forması |
|---|---|---|
| A | Böyük Qafqaz qalxması | Mil düzü |
| B | Kiçik Qafqaz qalxması | Zəngəzur silsiləsi |
| C | Kür çökəkliyi | Samur-Dəvəçi ovalığı |
| D | Ön Qafqaz çökməsi | Ceyrançöl |
| E | Araz platforması | Gəyan düzü |

5. Sunami və zəlzələlər hansı ölkələrə iqtisadi, ekoloji və sosial cəhətdən ziyan vurur?

1. Yaponiya. 2. Monqolustan. 3. Norveç. 4. Filippin. 5. Sloveniya.
A) 1, 2 B) 2, 4 C) 3, 4 D)1, 4 E) 4, 5

6. Sxemdə göstərilən hansı məntəqələr üçün tektonik sürüşmələr səciyyəvidir?




A) 1, 5, 6; B) 2, 4, 5; C) 2, 3, 5; D) 2, 4, 6 E) 1, 3, 4

LAYİHƏ

7. Yer qabığının quruluşu xəritəsini təhlil edin və aldığınız məlumatları qeyd edin:




1.______________________
2______________________
3.______________________



LAYİHƏ

# FƏSİL – 2

# İQLİM VƏ ONUN TƏSƏRRÜFATDA ROLU

## FƏSİL ÜZRƏ REALLAŞDIRILACAQ ALT STANDARTLAR

2.1.3. Atmosferdə baş verən hadisə və proseslərin cəmiyyətin iqtisadi həyatına təsirini təhlil edir.
2.1.4. İqlim xəritələrini oxuyur, nəticələrini təqdim edir.
1.2.1. Yerin hərəkətinin cəmiyyətin inkişafındakı rolunu əsaslandırır.
1.2.2. Vaxt və fəsil dəyişkənliyinə aid hesablamalar aparır

FƏSİL ÜZRƏ ÜMUMİ SAATLARIN MİQDARI: **11 saat**
KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ: **1 saat**

LAYİHƏ

## Dərs 11 / Mövzu 10: GÜNƏŞ İŞIĞI VƏ İSTİLİYİNİN YER KÜRƏSİNDƏ PAYLANMASI

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 1.2.1. Yerin hərəkətinin cəmiyyətin inkişafındakı rolunu əsaslandırır.<br>1.2.2. Vaxt və fəsil dəyişkənliyinə aid hesablamalar aparır. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Günəş istiliyi və işığının yer səthində qeyri bərabər paylanmasını və obyektlərin kölgəsinin yerin orbit üzrə hərəkəti və Yer oxunun meyilliliyi ilə bağlı olduğunu izah edir<br>• Verilən məntəqələrdə fəsillərdən asılı olaraq günəş istiliyi və işığının iqtisadiyyata təsirini əsaslandırır.<br>• Ərazinin meyilliliyini nəzərə alaraq günəş şüalarının düşmə bucağını təyin edir. |

**A** Şagirdlər aşağı siniflərdən fəsillərin əmələ gəlməsinin əsas səbəbləri, Günəşin müxtəlif fəsillərdə zenit vəziyyəti və günəş şüalarının düşmə bucağını təyin etmək üçün istifadə olunan düsturlarla tanışdırlar. Buna görə də təqdim olunan tapşırıq mövzunun öyrənilməsi üçün vacib olan informasiyanı şagirdlərin yadına salmağa kömək edir.

**Cədvəl üzrə iş**. Cədvəli tamamlayın.

| | 21 mart | 22 iyun | 23 sentyabr | 22 dekabr |
|---|---|---|---|---|
| Günəş hansı paralel üzərində zenitdə olur? | ekvator | 23,5 ş. e. | ekvator | 23,5$^\circ$ c. e. |
| Hansı yarımkürə daha çox günəş enerjisi və işığı alır? | eyni | şimal | eyni | cənub |
| Hansı enliklərdə qütb gündüzləri müşahidə olunur? | yox | 66,30$^\circ$ – 90$^\circ$ ş. e. | yox | 66,30$^\circ$ – 90$^\circ$ c. e. |
| Verilən günlərdə Bakıda günəş şüalarının düşmə bucağı nə qədər olur? | 90$^\circ$ – 40$^\circ$ = 50$^\circ$ | 90$^\circ$ – 40$^\circ$ +23,5$^\circ$ = 73,5$^\circ$ | 90$^\circ$ – 40$^\circ$ = 50$^\circ$ | 90$^\circ$ – 40$^\circ$ – 23,5$^\circ$ = 26,5$^\circ$ |

**Müzakirə edin:**

1. Hansı enliklərdə qütb gecələri müşahidə olunur? (*66,30$^\circ$- 90$^\circ$ş.e. 66,30$^\circ$- 90$^\circ$c.e.)*
2. Günəş işığı və istiliyinin qeyri-bərabər paylanması Yer səthində nə ilə nəticələnir? (*İqlimin müxtəlifliyi ilə*)

**B** Yeni mövzunun öyrənilməsi zamanı şagirdlər İNSERT üsulunu tətbiq edə bilərlər. Dərs zamanı saytdan götürülən interaktiv xəritədən də istifadə etmək mümkündür. İnteraktiv xəritədə yalnız günəş şüalarının düşmə bucağı deyil, həm də bucağın müəyyən şəraitdən asılılığını nəzərdən keçirmək olar. Günəş şüalarının düşmə bucağının müxtəlif variantları bu ünvanda aydın və ətraflı təsvir edilmişdir: *http://mygeog.ru/ugol-padeniya-solnechnyx-luchej-interaktivnaya-karta-skachat-besplatno/*

Şagirdlərə məlumatları cədvəllər üzrə sistemləşdirməyi tapşırmaq olar.

LAYİHƏ

| Şimal yarımkürəsində yerləşən məntəqələr üçün ($23,5^o$ ş.e.-dən şimala) il boyu | | |
|---|---|---|
| **Sutkanın vaxtı** | **Günəşin vəziyyəti** | **Kölgənin vəziyyəti** |
| Səhər | Cənub-şərq | Şimal-qərb |
| Günorta | Cənub | Şimal |
| Axşam | Cənub-qərb | Şimal-şərq |

| Cənub yarımkürəsində yerləşən məntəqələr üçün ($23,5^o$ c. e.-dən cənuba) il boyu | | |
|---|---|---|
| **Sutkanın vaxtı** | **Günəşin vəziyyəti** | **Kölgənin vəziyyəti** |
| Səhər | Şimal-şərq | Cənub-qərb |
| Günorta | Şimal | Cənub |
| Axşam | Şimal-qərb | Cənub-şərq |

| Ekvatorda yerləşən məntəqələr üçün gecə-gündüz bərabərliyi günlərində, tropiklərdə yerləşən məntəqələr üçün gündönüm günlərində | | |
|---|---|---|
| **Sutkanın vaxtı** | **Günəşin vəziyyəti** | **Kölgənin vəziyyəti** |
| Səhər | Şərq | Qərb |
| Günorta | Baş üzərində | Kölgə yoxdur |
| Axşam | Qərb | Şərq |

| | **Şimal yarımkürəsi** | **Cənub yarımkürəsi** |
|---|---|---|
| 22 iyun (yay gündönümü günü) | Günəş Şimal tropikində zenitdədir. Şimal yarımkürəsi daha çox işıq və istilik alır. Ən uzun gündüzlər müşahidə olunur. Obyektlərin kölgəsi qısadır. Şimal qütbündə ($66.5^0$ ş.e. şimal qütb dairəsindən şimalda) qütb gündüzləridir. $23.5^0$ ş.e. – Şimal tropikində yerləşən məntəqələr üçün Günəş şərqdə çıxır və qərbdə batır. $23.5^0$.ş.e.-dən şimalda yerləşən məntəqələrdə Günəş cənub-şərqdə çıxır, cənub-qərbdə batır. $23.5^0$.ş.e.-dən cənubda yerləşən məntəqələrdə Günəş şimal-şərqdə çıxır, şimal-qərbdə batır. Kölgə əks istiqamətə düşür. | Cənub yarımkürəsi daha az işıq və istilik alır. Ən uzun gecələr müşahidə olunur. Obyektlərin kölgəsi uzundur. Cənub qütbündə ($66.5^0$ c.e. cənub qütb dairəsindən cənubda) qütb gecələridir. Cənub yarımkürəsində yerləşən bütün məntəqələrdə Günəş şimal-şərqdə çıxır, şimal-qərbdə batır. Kölgə əks istiqamətə düşür. |
| 23 sentyabr (gecə-gündüz bərabərliyi günü) | Günəş ekvator üzərində zenitdədir. Hər iki yarımkürə eyni miqdarda işıq və istilik alır.<br>Ekvatorda yerləşən məntəqələrdə Günəş şərqdə çıxır, qərbdə batır.<br>Ekvatordan şimalda yerləşən məntəqələrdə Günəş cənub-şərqdə çıxır, cənub-qərbdə batır.<br>Ekvatordan cənubda yerləşən məntəqələrdə Günəş şimal-şərqdə çıxır, şimal-qərbdə batır.<br>Kölgə əks tərəfə düşür. | |

LAYİHƏ

| | | |
|---|---|---|
| 22 dekabr (qış gündönümü günü) | Şimal yarımkürəsi minimum işıq və istilik alır. Ən qısa gündüzlər müşahidə olunur. Obyektlərin kölgəsi maksimum uzunluğa malikdir. Şimal qütbündə ($66.5^0$ ş.e. şimal qütb dairəsindən şimalda) qütb gecələridir. Şimal yarımkürəsində yerləşən bütün məntəqələrdə Günəş cənub-şərqdə çıxır, cənub-qərbdə batır. Kölgə əks tərəfə düşür. | Günəş Cənub tropikində zenitdədir. Cənub yarımkürəsi maksimum işıq və istilik alır. Obyektlərin kölgəsi minimum uzunluğa malikdir. Ən uzun gündüzlər müşahidə olunur. Cənub qütbündə ($66.5^0$ c.e. cənub qütb dairəsindən cənubda) qütb gündüzüdür. Cənub yarımkürəsində yerləşən bütün məntəqələrdə Günəş şimal-şərqdə çıxır, şimal-qərbdə batır. Cənub tropikində -$23.5^0$c.e.-də yerləşən məntəqələrdə Günəş düz şərqdə çıxır və qərbdə batır. $23.5^0$ş.e.-dən şimalda olan məntəqələrdə Günəş cənub-şərqdə çıxır, cənub-qərbdə batır. $23.5^0$c.e.-dən cənubda olan məntəqələrdə Günəş şimal-şərqdə çıxır, şimal-qərbdə batır. Kölgə əks tərəfə düşür. |
| 21mart (yaz gecə-gündüz bərabərliyi günü) | Günəş ekvator üzərində zenitdədir. Hər iki yarımkürə eyni miqdarda işıq və istilik alır. Ekvatorda yerləşən məntəqələrdə Günəş şərqdə çıxır, qərbdə batır.<br>Ekvatordan şimalda yerləşən məntəqələrdə Günəş cənub –şərqdə çıxır, cənub-qərbdə batır.<br>Ekvatordan cənubda yerləşən məntəqələrdə Günəş şimal-şərqdə çıxır, şimal-qərbdə batır.<br>Kölgə əks tərəfə düşür | |

## C Şəkil üzrə iş. Gün ərzində Günəşin görünmə vəziyyətinin dəyişməsi

Müzakirə edin:
1. A məntəqəsində dayanan müşahidəçi 21 martda səhər Günəşin çıxmasını üfüqün hansı istiqamətində görür? (*Cənub - şərqdə*)
2. B məntəqəsində dayanan müşahidəçi yaz bərabərliyində Günəşin batmasını hansı istiqamətdə görür? (*Şimal - qərbdə*)

Şəkildə təsvir olunan dağın 40° ş.e. dairəsində yerləşdiyini və günün vaxtını nəzərə alaraq suallara cavab verin:
1. A və B hansı yamacda yerləşir? (A – şimal, B – cənub) yarımkürəsində yerləşən dağın hansı yamacda yazda qar örtüyü daha tez əriyər? (*Cənub yamacda*)

LAYİHƏ

## D Biliklərin tətbiq edilməsi və yoxlanılması

**1.**

| Günün vaxtı / Şəhərlər | Saat 10:00 | | Saat 12:00 | | Saat 16:00 | |
|---|---|---|---|---|---|---|
| | Günəş | Kölgə | Günəş | Kölgə | Günəş | Kölgə |
| Bakı | Cənub-şərq | Şimal-qərb | Cənub | Şimal | Cənub-qərb | Şimal-şərq |
| Sidney | Şimal-şərq | Cənub-qərb | Şimal | Cənub | Şimal-qərb | Cənub-şərq |
| İstanbul | Cənub-şərq | Şimal-qərb | Cənub | Şimal | Cənub-qərb | Şimal-şərq |
| Qahirə | Cənub-şərq | Şimal-qərb | Cənub | Şimal | Cənub-qərb | Şimal-şərq |
| Braziliya | Şimal-şərq | Cənub-qərb | Şimal | Cənub | Şimal-qərb | Cənub-şərq |

**Xəritə üzrə iş**

– Hansı məntəqələrdə Günəş zenitdə ola bilər? *(A, L, K)*

– Yay gündönümündə hansı məntəqələrdə günəş şüalarının düşmə bucağı $0^0$-dir? *(B)*

– Qış gündönümündə D məntəqəsində günəş şüalarının düşmə bucağı neçə dərəcə ola bilər? *($90^0 – 30 + 23{,}5^0 = 83{,}5^0$)*

– Payız gecə-gündüz bərabərliyi günündə günəş şüalarının ən aşağı bucaqda göründüyü nöqtə hansıdır? (*B*)

– Günəş D məntəqəsində zenitdə olduğu vaxt C məntəqəsində hansı bucaqda görünür? *(D. Günəş D məntəqəsində zenitdə ola bilməz)*

**2.** $30^0$ şm.e-də yerləşən dağın yamacı cənuba doğru 9 dərəcə meyillidir. Martın 21-də günorta vaxtı yamacda günəşin düşmə bucağını hesablayın.

*21 martda $30^0$ ş.e-də günəş şüalarının düşmə bucağını təyin edək: $90^0 – 30^0=60^0$. Yamacda düşmə bucağını hesablayaq: $60^0 + 9^0=69^0$*

*Qiymətləndirmə meyarları: izahetmə, hesablama (təyinetmə)*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Günəş istiliyi və işığının Yer səthində qeyri-bərabər paylanmasını və obyektlərin kölgəsinin Yerin orbit üzrə hərəkəti və Yer oxunun meyilliliyi ilə bağlı olduğunu çətinliklə izah edir. | Günəş istiliyi və işığının Yer səthində qeyri-bərabər paylanmasını və obyektlərin kölgəsinin Yerin orbit üzrə hərəkəti və Yer oxunun meyilliliyi ilə bağlı olduğunu müəllimin sualları vasitəsilə izah edir. | Günəş istiliyi və işığının Yer səthində qeyri bərabər paylanmasını və obyektlərin kölgəsinin Yerin orbit üzrə hərəkəti və Yer oxunun meyilliliyi ilə bağlı olduğunu izah edərkən qeyri-dəqiqliyə yol verir. | Günəş istiliyi və işığının Yer səthində qeyri-bərabər paylanmasını və obyektlərin kölgəsinin Yerin orbit üzrə hərəkəti və Yer oxunun meyilliliyi ilə bağlı olduğunu səhvsiz izah edir. |
| Verilən məntəqələrdə fəsillərdən asılı olaraq günəş şüalarının düşmə bucağını çətinliklə təyin edir. | Verilən məntəqələrdə fəsillərdən asılı olaraq günəş şüalarının düşmə bucağını müəllimin köməyi ilə təyin edir. | Verilən məntəqələrdə fəsillərdən asılı olaraq günəş şüalarının düşmə bucağını təyin edərkən qeyri-dəqiqliyə yol verir. | Verilən məntəqələrdə fəsillərdən asılı olaraq günəş şüalarının düşmə bucağını səhvsiz təyin edir. |

LAYİHƏ

| | | | |
|---|---|---|---|
| Ərazinin meyilliliyini nəzərə alaraq Günəş şüalarının düşmə bucağını çətinliklə edir. | Ərazinin meyilliliyini nəzərə alaraq Günəş şüalarının düşmə bucağını müəllimin köməyi ilə təyin edir. | Ərazinin meyilliliyini nəzərə alaraq Günəş şüalarının düşmə bucağını təyin edərkən qeyri-dəqiqliyə yol verir. | Ərazinin meyilliliyini nəzərə alaraq günəş şüalarının düşmə bucağını səhvsiz təyin edir. |

## Dərs 12 / Mövzu 11: GÜNƏŞLİ SAATLARDAN İSTİFADƏ

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 1.2.1. Yerin hərəkətinin cəmiyyətin inkişafındakı rolunu əsaslandırır. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Müxtəlif enliklərdə sutkanın işıqlı saatlarının davamiyyətinin müxtəlifliyini izah edir.<br>• Günəş işığından istifadənin üstünlüyünə dair misallar göstərir. |

**A** **Şəkil üzrə iş.** Gecə və gündüz arasında uçuşların sayının bu qədər fərqli olmasını nə ilə əlaqələndirmək olar? (*insanlar günün işıqlı vaxtında işləməyə üstünlük verirlər, sərnişinlər biletləri işıqlı vaxtda alırlar, işıqlı vaxtda işləmək daha təhlükəsizdir*).

**B** Bu mövzunun öyrənilməsini müəllim BİBÖ strategiyasının köməyi ilə həyata keçirə bilər. Üsulun keçirilməsi alqoritmi:

1. Mətnin adı səsləndirilir və ya lövhədə yazılır. Bizim misalda: “Günəşli saatlardan istifadə”.
2. Şagirdlər dəftərlərinə BİBÖ cədvəlini çəkirlər.

| BİLİRƏM | İSTƏYİRƏM BİLƏM | ÖYRƏNDİM |
|---|---|---|
| | | |

3. Bir neçə dəqiqə ərzində onlar cədvəlin birinci qrafasını dolduraraq, buraya günəş işığından insanların istifadə etməsi haqqında onlara məlum olan məlumatları köçürürlər. İş qurtardıqdan sonra müəllim onların cavablarını ümumiləşdirərək lövhədə uyğun qrafaya yazır.
4. Şagirdlər cədvəlin ikinci qrafasına günəş işığından istifadə ilə bağlı bilmək istədiklərini müəyyən edərək yazırlar.
5. Şagirdlər dərslikdəki mətni oxuyur və öyrəndikləri informasiyanı cədvəlin 3-cü qrafasına yazırlar. Bu zaman şagirdlər informasiyanı dərslikdə verildiyi formada deyil, öz sözləri ilə yazmalıdırlar. Sonda görülən işlər müzakirə olunur. Şagirdlər cədvəlin 3-cü qrafasına yazdıqlarını oxuyurlar.
6. Cədvəlin 2-ci qrafası müzakirə olunur. Əgər şagirdlərin cavabını tapmadığı suallar qalıbsa, müəllim
   A) Şagirdlərdən kimin bu suallara cavab verə biləcəyini soruşur;
   B) Özü suallara cavab verir;
   C) Sualı ev tapşırığı kimi verir.

LAYİHƏ

## C Şəkil üzrə iş

1. Məntəqələrin hansında axşam, hansında səhər, hansında günorta, hansında isə gecəyarıdır?
   *(1–günorta , 2–axşam, 3–gecə, 4–səhər. Şagirdlər sarı rəngə görə günün işıqlı vaxtını, sarı, göy rəngə görə günəşin çıxması və batması vaxtını, qara rəngə görə isə gecəni müəyyən edirlər).*
2. Şimal, yoxsa Cənub yarımkürəsi daha çox işıq və istilik alır? (*Şimal*).
3. Nə üçün Şimal qütbətrafı tünd, Cənub qütbətrafı isə açıq rəngdə təsvir edilmişdir? (*Günəş bu vaxt daha çox Cənub yarımkürəsini işıqlandırır*).
4. Sxemə əsasən Bakıda hansı vaxtın olduğunu təyin edin. (*Bakıda qışdır)*

**Xəritə üzrə iş**

1. Xəritə-sxem əsasında cədvəli tamamlayın:

| Yay-qış vaxtı | | Ölkələr |
|---|---|---|
| (mavi) | İstifadə edilir | Avropa ölkələri, Kanada, ABŞ, Meksika |
| (narıncı) | Artıq istifadə edilmir | Asiya ölkələri, Şimali Afrika, Cənubi Amerikanın qərb ölkələri |
| (qırmızı) | Heç istifadə edilməmişdir | Mərkəzi Afrika ölkələri |

**Müzakirə edin:**

Aşağıdakı fikirlərdən hansı yuxarıdakı fikri əsaslandırır:
*(3. Gecə və gündüzün uzunluqları arasında fərqin az olması ilə).*

## D Biliklərin tətbiq edilməsi və yoxlanılması

**Dərsdən sonra.**

| Paralellər | Şimal yarımkürəsində gündüzün uzunluğu | Cənub yarımkürəsində gündüzün uzunluğu |
|---|---|---|
| 0 | 12 | 12 |
| 10 | 12:35 | 11:25 |
| 20 | 13:13 | 10:47 |
| 30 | 13:56 | 10:04 |
| 40 | 14:51 | 9:09 |
| 50 | 16:30 | 7:30 |
| 60 | 18:30 | 5:30 |
| 70 | 24:00 | 0:00 |
| 80 | 24:00 | 0:00 |
| 90 | 24:00 | 0:00 |

LAYİHƏ










2. Hansı saatda əqrəb yay vaxtına, hansı saatda isə qış vaxtına keçidi əks etdirir? (*a–yay, b–qış*)

*Qiymətləndirmə meyarları: izahetmə, misallar göstərmə*

| **I səviyyə** | **II səviyyə** | **III səviyyə** | **IV səviyyə** |
|---|---|---|---|
| Müxtəlif enliklərdə sutkanın işıqlı saatlarının davamiyyətinin müxtəlifliyini çətinliklə izah edir. | Müxtəlif enliklərdə sutkanın işıqlı saatlarının davamiyyətinin müxtəlifliyini müəllimin köməyi ilə izah edir. | Müxtəlif enliklərdə sutkanın işıqlı saatlarının davamiyyətinin müxtəlifliyini izah edərkən qeyri-dəqiqliyə yol verir. | Müxtəlif enliklərdə sutkanın işıqlı saatlarının davamiyyətinin müxtəlifliyini səhvsiz izah edir. |

LAYİHƏ

| | | | |
|---|---|---|---|
| Günəş işığından istifadənin üstünlüyünə dair misalları çətinliklə göstərir. | Günəş işığından istifadənin üstünlüyünə dair misalları müəllimin köməyi ilə göstərir. | Günəş işığından istifadənin üstünlüyünə dair bəzi misallar göstərir, lakin qeyri-dəqiqliyə yol verir. | Günəş işığından istifadənin üstünlüyünə dair müxtəlif misallar göstərir |

## Dərs 13/ Mövzu 12: PRAKTİK DƏRS. SAAT QURŞAQLARI

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 1.2.2. Vaxt və fəsil dəyişkənliyinə aid hesablamalar aparır. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Coğrafi koordinatlara görə məntəqələrin yerləşdiyi saat qurşaqlarını müəyyən edir.<br>• Saat qurşaqlarının orta meridianlarını təyin edir.<br>• Məntəqələr arasında qurşaq vaxtı fərqini hesablayır. |

### C Xəritə üzrə iş

1. Hansı ölkələrdə daha çox saat qurşaqları vardır? (*Rusiya, Kanada, ABŞ*)
2. ABŞ ərazisi neçə saat qurşağında yerləşir? (*Amerika Birləşmiş Ştatlarının Şimali Amerika materikində yerləşən ərazisində 4 saat qurşağı vardır, lakin buraya Havay və Aleut adalarının, həmçinin ayrı qurşaq vaxtına malik olan Alyaska ştatının yerləşdiyi saat qurşaqlarını əlavə etmək olar. ABŞ-a öz qurşaq vaxtları olan çoxlu sayda adalar daxildir, məsələn, Quam və Amerika Samoası. Nəticədə ABŞ 11 saat qurşağında yerləşir).*
3. Hansı ölkənin ərazisi bir neçə saat qurşağı daxilində yerləşə biləcəyi halda vahid saat tətbiq edilir? (*Çin, İran, Hindistan, Argentina, Norveç*).

Dərsin məqsədi praktik tapşırıqların yerinə yetirilməsi vərdişlərini inkişaf etdirmək olduğu üçün fəaliyyət mərhələlərinin müəyyən alqoritmini əsas götürmək yaxşı olar. Bir tapşırığın nümunəsində mövzunu şagirdlərə izah etmək olar:

1. Əldə edilən biliklər tətbiq edilir. (*Oxşar tapşırığı birgə yerinə yetirmək*).
2. Əldə edilən bilikləri möhkəmləndirilir. (*Oxşar tapşırığı şagird müstəqil yerinə yetirir*).
3. Şagirdlərə daha mürəkkəb tapşırıqlar verilir.

### D Biliklərin tətbiq edilməsi və yoxlanılması

1. VII və XI saat qurşaqlarının orta meridianlarını təyin edin ($7x15^o=105\ ^o$*ş.u.*; $11x15^o=165\ ^o$*ş.u.*)
2. IV və XIX saat qurşaqlarının orta meridianları arasında coğrafi uzunluq fərqini təyin edin (*60 + ( 360-285) =135*
3. A məntəqəsi V saat qurşağının orta meridianından $5^0$ qərbdə yerləşir. O, hansı coğrafi uzunluqdadır? ($5x15^o = 75^o, 75^o – 5^o = 70^o$ *ş.u.)*
4. Ekvator xətti üzərində yerləşən A məntəqəsi III saat qurşağının orta meridianından $20^0$ şərqdə, B məntəqəsi isə XX saat qurşağının orta meridianından $20^0$ qərbdə

LAYİHƏ

yerləşirsə, məntəqələr arasında dərəcə fərqini tapın. (*A-3x15*$^o$*=45*$^o$ *45*$^o$ *+20*$^o$ *=65*$^o$ *ş.u. B-20x15*$^o$ *=300* $^o$ *ş.u. 360*$^o$ *– 300*$^o$ *=60*$^o$ *q.u. ; 60*$^o$ *q.u. +20=80* $^o$ *q.u. A-B =65*$^o$*+80*$^o$ *=145*$^o$)

5. Astanada (IV saat qurşağı) saat 12:30-dur, Tokioda (IX saat qurşağı) saat neçədir? *(9–4=5 12:30+5=17.30)*

6. Nyu York şəhəri 73$^0$q.u.-da yerləşir. Onun hansı saat qurşağında yerləşdiyini tapın. (*73*$^o$*:15*$^o$ *= 4, qalıq 8*$^o$*. 24 – 5=19*)

7. Məntəqələrdə saat qurşaqlarını təyin edin *(XXI, O, I, V).*

8. A məntəqəsində (20$^o$ c.e. 130$^o$ ş.u.) quraq vaxtı ilə saat 20.00 olarsa, B məntəqəsində (40$^o$ ş.e 53$^o$ q.u.) qurşaq vaxtını hesablayın. (*A–130*$^o$*:15*$^o$ *=8*$^o$ *(qalıq 10*$^o$*) (9)*; B–53:15=3 (*qalıq 8*) (4); 24–4=20; 24–20+9=13; 20:00–13:00=7:00).

9. Bakı şəhərində qurşaq və yerli vaxt arasında fərqi tapın. *(15*$^o$*x3=45*$^o$ *50*$^o$ *–45*$^o$*=5*$^o$ *5x4=20 dəqiqə).*

10. Hansı məntəqələrdə yerli və qurşaq vaxtı arasında vaxt fərqi yoxdur? *(2,3,5)*

*Qiymətləndirmə meyarları: müəyyənetmə, təyinetmə, hesablama*

| **I səviyyə** | **II səviyyə** | **III səviyyə** | **IV səviyyə** |
|---|---|---|---|
| Coğrafi koordinatlara görə məntəqələrin saat qurşaqlarını müəyyən etməkdə çətinlik çəkir. | Coğrafi koordinatlara görə məntəqələrin saat qurşaqlarını müəllimin köməyi ilə müəyyən edir. | Coğrafi koordinatlara görə məntəqələrin saat qurşaqlarını müəyyən edərkən qeyri-dəqiqliyə yol verir. | Coğrafi koordinatlara görə məntəqələrin saat qurşaqlarını düzgün müəyyən edir. |
| Saat qurşağının orta meridianını çətinliklə təyin edir. | Saat qurşağının orta meridianını müəllimin köməyi ilə təyin edir. | Saat qurşağının orta meridianını təyin edərkən qeyri-dəqiqliyə yol verir. | Saat qurşağının orta meridianını düzgün təyin edir. |
| Məntəqələr arasında qurşaq vaxtı fərqini çətinliklə hesablayır. | Məntəqələr arasında qurşaq vaxtı fərqini müəllimin köməyi ilə hesablayır. | Məntəqələr arasında qurşaq vaxtı fərqini hesablayarkən qeyri-dəqiqliyə yol verir. | Məntəqələr arasında qurşaq vaxtı fərqini düzgün hesablayır. |

LAYİHƏ

## Dərs 14/ Mövzu 13: GÜNƏŞ RADİASİYASI VƏ İQLİM

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 2.1.3. Atmosferdə baş verən hadisə və proseslərin iqtisadi həyata təsirini təhlil edir.<br>1.2.1. Yerin hərəkətinin cəmiyyətin inkişafındakı rolunu əsaslandırır.<br>1.2.2. Vaxt və fəsil dəyişkənliyinə aid hesablamalar aparır. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Havanın temperaturunun günəş radiasiyasının növündən, yer səthinin albedosundan asılılığını izah edir.<br>• Günəş radiasiyasının insanların həyat və fəaliyyətinə təsirini dəyərləndirir.<br>• Günəş radiasiyasına dair hesablamalar aparır. |

**A Xəritə üzrə iş**

Tapşırıqda xəritə-sxemdə məntəqələri orta illik temperaturunun artan sırasına uyğun olaraq ardıcıl düzmək tələb olunur (6, 3, 5, 4, 2, 1).

– Məntəqələrdə orta illik temperatura hansı amillər təsir edir? (*Günəş şüalarının düşmə bucağı*).

**B** Mətnlə iş aşağıdakı sxemin qurulması ilə müşayiət oluna bilər:




Mətnlə işləyərkən açar sözlər üsulundan istifadə etmək olar: şaqirdlər verilən terminlərə suallar tərtib etməlidirlər.

**Düz radiasiya** –Yer səthinə maneəsiz çatan və səthdə kölgə yaradan şüalar
**Səpələnən radiasiya** – su buxarı, buludlar, aerozollar tərəfindən səpələnərək Yer səthinə müxtəlif istiqamətlərdən daxil olan şüalar
**Ümumi radiasiya** – düz və səpələnən radiasiyanın cəmi
**Albedo** – Yerin quru və su sahələrinin günəş şüalarını əksetdirmə qabiliyyəti

LAYİHƏ

**C** **Sxem üzrə iş.** Ekvatordan qütblərə doğru ümumi günəş radiasiyasının dəyişməsinə aid mətndəki rəqəmlərdən istifadə edərək qrafiki tamamlayın.
– Müzakirə edin:
Ümumi günəş radiasiyasının ekvatordan qütblərə doğru coğrafi enliklər üzrə dəyişməsinin səbəbi nədir? (*Günəş şüalarının düşmə bucağı*).

Ümumi radiasiyanın illik kəmiyyəti (kkal/sm$^2$/ilə)




| Enliklər | Ümumi radiasiyanın illik kəmiyyəti |
|---|---|
| ekvatorial | 140-145 kkal/sm$^2$/il |
| tropik | 200-220 kkal/sm$^2$/il |
| mülayim | 100-140 kkal/sm$^2$/il |
| qütb | 50-60 kkal/sm$^2$/il |

**Şəkil üzrə iş. Su və buzun istilik tutumu**
– Buzun istilikudma qabiliyyəti su ilə eyni olsaydı, Yer kürəsində hansı dəyişikliklər baş verərdi? (*buzlaqlar əriyərdi, əks olunan radiasiya azalar, udulan radiasiya artardı və bu səbəbdən Yer səthi daha çox qızardı, Yerin iqlimi dəyişər, istiləşmə başlayardı*).

**D** **Biliklərin tətbiq edilməsi və yoxlanılması**

1. Günəşdən gələn ümumi radiasiyanın miqdari 120 kkal/sm$^2$-dir. Radiasiyanın 10 kkal/sm$^2$ buludlar tərəfindən udulur, qalan radiasiyanın 40%-i Yer səthindən əks olunur. Udulan radiasiyanın miqdarını təyin edin, məsələni sxem şəklində dəftərə çəkin.




120 kkal/sm$^2$ – 10 kkal/sm$^2$ =110 kkal/sm$^2$

110 kkal/sm$^2$ – 100%
x – 40%
x=44 kkal/sm$^2$
110 – 44=66 kkal/sm$^2$

2. Mətndən istifadə edərək Yer planetində günəş radiasiyasının roluna dair fikirlərinizi cədvələ yazın.

LAYİHƏ

| + | – |
|---|---|
| Günəş enerjisi bütün meteoroloji, kimyəvi, hidroloji, bioloji və s. proseslərin mənbəyidir.<br>Günəşdən gələn düz radiasiya insan orqanizmində D vitamininin yaradıcısıdır. Bitkilərin boy atması, onların məhsuldarlığı bilavasitə günəş enerjisindən asılıdır. | günvurma hadisələri |

3. **Xəritə üzrə iş.** Xəritə-sxemdəki məntəqələri ümumi günəş radiasiyasının miqdarına uyğun olaraq qruplaşdırın və cədvəli tamamlayın.

| Günəş radiasiyası (kkal/sm$^2$) | Məntəqələr |
|---|---|
| 140-145 | 7, 3, 13 |
| 200-220 | 1, 4, 12 |
| 100-140 | 8, 5, 6, 11 |
| 50-60 | 2, 9, 10,14 |

*Qiymətləndirmə meyarları: izahetmə, dəyərləndirmə, hesablama*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Havanın temperaturunun günəş radiasiyasının növündən, Yer səthinin albedosundan asılılığını çətinliklə izah edir. | Havanın temperaturunun günəş radiasiyasının növündən, Yer səthinin albedosundan asılılığını müəllimin köməyi ilə izah edir. | Havanın temperaturunun günəş radiasiyasının növündən, Yer səthinin albedosundan asılılığını izah edərkən qeyri-dəqiqliyə yol verir. | Havanın temperaturunun günəş radiasiyasının növündən, Yer səthinin albedosundan asılılığını düzgün izah edir. |
| Günəş radiasiyasının insanların həyat və fəaliyyətinə təsirini çətinliklə dəyərləndirir. | Günəş radiasiyasının insanların həyat və fəaliyyətinə təsirini dəyərləndirərkən müəllimin köməyindən istifadə edir. | Günəş radiasiyasının insanların həyat və fəaliyyətinə təsirini dəyərləndirərkən qeyri-dəqiqliyə yol verir. | Günəş radiasiyasının insanların həyat və fəaliyyətinə təsirini düzgün dəyərləndirir. |
| Günəş radiasiyasına dair hesablamaları çətinliklə aparır. | Günəş radiasiyasına dair hesablamalar apararkən kobud səhvlərə yol verir. | Günəş radiasiyasına dair hesablamalar apararkən qeyri-dəqiqliyə yol verir. | Günəş radiasiyasına dair düzgün hesablamalar aparır. |

LAYİHƏ

## Dərs 15 / Mövzu 14: **AVROPANIN İQLİMİ**

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 2.1.3. Atmosferdə baş verən hadisə və proseslərin iqtisadi həyata təsirini təhlil edir.<br>2.1.4. İqlim xəritələrini oxuyur, nəticələrini təqdim edir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Mətndəki məlumatlardan, xəritə-sxemlərdən və diaqramlardan istifadə edərək Avropanın iqlimin xüsusiyyətlərini təsvir edir.<br>• Avropa təsərrüfatının ixtisaslaşmasına iqlimin təsirini qiymətləndirir.<br>• Avropanın sinoptik və iqlim xəritəsini oxuyur. |

**A** Tapşırığı yerinə yetirməzdən əvvəl şagirdlər aşağı siniflərdə əldə etdikləri siklon, antisiklon, izobar, atmosfer cəbhələri haqqında bilikləri yadlarına salmalıdırlar.

**Xəritə üzrə iş. Avropanın sinoptik xəritəsi**

Sinoptik xəritəni fiziki xəritə ilə müqayisə edin və suallara cavab verin.

1. Ən alçaq atmosfer təzyiqi harada müşahidə edilir? *(İslandiya üzərində 746 mm, İslandiya və Qrenlandiya arasında 744 mm).*
2. Ən yüksək atmosfer təzyiqi harada müşahidə edilir? (*Böyük Britaniya adasında*).
3. Hansı ölkələrin ərazisindən soyuq atmosfer cəbhəsi keçir? (*Böyük Britaniya, Norveç).*
4. Xəritəyə görə "Külək İslandiyadan Böyük Britaniyaya doğru əsir?" ifadəsi doğrudurmu? (*Xeyr, külək əks istiqamətdə, İslandiyaya doğru, yəni yüksək təzyiq vilayətindən alçaq təzyiq sahəsinə əsir*.

**B** Yeni informasiyanın öyrənilməsini aşağıdakı cədvəlin doldurulması ilə müşayiət etmək olar. Bu zaman şagirdlər təkcə mətndən deyil, həm də **Biliklərin tətbiq edilməsi və yoxlanılması** blokunda verilmiş xəritə və qrafiklərdən istifadə etməlidirlər.

| İqlim qurşağı | İqlim xüsusiyyətləri | Təsərrüfata təsiri |
|---|---|---|
| Arktik | Yayda temperatur $0^0$C-dən yuxarı, yağıntının miqdarı 300-350 mm-ə çatır. | əlverişsiz |
| Subarktik | yağıntılar fəsillər üzrə qeyri-bərabər düşür. Yay aylarında yağıntıların maksimum miqdarı düşür.<br>Yağıntı və temperatur qışda minimuma çatır. | əlverişsiz; ərazinin cəmi 2-8 %-i kənd təsərrüfatında istifadə olunur. |
| Mülayim | Qərbi Avropanın ərazisi daha rütubətli, Şərqi Avropanın ərazisi isə nisbətən kontinentaldır. Yağıntıların miqdarı düzənliklərdə 600 mm-dən dağlarda 1000 mm-ə qədər dəyişir. Ən soyuq aylar yanvar, fevral, isti aylar isə iyul, avqust aylarıdır. | heyvandarlığın inkişafına imkan verir |

LAYİHƏ

| | | |
|---|---|---|
| Subtropik | yay ayları quru olur, yağıntı, əsasən, ilin soyuq dövründə düşür. Yağıntıların miqdarı düzən ərazilərdə 200-500 mm-dən dağlarda 1000 mm çox | bitkiçilik heyvandarlıqdan daha üstündür, zeytun, sitrus, üzüm, şəkər çuğunduru və s. əkinləri üzrə fərqlənir; təbii turizm ehtiyatlarına malikdir |

**Xəritə üzrə iş. Avropada illik yağıntıların miqdarı**

1. Avropanın hansı hissəsində yağıntının miqdarı daha azdır? *(şərq hissədə).*
2. Qitənin hansı hissəsinə daha çox yağıntı düşür? (*Okean sahillərində – Böyük Britaniya, Norveç, İslandiya, həmçinin dağlıq ərazilərdə – Alp dağlarında*).
3. Qərbdən şərqə doğru hərəkət etdikcə yağıntının miqdarı necə dəyişir? (*yağıntıların miqdarı azalır*)
4. Siyasi xəritədən və yağıntıların paylanmasını göstərən xəritə-sxemdən istifadə edərək daha çox yağıntı düşən 2 Avropa ölkəsinin adını çəkin. Bu ölkələrdə yağıntının miqdarını müəyyən edin.

*Ən çox yağıntı (1000-2000 mm) Skandinaviya dağlarının külək tutan qərb yamacları, Böyük Britaniyanın qərbi, Alp, Apennin və Dinar dağlarının qərb yamaclarına düşür. Şərqə doğru getdikcə havada rütubətin miqdarı, deməli, yağıntıların da miqdarı 400 mm-ə qədər azalır. Şagirdlər ilk olaraq Böyük Britaniya, İslandiya, Norveçin adlarını söyləyəcəklər. Avropada ən çox yağıntı Srkvitsedə (Dinar yaylası, Monteneqro) 6000 mm, ən az yağıntı isə Xəzəryanı ovalıqda (150 mm) düşür.*

**Xəritə üzrə iş**

Avropa ölkələrini iqlim qurşaqlarına uyğun olaraq qruplaşdırın və cədvəli tamamlayın:

| **İqlim qurşaqları** | **Ölkələr** |
|---|---|
| Subtropik | Yunanıstan, İtaliya, İspaniya, Portuqaliya |
| Mülayim | Norveç, İsveç, Böyük Britaniya, Polşa, Almaniya, Danimarka, Belçika, Rusiya |
| Subarktik | İslandiya, Norveçin və Rusiyanın şimalı |
| Arktik | Qrenlandiya, Şpisbergen (Norveç), Frans-İosif torpağı, Novaya Zemlya (Rusiya) |

**Sxem üzrə iş. Temperaturun illik gedişi**

1. Temperaturun illik gedişi qrafiklərinə baxın, London və Moskva şəhərlərinin iki fərqli cəhətini göstərin.

*1. Londonda aşağı (Qərbi Avropa), Moskvada isə (Şərqi Avropa) yüksək temperatur amplitudu müşahidə olunur.*
*2. Qışda Londonda temperatur Moskvaya nisbətən yüksək olur.*

LAYİHƏ

Cədvəli dəftərinizə çəkin və onu tamamlayın. London və Moskvanın temperatur səciyyəsini müqayisə edərək, hansı nəticəyə gəlmək olar?

| | **London** | **Moskva** |
|---|---|---|
| Ən isti ay | iyul | iyul |
| Ən isti ayın temperaturu | 18 $^{0}$C | 20 $^{0}$C |
| Ən soyuq ay | Yanvar, fevral | Yanvar, fevral |
| Ən soyuq ayın temperaturu | 4-5 $^{0}$C | -10 $^{0}$C |
| İllik temperatur amplitudu | 13-14 $^{0}$C | 25-30 $^{0}$C |

*Nəticə: Londonun iqlimi daha yumşaqdır.*

### D Biliklərin tətbiq edilməsi və yoxlanılması

**Xəritə üzrə iş**

1. İqlim diaqramına əsasən suallara cavab verin:
a) Yanvar ayında temperatur necə dərəcə olur? *(8-10 dərəcə)*
b) Qışın 3 ayı ərzində cəmi nə qədər yağıntı düşdüyünü müəyyən edin. *(110+110+100=320 mm)*
c) İyul ayında temperatur necə dərəcə olur? *(30 dərəcə)*
d) Yayın 3 ayı ərzində təqribən nə qədər yağıntı düşdüyünü müəyyən edin. *(50+65+40=155 mm)*

2. Cənubi Avropa ölkələri turizmin yaxşı inkişaf etməsi ilə səciyyələnir. Turizmin inkişafında iqlimin rolu nədən ibarətdir? (*Aralıq dənizində isti və quru yay buranı turizm zonasına çevirmişdir*)

4. İqlim qurşaqları və Qərbi Avropada kənd təsərrüfatının ixtisaslaşma sahələri xəritə-sxeminə əsasən cədvəli tamamlayın.

| İqlim qurşağı | Kənd təsərrüfatının ixtisaslaşma sahəsi |
|---|---|
| Arktik | - |
| Subarktik | İstifadə olunmayan geniş ərazilər, dağ-otlaq heyvandarlığı |
| Mülayim | Əkinçilik (taxıl bitkiləri, şəkər çuğunduru, kartof), ətlik-südlük heyvandarlıq |
| Subtropik | Tərəvəzçilik, meyvəçilik, üzümçülük |

*Qiymətləndirmə meyarları: təsviretmə, qiymətləndirmə, xəritə ilə işləmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Avropanın iqlim xüsusiyyətlərini çətinliklə təsvir edir. | Avropanın iqlim xüsusiyyətlərini müəllimin köməyi ilə təsvir edir. | Avropanın iqlim xüsusiyyətlərini təsvir edərkən qeyri-dəqiqliyə yol verir. | Avropanın iqlim xüsusiyyətlərini düzgün təsvir edir. |
| Avropada təsərrüfatın ixtisaslaşmasına iqlimin təsirini çətinliklə qiymətləndirir. | Avropada təsərrüfatın ixtisaslaşmasına iqlimin təsirini müəllimin köməyi ilə qiymətləndirir. | Avropada təsərrüfatın ixtisaslaşmasına iqlimin təsirini qiymətləndirərkən qeyri-dəqiqliyə yol verir. | Avropada təsərrüfatın ixtisaslaşmasına iqlimin təsirini düzgün qiymətləndirir. |

LAYİHƏ

| | | | |
|---|---|---|---|
| İqlim və sinoptik xəritələrdən məlumatı çətinliklə əldə edir. | İqlim və sinoptik xəritələrdə şərti işarələri bilir, lakin məlumatı təhlil edə bilmir. | İqlim və sinoptik xəritələrdən məlumatı təhlil edərkən qeyri-dəqiqliyə yol verir. | İqlim və sinoptik xəritələrdən məlumatı səhvsiz təhlil edir, proqnoz verir. |

## Dərs 16 /Mövzu 15: ASİYANIN İQLİMİ

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 2.1.3. Atmosferdə baş verən hadisə və proseslərin iqtisadi həyata təsirini təhlil edir.<br>2.1.4. İqlim xəritələrini oxuyur, nəticələrini təqdim edir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Mətndəki məlumatlardan, xəritə-sxemlərdən və diaqramlardan istifadə edərək Asiyanın iqliminin xüsusiyyətlərini təsvir edir.<br>• Asiya təsərrüfatının ixtisaslaşmasına iqlimin təsirini qiymətləndirir.<br>• Atmosferdə baş verən proseslərin iqtisadiyyata təsirini dəyərləndirir (tayfun, çoxillik donuşluq). |

**A Şəkil üzrə iş. Filippində tayfunun fəsadları**

1. Filippindən tayfun keçərkən dağıntının daha çox şəhərlərdə yox, kənd yerlərində olması faktını nə ilə izah etmək olar? (*tikililərin keyfiyyəti ilə, belə ki, kəndlərdə müvəqqəti evlər ağacdan və sənaye tullantılarından tikilir*).
2. Nə üçün Filippinə ilk yardımı qonşuluqda yerləşən Cənub-Şərqi Asiya ölkələri deyil, ABŞ və Böyük Britaniya göstərmişdi? (*kömək üçün maddi vəsait tələb olunur. ABŞ və Böyük Britaniya inkişaf etmiş ölkələrdir və onlar zəruri vəsaitlərə malikdirlər*).
3. Filippin iqtisadiyyatının hansı sahələri tayfundan daha çox ziyan çəkmişdir? (*kənd təsərrüfatında istifadə olunan ərazilər, elektrik verilişi xətləri, telefon və kommunikasiya əlaqələri sistemi, infrastruktur obyektləri*)

İnternet resursları:
https://www.youtube.com/watch?v=RGFCt5vzrkU (2 dəq. rus.d.)
https://www.youtube.com/watch?v=fEkFTpXFDf0 (47dəq. rus d.)
Müəllim çox vaxt aparan videomaterialın məqsədəuyğun hesab etdiyi fraqmentlərindən istifadə edə bilər.

**B** Yeni informasiyanın öyrənilməsini dəftərlərdə cədvəlin doldurulması ilə müşaiyət etmək olar:

| | İqlimyaradıcı amil | Nəticələri |
|---|---|---|
| 1 | Ölçülərinin böyük olması | İqlimin müxtəlifliyi (arktik qurşaqdan ekvatoriala qədər) |
| 2 | Qurunun ölçüləri və sahillərin parçalanması | Asiyanın mərkəzi hissəsində iqlimin kontinentallığı |

LAYİHƏ

| | | |
|---|---|---|
| 3 | Atmosfer sirkulyasiyası (küləklər) | Yayda musson iqlimli ərazilərin (Cənubi və Şərqi Asiya sahilləri) rütubətliliyi. |
| 4 | Relyef | Yağıntıların qeyri-bərabər paylanması, yüksəklik qurşaqlarının formalaşması |

Mətni öyrənərkən onun planınını qurulması mövzunu daha yaxşı yadda saxlamaq üçün faydalı olardı:

1. Tayfunlar və onların əhalinin həyat və təsərrüfatına təsiri.
2. İqliməmələgətirən amillər. Onların Asiyanın iqliminin formalaşmasına təsiri: a) ərazinin böyüklüyü; b) sahil xətlərinin zəif parçalanması; c) atmosfer sirkulyasiyası; d) relyef.
3. Asiyanın iqlim qurşaqları, onların qısa səciyyəsi: 1) arktik; 2) subarktik; 3) mülayim; 4) subtropik; 5) tropik; 6) subekvatorial; 7) ekvatorial.

**C Xəritə üzrə iş. Avrasiyanın iqlim qurşaqları**

Asiya ölkələrinin iqlim qurşaqlarına uyğun olaraq qruplaşdırın və cədvəli tamamlayın:

| **Arktik** | **Subark-tik** | **Mülayim** | **Subtropi k** | **Tropik** | **Subekva-torial** | **Ekvatorial** |
|---|---|---|---|---|---|---|
| Rusiya | Rusiya | Rusiya, Monqolus-tan, Çin, KXDR, Azərbaycan, Yaponiya (Hokkaydo, Hosünün şi-malı) | Azərbay-can, İsrail, İraq, İran, Türkmə-nistan, Türkiyə Yaponiya, Çin | Səudiy-yə Ərə-bistanı, İran, Yəmən, Pakistan | Hindistan, Tailand, Vyetnam, Laos | Malayziya, İndoneziya |

**Sxem üzrə iş**

1. Subarktik qurşaqda qışda yağıntının nə üçün az düşdüyünü izah edin. (*qışda burada quru arktik hava kütlələri hakim olur)*

2. Subarktik qurşaqda ilin hansı dövründə şimal-şərq küləkləri üstünlük təşkil edir? Niyə? (*qışda, çünki arktik hava kütlələri hakimdir*)

**D Biliklərin tətbiq edilməsi və yoxlanılması**

1. Xəritə-sxemə əsasən Asiyanın iqliminə təsir göstərən küləklərin adını müəyyən edin. (*1. Şimal-şərq küləyi 2. Passat 3. Qış mussonu 4. Yay mussonu)*

3. Cədvəli tamamlayın.

| İqlim qurşağı | Əhalinin təsərrüfat fəaliyyəti |
|---|---|
| 1. Arktik | Təsərrüfat inkişaf etməyib |
| 2. Subarktik | Əkinçiliyi inkişaf etdirmək üçün imkan yoxdur. Əhalinin əsas məşğuliyyəti maralçılıq və xəz dəri heyvandarlığının inkişaf etdirilməsidir. |



LAYİHƏ

| | |
|---|---|
| 3. Mülayim | Şimal hissəsində çöllərdə heyvandarlığın inkişafı üçün şərait vardır. Burada, əsasən, taxıl bitkiləri əkilir. |
| 4. Subtropik | Pambıqçılıq, üzümçülük, tərəvəzçilik, meyvəçilik, qoyunçuluq və s. |
| 5. Tropik | Əkinçilikdə suvarmanın tətbiqini tələb edir. |
| 6. Subekvatorial | Çəltik, cut, çay, təbii kauçuk (heveya), şəkər qamışı, pambıq və s. qiymətli bitkilərin becərildiyi regionlardır. |
| 7. Ekvatorial | Əkinçilik və heyvandarlıq zəif inkişaf etmişdir. |

*Qiymətləndirmə meyarları: təsviretmə, dəyərləndirmə (qiymətləndirmə)*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Asiyanın iqliminin xüsusiyyətlərini çətinliklə təsvir edir. | Asiyanın iqliminin xüsusiyyətlərini müəllimin suallarının köməyi ilə təsvir edir. | Asiyanın iqliminin xüsusiyyətlərini təsvir edərkən qeyri-dəqiqliyə yol verir. | Asiyanın iqliminin xüsusiyyətlərini düzgün təsvir edir. |
| Asiya təsərrüfatının ixtisaslaşmasına iqlimin təsirini çətinliklə dəyərləndirir. | Asiya təsərrüfatının ixtisaslaşmasına iqlimin təsirini müəllimin suallarının köməyi ilə dəyərləndirir. | Asiya təsərrüfatının ixtisaslaşmasına iqlimin təsirini dəyərləndirərkən qeyri-dəqiqliyə yol verir. | Asiya təsərrüfatının ixtisaslaşmasına iqlimin təsirini düzgün dəyərləndirir. |
| Atmosferdə baş verən proseslərin (tornado, çoxillik donuşluq) iqtisadiyyata təsirini çətinliklə qiymətləndirir. | Atmosferdə baş verən proseslərin (tornado, çoxillik donuşluq) iqtisadiyyata təsirini müəllimin suallarının köməyi ilə qiymətləndirir. | Atmosferdə baş verən proseslərin (tornado, çoxillik donuşluq) iqtisadiyyata təsirini qiymətləndirərkən qeyri-dəqiqliyə yol verir. | Atmosferdə baş verən proseslərin (tornado, çoxillik donuşluq) iqtisadiyyata təsirini düzgün qiymətləndirir. |

## Dərs 17 /Mövzu 16: ŞİMALİ AMERİKANIN İQLİMİ

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 2.1.3. Atmosferdə baş verən hadisə və proseslərin iqtisadi həyata təsirini təhlil edir.<br>2.1.4. İqlim xəritələrini oxuyur, nəticələrini təqdim edir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Mətndəki məlumatlardan, xəritə-sxemlərdən və diaqramlardan istifadə edərək Şimali Amerikanın iqliminin xüsusiyyətlərini təsvir edir.<br>• Atmosferdə baş verən proseslərin iqtisadiyyata təsirini dəyərləndirir (tornado, daimi donuşluq). |

**A Mətn və şəkil üzrə iş**

Suallara cavab verin:

1. Hansı halda məktəblərdə həyəcan siqnalı verilə bilər? *(yanğın, təbii fəlakətlər zamanı xəbərdarlıq üçün*)

LAYİHƏ

3. Azərbaycan məktəbliləri tornado zamanı necə hərəkət etmək lazım gəldiyini bilməlidirlərmi? Cavabınızı əsaslandırın (*respublikamızda tornado müşahidə edilmir, lakin heç vaxt artıq bilik ziyan verməz*).
4. Azərbaycan əhalisi hansı fəlakətli atmosfer hadisələrinin baş verməsinə hazır olmalıdır? *(qasırğa küləkləri*)
İnternet resurslar:
https://www.youtube.com/watch?v=sHgOn5s-MCw (tornado 3 dəq.)

**B** Mətnə aid suallar hazırlamaq metodundan istifadə edin. Bu üsul şagirdlərdə sual qurmaq vərdişlərini formalaşdırır. Onu həm fərdi formada, həm də cütlərlə tətbiq etmək olar. Şagirdlər mətni abzaslar üzrə oxuyaraq ona aid sualları dəftərlərinə yazırlar. İş bitdikdən sonra şagirdlər bir-birinə suallar verirlər və hər biri sinif yoldaşlarının hazırladığı suallara cavab verir.
*Nümunə:*

| | |
|---|---|
| Şimali Amerikanın iqliminin formalaşmasına təsir edən ən mühüm amil materikin *coğrafi mövqeyidir*. Asiya qitəsində olduğu kimi, Şimali Amerika materiki də böyük bir məsafədə şimaldan cənuba doğru uzanır. Şimal qütbünə yaxın yerləşən Şimali Amerika soyuq arktik hava kütlələrinin təsirinə məruz qalır. Şimal Buzlu okeanından əsən şimal-şərq küləkləri hətta materikin mərkəzi hissələrinin temperaturunu xeyli aşağı salır. | Asiya və Şimali Amerikanın coğrafi mövqeyində hansı ümumi cəhətlər vardır? Şimal Buzlu okeanı Şimali Amerikanın iqliminə necə təsir edir? |

Mətnin öyrənilməsində ardıcıl sualların verilməsi (cütlərlə oxuma) metodunu da tətbiq etmək olar ki, bu da şagirdlərə mətni diqqətlə oxuyaraq onu başa düşməyə kömək edir. Şagirdlər növbə ilə mətnin əsas hissəsini ucadan oxuyurlar. Şagirdlərdən biri abzası oxuduqdan sonra ikincisi oxunan abzasdan suallar verir, birinci şagird isə bu suallara cavab verir. Sonra onlar rollarını dəyişirlər. Sual verən şagird mətni oxumağa davam edir, ikinci isə oxunan abzasdan ona suallar verir.

Bu dərsdə şagirdlərdə prosesi mərhələlərə bölmək, səbəb-nəticə əlaqələrini ayırmaq vərdişlərinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirmək lazımdır.

## C Sxem üzrə iş

1. Ölkənin cənub ştatlarında leysan yağışlar yağmışdır.

⇨

2. İntensiv yağışlar yığılan pambıq məhsulu yararsız hala düşmüşdür.

⇨

3. Mahlıcın miqdarının azalması yüngül sənaye müəssisələrinin işinə mənfi təsir göstərmişdir. Belə ki, bu müəssisələrə daxil olan xammal azalmış, nəticədə son pambıq məhsullarının qiyməti qalxmışdır.

LAYİHƏ

**Xəritə üzrə iş. Atmosfer yağıntılarının orta illik miqdarı**

1. Ən çox yağıntı hara düşür? (*materikin qərb sahilinə*)
2. Ən az yağıntı hara düşür? *(şimala və materikin cənub-qərbinə)*.
3. Atlantik okeanı sahillərinə nə qədər yağıntı düşür? *(1000-2000 mm)*
4. Materikdə yağıntıların miqdarı hansı istiqamətdə azalır? (*okean sahillərindən materikin mərkəzinə doğru*)

**D Biliklərin tətbiq edilməsi və yoxlanılması**

İqlim diaqramlarını (A, B, C, D) təhlil edin və cədvəli tamamlayın

| Məntəqə | İqlim xüsusiyyətləri | | | İqlim qurşağı |
|---|---|---|---|---|
| | Temperatur | | Yağıntı | |
| | Yay | Qış | | |
| 1. D | +5 | -25 | 189 | subarktik |
| 2. C | +20 | -15 | 312 | mülayim |
| 3. B | +25 | +10 | 367 | subtropik |
| 4. A | +30 | +20 | 473 | tropik |

*Qiymətləndirmə meyarları: təsviretmə, qiymətləndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Şimali Amerika iqliminin xüsusiyyətlərini çətinliklə təsvir edir. | Şimali Amerika iqliminin xüsusiyyətlərini müəllimin verdiyi sualların köməyi ilə təsvir edir. | Şimali Amerika iqliminin xüsusiyyətlərini təsvir edərkən qeyri-dəqiqliyə yol verir. | Şimali Amerika iqliminin xüsusiyyətlərini düzgün təsvir edir. |
| Atmosferdə baş verən proseslərin (tornado, çoxillik donuşluq) iqtisadiyyata təsirini çətinliklə qiymətləndirir. | Atmosferdə baş verən proseslərin (tornado, çoxillik donuşluq) iqtisadiyyata təsirini müəllimin suallarının köməyi ilə qiymətləndirir. | Atmosferdə baş verən proseslərin (tornado, çoxillik donuşluq) iqtisadiyyata təsirini qiymətləndirərkən qeyri-dəqiqliyə yol verir. | Atmosferdə baş verən proseslərin (tornado, çoxillik donuşluq) iqtisadiyyata təsirini düzgün qiymətləndirir. |

LAYİHƏ

## Dərs 18/ Mövzu 17: **CƏNUBİ AMERİKANIN İQLİMİ**

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 2.1.3. Atmosferdə baş verən hadisə və proseslərin iqtisadi həyata təsirini təhlil edir.<br>2.1.4. İqlim xəritələrini oxuyur, nəticələrini təqdim edir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Mətndəki məlumatlardan, iqlim xəritə-sxemlərindən və diaqramlardan istifadə edərək Cənubi Amerikanın iqliminin xüsusiyyətlərini təsvir edir. |

### A Müzakirə edin

1. Dünyanın quraq regionlarında su əldə edilməsinin hansı qeyri-adi üsulları barədə eşitmisiniz? *Artezian quyusundan; hidroresursların təmizlənməsi (çaylar, göllər); məişət kəhrizləri; ərinti (qar və buzlaq) və yağış sularının yığılması; şirinləşdirmə; rütubətli atmosfer havasından, bitkilərdən suyun alınması.*

***Müəllim üçün əlavə məlumat***

**İçməli suyun alınması üsulları**

1200 il əvvəl Tikay mayyaların ən böyük mərkəzlərindən idi. Mayyalar Cənubi Meksika və Mərkəzi Amerika ərazilərində məskunlaşmışdılar. O vaxt üçün nəhəng sayılan şəhərin əhalisi 100 min nəfər idi. Çaylardan uzaqda yerləşən Tikalın sakinləri tamamilə 4-5 ay davam edən yağışlar mövsümündən asılı idi. Şəhər elə tikilmişdi ki, burada su yığmaq mümkün olsun. Küçələr kanallardan ibarət idi. Bu kanallar vasitəsilə yağış suları çoxsaylı anbarlara axırdı.

Burada nə çaylar, nə göllər, nə də yeraltı sular var idi. Anbarlar çox dərində yerləşib 40 m dərinliyə malik idi. Hərəsi 400 mln. litr su tuturdu. Əgər yağışlar olmasaydı, insanlar ciddi təhlükə ilə qarşılaşa bilərdilər. Quraqlıq dövrlərdə Tikal sakinləri üçün yeganə su mənbəyi bu anbarlar idi.

Şimal rayonlarının sakinləri suyu özünəməxsus üsulla əldə edirdilər. Duzlu sudan içməli su almağın daha sadə və asan üsulu onun dondurulmasıdır. Donan zaman duzlu sudan əvvəlcə şirin buz kristalları ayrılıb düşür, duzlu su isə məsaməli buzun içərisi ilə axaraq donur.

Səhrada şehin düşməsi üçün daha yaxşı şərait vardır. Gündüz və gecə temperaturları arasında fərq nə qədər çox olarsa, aydın gecədə daha çox şeh düşər. Çərçivə üzərinə dartılmış parça çəkilir, gecələr onu açırlar. Səhərə yaxın parçanın xovları su damcıları ilə örtüldükdə, parçanı sıxırlar. 1$m^2$ xovlu parçadan 2 stəkan su götürmək olur. Bir neçə kvadrat metrlik belə qurğu isə bir gecədə 40 litrə qədər içməli su verə bilər.

2. Azərbaycanın quraq rayonlarında suyun əldə edilməsinə dair fərziyyələr irəli sürün (*kəhrizlər, kanallar, yeraltı sular*). Aran və Abşeron kimi arid zonaların sakinləri suyu haradan götürürlər? (*Kür çayı, yeraltı sular, göllər*)

**B** Dərsdə BİBÖ, İNSERT, Ziqzaq üsullarından birini tətbiq etmək olar.
Şagirdlər mətn əsasında sistemləşdirici cədvəl tərtib edə bilərlər.

| İqlim qurşağı | Səciyyəvi xüsusiyyətlər |
|---|---|
| … | … |

Cədvəlin doldurulması üçün əvvəlcədən şagirdlərlə birgə plan işlənib hazırlanmalıdır. Məsələn:

1. Yayıldığı ərazi

LAYİHƏ

2. Orta illik temperatur (yay, qış)
3. Yağıntıların miqdarı və onların paylanma rejimi

**C Xəritə üzrə iş**

1. Xəritə-sxemdə göstərilən cərəyanların adlarını müəyyən edin. *(1 – Braziliya, 2 – Qviana cərəyanları, 3 – Peru)*
2. Hansı yayla Şimal passatlarının təsirinə məruz qalır? (*Qviana*)
3. Braziliya yaylasının hansı hissəsinə Cənub passatları yağıntı gətirir? *(Cənub-şərq)*

**Xəritə üzrə iş. Cənubi Amerikanın iqlim qurşaqları**

1. Cənubi Amerikada Qalinas burnundan Horn burnuna qədər iqlim qurşaqlarını sayın (1. *subekvatorial 2. ekvatorial 3. subekvatorial 4. tropik 5. subtropik 6. mülayim*).
2. Hansı iqlim qurşağı iki dəfə təkrar olunur? (*subekvatorial).*
3. Orinoko, Amazon və La-Plata ovalıqları müvafiq olaraq hansı iqlim qurşaqlarında yerləşir? (*subekvatorial, ekvatorial, subtropik).*

**Sxem üzrə iş. Şimal və Cənub yarımkürələrinin subekvatorial qurşaqlarının iqlim diaqramları**

1. İqlim diaqramları üçün oxşar əlamətləri müəyyən edin (*yüksək yay temperaturu, çoxlu miqdarda atmosfer yağıntıları*).
2. Diaqramlardan hansı Braziliya, hansı isə Qviana yaylasına aiddir? (*birinci diaqram Qviana yaylası üçün səciyyəvidir. O, yay aylarında (iyun, avqust) maksimum yağıntıların düşdüyü subekvatorial qurşaqda yerləşir. İkinci diaqram cənub subekvatorial qurşaqda yerləşən, dekabr-yanvar aylarında yüksək temperatur və maksimum yağıntıların düşdüyü Braziliya yaylasına aiddir)*
3. İqlim diaqramlarının aid olduğu ərazilərdə suvarma hansı aylarda həyata keçirilir? (*Şimal subekvatorial qurşaqda dekabr-yanvar, cənubda isə iyun-avqust aylarında*).

**D Biliklərin tətbiq edilməsi və yoxlanılması**

Xəritə-sxemdəki məntəqələrin iqlim xüsusiyyətlərinin plan üzrə səciyyəsini yazın. Cədvəli doldurarkən şagirdlər təkcə mətndəki məlumatlardan deyil, həm də sxemlər, diaqramlardan istifadə etməlidirlər.

| | Məntəqə 1 | Məntəqə 2 | Məntəqə 3 | Məntəqə 4 |
|---|---|---|---|---|
| 1. Hansı iqlim qurşağında yerləşir? | subekvatorial | ekvatorial | tropik | mülayim |
| 2. İl ərzində düşən yağıntının illik miqdarı fəsillər üzrə necə dəyişir? | 1000-2000 mm, iyun-avqust | 1500-3000 mm, il ərzində, xüsusilə yazda və payızda intensiv olur. | 100 mm-dən az, mövsümilik yoxdur. | 1000-2000 mm |
| 3. Məntəqədə iqlimin formalaşmasına hansı amillər təsir edir. | Qviana cərəyanı, şimal passatları, ekvatorial və tropik hava kütlələri | Ekvatorial hava kütləlәri (EHK) | Peru cərəyanı | Qərb küləkləri, Sakit okean |

LAYİHƏ

*Qiymətləndirmə meyarları: təsviretmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Xəritə-sxem, diaqramlardan istifadə edərək Cənubi Amerikanın iqlim xüsusiyyətlərini çətinliklə təsvir edir. | Xəritə-sxem, diaqramlardan istifadə edərək Cənubi Amerikanın iqlim xüsusiyyətlərini müəllimin suallarının köməyi ilə təsvir edir. | Xəritə-sxem, diaqramlardan istifadə edərək Cənubi Amerikanın iqlim xüsusiyyətlərinin təsvirində qeyri-dəqiqliyə yol verir. | Xəritə-sxem, diaqramlardan istifadə edərək Cənubi Amerikanın iqlim xüsusiyyətlərini düzgün təsvir edir. |

## Dərs 19/ Mövzu 18: AFRİKANIN İQLİMİ

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 2.1.3. Atmosferdə baş verən hadisə və proseslərin iqtisadi həyata təsirini təhlil edir.<br>2.1.4. İqlim xəritələrini oxuyur, nəticələrini təqdim edir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Mətndəki məlumatlardan, xəritə-sxem və diaqramlardan istifadə edərək Afrika iqliminin xüsusiyyətlərini təsvir edir.<br>• İqlimin Afrika təsərrüfatının ixtisaslaşmasına təsirini qiymətləndirir. |

**A Mətn və şəkil üzrə iş. Qərbi və Şərqi Afrikada quraqlıq dövrü**

1. Siz BMT-nin ekspertlərinin rəyi ilə razısınızmı? (*şagirdlər yalnız suala cavab verməməli, həmçinin cavablarını mətndə verilən informasiya ilə əsaslandırmalıdırlar).*
2. Ölkənin inkişafının aşağı səviyyədə olmasını yalnız əlverişsiz iqlim şəraiti və tez-tez təkrarlanan quraqlıqla izah etmək olarmı? (*Xeyr. Cavabı əsaslandırarkən mətndən misallar gətirmək lazımdır*).

**B** Yeni informasiyanı öyrənərkən şagirdlərdə proses və hadisələr arasında səbəb-nəticə əlaqələrinin müəyyən edilməsinə dair vərdişləri möhkəmləndirmək faydalı olardı.

Nümunə: *Afrikanın cox hissəsi tropik xətləri arasında yerləşdiyinə görə Yer kürəsində ən isti materik hesab edilir. Ekvator Afrikanı, demək olar ki, ortadan böldüyündən il ərzində Afrika çoxlu miqdarda istilik alır. Materik üzərində günəş radiasiyasının illik kəmiyyəti 160-220 kkal / kv.sm arasında dəyişir. Tropiklər arasında il ərzində Günəş iki dəfə zenitdə olur. Ona görə də bütün il ərzində burada temperatur* $+20^oC$*-dən aşağı düşmür.*

| Səbəb | Nəticə |
|---|---|
| 1. Afrikanın çox hissəsi tropiklər arasında yerləşir. | Afrika ən isti materikdir. |
| 2. Ekvator Afrikanı ortadan kəsir. | Afrika il ərzində çoxlu miqdarda istilik alır. |
| 3. Günəş il boyu zenitdə olur. | İl ərzində temperatur $+20^0C$-dən aşağı düşmür. |

LAYİHƏ

## C Xəritə üzrə iş

Xəritə-sxemə əsasən cədvəli dəftərinizdə tamamlayın:

| Günəşin zenitdə olduğu məntəqələr | Günəşin zenitdə olmadığı məntəqələr | Uyğun günlərdə Günəşin zenitdə olduğu məntəqələr | | | |
|---|---|---|---|---|---|
| 3, 4, 5, 6, 7, 8, 9 | 1, 2 | Yaz gecə-gündüz bərabərliyi | yay gündönümü | payız gecə-gündüz bərabərliyi | qış gündönü |
| | | 6, 7 | 3, 5 | 6, 7 | 8, 9 |

**Xəritə üzrə iş. Afrikanın iqlim qurşaqları**

| | **İqlim qurşaqları** | **Ölkələr** |
|---|---|---|
| | Ekvatorial | Konqo, Qabon, Kamerun, Nigeriya |
| | Subekvatorial | Sudan, Efiopiya, Somali |
| | Tropik | Çad, Niger, Mali, Anqola, Zambiya |
| | Subtropik | Tunis, Mərakeş, CAR |

## D Biliklərin tətbiq edilməsi və yoxlanılması

**Xəritə üzrə iş.** Xəritə-sxemə əsasən cədvəli tamamlayın.

| **Kənd təsərrüfatı** | **İqlim qurşağı** | **Ölkələr** |
|---|---|---|
| Yığıcılıq və meşə təsərrüfatı | Ekvatorial | Konqo, Qabon, Kamerun, Nigeriya |
| Taxıl bitkiləri (qarğıdalı, proso, sorqo), kökümeyvəlilər (yams, maniok, batat), köçəri heyvandarlıq (iribuynuzlu mal-qara) | Subekvatorial | Sudan, Efiopiya, Somali |
| Heyvandarlıq (qoyun, keçi, dəvə) və qismən əkinçilik. İstifadə olunmayan və az istifadə olunan ərazilər | Tropik | Çad, Niger, Mali, Anqola, Zambiya |
| Taxıl bitkiləri (buğda, arpa, qarğıdalı) və otlaq heyvandarlığı (qoyunçuluq, iribuynuzlu mal-qara, suvarılan əkinçilik, meyvəçilik (sitrus, üzüm, zeytun) | Subtropik | Tunis, Mərakeş, CAR |

*Qiymətləndirmə meyarları: təsviretmə, qiymətləndirmə*

| **I səviyyə** | **II səviyyə** | **III səviyyə** | **IV səviyyə** |
|---|---|---|---|
| Afrikanın iqlim xüsusiyyətlərini çətinliklə təsvir edir. | Afrikanın iqlim xüsusiyyətlərini müəllimin suallarının köməyi ilə təsvir edir. | Afrikanın iqlim xüsusiyyətlərini təsvir edərkən qeyri-dəqiqliyə yol verir. | Afrikanın iqlim xüsusiyyətlərini düzgün təsvir edir. |
| Afrika təsərrüfatının ixtisaslaşmasına iqlimin təsirini çətinliklə qiymətləndirir. | Afrika təsərrüfatının ixtisaslaşmasına iqlimin təsirini müəllimin köməyi ilə qiymətləndirir. | Afrika təsərrüfatının ixtisaslaşmasına iqlimin təsirini qiymətləndirərkən qeyri-dəqiqliyə yol verir. | Afrika təsərrüfatının ixtisaslaşmasına iqlimin təsirini düzgün qiymətləndirir. |

LAYİHƏ

## Dərs 20/ Mövzu 19: AVSTRALİYANIN İQLİMİ

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 2.1.3. Atmosferdə baş verən hadisə və proseslərin iqtisadi həyata təsirini təhlil edir.<br>2.1.4. İqlim xəritələrini oxuyur, nəticələrini təqdim edir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Mətndəki məlumatlardan, xəritə-sxem və diaqramlardan istifadə edərək Avstraliya iqliminin xüsusiyyətlərini təsvir edir.<br>• İqlimin Avstraliya təsərrüfatının ixtisaslaşmasına təsirini qiymətləndirir. |

**A Xəritə üzrə iş**

1. Nə üçün Avstraliyada yay ayları dekabr-fevral hesab olunur? (*Bu dövrdə Günəş cənub tropikində zenitdə durur, bu səbəbdən ərazi maksimum günəş işığı və istiliyi alır*).

2. Nə üçün Avstraliya ərazisinin 50%-dən çoxu az miqdarda yağıntı alır? (*Ərazinin çox hissəsi tropik iqlim qurşağı daxilində – yüksək təzyiq vilayətində yerləşir*).

3. Avstraliyada ən yüksək temperatur 127° müşahidə olunmuşdur. Lakin dünyanın ən isti məntəqəsi Liviyada Tripoli (+58°C) hesab edilir. Bunu necə izah edə bilərsiniz? (*Avstraliyada temperatur Farengeytlə ifadə olunur*).

4. Yağıntının miqdarı necə dəyişir? Hansı ərazilərdə yağıntı daha çox, hansında isə daha az düşür? (*ən çox yağıntı Sakit okean sahillərinə düşür: 1000-2000 mm, Hind okeanı sahillərində yağıntıların miqdarı 250-500 mm, mərkəzi hissələrdə isə 200 mm-dən azdır*).

**B** Mətnlə iş zamanı informasiyanın materikin kontur xəritəsi üzərində modelləşdirilməsi üsulundan istifadə etmək olar.

İşin yerinə yetirilməsinə dair nümunə:

1. Şərq sahilləri isti Şərqi Avstraliya cərəyanlarının təsiri altındadır ki, bu da çoxlu miqdarda atmosfer yağıntılarının düşməsinə səbəb olur.
2. Sakit okeandan əsən cənub passatları il ərzində Şərqi Avstraliya sahillərinə çoxlu yağıntı gətirir.
3. Böyük Suayırıcı dağları Sakit okeandan gələn rütubətli hava axınının qarşısını alır.
4. Avstraliyada ən yüksək temperatur Darlinq çayının orta axınında müşahidə edilmişdir (+52,8°C).
5. Avstraliyanın qərb sahilləri soyuq Qərbi Avstraliya cərəyanı ilə yuyulur. Sahilboyu səhraların yaranması da bununla izah olunur.

LAYİHƏ




**C Xəritə üzrə iş**

1. Avstraliyanın böyük bir hissəsində qoyunçuluq və maldarlığın inkişaf etməsinin səbəbi nədir? (*quraq iqlim, otlaqların böyük sahə tutması*).
2. Avstraliyanın hansı hissəsində əkinçilik üstündür? (*cənub-şərq və cənub-qərbdə*).
3. Əkinçiliyin sahil boyundan materikin mərkəz hissəsinə doğru zəifləməsinin səbəbi nə ola bilər? (*iqlimin quraqlaşması*).
4. Avstraliyanın cənub qərbi ilə Cənubi Avropanın iqlim şəraiti arasında hansı oxşarlıq vardır? (*subtropik iqlim*).
5. Avstraliyanın əksər hissəsinin tropik iqlim qurşağında yerləşməsi onun ixtisaslaşmasına necə təsir edir? (*heyvandarlıq üstünlük təşkil edir).*

**D Biliklərin tətbiq edilməsi və yoxlanılması**

**Sxem üzrə iş**

1. İqlim diaqramlarının səciyyəsini dəftərinizə yazın və onların hansı iqlim qurşaqlarına aid olduğunu müəyyən edin.

| 1 | 2 |
|---|---|
| Yağıntılar il ərzində bərabər paylanmışdır, lakin onların miqdarı çox azdır (100 mm-ə yaxın).<br>Nisbətən çox yağıntı dekabr-yanvar aylarında düşür.<br>Ən yüksək temperatur ($30^0$C) dekabr-yanvar, ən aşağı temperatur isə ($10^0$C) iyun-avqust aylarında müşahidə edilir. | Yağıntıların miqdarı – 900 mm-dən çox.<br>Yağıntıların maksimum miqdarı iyun-avqust aylarında düşür (200 mm-ə yaxın).<br>Ən yüksək temperatur yanvarda ($30^0$C-yə yaxın), ən aşağı temperatur isə iyun-avqustda ($10^0$C) müşahidə edilir. |
| Tropik qurşaq | Subtropik qurşaq |

LAYİHƏ

*Qiymətləndirmə meyarları: təsviretmə, qiymətləndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Avstraliyanın iqlim xüsusiyyətlərini çətinliklə təsvir edir. | Avstraliyanın iqlim xüsusiyyətlərini müəllimin köməyi ilə təsvir edir. | Avstraliyanın iqlim xüsusiyyətlərini təsvir edərkən qeyri- dəqiqliyə yol verir. | Avstraliyanın iqlim xüsusiyyətlərini düzgün təsvir edir. |
| Avstraliya təsərrüfatının ixtisaslaşmasına iqlimin təsirini çətinliklə qiymətləndirir. | Avstraliya təsərrüfatının ixtisaslaşmasına iqlimin təsirini müəllimin köməyi ilə qiymətləndirir. | Avstraliya təsərrüfatının ixtisaslaşmasına iqlimin təsirini qiymətləndirirərkən qeyri-dəqiqliyə yol verir. | Avstraliya təsərrüfatının ixtisaslaşmasına iqlimin təsirini düzgün qiymətləndirir. |

## Dərs 21/ Mövzu 20: **PRAKTİK DƏRS. AZƏRBAYCANIN İQLİMİ**

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 2.1.4. İqlim xəritələrini oxuyur, nəticələrini təqdim edir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Tematik xəritələrdən Azərbaycanın iqlimi haqqında məlumat toplayır və təqdim edir. |

**Xəritə üzrə iş 1**

**Azərbaycanda günəş radiasiyasının miqdarının xəritə-sxemi**

1. Hansı qrafik günəş radiasiyasının illik miqdarının düzənlikdən dağlığa dəyişməsini göstərir?




LAYİHƏ

*Qrafikdə günəş radiasiyasının paylanması qanunauyğunluğu əks olunur:*
1800–2000 m hündürlükdən sonra onun miqdarı yenə çoxalır, Böyük və Kiçik Qafqazın yüksək dağlıq zonasında (3000 m-dən yüksək) 140–150 kkal/kv.sm təşkil edir.

**Xəritə üzrə iş 2**
**Azərbaycan Respublikasında havanın orta illik temperaturunun dəyişməsi**

Temperatur göstəricilərinə görə məntəqələri qruplaşdırın

| +10°C-dən aşağı | +10°C-dən yuxarı |
|---|---|
| Kəlbəcər<br>Şəki, Qəbələ, | Xaçmaz, Şamaxı, Gəncə, Naxçıvan, Qazax, Sumqayıt<br>Lənkəran, Bakı, Cəlilabad, Neftçala, Kürdəmir, Ağcabədi, Mingəçevir Xankəndi |

**Xəritə və cədvəl üzrə iş 3**
**Azərbaycan Respublikasında yağıntının miqdarının dəyişməsi**

**Yağıntıların paylanması**

| Yağıntının miqdarı (mm ilə) | Coğrafi obyektlər |
|---|---|
| 200-400 | Şərur-Ordubad düzü, Samur-Dəvəçi ovalığı, Salyan düzü, Abşeron yarımadası, Kür-Araz ovalığı |
| 400-600 | Qarabağ dağları |
| 600-1000 | Qarabağ vulkanik yaylası, Qanıx-Əyriçay düzü |

*Qiymətləndirmə meyarları: xəritələrlə işləmə*

| **I səviyyə** | **II səviyyə** | **III səviyyə** | **IV səviyyə** |
|---|---|---|---|
| Tematik xəritələrdən Azərbaycanın iqlimi haqqında məlumatları toplamaqda və təqdim etməkdə çətinlik çəkir. | Tematik xəritələrdən Azərbaycanın iqlimi haqqında natamam məlumat toplayır və təqdim edir. | Tematik xəritələrdən Azərbaycanın iqlimi haqqında məlumat toplayarkən və təqdim edərkən qeyri-dəqiqliyə yol verir. | Tematik xəritələrdən Azərbaycanın iqlimi haqqında tam məlumat toplayır və təqdim edir. |

LAYİHƏ

## DƏRS 22. II FƏSİL ÜZRƏ
## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ NÜMUNƏSİ

1. Hansı variantlarda səhv vardır?

| Variantlar | Coğrafi enlik | Günəş şüalarının il ərzində düşdüyü maksimum bucaq | Günəş şüalarının il ərzində düşdüyü minimum bucaq |
|---|---|---|---|
| 1 | $20^0$ | $90^0$ | $46.5^0$ |
| 2 | $0^0$ | $83,5^0$ | $60^0$ |
| 3 | $90^0$ | $23.5^0$ | $0^0$ |

2. XX saat qurşağının orta meridianını təyin edin:
A) $60^0$ q.u. B) $30^0$ ş.u. C) $4^0$ ş.u. D) $20^0$ q.u. E) $30^0$q.u.

3. Məntəqələrin yerləşdiyi saat qurşaqlarını müəyyən edin:




A) A-VIII, B-V B) A-XVI, B-IV
C) A-XVI, B-V D) A-VIII, B-IV
E) A-V, B-VII

4. Fikirlərdən səhv olanı müəyyən edin.




LAYİHƏ

1. İslandiya ərazisi üzərində aşağı təzyiq sahəsi yaranmışdır.
2. Böyük Britaniya və İslandiyanı 750 mm izobar kəsir.
3. Xəritədə izobarlar hər 2 mm-dən bir çəkilmişdir.
4. Skandinaviya yarımadasının qərb sahilləri üzərində soyuq atmosfer cərəyanı keçir.
5. Atmosfer təzyiqi cənubda şimala doğru artır.

5. Region və fəlakətli hava hadisəsi arasında uyğunluq hansı variantda düzgün verilmişdir?




a) Asiya – tornado
b) Afrika – tayfun
c) Asiya – tayfun
d) Şimali Amerika – quraqlıq;
e) Afrika – quraqlıq;
f) Şimali Amerika – tornado.

6. Sxem hansı məntəqəyə uyğundur? Cavabınızı əsaslandırın.







LAYİHƏ

7. Xəritə-sxem əsasında cədvəli tamamlayın:

| | Ölkə | Yerləşdiyi iqlim qurşaqları |
|---|---|---|
| 1 | | |
| 2 | | |
| 3 | | |
| 4 | | |
| 5 | | |
| 6 | | |




LAYİHƏ

# FƏSİL – 3

# SU EHTİYYATLARI VƏ ONLARIN İQTİSADİ ƏHƏMİYYƏTİ

## FƏSİL ÜZRƏ REALLAŞDIRILACAQ ALT STANDARTLAR

2.1.5. Hidrosferin iqtisadi həyata təsirini izah edir.
2.1.6. Kontur xəritədə hidroehtiyatların yerləşməsini qeyd edir.

FƏSİL ÜZRƏ ÜMUMİ SAATLARIN MİQDARI: **8 saat**
KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ: **1 saat**

LAYİHƏ

## Dərs 23 / Mövzu 21: AVROPANIN DAXİLİ SULARI

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 2.1.5. Hidrosferin iqtisadi həyata təsirini izah edir.<br>2.1.6. Kontur xəritədə hidroehtiyatların yerləşməsini qeyd edir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Avropa ölkələrinin hidroehtiyatlarının iqtisadi əhəmiyyətini izah edir.<br>• Avropanın iri çaylarını və göllərini kontur xəritədə qeyd edir. |

**A Xəritə-sxem üzrə iş. Avropanın iri çayları**

Avropanın çaylarını töküldüyü dənizlərə (körfəz, boğaz) görə qruplaşdırın və tərtib etdiyiniz cədvəldə yazın.

| **Dəniz, körfəz, boğaz** | **Çaylar** | **Rəqəmlə ifadəsi** |
|---|---|---|
| Xəzər dənizi | Volqa | 1 |
| Azov dənizi | Don | 2 |
| Qara dəniz | Dnepr, Dunay | 3, 4 |
| Adriatik dənizi | Po | 5 |
| Atlantik okeanı | Taxo | 6 |
| Biskay körfəzi | Luara | 7 |
| La-Manş boğazı | Sena | 8 |
| Şimal dənizi | Reyn, Elba, Temza | 9, 10, 11 |
| Baltik dənizi | Odra, Visla | 12, 13 |
| Kara dənizi | Peçora | 14 |

**Müzakirə edin:**

– Çayların sayının çox və ya az olmasını nə ilə izah etmək olar?

*Çay şəbəkəsinin sıxlığı, əsasən, yağıntıların miqdarından, geoloji quruluş və relyefdən asılıdır. Şagirdlər bu bölmədən əvvəl "İqlim və onun təsərrüfatda rolu" bölməsini keçmişlər. Bu səbəbdən Şərqi Avropada zəif çay şəbəkəsinin olmasını qərb küləklərinin təsirinin azalması, buna uyğun olaraq qərbdən şərqə doğru yağıntıların miqdarının azalması ilə əlaqələndirmək o qədər də çətin olmayacaq.*

Şagirdlərin diqqətini Avropanın şimalında relyefin əhəmiyyətinə yönəltmək faydalı olardı: dağlıq relyef çoxlu sayda qısa, lakin bol sulu çayların yaranmasına səbəb olur.

**B** Mətni öyrənərkən şagirdlərə Avropa regionlarından birinin hidroqrafik şəbəkəsinin səciyyəsi planını hazırlamağı təklif etmək olar.

Hidroqrafik şəbəkənin səciyyəsi planına nümunə:

1. Region ərazisindən axan çayların adı
2. Çayların ərazinin iqlimi ilə bağlı olan xüsusiyyətləri
3. Çayların ərazinin relyefi ilə bağlı olan xüsusiyyətləri
4. Təsərrüfatda istifadəsi
5. Verilən regionun göllərinin səciyyəvi xüsusiyyətləri
6. Regionun su ehtiyatları ilə təminatlılıq səviyyəsi.

Şagirdlər cədvəldən və ya Venn diaqramından istifadə edərək müxtəlif regionların hidroqrafik sistemlərini müqayisə edə bilərlər.

LAYİHƏ

İşi cütlərlə yerinə yetirmək olar. Şagirdlər Şimali və Cənubi Avropanın, həmçinin Şərqi və Qərbi Avropanın çay şəbəkəsini müqayisə edə bilərlər.

| Şimali Avropanın hidroqrafik şəbəkəsinin xüsusiyyətləri | Şimali və Cənubi Avropanın hidroqrafik şəbəkələrinin oxşar xüsusiyyətləri | Cənubi Avropanın hidroqrafik şəbəkəsinin fərqli xüsusiyyətləri |
|---|---|---|
| - Skandinaviya yarımadasının çayları<br>- Bütün il boyu suyun səviyyəsi yüksəkdir.<br>- Çoxlu astana və şəlalələr var.<br>- Elektrik enerjisi istehsalında istifadə olunur.<br>- Gölləri Venern, Vettern (İsveç), Sayma, İnari (Finlandiya), əsasən, tektonik və buzlaq mənşəlidir.<br>- Su ehtiyatları ilə yaxşı təmin olunmuşdur (hər nəfərə görə 50-100 min. $m^3$/il). | - Gəmiçilik üçün az yararlıdır.<br>- Çoxlu enerji ehtiyatına malikdir. | - Apennin, Balkan və Pireney yarımadalarının çayları: Taxo, Po.<br>- İl ərzində suyun səviyyəsi dəyişir.<br>- Yayda bəzi çaylar quruyur.<br>- Suvarmada istifadə olunur.<br>- Karst mənşəli göllər çoxdur.<br>-Su ehtiyatları ilə zəif təmin olunmuşlar (hər nəfərə görə 2,5-5 min. $m^3$/il). |

İnternetə bağlanan kompüter şəbəkəsinə malik siniflərdə Google Earth proqramının köməyi ilə şagirdlərə regionların iri çaylarının kosmik təsvirlərini nümayiş etdirmək olar.

İnformasiyanın öyrənilməsi mətndə verilən coğrafi obyektlərin xəritədə tapılması ilə müşayiət olunmalıdır.

**Mətn üzrə iş. Temza çayı. London**

1. Siyasi xəritədən Dunayın hansı Avropa ölkələrini su yolu ilə əlaqələndirdiyini müəyyən edin (*Almaniya, Avstriya, Slovakiya, Macarıstan, Bolqarıstan, Xorvatiya, Serbiya, Rumıniya, Moldova, Ukrayna).*
2. Temza və Dunay çaylarının təsərrüfat əhəmiyyətini müqayisəli olaraq şərh edin (*Hər iki çay ərazilərindən keçdiyi ölkələrin əsas nəqliyyat arteriyalarıdır*).

**Xəritə-sxem üzrə iş. Volqa Don kanalı**

1. Bakıdan İstanbula gedən gəminin hansı su hövzələrindən keçdiyini ardıcıl yazın (*Xəzər dənizi, Volqa çayı, Volqa-Don kanalı, Don çayı, Azov dənizi, Kerç boğazı, Qara dəniz, Bosfor boğazı*).
2. Volqa-Don kanalının respublikamızın iqtisadiyyatında hansı rolu oynadığına dair fikirlərinizi şərh edin (*Volqa-Don çay nəqliyyat sistemi və onları birləşdirən kanala görə respublikamız Dünya okeanına çıxır).*

LAYİHƏ

**Mətn üzrə iş. İtaliya, Qarda gölü**

Avropa iqtisadiyyatında iri göllərin hansı əhəmiyyəti vardır? (*Avropanın gölləri mühüm rekreasiya əhəmiyyətinə malik olub beynəlxalq turizm mərkəzləridir. Bir çox göllər nəqliyyat əhəmiyyətinə malikdir)*

## D Biliklərin tətbiq edilməsi və yoxlanılması

**Xəritə-sxem üzrə iş**

| Avropanın su təchizatı (hər nəfərə görə min.m$^3$/il) | Ölkə |
|---|---|
| 100-dən çox | İslandiya |
| 50–100 | İsveç |
| 25–50 | Norveç, Finlandiya |
| 10–25 | Rusiya, Ukrayna, Belarus |
| 2,5–5 | İspaniya, Portuqaliya, Fransa, İtaliya |
| 0,5–2,5 | Almaniya, Danimarka, Niderland, Belçika, Lüksemburq, Macarıstan, Çexiya, Slovakiya |

## E Dərsdən sonra

2. Mətndə  rast gəldiyiniz çay adlarını cədvələ yazın. Avropanın fiziki və siyasi xəritəsindən, internet məlumatlarından istifadə edərək onu tamamlayın.

| Adı | | Çayın uzunluğu (км) | Çayın yerləşdiyi region | | | | Çayın töküldüyü okean (dəniz) | Çayın axdığı ölkə (ölkələr) |
|---|---|---|---|---|---|---|---|---|
| | | | Şimali Avropa | Orta Avropa | Şərqi Avropa | Cənubi Avropa | | |
| 1 | Volqa | 3 530 | | | + | | Xəzər dənizi | Rusiya Federasiyası |
| 2 | Dunay | 2 860 | | + | + | | Qara dəniz | Almaniya, Avstriya, Slovakiya, Macarıstan, Bolqarıstan, Xorvatiya, Serbiya, Rumıniya, Moldova, Ukrayna |
| 3 | Ural | 2 428 | | | + | | Xəzər dənizi | Rusiya, Qazaxıstan |
| 4 | Dnepr | 2 201 | | | + | | Qara dəniz | Rusiya, Belarus, Ukrayna |
| 5 | Don | 1 870 | | | + | | Azov dənizi | Rusiya Federasiyası |
| 6 | Peçora | 1 809 | | | + | | Barens dənizi | Rusiya Federasiyası |
| 7 | Reyn | 1 326 | | + | | | Şimal dənizi | İsveçrə, Almaniya, Niderland, Avstriya, Fransa, Lixtenşteyn |
| 8 | Elba (Laba) | 1 165 | | + | | | Şimal dənizi | Almaniya, Çexiya |
| 9 | Visla | 1 047 | | + | | | Baltik dənizi | Polşa |
| 11 | Luara | 1 020 | | + | | | Atlantik okeanı | Fransa |

LAYİHƏ

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 12 | Sena | 776 | | + | | | La-Manş boğazı | Fransa |
| 13 | Temza | 334 | | + | | | Şimal dənizi | Böyük Britaniya |
| 14 | Ebro | 910 | | | | + | Aralıq dənizi | İspaniya |
| 15 | Taxo | 1007 | | + | | | Atlantik okeanı | İspaniya, Portuqaliya |

*Qiymətləndirmə meyarları: izahetmə, kontur xəritədə qeyd etmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Avropa ölkələrinin hidroresurslarının iqtisadi əhəmiyyətini çətinliklə izah edir. | Avropa ölkələrinin hidroresurslarının iqtisadi əhəmiyyətini müəllimin köməyilə izah edir. | Avropa ölkələrinin hidroresurslarının iqtisadi əhəmiyyətini izah edərkən qeyri-dəqiqliyə yol verir. | Avropa ölkələrinin hidroresurslarının iqtisadi əhəmiyyətini səhvsiz izah edir. |
| Avropanın iri çaylarını və göllərini kontur xəritədə qeyd etməkdə çətinlik çəkir. | Avropanın iri çaylarını və göllərini kontur xəritədə qeyd edərkən səhvlərə yol verir. | Avropanın iri çaylarını və göllərini kontur xəritədə qeyd edərkən qeyri-dəqiqliyə yol verir. | Avropanın iri çaylarını və göllərini kontur xəritədə düzgün qeyd edir. |

## Dərs 24 / Mövzu 22: ASİYANIN DAXİLİ SULARI

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 2.1.5. Hidrosferin iqtisadi həyata təsirini izah edir.<br>2.1.6. Kontur xəritədə hidroehtiyatların yerləşməsini qeyd edir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Asiya çaylarını müəyyən əlamətlərinə görə qruplaşdırır.<br>• Asiya ölkələrinin hidroresurslarının iqtisadi əhəmiyyətini izah edir.<br>• Asiya ölkələrinin iri çaylarını və göllərini kontur xəritədə qeyd edir. |

**A** **Xəritə üzrə iş.** Cədvəli tamamlayın:

| **Asiyanın** su təchizatı (hər nəfərə görə min. $m^3$/il) | Ölkələr |
|---|---|
| 100-dən artıq | Rusiya (Sibir) |
| 50–100 | Malayziya |
| 25–50 | Kamboca, Myanma, İndoneziya |
| 10–25 | Şərqi Avropa |
| 2,5–5 | Hindistan, Çin |
| 0,5–2,5 | Səudiyyə Ərəbistanı, Əfqanıstan |

– Asiyanın hansı regionları daha az və ya daha çox su ilə təchiz olunmuşdur? (*daha çox su ilə Cənub-Şərqi, Şərqi və Şimali Asiya ölkələri, ən az isə Cənub-Qərbi və Mərkəzi Asiya ölkələri təchiz olunmuşdur*)

**B** Dərsdə debat keçirilməsi daha məqsədəuyğundur. Bunun üçün dərslikdə verilmiş rollara uyğun olaraq şagirdlər qruplara bölünür.

LAYİHƏ

**I qrup.** “Lehinə olanlar”
**II qrup**. “Əleyhinə olanlar”
**III qrup**. Hakimlər

Qruplar yaradıldıqdan sonra onlara təlimat verilir:

1. Dərslikdən mətni oxuyun, öz mövqeyinizə əsasən məlumatları toplayın.
2. Qrup üzvləri ilə müzakirə edin, mətndən əlavə bildiklərinizi yada salın.
3. Hər qrupa üç dəfə çıxış imkanı verilir. Çıxışlar üçün sübut və dəlillərinizi hazırlayın.
4. Rəqib qruplara veriləcək suallar haqqında düşünün.

Debatın təqribi ssenarisi:

| | **Şagird qrupları** | **Fəaliyyət** | **Vaxt** |
|---|---|---|---|
| 1 | “Lehinə olanlar”ın I çıxışı | Mövqelərini bildirir və bunun üçün dəlillər gətirirlər. | 3 dəq. |
| 2 | “Əleyhinə olanlar” qrupu | İlk çıxış edənlərin dəlillərinin əsassız olduğunu sübut etmək üçün suallar verir. | 2 dəq. |
| 3 | “Əleyhinə olanlar”ın I çıxışı | “Lehinə olanlar” qrupunun dəlillərini tənqid edərək öz mövqelərini bildirirlər. | 3 dəq. |
| 4 | “Lehinə olanlar” | “Əleyhinə olanlar” qrupuna onların dəlillərinin əsassız olduğunu sübut etmək üçün suallar verirlər. | 2 dəq. |
| 5 | “Lehinə olanlar”ın II çıxışı | Mövqelərinin təsdiqi üçün yeni dəlillər gətirirlər. | 3 dəq. |
| 6 | “Əleyhinə olanlar” qrupu | Çıxış edənlərin dəlillərinin düzgün olmadı-ğını sübut etmək üçün suallar verirlər. | 2 dəq. |
| 7 | “Əleyhinə olanlar”ın II çıxışı | “Lehinə olanlar” qrupunun dəlillərini tənqid edərək öz mövqelərini bildirirlər. | 3 dəq. |
| 8 | “Lehinə olanlar” | “Əleyhinə olanlar” çıxış edən qrupa suallar verirlər. | 2 dəq. |
| 9 | “Lehinə olanlar”ın III çıxışı | Öz qruplarının üstünlüyünü qeyd edərək debatın nəticələrini yekunlaşdırırlar. | 3 dəq. |
| 10 | “Əleyhinə olanlar”ın III çıxışı | Öz qruplarının üstünlüyünü qeyd edərək debatın nəticələrini yekunlaşdırırlar. | 3 dəq. |

Debatı dinləyən hakimlər nəticələri qiymətləndirmək üçün müxtəlif üsul və vasitələrdən istifadə edə bilərlər. “Debat dərslərin təşkili”ndə təklif edilən üsullar barədə 6-cı sinfin müəllim üçün metodiki vəsaitində ətraflı yazılmışdır.

Şagirdlərə mətni öyrənərkən verilən cədvəli doldurmağı və iri çayları kontur xəritədə qeyd etməyi təklif etmək olar.

| **Hövzə** | **Çaylar** | **Xüsusiyyətləri** |
|---|---|---|
| ... | ... | ... |

LAYİHƏ

İnternetə çıxışı olan kompüterlərə malik siniflərdə Google Earth proqramının köməyilə iri regionların kosmik görüntülərini nümayiş etdirmək olar. İnformasiyanın öyrənilməsi mütləq mətndə verilən coğrafi obyektlərin xəritədə tapılması ilə müşayiət olunmalıdır.

**C** **Şəkil üzrə iş**. Nə üçün su anbarı SES-dən yuxarıda yerləşdirilir? (*SES-lərin tikintisində əsas amil suyun yüksək təzyiqlə tökülməsi və nəticədə quraşdırılan turbinlərin fırlana bilməsidir. Su anbarında toplanan suyun təzyiqi artır və SES-in gücünün artmasına imkan verir)*

**D** **Biliklərin tətbiq edilməsi və yoxlanılması**

**Cədvəl üzrə iş.** Mətndən çayların adını seçib cədvələ yazın və onları fiziki xəritədə tapın.

| Hövzə | Çaylar | Xüsusiyyətləri |
|---|---|---|
| Şimal Buzlu okeanı | Lena, Ob, Yenisey, Yana, İndiqirka, Kolıma Anqara | yazın sonunda bolsulu olur; çayların qidalanmasında qar və yağış suları üstünlük təşkil edir; yazda çaylar daşır, suyun səviyyəsi 7–18 m qalxaraq ətraf sahilləri basır; çaylar böyük hidroenerji ehtiyatına malikdir. |
| Sakit okean | Amur, Xuanxe, Yantszı | yay aylarında daşır; daşqınlar zamanı çaylar ətrafda fəlakətli təbiət hadisəsi yaradır. |
| Hind okeanı | Qanq, Brahmaputra, Hind, İravadi, Mekonq | yay aylarında bol sulu olurlar, rütubətli və quraqlıq mövsümləri də kəskin su səviyyəsinə malik olurlar; ilin qış dövründə suvarmada istifadə olunur |
| Atlantik okeanı | Qızıl İrmaq | ilin isti dövründə suvarma məqsədi ilə istifadə olunur. |
| Daxili axınlar | Amudərya, Sırdərya, Kaşqadərya, Tarim | çaylar öz başlanğıcını uca dağlardakı buzlaqlardan götürür; yay günlərində çaylarda suyun səviyyəsi artır. Əsasən, axarsız göllərə (Aral, Balxaş və s.) tökülür; suvarmada istifadə olunurlar. |

**Dərsdən sonra**

**Mətn üzrə iş.** Verilən mətnləri oxuyun. Yantszı və Xuanxe çaylarını müqayisə edin. Onların 7 ümumi cəhətini dəftərinizə yazın.

*1. Şərqi Asiyanın ən uzun çaylarıdır.*
*2. Mənbələri Tibet dağlıq yaylasında yerləşir.*
*3. Hər ikisi Sakit okeana tökülür.*
*4. Çinin ərazisindən axırlar.*
*5. Yayda bolsulu olurlar.*
*6. Dərələri boyunca əhali sıx məskunlaşmışdır.*
*7. Sularından suvarmada istifadə olunur.*

LAYİHƏ

*Qiymətləndirmə meyarları: qruplaşdırma, izahetmə, kontur xəritədə qeydetmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Asiya çaylarını müəyyən əlamətlərinə görə çətinliklə qruplaşdırır. | Asiya çaylarını müəyyən əlamətlərinə görə müəllimin köməyi ilə qruplaşdırır. | Asiya çaylarını müəyyən əlamətlərinə görə qruplaşdırarkən qeyri-dəqiqliyə yol verir. | Asiya çaylarını müəyyən əlamətlərinə görə səhvsiz qruplaşdırır. |
| Asiyada su ehtiyatlarının iqtisadi əhəmiyyətini çətinliklə izah edir. | Asiyada su ehtiyatlarının iqtisadi əhəmiyyətini müəllimin köməyilə izah edir. | Asiyada su ehtiyatlarının iqtisadi əhəmiyyətini izah edərkən qeyri-dəqiqliyə yol verir. | Asiyada su ehtiyatlarının iqtisadi əhəmiyyətini səhvsiz izah edir. |
| Asiyanın iri çaylarını və göllərini kontur xəritədə qeyd etməkdə çətinlik çəkir. | Asiyanın iri çaylarını və göllərini kontur xəritədə qeyd edərək səhvlərə yol verir. | Asiyanın iri çaylarını və göllərini kontur xəritədə qeyd edərək qeyri-dəqiqliyə yol verir. | Asiyanın iri çaylarını və göllərini kontur xəritədə düzgün qeyd edir. |

## Dərs 25 / Mövzu 23: ŞİMALİ AMERİKANIN DAXİLİ SULARI

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 2.1.5. Hidrosferin iqtisadi həyata təsirini izah edir.<br>2.1.6. Kontur xəritədə hidroehtiyatların yerləşməsini qeyd edir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Şimali Amerikanın hidroehtiyatlarının iqtisadi əhəmiyyətini izah edir.<br>• Şimali Amerikanın iri çayları və göllərini kontur xəritədə qeyd edir. |

**A Mətn və xəritə üzrə iş**

– Türkmənçay və Gülüstan müqavilələri bağlandıqdan sonra Azərbaycanın hansı çayı sərhəd çayı olmuşdur? (*Araz*)

– Çayların təbii sərhəd kimi qəbul edilməsinin hansı üstünlüyü vardır? (*Dəqiqlik yaradır, sərhəd çəkilməsi üçün əlavə xərc tələb olunmur*).

**B** Şimali Amerikanın hidroehtiyatlarını öyrənmək üçün şagirdlər *seçmə oxu* üsulundan istifadə edə bilərlər. İş müəllim tərəfindən əvvəlcədən hazırlanmış tapşırıqlar üzrə aparılır və nəticələr sinifdə yoxlanılır. Müəllim sadədən mürəkkəbə doğru olmaqla əvvəldən hazırladığı suallar əsasında şagirdlərə aşağıdakı tapşırıqları verir:

1) Mövzunun mətnindən müəyyən anlayışların (sadalanır) izahını və tərifini tapmaq tapşırılır.

2) Müəllim cavabları dərslikdə yazılmış suallarla müraciət edir.

3) Müəllim dərslikdə birbaşa cavabı olmayan və dolayı yolla cavablandırılan suallar verir. Suallar elə tərtib olunmalıdır ki, onlara cavab vermək üçün mövzunu yaxşı mənimsəmək tələb olunsun.

4) Mövzuda verilmiş coğrafi hadisələr və onlar arasında coğrafi əlaqələrin müəyyən olunmasına dair suallar verilir.

LAYİHƏ

5) Nəticələrin çıxarılması və qiymətləndirmə aparmaq üçün suallar verilir.

Şagirdlərə mətnin əsas iki məzmun hissəsini oxumaq və “Biliklərin tətbiq edilməsi və yoxlanılması” blokundakı 2-ci tapşırıqda verilən sualların cavablarını dəftərə yazmağı tapşırmaq olar (əvvəlcə onlar Missisipi, sonra isə Kolorado haqqında informasiyanı öyrənməlidirlər).

a) Çayların mənbəyi və mənsəbi haradır?
b) Çay hansı istiqamətdə axır?
c) Çayın axın xüsusiyyətinin relyefdən asılılığını izah edin.
d) Çayın qidalanma mənbəyini müəyyən edin.
e) Çayın rejimi necədir və iqlimdən necə asılıdır?
f) Çaylardan təsərrüfat məqsəd ilə necə istifadə olunur?

Fəaliyyətin sonunda şagirdlər cavabları ümumiləşdirir və hər çayın ayrılıqda əhalinin həyat və təsərrüfatında rolunu qiymətləndirirlər.
Bu ardıcıllıqla da mətnin digər məzmun hissələri üzrə tapşırıqlar hazırlamaq olar.

Şagirdlərdə Şimali Amerikanın daxili suları haqqında aydın təsəvvür yaratmaq üçün *Google Earth* proqramı ilə virtual səyahət həyata keçirmək məqsədəuyğun olardı.

Məlumatların öyrənilməsi mətndə verilən coğrafi obyektlərin xəritədə göstərilməsi və kontur xəritədə qeyd olunması ilə müşayiət olunmalıdır.

**C Xəritə-sxem üzrə iş. Şimali Amerika. Böyük göllər**

– Böyük göllərin tərkibinə daxil olan gölləri mütləq hündürlüyünə görə ardıcıl yazın (*Yuxarı, Huron, Miçiqan, Eri, Ontario).*
– Ən dərin və sahəsinə görə ən böyük göl hansıdır ? (*Yuxarı, dərinliyi 406 m*).
– Niaqara şəlaləsi hansı göllərin arasındadır? (*Eri və Ontario*).

**D Biliklərin tətbiq edilməsi və yoxlanılması**

1. Mətndə yazılan hidronimlərin (su obyektlərini bildirən coğrafi adlar) adlarını dəftərə yazın.
2. Şimali Amerikanın kontur xəritəsində onlara uyğun gələn rəqəmləri qeyd edin.

| | | | | |
|---|---|---|---|---|
| 1 | Rio-Qrande | | 11 | Vinnipeq |
| 2 | Missisipi | | 12 | Atabaska |
| 3 | Missuri | | 13 | Müqəddəs Lavrenti |
| 4 | Arkanzas | | 14 | Niaqara şəlaləsi |
| 5 | Kolorado | | 15 | Miçiqan |
| 6 | Kolumbiya | | 16 | Eri |
| 7 | Yukon | | 17 | Ontario |
| 8 | Makkenzi | | 18 | Yuxarı |
| 9 | Böyük Ayı | | 19 | Huron |
| 10 | Böyük Kölə | | 20 | Böyük Duzlu göl |

LAYİHƏ

*Qiymətləndirmə meyarları: xəritə ilə işləmə, izahetmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Şimali Amerikanın iri çaylarını və göllərini kontur xəritədə qeyd etməkdə çətinlik çəkir. | Şimali Amerikanın iri çaylarını və göllərini kontur xəritədə qeyd edərkən səhvlərə yol verir. | Şimali Amerikanın iri çaylarını və göllərini kontur xəritədə qeyd edərkən qeyri-dəqiqliyə yol verir. | Şimali Amerikanın iri çaylarını və göllərini kontur xəritədə düzgün qeyd edir. |
| Şimali Amerikanın hidroehtiyatlarının iqtisadi əhəmiyyətini çətinliklə izah edir. | Şimali Amerikanın hidroehtiyatlarının iqtisadi əhəmiyyətini müəllimin istiqamətverici sualları vasitəsilə izah edir. | Şimali Amerikanın hidroehtiyatlarının iqtisadi əhəmiyyətini izah edərkən qeyri-dəqiqliyə yol verir. | Şimali Amerikanın hidroehtiyatlarının iqtisadi əhəmiyyətini düzgün izah edir. |

## Dərs 26 / Mövzu 24: CƏNUBİ AMERİKANIN DAXİLİ SULARI

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 2.1.5. Hidrosferin iqtisadi həyata təsirini izah edir.<br>2.1.6. Kontur xəritədə hidroehtiyatların yerləşməsini qeyd edir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Cənubi Amerikanın hidroehtiyatlarının iqtisadi əhəmiyyətini izah edir.<br>• Cənubi Amerikanın iri çaylarını və göllərini kontur xəritədə qeyd edir. |

**A Şəkil və mətn üzrə iş. Rio-Neqru çayının Amazonkaya töküldüyü yer**

1. Rio-Neqru sularına tünd rəng verən nə ola bilər? (*Çay bərk süxurlardan keçərkən onları, demək olar ki, aparmır, yəni su özü şəffafdır. Lakin onun tərkibində çürümüş tünd rəngli bitki qalıqları vardır. Məhz bu qalıqlar suyun rəngini dəyişir)*
2. İki çayın sularının tez qarışmaması səbəbləri nə ola bilər? (*Bu çaylar axım sürəti, sıxlıq və temperaturuna görə fərqlənir. Amazon çayı sürətlə axır və onun suyunun temperaturu 6 dərəcə aşağıdır – Rio-Neqruda 28, burada isə 22*).

**B** Gölləri öyrənərkən BİBÖ üsulundan istifadə etmək olar.

| BİLİRƏM | İSTƏYİRƏM BİLƏM | ÖYRƏNDİM |
|---|---|---|
| 1. Əvvəlcə şagirdlər Cənubi Amerikanın daxili suları haqqında bildiklərini yazırlar. | 2. Şagirdlər Cənubi Amerikanın daxili suları haqqında nəyi bilmək istədiklərini yazırlar. | 3. Mövzunu öyrənərkən və öyrəndikdən sonra şagirdlər Cənubi Amerikanın daxili suları haqqında öyrəndikləri yeni məlumatları yazırlar. |

LAYİHƏ

Şagirdlərdə Cənubi Amerikanın daxili suları haqqında aydın təsəvvür yaratmaq üçün *Google Earth* proqramı ilə virtual səyahət həyata keçirmək məqsədəuyğun olardı.

Məlumatların öyrənilməsi mətndə verilən coğrafi obyektlərin xəritədə göstərilməsi ilə müşayiət olunmalıdır.

## C Mətn üzrə iş. Titikaka gölü

1. Siyasi xəritəyə əsasən Titikakanın hansı dövlətlərin ərazisində yerləşdiyini təyin edin *(Titikaka iki dövlətin ərazisində yerləşir: Boliviya və Peru. And dağlarında yerləşən bu gölün hündürlüyü 3812 m-dir).*
2. Nə üçün Titikaka gölü təsərrüfatda az istifadə olunur? (*yüksək dağ gölüdür, əhali azdır, suyu soyuqdur. Əsasən nəqliyyat, qismən turizm əhəmiyyətinə malikdir. Turistlər buraya qamışdan düzəldilmiş adaya baxmağa gəlirlər)*

## D Biliklərin tətbiq edilməsi və yoxlanılması

1. Mətndə adları çəkilən bütün hidrocoğrafi obyektləri (çay, göl, şəlalə, su anbarı və s.) xəritədə tapın və cədvəli doldurun:

| Hidroloji coğrafi adlar | Təsərrüfat əhəmiyyəti |
|---|---|
| 1. Amazon | Hidroenerji potensialına malikdir, qolları üzərində SES-lər tikilmişdir, gəmiçilikdə istifadə olunur. |
| 2. Parana | Enerji istehsalı, ağac axıdılması, suvarma, balıqçılıq, nəqliyyatda və məişət məqsədi üçün istifadə edilir. |
| 3. Orinoko | Hidroenerji potensialına malikdir, lakin qismən istifadə edilir, üzərindəki şəlalə rekreasiya əhəmiyyətlidir. |
| 4. Titikaka | Təsərrüfatda az istifadə edilir. |
| 5. Marakaybo | Neft hasilatı |

2. Siyasi xəritə və "Cənubi Amerikanın su təchizatı" xəritə-sxemindən istifadə edərək dəftərinizdə cədvəli tamamlayın.

| Cənubi Amerikanın su təchizatı (hər nəfərə min $m^3$/il) | | Ölkələr |
|---|---|---|
| | 100-dən çox | Qayana, Surinam, Qviana |
| | 50-100 | Venesuela, Boliviya |
| | 25-50 | Braziliya, Peru, Ekvador, Çili |
| | 10-25 | Argentina |

3. Xəritə-sxemdə göstərilən çay üçün səciyyəvi olan xüsusiyyətləri müəyyən edin:

a) Çayın mənbəyi Braziliya yaylasında yerləşir.
b) Çayın suyu dekabr-fevral aylarında artır.
c) Onun üzərində İtaypu SES tikilmişdir.

LAYİHƏ

*Qiymətləndirmə meyarları: izahetmə, xəritə ilə işləmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Cənubi Amerikanın hidroehtiyatlarının iqtisadi əhəmiyyətini çətinliklə izah edir. | Cənubi Amerikanın hidroehtiyatlarının iqtisadi əhəmiyyətini müəllimin istiqamətverici suallarının köməyi ilə izah edir. | Cənubi Amerikanın hidroehtiyatlarının iqtisadi əhəmiyyətini izah edərkən qeyri-dəqiqliyə yol verir. | Cənubi Amerikanın hidroehtiyatlarının iqtisadi əhəmiyyətini düzgün izah edir. |
| Cənubi Amerikanın iri çaylarını və göllərini kontur xəritədə qeyd etməkdə çətinlik çəkir. | Cənubi Amerikanın iri çaylarını və göllərini kontur xəritədə qeyd edərkən səhvlərə yol verir. | Cənubi Amerikanın iri çaylarını və göllərini kontur xəritədə qeyd edərkən qeyri-dəqiqliyə yol verir. | Cənubi Amerikanın iri çaylarını və göllərini kontur xəritədə düzgün qeyd edir. |

## Dərs 27 / Mövzu 25: AFRİKANIN DAXİLİ SULARI

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 2.1.5. Hidrosferin iqtisadi həyata təsirini izah edir.<br>2.1.6. Kontur xəritədə hidroehtiyatların yerləşməsini qeyd edir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Afrikanın hidroehtiyatlarının iqtisadi əhəmiyyətini izah edir.<br>• Afrikanın iri çaylarını və göllərini kontur xəritədə qeyd edir. |

A **Xəritə üzrə iş.** Xəritə-sxem və Afrikanın siyasi xəritəsindən istifadə edərək cədvəli dəftərinizdə tamamlayın.

| Afrikanın su təchizatı (hər nəfərə görə min. $m^3$/il) (min $km^3$/il) | Ölkə |
|---|---|
| 100-dən çox | Konqo, Qabon, Ekvatorial Qvineya |
| 50–100 | Qvineya, Qambiya |
| 25–50 | Zair, Kamerun, Madaqaskar |
| 10–25 | Zambiya, Malavi, Qana |
| 5–10 | Mali, Mavritaniya, Namibiya, Çad |
| 2,5–5 | Somali, Tanzaniya, Mozambik, Nigeriya |
| 0,5–2,5 | Əlcəzair, Liviya, Tunis, CAR |
| 0,5-dən az | Misir |

**Müzakirə edin**: Su təchizatının fərqli olmasına səbəb olan amillərə dair fikirlərinizi əsaslandırın (*Afrika müxtəlif iqlim qurşaqlarında yerləşir. Ekvator boyu yerləşən regionlar daha çox atmosfer yağıntısı alır. Nəticədə bolsulu çaylar yaranır. Tropik ərazilərdə kəskin su çatışmazlığı müşahidə olunur*).

LAYİHƏ

**B** Mətndəki informasiyanı öyrənərkən şagirdlərə sistemləşdirici cədvəllər tərtib etmək və doldurmaq tapşırıla bilər:

| **İqlim qurşağı** | **Hidroqrafik şəbəkənin səciyyəvi xüsusiyyətləri** |
|---|---|
| Ekvatorial qurşaq | il boyu bolsulu olur və sıx çay şəbəkəsi əmələ gətirir |
| Subekvatorial qurşaq | çaylar ancaq yağışlı dövrdə bolsulu olur (yayda) |
| Tropik qurşaq | səth sularından məhrumdur, lakin orada tranzit çaylar mövcuddur. Onlar başlanğıclarını çoxlu yağıntı düşən ərazilərdən götürür və əlavə qida almayaraq arid rayonlarla axır. Qurumuş çay dərələri–vadilər çoxdur |
| Subtropik qurşaq | çaylarında suyun səviyyəsi yalnız yağışlı dövrdə qalxır (qışda). |

Aşağıdakı cədvəlin 3-cü sütununu doldurmaq üçün şagirdlər siyasi xəritədən istifadə etməlidirlər.

| Göllər | Səciyyəvi xüsusiyyətləri | Ərazisində yerləşdiyi ölkə |
|---|---|---|
| Tanqanika | Dərinliyi 1435 m, tektonik mənşəli, şirinsulu | Zair, Tanzaniya, Zambiya, Burundi |
| Viktoriya | Dərinliyi 80 m, Cənubi Afrikanın ən böyük gölü, tektonik mənşəli, şirinsulu | Uqanda, Tanzaniya, Keniya |
| Nyasa | Tektonik mənşəli, şirinsulu | Malavi, Tanzaniya, Mozambik |
| Çad | Dərinliyi 7 m, qalıq mənşəli, sahəsi yağışlı mövsümdən asılı olaraq dəyişir. | Çad, Nigeriya, Kamerun, Niger |

**C** **Mətn və cədvəl üzrə iş**

Mətndəki faktları cədvələ uyğun qruplaşdırın və onu tamamlayın:

| Su anbarının təsiri | Mətndəki faktlar |
|---|---|
| 1. Aşağıdakı sahələrin inkişafına:<br>a) sənaye<br>b) kənd təsərrüfatı<br>c) nəqliyyat<br>d) xidmət sahələri<br>e) yaşayış məntəqələri. | a) çoxsaylı istehsal sahələrinin yaradılmasına imkan yaratmışdır, balıqçılığın inkişafı üçün yeni imkanlar yaranmışdır, elektrik enerjisi alınması üçün istifadə edilir.<br>b) suvarma kanallarının çəkilməsi geniş sahələrdə il boyu əkinçiliyin inkişafına təkan verir. Bu isə il ərzində 2-3 dəfə məhsul götürməyə və ərzaq probleminin həll edilməsinə imkan yaratmışdır.<br>c) gəmiçilik üçün şəraiti dəyişmişdir.<br>d, e) sahildəki Asuan şəhəri yeni mərkəzə çevrilmişdir. Su anbarı sahilində çimərlik, hovuz, su-idman komplekslərini birləşdirən böyük rekreasiya mərkəzi yaradılmışdır. |
| 2. Ərazinin təbii şəraitinə:<br>a) iqliminə<br>b) üzvi aləmə | a) buludlu və yağışlı günlərin sayı artmış, havanın temperaturu 2°C aşağı düşmüş, rütubətlik 15-20% yuxarı qalxmış, sutkalıq brizlərin təsiri güclənmişdir.<br>b) köçəri quşların sayı artmışdır. |



LAYİHƏ

| | |
|---|---|
| 3.<br>a) ətraf mühitə;<br>b) əhaliyə | a) çay vadisindəki torpaqların münbitliyi itir, hər il torpaqlara 13 min tondan çox azot gübrələri verilir;<br>b) balıq ovu kəskin aşağı düşmüşdür; yeni yaradılan şəhərlərdən axıdılan sənaye tullantıları suyun çirklənməsinə və canlı aləmin məhv olmaq dərəcəsinə çatmasına səbəb olur. İl boyu suvarma şəraitinin yaradılması bəzi parazitlərin yaratdıqları xəstəliklərin daşıyıcısı olan su orqanizmlərinin yaşayışı üçün əlverişli mühit yaratmışdır. |

## D Biliklərin tətbiq edilməsi və yoxlanılması

| **Su anbarları** | **Hansı çayın üzərində yerləşir** | **Hansı dövlətin (dövlətlərin) ərazisindədir** |
|---|---|---|
| Viktoriya | Nil | Keniya, Uqanda, Tanzaniya |
| Kariba | Zambezi | Zambiya, Zimbabve |
| Nasir | Nil | Misir |
| Volta | Volta | Qana |
| Kaborra Bassa | Zambezi | Mozambik |

*Qiymətləndirmə meyarları: xəritə ilə işləmə, izahetmə*

| **I səviyyə** | **II səviyyə** | **III səviyyə** | **IV səviyyə** |
|---|---|---|---|
| Afrikanın hidroehtiyatlarının iqtisadi əhəmiyyə-tini çətinliklə izah edir. | Afrikanın hidroehtiyatlarının iqtisadi əhəmiyyətini müəllimin istiqamətverici suallarının köməyi ilə izah edir. | Afrikanın hidroehtiyatlarının iqtisadi əhəmiyyətini izah edərkən qeyri-dəqiqliyə yol verir. | Afrikanın hidroehtiyatlarının iqtisadi əhəmiyyətini düzgün izah edir. |
| Afrikanın iri çaylarını və göllərini kontur xəritədə qeyd etməkdə çətinlik çəkir. | Afrikanın iri çaylarını və göllərini kontur xəritədə qeyd edərkən səhvlərə yol verir. | Afrikanın iri çaylarını və göllərini kontur xəritədə qeyd edərkən qeyri-dəqiqliyə yol verir. | Afrikanın iri çaylarını və göllərini kontur xəritədə düzgün qeyd edir. |

LAYİHƏ

## Dərs 28 /Mövzu 26: AVSTRALİYANIN DAXİLİ SULARI

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 2.1.5. Hidrosferin iqtisadi həyata təsirini izah edir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Avstraliyanın hidroehtiyatlarının iqtisadi əhəmiyyətini izah edir. |

**A Mətn və şəkil üzrə iş**

1. Verilən məlumatlardan istifadə edərək Hiller gölünün axarlı və ya axarsız olduğunu müəyyən edin (*axarsız: okeana bitişik olmuşdur, göldən duz çıxarırdılar*).
2. Asiyada və Şimali Amerikada bu gölə oxşar göl göstərə bilərsinizmi? *(Duzlu göl, Lobnor)*.

**B** İnformasiyanı öyrənərkən şagirdlərə mətnin geniş (mürəkkəb) planını tərtib etmək tapşırıla bilər.

Nümunə:

I. Su resurslarının ümumi səciyyəsi
1) iqlimin hidroqrafik şəbəkənin sıxlığına təsiri.
2) Əhalinin hər nəfərinə düşən su ehtiyatları ilə təmin olunmasına görə Avstraliyanın dünyada yeri.
3) İqlimin quruyan çay yataqları – kriklərin yaranmasına təsiri

II. Hind okeanı hövzəsinin çayları. Murrey-Darlinq sisteminin səciyyəsi
1) Çayın mənbəyi
2) Çayın mənsəbi
3) Çayın uzunluğu
4) Çayın qidalanması
5) Çayın rejimi
6) Çay üzərində tikilən su anbarları və onların əhəmiyyəti
   a. daşqınlardan müdafiə
   b. suvarmada istifadə
   c. kənd təsərrüfatının inkişafının çay sistemlərinə təsiri
   ç. çaylarda gəmiçiliyin inkişafı

III. Sakit okean hövzəsinin çayları
1) Passatların təsiri
2) Relyefin təsiri
3) Təsərrüfat əhəmiyyəti
   a. SES-lərin tikilməsi
   b. Gəmiçilikdə istifadə

LAYİHƏ

IV. Avstraliyanın gölləri
1) Avstraliya göllərinin səciyyəvi xüsusiyyətləri
2) Eyr gölünün səciyyəsi
a. gölün mütləq hündürlüyü
b. il ərzində suyun səviyyəsinin dəyişməsi

V. Avstraliyanın cənubunda yerləşən göllər
1) Göllərin adı
2) İqlimin göllərin rejiminə təsiri

VI. Qərbi Avstraliya yaylasının gölləri
1) Göllərin rejiminə iqlimin təsiri

VII. Tasmaniyanın gölləri
1) Göllərin təsərrüfat əhəmiyyəti

VIII. Avstraliyanın yeraltı suları
1) Böyük Artezian hövzəsi
2) Yeraltı suların təsərrüfat əhəmiyyəti

**C Xəritə-sxem üzrə iş**

– Murrey çayının mənsəbi Sakit okean sahillərinə yaxın yerləşir. Ancaq çay şərqə doğru deyil, qərbə doğru axır və Hind okeanına tökülür. Bunu siz necə izah edərdiniz? (*ərazi qərbə meyillidir, şərqdə Böyük Suayırıcı dağları yerləşir*).

**D Biliklərin tətbiq edilməsi və yoxlanılması**

Masazır gölünün şəklindən istifadə etməklə suallara cavab verin:
1. Gölün hansı təsərrüfat əhəmiyyəti var? *(duz almaq üçün)*
2. Duzlu və ya şirin sulu göldürmü (*duzlu*)
3. Masazır gölü axarlı və yaxud axarsız göldür? (*axarsız*)
4. Gölün rəngi nə üçün qırmızıdır? (Göldəki mikroorqanizmlərin yayılması suya qırmızı rəng verir)

*Qiymətləndirmə meyarları: izahetmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Avstraliyanın hidroehtiyatlarının iqtisadi əhəmiyyətini çətinliklə izah edir. | Avstraliyanın hidroehtiyatlarının iqtisadi əhəmiyyətini müəllimin istiqamətverici suallarının köməyi ilə izah edir. | Avstraliyanın hidroehtiyatlarının iqtisadi əhəmiyyətini izah edərkən qeyri-dəqiqliyə yol verir. | Avstraliyanın hidroehtiyatlarının iqtisadi əhəmiyyətini düzgün izah edir. |

LAYİHƏ

## Dərs 29 / Mövzu 27: DÜNYA OKEANINDAN İSTİFADƏ

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 2.1.5. Hidrosferin iqtisadi həyata təsirini izah edir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Dünya okeanının təsərrüfat əhəmiyyətini izah edir (bioloji, mineral, enerji resursları, nəqliyyat əhəmiyyəti). |

**A Qrafik üzrə iş**

1. Əhali və təbii sərvətlər arasında hansı dəyişikliklərin baş verdiyini izah edin (*əhalinin sayı artır, təbii ehtiyatlarla təminatlılıq azalır).*

2. Resurslar ilə əhali arasında fərqin artmasının qarşısını almaq üçün nə etmək olar? *(təbii resurslardan qənaətlə istifadə, tükənməyən ehtiyatlardan istifadə, xammala qənaət edən texnologiyanın tətbiqi, xammalın təkrar emalı, elmin süni materiallar istehsalı üçün imkan yaradan ən yeni nailiyyətlərindən istifadə, dünya əhalisinin sayının sabitləşdirilməsinə yönəldilmiş demoqrafik siyasətin həyata keçirilməsi və s.*).

3. Əhalinin təbii sərvətlərə olan tələbatının ödənilməsində Dünya okeanı hansı rola malikdir? *(Okean insanın istifadə edə biləcəyi çoxlu miqdarda bioloji – balıq, mineral ehtiyatlar, qabarma enerjisinə malikdir).*

**B** Mətni daha yaxşı başa düşmək üçün şagirdlər İNSERT strategiyasından istifadə edərək İNSERT cədvəli doldura bilərlər:

| ✓ (məlumdur) | – (əvvəlki biliklərimə ziddir) | + (maraqlı və yeni məlumatdır) | ? (aydın deyil, öyrənmək istərdim) |
|---|---|---|---|
| ... | ... | ... | ... |
| ... | ... | ... | ... |

Mətni oxuduqca şagirdlər "Biliklərin tətbiq edilməsi və yoxlanılması" bölməsində verilmiş 2-ci tapşırığı yerinə yetirə və sistemləşdirici cədvəl qura bilərlər.

Dünya okeanının resursları

↓

*Dəniz suyu* | *Mineral resurslar* | *Enerji resursları* | *Bioloji resurslar*

LAYİHƏ

## C Sxem və cədvəl üzrə iş

1. Sxemdən istifadə edərək suyun necə şirinləşdirildiyini izah edin (*dəniz suyunu şirinləşdirmək üçün xüsusi termik distillə aparatında müəyyən temperatura qədər qızdırılır, buxarlandırılır, sonra yenidən maye halına qaytarılır).*
2. Nə üçün Dünya okeanına çıxışı olan dəniz su resurslarına malik tropik Afrika ölkələrində şirin su çatışmazlığı problemi mövcuddur? *(suşirinləşdirici qurğuların tikilməsi maliyyə ehtiyatları tələb edir, Afrika ölkələri isə bu ehtiyatlara malik deyil).*

**Xəritə üzrə iş**

– Dünya okeanında mineral ehtiyatların yayıldığı əraziləri təyin edin və cədvəli tamamlayın.

| Faydalı qazıntının adı | Faydalı qazıntının mövcud olduğu su (ərazilər) |
|---|---|
| Neft | Aralıq, Cənubi Çin, Karib, İran körfəzi |
| Təbii qaz | Aralıq, Cənubi Çin, Karib, İran körfəzi, Meksika körfəzi, Bofort dənizi |
| Qızıl | Alyaska körfəzi, Şimali Amerikanın qərb sahilləri |
| Boksit | Avstraliya, Braziliya sahilləri |
| Dəmir filizi | Yeni Zelandiya sahilləri, Hudzon körfəzi, Karib dənizi |
| Qalay | Benqal körfəzi, Cənubi Çin dənizi |
| Fosforit | Ərəbistan dənizi, Kaliforniya körfəzi, Cənubi Amerika Sakit okean sahilləri |
| Almaz | Cənubi Afrika sahilləri |

## D Biliklərin tətbiq edilməsi və yoxlanılması

Cədvələ nəzər salın:

1. Dəftərinizə dünyanın ən iri limanlarını qeyd edin və onları xəritədə tapıb cədvəli tamamlayın.

| **Yük dövriyyəsi 50 mln. tondan çox olan universal dəniz limanları** | | | |
|---|---|---|---|
| | **Liman** | **Hansı ölkənin ərazisindədir** | **Hansı su hövzəsinin sahilindədir** |
| 1 | Rotterdam | Niderland | Şimal dənizi |
| 2 | Sinqapur | Sinqapur | Malakka körfəzi |
| 3 | Şanxay | Çin | Sakit okean (Şərqi Çin dənizi) |
| 4 | Kobe | Yaponiya | Yapon dənizi |
| 5 | Nyu York | ABŞ | Atlantik okeanı |
| 6 | Tiba | Yaponiya | Sakit okean |
| 7 | Naqoya | Yaponiya | Sakit okean |
| 8 | Hyuston | ABŞ | Atlantik okeanı |
| 9 | İokoqama | Yaponiya | Sakit okean |
| 10 | Yeni Orlean | ABŞ | Atlantik okeanı |

2. Sxemi dəftərinizə çəkin, mətndən istifadə edərək onu tamamlayın.

LAYİHƏ




*Qiymətləndirmə meyarları: izahetmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Dünya okeanının təsərrüfat əhəmiyyətini çətinliklə izah edir. | Dünya okeanının təsərrüfat əhəmiyyətini müəllimin istiqamətverici suallarının köməyi ilə izah edir. | Dünya okeanının təsərrüfat əhəmiyyətini izah edərkən qeyri-dəqiqliyə yol verir. | Dünya okeanının təsərrüfat əhəmiyyətini səhvsiz izah edir. |

## Dərs 30 / Mövzu 28: AZƏRBAYCANIN SU ANBARLARI VƏ KANALLARI

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 2.1.5. Hidrosferin iqtisadi həyata təsirini izah edir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Xəritələrdən, mətndəki informasiyadan və əlavə mənbələrdən istifadə edərək respublikanın hidroehtiyatları haqqında məlumat toplayır, sistemləşdirir və təqdim edir. |

Dərsi praktik dərs formasında keçmək məqsədəuyğundur. Şagirdlər müstəqil işləyə bilərlər. Müəllim bir-biri ilə əlaqəsi olmayan tapşırıqların yerinə yetirilməsini aydın əks etdirən modul-bloklar hazırlamalıdır. Tapşırıqların yerinə yetirilmə ardıcıllığını isə şagirdlər özləri müəyyən edirlər. Cütlərlə iş üçün modula nümunə:

Zəruri vasitələr: dərslik, Azərbaycanın fiziki, inzibati və kontur xəritələri.

| Fəaliyyət | Məqsəd | Qiymətləndirmə |
|---|---|---|
| 1. Mövzunun adını dəftərinizə yazın. | | |

LAYİHƏ

| | | |
|---|---|---|
| **Birinci blok üzrə** | | |
| ***Tapşırıq 1(a).*** Cədvəldə sadalanan iri su anbarlarını xəritədə tapın. | Su anbarlarını xəritədə göstərməyi bacarmaq. | Bir-birinizi yoxlayın. Növbə ilə su anbarlarının adlarını sadalayın və xəritədə göstərin. Hər düzgün göstərdiyiniz su anbarına görə özünüzə 1 bal verin. Nəticədə siz 11 bal ala bilərsiniz. |
| ***Tapşırıq (b).*** Cədvəli dəftərinizə çəkin və tamamlayın. | Xəritədən yeni informasiya almağı bacarmaq. | Müəllim yoxlayır (işin düzgün yerinə yetirilməsi üçün siz 6 bal ala bilərsiniz). |
| ***Tapşırıq 2.*** Tapşırığı yerinə yetirin. | Statistik məlumatlardan zəruri informasiyanı almağı bacarmaq. | Müəllim yoxlayır (İşin düzgün yerinə yetirilməsi üçün siz 4 bal ala bilərsiniz). |
| **İkinci blok üzrə** | | |
| ***Tapşırıq 3.*** Azərbaycan Respublikasında iri suvarma kanallarını xəritədə tapın. | Suvarma kanallarını xəritədə göstərməyi bacarmaq. | Bir-birinizi yoxlayın. Kanalların adlarını sadalayın və xəritədə göstərin. Hər düzgün göstərilən kanala görə özünüzə 1 bal verin. Nəticədə siz 5 bal ala bilərsiniz. |
| **Tapşırıq 4.** Cədvəli tamamlayın (iri suvarma kanalları). | Xəritədən lazımi məlumatı almağı bacarmaq. | Müəllim yoxlayır (Düzgün yerinə yetirilən tapşırıq üçün siz 4 bal al bilərsiniz). |
| ***Üçüncü blok üzrə*** | | |
| **Tapşırıq 5.** Blokda verilən məlumatı öyrənin. Respublikanın ən böyük SES-lərini kontur xəritədə qeyd edin. | Kontur xəritədə obyektləri qeyd etməyi öyrənmək. | Öz işinizi sinif yoldaşınızın nəticəsi ilə tutuşdurun. Üst-üstə düşməyən hissələri müzakirə edin. İşin nəticəsini müəllim yoxlayır (5 bal). |
| | | |
| **Tapşırıq 6.** “Azərbaycanın su anbarları, kanalları, SES-ləri” mövzusunda krossvord tərtib edin. | | Sinif yoldaşınızdan krossvordu doldurmağı xahiş edin və sizin işinizin nə qədər maraqlı olduğunu qiymətləndirsin (5 bal). |
| | | |
| Topladığınız balları hesablayın və nəticəni dəftərinizə yazın. | | Nəticədə sizin topladığınız balların maksimum miqdarı 40 bal təşkil edir. |
| | | |
| **Tapşırıq 7.** Dərsdən sonra. Blokun istənilən tapşırığını yerinə yetirin. | Lazımi məlumatı tapmaq, ümumiləşdirmək və təqdim etməyi bacarmaq. | Müəllim yoxlayır. Düzgün yerinə yetirilən tapşırığa görə 10 bal ala bilərsiniz. |

LAYİHƏ

**Tapşırıq 1**. Cədvəldə sadalanan iri su anbarlarını xəritədə tapın və cədvəli tamamlayın.

| № | Su anbarları | Tutduğu sahə, $km^2$ | Hansı çayın üzərindədir |
|---|---|---|---|
| 1. | Mingəçevir | 625 | Kür |
| 2. | Yenikənd | 23,8 | Kür |
| 3. | Şəmkir | 116 | Kür |
| 4. | Varvara | 22,5 | Kür |
| 5. | Araz su qovşağı | 145 | Araz |
| 6. | Mil-Muğan | 4,5 | Araz |
| 7. | Ceyranbatan | 13,9 | - |
| 8. | Sərsəng | 14,2 | Tərtər |
| 9. | Arpaçay | 6,30 | Arpaçay |
| 10. | Viləş | 2,5 | Viləşçay |
| 11 | Xanbulançay | 24,6 | Lənkərançay |

**Tapşırıq 2.** Respublikanın bütün su anbarlarının ümumi sahəsi 1070 $km^2$ təşkil edir. Bu su anbarlarının ümumi sahəsi Azərbaycanın ümumi sahəsinin neçə faizidir?
*86,6 min* $\kappa m^2$ *– 100%*
*1070* $\kappa m^2$ *– x%*
*x=1070x100:86,6=1,2%*

**Tapşırıq 3**

| Azərbaycan Respublikasının iri suvarma kanalları | | | | | |
|---|---|---|---|---|---|
| № | Kanalın adı | Başlandığı su hövzəsi | Uzunluq km-lə | Suvarılan sahə (min, hektarla) | Suvarıldığı ərazilər |
| 1. | Samur-Abşeron | Samur çayı | 182 | 92 | Samur-Dəvəçi ovalığı |
| 2. | Yuxarı Qarabağ | Mingəçevir su anb. | 175 | 85 | Mil, Qazax-Qarabağ, |
| 3. | Yuxarı Şirvan | Mingəçevir su anb. | 126 | 127 | Şirvan, Cənub-Şərqi Şirvan düzləri |
| 4. | Baş Mil | Mil-Muğan su anb. | 38 | 64 | Mil düzü |
| 5. | Baş Muğan | Bəhramtəpə su anb. | 37 | 140 | Muğan düzü |

LAYİHƏ

*Qiymətləndirmə meyarları: məlumatı toplama, sistemləşdirmə və təqdimetmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Xəritə, dərsliyin mətni və digər mənbələrdən istifadə edərkən respublikanın hidroehtiyatları haqqında məlumatı toplamaqda, ümumiləşdirməkdə və təqdim etməkdə çətinlik çəkir. | Xəritə, dərsliyin mətni və digər mənbələrdən istifadə edərək respublikanın hidroehtiyatları haqqında məlumat toplamağı, ümumiləşdirməyi və təqdim etməyi tələb edən bəzi tapşırıqları yerinə yetirir. | Xəritə, dərsliyin mətni və digər mənbələrdən istifadə edərək respublikanın hidroehtiyatları haqqında məlumat toplamağı, ümumiləşdirməyi tələb edən bəzi tapşırıqları yerinə yetirərkən qeyri-dəqiqliyə yol verir. | Xəritə, dərsliyin mətni və digər mənbələrdən istifadə edərək respublikanın hidroehtiyatları haqqında məlumat toplamağı, ümumiləşdirməyi tələb edən bəzi tapşırıqları səhvsiz yerinə yetirir. |

LAYİHƏ

## DƏRS 31. III FƏSİL ÜZRƏ
## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ NÜMUNƏSİ

1. İnkişaf etmiş gəmiçiliyə malik olan okean və ən böyük dəniz limanının yerləşdiyi şəhər:

A) Hind, Şanxay B) Atlantik, Rotterdam C) Sakit, Nyu York
D) Sakit, Sinqapur E) Atlantik, Hyuston

2. Hansı variantda uyğunluq düzgün verilmişdir?

| Azərbaycan Respublikasının iri suvarma kanalları | | | |
|---|---|---|---|
| | Kanalın adı | Başlandığı su hövzəsi | Suvarıldığı ərazilər |
| A | Samur -Abşeron | Samur çayı | Şirvan, Cənub-Şərqi Şirvan düzləri |
| B | Yuxarı Qarabağ | Mingəçevir su anb. | Mil, Qazax-Qarabağ |
| C | Yuxarı Şirvan | Mingəçevir su anb. | Samur-Dəvəçi ovalığı |
| D | Baş Mil | Bəhramtəpə su anb. | Mil düzü |
| E | Baş Muğan | Mil-Muğan su anb. | Muğan düzü |

3. A, B, C çaylarının ümumi xüsusiyyətləri:




1. Atlantik okeanı hövzəsinə aiddirlər.
2. Üzərində iri SES-lər tikilmişdir.
3. Suvarmada istifadə olunurlar.
4. Üzərində çoxlu astana və şəlalələr var.
5. Bir ölkənin ərazisi ilə axırlar.

______________________________

______________________________

4. Hansı variantda Bakıdan Afinaya gedən gəminin keçəcəyi su obyektlərinin ardıcıllığı düzgün verilmişdir?

A) Xəzər dənizi, Volqa, Volqa-Don kanalı, Don, Azov dənizi, Kerç boğazı, Qara dəniz, Bosfor boğazı, Mərmərə dənizi, Dardanel boğazı, Egey dənizi
B) Xəzər dənizi, Volqa çayı, Volqa-Baltik kanalı, Don, Qara dəniz, Mərmərə dənizi, Dardanel, Bosfor boğazı
C) Xəzər dənizi, Volqa çayı, Volqa-Don kanalı, Kerç boğazı, Don, Azov dənizi, Qara dəniz, Dardanel, Mərmərə dənizi, Bosfor, Egey dənizi
D) Xəzər dənizi, Volqa, Volqa-Don kanalı, Azov dənizi, Don, Qara dəniz, Kerç boğazı, Bosfor, Mərmərə dənizi, Dardanel, Egey dənizi

LAYİHƏ

5. Xəritə-sxemdəki rəqəmlərə uyğun gələn hidroqrafik obyektləri müəyyən edin:
A) 1–Lena, 2–Baykal, 3–Yantszı
B) 1–Yenisey, 2–Baykal, 3–Amur, C) 1–Xuanxe, 2–Lena, 3–Amur D) 1–Lena, 2–Baykal, 3–Amur E) 1–Ob, 2–Baykal, 3–Yantszı




6. Uyğunluğu müəyyən edin:

1. Mingəçevir SES
2. Sərsəng SES
3. Şəmkir SES
4. Mil-Muğan su anb.
5. Araz su qovşağı

a) Kür
b) Tərtər
c) Araz
d) Sumqayıtçay

_______________________________________________

7. Atlantik okeanının təsərrüfat əhəmiyyəti haqqında doğrudur:

a. Şimal dənizinin şelf zonasında zəngin dəmir filizi yataqları mövcuddur.
b. Okeanın ən böyük limanları Rotterdam və Nyu Yorkdur.
c. Rotterdamdan Stokholma gedən gəmilər La-Manş boğazından keçir.
d. İri qabarma stansiyaları Fransa və Kanadada tikilmişdir.
e. İran körfəzində zəngin neft ehtiyatları var.

_______________________________________________

LAYİHƏ

# FƏSİL – 4

# BİOEHTİYATLARIN MÜXTƏLİFLİYİ VƏ ONDAN İSTİFADƏ

## FƏSİL ÜZRƏ REALLAŞDIRILACAQ ALT STANDARTLAR

2.1.5. Hidrosferin iqtisadi həyata təsirini izah edir.
2.1.7. İqtisadiyyatın inkişafında bioehtiyatların və alternativ enerji ehtiyatlarının rolunu qiymətləndirir.
2.1.8. Yaşadığı ərazinin təbii komponentlərinə dair topladığı məlumatları təqdim edir.
3.2.5. Ətraf mühitdə yaranmış ekoloji vəziyyəti qiymətləndirir.

FƏSİL ÜZRƏ ÜMUMİ SAATLARIN MİQDARI: **18 saat**
KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ: **1 saat**

LAYİHƏ

## Dərs 33 /Mövzu 29: ŞİMAL MATERİKLƏRİNİN BİOEHTİYATLARI VƏ ÖLKƏLƏRİN İQTİSADİ İNKİŞAFINDA ONLARIN ROLU

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 2.1.7. İqtisadiyyatın inkişafında bioehtiyatların və alternativ enerji ehtiyatlarının rolunu qiymətləndirir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • "Bioehtiyatlar" anlayışını izah edir.<br>• Avrasiya və Şimali Amerikanın müxtəlif təbii zonalarında becərilən kənd təsərrüfatı bitkilərinə misallar göstərir. |

**A Xəritə-sxem üzrə iş. Şimal materiklərinin təbii zonaları**

Avrasiya və Şimali Amerikanın təbii zonalarını müqayisə edin:

1. Materiklərdə hansı təbii zona daha böyük sahə tutur? *(daha böyük ərazini meşə zonası – tayqa və enliyarpaqlı meşələr tutur)*

2. Şimali Amerikada hansı təbii zona meridian boyunca uzanır? *(materikin şimalında yerləşən təbii zonalar – arktik səhralar, tundra, tayqa enlik üzrə, digərləri – enliyarpaqlı meşələr, çöllər, səhralar isə meridian boyunca uzanır).*

3. Avrasiyada hansı təbii zona enlik boyunca tam zolaq təşkil etmir? (*Avrasiyada arktik səhralar tundra və tayqa tam zolaq yaradır, digər zonalar, yəni enliyarpaqlı meşələr, codyarpaqlı meşələr, çöllər, səhralar, savannalar tam zolaq yaratmır).*

4. Hansı təbii zona Avrasiyada olduğu halda, Şimali Amerikada yoxdur? *(rütubətli ekvatorial meşələr).*

**B** Mətnlə iş zamanı şagirdlər mövzudakı informasiyanı cədvəl və ya sxem şəklində təqdim edə bilərlər. Nümunə:




**Mətn və şəkil üzrə iş. Şimali Amerikanın kənd təsərrüfatı**



LAYİHƏ

1. ABŞ-da yazlıq taxılın şimal, payızlıq taxılın isə cənubda əkilməsi nə ilə əlaqədardır? *(payızlıq taxılı payızda əkirlər. Cavan bitkilər qarın altında qışlayır, yazda isə inkişaf etməyə davam edir. Yazlıq buğdanın toxumunu yaz fəslində səpirlər. Payızlıq buğdanı yazlıq buğdaya nisbətən qışa daha davamlı olduğu üçün ölkənin daha isti cənub və mərkəzi rayonlarında becərirlər. Yayın əvvəlində payızlıq, ondan sonra isə yazlıq buğda yetişir).*

2. ABŞ-da pambıq və çəltiyin münbit çöl zonasından kənarda əkilməsinin iki səbəbini deyin. (*kənd təsərrüfatı bitkilərinin yayılması təbii-iqlim şəraitindən asılıdır: çöl zonası və münbit qara torpaqlar taxıl bitkiləri üçün daha əlverişlidir; çəltik istisevən bitkidir və digər dənli bitkilərdən fərqli olaraq, bol rütubət tələb edir, çəltikçilik, əsasən, rütubətli tropik və subtropik regionlarda yayılmışdır. Pambıq iqlimin isti və quraq olduğu ərazilərdə suvarma şəraitində becərilir).*

3. Avrasiyada çöl zonasında yerləşən və buğda istehsalçısı olan iki ölkənin adını deyin (*Qazaxıstan, Çin).*

**D Biliklərin tətbiq edilməsi və yoxlanılması**

1. Təbii zonalar xəritəsindən istifadə edin və dəftərə yazın:
a. Şimal Buzlu okeanından Aralıq dənizinə qədər Avropada hansı təbii zonalar yayılmışdır?
b. Şimali Amerikanın şimalından cənubuna qədər hansı təbii zonalar mövcuddur?

| A | B |
|---|---|
| *Arktik səhralar, tundra, meşə-tundra, tayqa, qarışıq və enliyarpaqlı meşələr, codyarpaqlı həmişəyaşıl meşələr və kolluqlar (Aralıq dənizi tipli)* | *Arktik səhralar, tundra, tayqa, qarışıq və enliyarpaqlı meşələr, meşə-çöl və çöllər, yarımsəhra və səhralar, musson meşələri, savanna və seyrək meşələr.* |

2. Fiziki və təbii zonalar xəritəsindən istifadə edərək cədvəli tamamlayın:

| **Avrasiya** | | **Şimali Amerika** | |
|---|---|---|---|
| Ucqar nöqtələr | Yerləşdiyi təbii zonalar | Ucqar nöqtələr | Yerləşdiyi təbii zonalar |
| Çelyuskin b. (Rusiya), 77°43' ş. e. – şimal ucqar nöqtə | Arktik səhra | Merçison b.şimal ucqar nöqtə 71°50′ ş. e.. | Arktik səhralar |
| Piay b. (Malayziya) 1°16' ş. e. – cənub ucqar nöqtə | Dəyişkən rütubətli meşələr | Maryato b.- cənub nöqtə – 7°12′ ş. e. | Dəyişkən-rütubətli meşələr |
| Roka b. (Portuqaliya), 9º31' q. u. – qərb ucqar nöqtə | Codyarpaqlı meşələr və kolluqlar | Uels şahzadəsi b. – ucqar qərb nöqtə 168°05′ q. u. | Tundra |
| Dejnyov b. (Rusiya), 169°42' q. u. – ucqar şərq nöqtə. | Tundra | Sent-Çarlz b. – ucqar şərq nöqtə 55°40′ q. u. | Tundra |

LAYİHƏ

3. Mətndən istifadə edərək cədvəli tamamlayın:

| Təbii zona | Ölkələr | Təsərrüfatda istifadəsi |
|---|---|---|
| Meşələr | Kanada, ABŞ, Rusiya, Avropa ölkələri | oduncaq tədarükü, müalicəvi yabanı giləmeyvələr, qayınağac şirəsi (ABŞ), ovçuluq |
| Çöllər | Şərqi Avropa ölkələri, Rusiya, Qazaxıstan, Monqolustan, Çin | bitkiçilik (taxıl bitkiləri, buğda, qarğıdalı, kətan və s) və heyvandarlıq (əsasən, maldarlıq) |
| Codyarpaqlı meşə və kolluqlar | Cənubi Avropanın Aralıq dənizi ölkələri, ABŞ | əkinçilik (portağal, narıngi, limon, feyxoa, zeytun, üzüm və s.), heyvandarlıq |
| Musson meşələr | Çin, Yaponiya | çay, tərəvəz, qarğıdalı, çəltik |
| Savannalar | Şimali Amerikanın cənub ölkələri, Avrasiyada Cənubi Asiya və Cənub-Şərqi Asiya ölkələri | pambıq, qəhvə, çəltik, çay, cut<br><br>heyvandarlıq |
| Səhralar | ABŞ, Cənub -Qərbi Asiya ölkələri | yunluq istiqamətli qoyunçuluq və dəvəçilik |
| Ekvatorial meşələr | Avrasiyanın cənub-şərq ölkələri | çay, çəltik, tərəvəz, təbii kauçuk |

*Qiymətləndirmə meyarları; izahetmə, misallar göstərmə*

| **I səviyyə** | **II səviyyə** | **III səviyyə** | **IV səviyyə** |
|---|---|---|---|
| "Bioehtiyatlar" anlayışını çətinliklə izah edir. | "Bioehtiyatlar" anlayışını müəllimin köməyi ilə izah edir. | "Bioehtiyatlar" anlayışını izah edərkən qeyri-dəqiqliyə yol verir və natamam cavab verir. | "Bioehtiyatlar" anlayışını səhvsiz izah edir. |
| Avrasiya və Şimali Amerikanın müxtəlif təbii zonalarında becərilən kənd təsərrüfatı bitkilərinə çətinliklə misallar göstərir. | Avrasiya və Şimali Amerikanın müxtəlif təbii zonalarında becərilən kənd təsərrüfatı bitkilərinə müəllimin suallarının köməyi ilə misallar göstərir. | Avrasiya və Şimali Amerikanın müxtəlif təbii zonalarında becərilən kənd təsərrüfatı bitkilərinə misallar göstərərkən qeyri-dəqiqliyə yol verir. | Avrasiya və Şimali Amerikanın müxtəlif təbii zonalarında becərilən kənd təsərrüfatı bitkilərinə misalları səhvsiz göstərir. |

LAYİHƏ

## Dərs 34 / Mövzu 30: CƏNUB MATERİKLƏRİNİN BİOEHTİYATLARINDAN İSTİFADƏNİN XÜSUSİYYƏTLƏRİ

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 2.1.7. İqtisadiyyatın inkişafında bioehtiyatların və alternativ enerji ehtiyatlarının rolunu qiymətləndirir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Cənubi Amerika, Afrika və Avstraliyanın müxtəlif təbii zonalarının bioehtiyatlarına misallar gətirir.<br>• GMO-dan istifadənin nəticələrini qiymətləndirir. |

**A** Cənub materiklərində yayılan təbii zonalara əsasən suallara cavab verin:
1. Təbii zonalardan hansılara hər üç materikdə rast gəlinir? *(səhra, savanna və seyrək meşələr, codyarpaqlı meşələr və kolluqlar)*
2. Cənub materiklərinin hansında ekvatorial meşələrə, savanna və seyrək meşələrə, səhralara rast gəlinir? (*Afrika və Cənubi Amerika*).
3. Cənubi Amerika və Afrikada olan hansı təbii zonalar şimal materiklərində mövcuddur? (*səhralar, savannalar, codyarpaqlı meşə və kolluqlar).*
4. Nə üçün Afrika və Avstraliyada səhralar geniş yer tutduğu halda Cənubi Amerikada onların sahəsi çox kiçikdir? *(bu materiklərin çox hissəsi tropik, eyni zamanda Cənubi Amerikanın çox hissəsi ekvatorial və subekvatorial qurşaqlarda yerləşir).*
5. Afrika və Cənubi Amerikada hansı təbii zonalar təkrarlanır? (*ekvatorial meşələr, savanna və seyrək meşələr)*

**B** Mətnlə iş zamanı şagirdlər BİBÖ strategiyasından istifadə edə bilərlər. Onlara cədvəli doldurmağı tapşırmaq olar:

| | Təbii zona | Təbii bioehtiyatlar | | | Təsərrüfatda istifadə | | |
|---|---|---|---|---|---|---|---|
| | | Bilirəm | Bilmək istəyirəm | Öyrəndim | Bilirəm | Bilmək istəyirəm | Öyrəndim |
| 1 | Ekvatorial meşələr | | | | | | |
| 2 | Savannalar | | | | | | |
| 3 | Tropik səhralar | | | | | | |
| 4 | Çöllər | | | | | | |
| 5 | Codyarpaqlı meşələr və kolluqlar | | | | | | |

LAYİHƏ

Strategiyanın tətbiq edilməsi alqoritmi:
1. Şagirdlər cədvəlin "bilirəm" qrafasını doldururlar – "İqlim" bölməsi üzrə onlara məlum olan bütün məlumatları yazırlar.
2. Sonra onlara dərs boyu cavabını bilmək istədikləri sualları dəftərlərinə yazmaq tapşırılır.
3. Şagirdlər dərslikdəki mətnlə işləyərək cədvəlin "öyrəndim" qrafasını doldururlar.

| | Təbii zona | Təbii bioehtiyatlar | Təsərrüfatda istifadə |
|---|---|---|---|
| 1 | ekvatorial meşələr | heveya, kinə ağacı, qırmızı ağac, balsa, qovun ağacı, papayya, batat, maniok palmanın 100-dən çox növü, Braziliya qozu və s. | oduncaq tədarükü, tropik bitkilərin plantasiyaları |
| 2 | Savannalar | | Bitkiçilik (şəkər qamışı, pambıq becərilməsi) |
| 3 | Tropik səhralar | | Afrika səhralarında – Əkinçilik, vahələrdə xurma palmasının becərilməsi və yarımsəhralarda qummiarabik bitkisinin meyvələrinin yığılması<br>Avstraliyada – heyvandarlıq |
| 4 | Çöllər | Birillik ot bitkiləri | Taxılçılıq, heyvandarlıq |
| 5 | Codyarpaqlı meşələr və kolluqlar | | Sitrus meyvələri, zeytun, üzüm plantasiyaları |

Tapşırığın sonunda müzakirə aparılır:

1. Şagirdlər hər bir təbii zonanın bioehtiyatları haqqında nələri öyrəndilər.
2. Şagirdlər hər bir təbii zonanın təsərrüfatda istifadəsi haqqında nə öyrəndilər.
3. Dərs zamanı onlar hansı suallara cavab tapdılar və ya hansılara cavab ala bilmədilər.

C **Mətn, xəritə-sxem və şəkil üzrə iş. Transamazon magistralı yağışdan sonra** – Transamazon yolunun iqtisadi əhəmiyyətinə dair 5 cümlədən ibarət qısa məlumat yazın.

*Transamazon şosesi Amazoniyanın böyük sahəsinin öyrənilməsi və mənimsənilməsində mühüm rol oynayır. O, zəif mənimsənilən, lakin təbii resursları ilə zəngin olan regionların inkişafına səbəb olur. Dəniz sahilində və sahildən uzaqda yerləşən şəhərlər arasında əlaqə yaradır. Amazon selvasının resurslarını mənimsəməyə imkan verir – bu yol mineral resursların və oduncağın daşınmasına şərait yaradır. Lima və Resifi şəhərlərini birləşdirməklə Sakit və Atlantik okeanları arasında birbaşa əlaqə yaradır.*

**Mətn və xəritə üzrə iş.** GMO-nun tətbiq olunduğu, qismən tətbiq olunduğu və qadağan edildiyi ölkələrin qruplaşdırılmasını əks etdirən cədvəl tərtib edin və onu tamamlayın.

LAYİHƏ

| GMO- məhsullarının becərildiyi ölkələr | GMO- məhsulları idxal edən ölkələr | Məlumat olmayan ölkələr |
|---|---|---|
| ABŞ, Kanada, Braziliya, Argentina,Fransa, Avstraliya, Çin, Hindistan, CAR və s | Rusiya, Yaponiya, Türkiyə, Almaniya, Norveç, Myanma, İtalya və s | Ukrayna, Misir, İran, Qazaxstan və s. |

**D Biliklərin tətbiq edilməsi və yoxlanılması**

1. Cənub materiklərinin təbii zonalarının təsərrüfat əhəmiyyətinə dair nümunələr sadalayın.

| | Təbii zona | Təsərrüfat əhəmiyyəti |
|---|---|---|
| 1 | Ekvatorial meşələr | oduncaq tədarükü, tropik bitkilərin plantasiyaları |
| 2 | Savannalar | bitkiçilik (şəkər qamışı, pambıq becərilməsi) |
| 3 | Tropik səhralar | Afrika səhralarında – əkinçilik, vahələrdə xurma palmasının becərilməsi və yarımsəhralarda qummiarabik bitkisinin meyvələrinin yığılması Avstraliyada – heyvandarlıq |
| 4 | Çöllər | taxılçılıq, heyvandarlıq |
| 5 | Codyarpaqlı meşələr və kolluqlar | sitrus meyvələri, zeytun, üzüm plantasiyaları |

2. GMO nə deməkdir? Onları nə üçün tətbiq edirlər?

*Geni modifikasiya olunmuş (dəyişdirilmiş) orqanizmlər – gen mühəndisliyinin yaratdığı bitkilər həmçinin canlı orqanizmlərdir. Gen modifikasiyasının texnologiyası kənd təsərrüfatında geniş tətbiq edilir. GMO bitkiləri yüksək məhsuldarlığa malikdir, zərərvericilərə qarşı davamlıdır. "+" GMO-məhsuldarlıq həddən artıq yüksəlir; məhsuldarlığın artırılması dünyanın ərzaq probleminin həllidir. "–". GMO – insan orqanizminə mənfi təsir göstərir.*

3. Rəqəmlərin hansı təbii zonalar olduğunu yazın.

| Təbii zona | Cənubi Amerika | Afrika | Avstraliya |
|---|---|---|---|
| Ekvatorial meşələr | 4 | 4 | |
| Savannalar | 1, 2 | 3 7 | 15 |
| Səhralar | 5 | 2 6 | 2 |
| Çöllər | 3 | | |
| Codyarpaqlı meşələr və kolluqlar | | 1, 5 | 3, 4 |



LAYİHƏ

*Qiymətləndirmə meyarları: misallar göstərmə, qiymətləndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Cənubi Amerika, Afrika və Avstraliyanın müxtəlif təbii zonalarının bioehtiyatlarına misalları çətinliklə göstərir. | Cənubi Amerika, Afrika və Avstraliyanın müxtəlif təbii zonalarının bioehtiyatlarına müəllimin köməyi ilə misallar gətirir. | Cənubi Amerika, Afrika və Avstraliyanın müxtəlif təbii zonalarının bioehtiyatlarına misallar gətirərkən qeyri-dəqiqliyə yol verir. | Cənubi Amerika, Afrika və Avstraliyanın müxtəlif təbii zonalarının bioehtiyatları haqqında tam məlumat verir. |
| GMO-dan istifadənin nəticələrini çətinliklə qiymətləndirir. | GMO-dan istifadənin mənfi və müsbət tərəflərini müəllimin köməyi ilə qiymətləndirir. | GMO-dan istifadənin nəticələrini qiymətləndirərək qeyri-dəqiqliyə yol verir. | GMO-dan istifadənin nəticələrini düzgün qiymətləndirir. |

## Dərs 35 / Mövzu 31: PRAKTİK DƏRS. ANTARKTİDA – BİOLOJİ EHTİYATLARLA ZƏİF TƏMİN OLUNMUŞ MATERİKDİR

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 2.1.5. Hidrosferin iqtisadi həyata təsirini izah edir.<br>2.1.7. İqtisadiyyatın inkişafında bioehtiyatların və alternativ enerji ehtiyatlarının rolunu qiymətləndirir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Xəritədən, mətndən istifadə edərək Antarktidanın təbii şəraiti haqqında məlumat alır və təhlil edir.<br>• Əldə olunan məlumata əsasən Antarktidanın bioehtiyatlarla zəif təmin olunmasını əsaslandırır. |

**A** Antarktidanın kəşfi və təbiətinə dair əlavə olaraq daha hansı "ən"ləri əlavə edərdiniz?

- Antarktida ən son kəşf olunan materikdir.
- Heç bir materikə bənzəməyən bir materikdir.
- Yeganə materikdir ki, insan tərəfindən məskunlaşmamışdır.
- Bitki və heyvanat aləminə görə ən kasıb materikdir.

**Tapşırıq 1. Antarktidanın coğrafi mövqeyi**

1. Antarktida hansı okean və dənizlərlə əhatə olunmuşdur? (*Okeanlar: Sakit, Atlantik, Hind; Dənizlər: Ueddell, Bellinshauzen, Amundsen, Ross, Deyvis, Dostluq (Sodrujestvo)*)
2. Antarktidanı Cənubi Amerika materikindən hansı boğaz ayırır? (*Dreyk boğazı*)
3. Xəritədən daha hansı məlumatları almaq olar? *(materik Cənub qütb dairəsinin daxilində yerləşir)*
4. Antarktidanın coğrafi mövqeyi ilə əlaqəli 2 sual yazın.
   1. *Antarktidanın yerləşdiyi yarımkürələri və onu əhatə edən okeanları sadalayın.*

LAYİHƏ

*2. Antarktidadan Cənubi Amerikaya qədər olan ən qısa məsafə nə qədərdir?*

**Tapşırıq 2. Antarktidanın relyefi**

1. Antarktidanın buzaltı relyef formalarını qruplaşdırın və cədvəl şəklində yazın.

| *Dağlar* | *Düzənliklər / platolar* |
|---|---|
| *Transantarktika dağları*<br>*Vinson massivi*<br>*Erebus vulkanı*<br>*Şahzadə Çarlz dağları* | *Sovet platosu*<br>*Qütb platosu* |

2. "Antarktidanın buz qatı əriyərsə, onun relyefi necə olardı" mövzusunda qısa məlumat yazın.

Şagirdlər Antarktidanın fiziki xəritəsi və buzaltı relyef xəritəsini tutuşdurmalı və təhlil etməlidirlər. Bunun nəticəsində onlar aşağıdakı informasiyanı ala bilərlər:

*Materikin üçdə biri Dünya okeanından aşağıda yerləşir.*

*Qeyd: Buzların tamamilə əriməsi nəticəsində Antarktidanın sahəsi üç dəfə azalardı, Qərbi Antarktida arxipelaqa çevrilər, şərq hissə isə materik olaraq qalardı. Lakin buzların əriməsindən materikin qalxacağını iddia edən mülahizələr də mövcuddur. Materikin qərb hissəsi mürəkkəb relyefə və böyük hündürlük fərqinə malikdir. Burada Antarktidanın ən yüksək dağı (Vinson massivi – 4892 m) və ən çökək arazisi (Bentli çökməsi – 2555 m) yerləşir. Materikin şərqi daha hündür, lakin hamar relyefə malikdir, burada hündürlüyü 3-4 km-ə çatan ayrı-ayrı plato və dağ silsilələri yerləşir. Şərqi və Qərbi Antarktida arasında Transantarktika dağları uzanır.*

**Tapşırıq 3. Antarktidanın buz örtüyü**

1. Antarktida buzlaqlarını dünyanın suya ehtiyacı olan ərazilərinə gətirmək üçün hansı layihəni verərdiniz?

a. *Gəmilərə qoşqu kimi bərkidib susuz sahillərə sürümək olar.*

b. *Ərimiş suyu iri çənlərə doldurub sahil boyuna gətirmək mümkündür.*

2. Antarktida buzlaqlarının əriməsi Yer kürəsində hansı problemlərin yaranmasına səbəb ola bilər? *(sahil zonası dövlətlərinin əksəriyyəti su altında qalar)*

**Tapşırıq 4. Antarktidanın mineral ehtiyatları**

1. Antarktida qalın buz qatı ilə örtülü olduğu halda üzvi mənşəli faydalı qazıntıların olması nə ilə əlaqədar ola bilər? (*Antarktidada çökmə mənşəli süxurların olması qədimdə onun iqliminin indikindən fərqli olmasına dəlalət edir*).

2. Antarktidanın zəngin mineral ehtiyatlarından istifadə olunmur. Buna səbəb nədir? (*qalın buz qatının olması*)

**Tapşırıq 5. Antarktidanın iqlimi**

1. Antarktida hansı iqlim qurşaqlarında yerləşir? *(Antarktika, subantarktika)*

LAYİHƏ

2. Antarktidada güclü küləklərin baş verməsi nə ilə əlaqədardır? *(mərkəzi rayonlarda materikin həddindən artıq soyuması quru və okean arasında böyük fərq yaranmasına səbəb olur).*

**Tapşırıq 6. Antarktidanın üzvi aləmi**
**Şəkil üzrə iş**

2. Antarktidanın bioloji ehtiyatlarının zəif olmasını təsdiq edən 3 ifadə yazın.
*İqlimin sərt (güclü külək, temperaturun həddən artıq aşağı olması) və səthin üzəri buzla örtülü olduğuna görə orada bitki örtüyü mövcud ola bilməz. Heyvanat aləminin müxtəlifliyi çox azdır. Torpaq örtüyü yoxdur. Kənd təsərrüfatının inkişafına şərait yoxdur.*

3. Antarktidanın bioloji cəhətdən kasıb olmasında iqlim göstəricilərinin başlıca səbəb olduğunu izah edin.

Temperatur göstəriciləri çox aşağıdır. → Buz səthi qalındır. → Torpaq örtüyü yoxdur.

**Tapşırıq 7. Antarktidanın iqtisadi vəziyyəti**
– Nəyə görə turizm və elmi-tədqiqat işləri dekabr, yanvar, fevral aylarında daha aktiv olur? *(Antarktidada dekabr-fevral yay aylarıdır).*

*Qiymətləndirmə meyarları: məlumat əldəetmə və təhliletmə, əsaslandırma*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Xəritədən, mətndən istifadə edərək Antarktidanın təbii şəraiti haqqında məlumatı çətinliklə alır. | Xəritədən, mətndən istifadə edərək Antarktidanın təbii şəraiti haqqında müəllimin köməyi ilə məlumat alır və təhlil edir. | Xəritədən, mətndən istifadə edərək Antarktidanın təbii şəraiti haqqında məlumat alarkən və təhlil edərkən qeyri-dəqiqliyə yol verir. | Xəritədən, mətndən istifadə edərək Antarktidanın təbii şəraiti haqqında tam məlumat alır və təhlil edir. |
| Antarktidanın bioehtiyatlarla zəif təmin olunmasının səbəblərini çətinliklə əsaslandırır. | Antarktidanın bioehtiyatlarla zəif təmin olunmasının səbəblərini müəllimin köməyi ilə əsaslandırır. | Antarktidanın bioehtiyatlarla zəif təmin olunmasının səbəblərini əsaslandıraraq qeyri-dəqiqliyə yol verir. | Müstəqil əldə etdiyi məlumat əsasında Antarktidanın bioehtiyatlarla zəif təmin olunmasının səbəbləri haqqında nəticə çıxarır. |

LAYİHƏ

## Dərs 36 / Mövzu 32: AZƏRBAYCANIN LANDŞAFTI BİOEHTİYATLARIN MƏNBƏYİDİR

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 2.1.8. Yaşadığı ərazinin təbii komponentlərinə dair topladığı məlumatları təqdim edir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • "Təbii landşaft", "antropogen landşaft", "zonal", "azonal", "intrazonal", "dağ", "düzənlik" landşaftların yayılmasını izah edir. |

**A** **Şəkil üzrə iş.** Verilən ifadələri şəkillərə uyğun olaraq qruplaşdırın.
1. Yay aylarında havanın temperaturu + $35^0$C-yə bərabər olur.
2. Yağıntının miqdarı mümkün buxarlanmadan daha çoxdur.
3. Torpaqlar qeyri-münbit və açıq rənglidir.
4. Günəşin düz radiasiyası üstündür.
5. Qış aylarında havanın temperaturu – $20^0$C-dək düşə bilir.
6. Əkinçiliyin inkişafı suvarma şəraitində mümkündür.
7. Yay otlaqları kimi istifadə oluna bilər.

| Çəmən landşaftı | Yarımsəhra landşaftı |
|---|---|
| 2, 5, 7 | 1, 3, 4, 6 |

– Təbii kompleksin yaranmasında komponentlər arasında hansı əlaqə müşahidə olunur?
– Komponentlərdən birinin dəyişməsi digərlərinə necə təsir edə bilər? *(landşaftın bütün komponentləri – iqlim, torpaqlar, bitki və heyvanat aləmi, relyef bir-biri ilə qarşılıqlı əlaqədədir. Komponentlərdən birinin dəyişməsi digərlərinin də dəyişməsinə səbəb olur).*

Mətnlə iş zamanı şagirdlər mətndə verilən *əsas sözlərin çıxarılması (açar sözlər, anlayışlar, terminlər)* metodundan istifadə edə bilərlər. Əsas sözlər və söz birləşmələri tədris materialını yadda saxlamağa kömək edir. Bu sözlərin köməyilə mətnin əsas məzmununu asanlıqla bərpa etmək mümkündür. Şagirdlər mətni oxuyaraq onları dəftərlərinə yazırlar. Adətən, əsas sözlər mətndə qalın şriftlə qeyd olunur. Şagirdlərə ayrılan əsas sözlərin köməyilə suallar tərtib etmək və mətnin məzmununu danışmağı tapşırmaq olar.

Mətndə istifadə olunan anlayışlar

**Landşaft** – təbii komponentlərin qarşılıqlı təsirindən yaranan eynicinsli sahələrdir.
**Təbii landşaftlar** – insan təsirinə məruz qalmadan yaranan komplekslərdir
**Antropogen landşaftlar** – insanların yaratdığı landşaftlardır – su anbarları, yaşayış məntəqələri, parklar və s.
**Zonal landşaft** – yerləşdiyi təbii zonaya və iqlim şəraitinə uyğun gələn landşaft
**İntrazonal landşaft** – yerli amillərin təsiri ilə formalaşmış landşaft
**Azonal landşaftlar** yaradan amil relyefdir.

**D** **Biliklərin tətbiq edilməsi və yoxlanılması**

**1. Şəkil üzrə iş.** Təsvir edilən şəkillərin uyğun gəldiyi landşaft tiplərini tapın: a) Düzənlik b) Dağlıq c) İntrazonal d) Azonal e) Zonal f) Antropogen g) Təbii



LAYİHƏ

Düzənlik və dağlıq landşaftlar relyefə görə müəyyən edilir. Şagirdlər mətnə əsasən müəyyən edirlər ki, zonal landşaftlar düzənliklərdə yayılan landşaftlardır. Onlar şəkildəki yarımsəhranı müəyyən edərək (2) onun həm düzənlik, həm də zonal landşaft olduğunu təyin etməlidirlər. Şəkil 1 isə eyni zamanda dağlıq və həm də azonal landşaftdır. Şəkildəki 3 rəqəmi məntəqəni və eləcə də antropogen landşaftı əks etdirir. İnsan fəaliyyətinin hiss olunmadığı landşaftlar isə təbii landşaftlardır (1 və 2). Şəkildəki 4 rəqəmi, yəni yarımsəhradakı meşə landşaftı isə intrazonal landşaftı göstərir.

**2. Cədvəl üzrə iş.** Mətn və mətndəki şəkillərə əsasən reqionlarda yayılan landşaft tiplərini müəyyən edin və cədvəli tamamlayın:

| Landşaft tipi | Böyük Qafqaz | Kiçik Qafqaz | Naxçıvan | Talış |
|---|---|---|---|---|
| Nival | + | – | + | |
| Subnival | + | + | + | |
| Alp çəmənlik | + | + | + | |
| Subalp çəmənləri | + | + | + | |
| Dağ meşələri | + | + | – | + |
| Dağ çölləri | + | + | + | + |
| Yarımsəhra | + | + | + | |

**3. Xəritə üzrə iş.** Xəritə-sxemdə qeyd olunan məntəqələri zonal, azonal və intrazonal landşaftların yayılmasına görə qruplaşdırın:

| Zonal | Azonal | İntrazonal |
|---|---|---|
| D, E | C, B, F | A |

*Qiymətləndirmə meyarları: izahetmə*

| **I səviyyə** | **II səviyyə** | **III səviyyə** | **IV səviyyə** |
|---|---|---|---|
| "Təbii landşaft", "antropogen landşaft", "zonal", "azonal", "intrazonal", "dağ", "düzənlik" landşaftları anlayışlarını çətinliklə izah edir. | "Təbii landşaft", "antropogen landşaft", "zonal", "azonal", "intrazonal", "dağ", "düzənlik" landşaftlarının yayılmasını müəllimin köməyilə izah edir. | "Təbii landşaft", "antropogen landşaft", "zonal", "azonal", "intrazonal", "dağ", "düzənlik" landşaftlarının yayılmasını izah edərkən qeyri-dəqiqliyə yol verir. | "Təbii landşaft", "antropogen landşaft", "zonal", "azonal", "intrazonal", "dağ", "düzənlik" landşaftlarının yayılmasını müstəqil olaraq düzgün izah edir. |

LAYİHƏ

## Dərs 37/ Mövzu 33: **“EKOLOJİ SİYASƏT”**

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 3.2.5. Ətraf mühitdə yaranmış ekoloji vəziyyəti qiymətləndirir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Ətraf mühitin ekoloji vəziyyətinin təbii, müvazinət, böhran, böhranlı, faciəli, kollaps səviyyələri anlayışlarını izah edir.<br>• Qlobal, regional, lokal ekoloji problemlərə dair nümunələr göstərir.<br>• Ekoloji siyasətin məqsəd və istiqamətlərini izah edir.<br>• Yaşadığı ərazidə yaranmış ekoloji vəziyyəti qiymətləndirir |

**A** Aral dənizinin quruması, Afrikada səhralaşma prosesi, Amazon meşələrinin qırılması problemlərinin səbəblərinə aid fikirlərinizi şərh edin *(sənaye və kənd təsərrüfatının intensiv inkişafı nəticəsində)*

**B** Mətnlə iş zamanı Ziqzaq strategiyasını tətbiq etmək olar. Hər qrup mətnin bir hissəsi ilə işləyir:

1-ci qrup: “Ətraf mühitin ekoloji vəziyyəti”

2-ci qrup: “Qlobal, regional, lokal ekoloji problemlər”

3-cü qrup: “Ekoloji siyasət: məqsəd və istiqamətlər”

“Ekspertlər” “doğma qruplara” qayıdarkən əldə etdikləri informasiyaları hansı formada (sxem, cədvəl, şəkil və s.) təqdim edəcəklərini özləri müəyyən edirlər. Müəllim informasiyanı qrafik formada təqdim etməyi, məlumatın ətraflı planını və öyrənilən informasiya üzrə suallar tərtib etməyi və s. məsləhət görə bilər. Belə üsul şagirdlərin məlumatı daha yaxşı anlamalarına yardım edir.

**D** **Biliklərin tətbiq edilməsi və yoxlanılması**

**1. Verilən təbirləri ekoloji siyasətin istiqamətinə uyğun qruplaşdırın.**

a. təbii resurslardan istifadəsi ucun, zərərli maddələrin tullantıları üçün ödənişlərin yığılması

b. təbii ehtiyatlardan qənaətlə istifadə edən, aztullantılı texnologiyaya malik təkrar emal müəssisələri üçün vergi və kredit güzəştləri

c. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyinin qərarına əsasən ekoloji cəhətdən zərərli müəssisələrin fəaliyyətinin dayandırılması.

f. Azərbaycan Respublikasının qanunlarına tabe olmama, ətraf mühitə və insanların sağlamlığına zərərvurma hallarında məsuliyyətə cəlb olunma.

| N | Ekoloji siyasətin istiqamətləri | |
|---|---|---|
| 1. | Siyasi | f |
| 2. | İqtisadi | a b |
| 3. | Qanunverici | c |
| 4. | Maarifləndirici və təbliğat | d e |

Müzakirə edin: Bu fotoşəkillər ekoloji siyasətin hansı nümunələrini əks etdirir?

*Neftlə çirklənmiş əraziləri təmizlətmək – rekultivasiya tədbirlərinin nümunəsidir.*

LAYİHƏ

**DƏRSDƏN SONRA**

*www.greenpeace.org və http://tamizshahar.az/* saytlarında Qrinpis və "Təmiz şəhər" təşkilatlarının məqsədləri və həyata keçirdikləri layihələr barədə daha ətraflı məlumat əldə edin. Müəllimdən şagirdlərin topladığı məlumatlara hər hansı formada (guşə, plakat, təqdimat və s.) təqdimat etməsi tövsiyə edilir.

*Qiymətləndirmə meyarları: izahetmə, nümunələr göstərmə, qiymətləndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Ətraf mühitin ekoloji vəziyyətinin təbii, müvazinət, böhran, böhranlı, faciəli, kollaps səviyyələri anlayışlarını çətinliklə izah edir. | Ətraf mühitin ekoloji vəziyyətinin təbii, müvazinət, böhran, böhranlı, faciəli, kollaps səviyyələri anlayışlarını müəllimin köməyilə izah edir. | Ətraf mühitin ekoloji vəziyyətinin təbii, müvazinət, böhran, böhranlı, faciəli, kollaps səviyyələri anlayışlarını izah edərkən qeyri-dəqiqliyə yol verir. | Ətraf mühitin ekoloji vəziyyətinin təbii, müvazinət, böhran, böhranlı, faciəli, kollaps səviyyələri anlayışlarını səhvsiz izah edir. |
| Qlobal, regional, lokal ekoloji problemlərə dair nümunələri çətinliklə göstərir. | Qlobal, regional, lokal ekoloji problemlərə dair nümunələri müəllimin köməyilə göstərir. | Qlobal, regional, lokal ekoloji problemlərə dair nümunələr göstərərkən qeyri-dəqiqliyə yol verir. | Qlobal, regional, lokal ekoloji problemlərə dair nümunələri səhvsiz göstərir. |
| Ekoloji siyasətin məqsəd və istiqamətlərini çətinliklə izah edir. | Ekoloji siyasətin məqsəd və istiqamətlərini müəllimin köməyilə izah edir. | Ekoloji siyasətin məqsəd və istiqamətlərini izah edərkən qeyri-dəqiqliyə yol verir. | Ekoloji siyasətin məqsəd və istiqamətlərini düzgün izah edir. |
| Yaşadığı ərazidə yaranmış ekoloji vəziyyəti çətinliklə qiymətləndirir. | Yaşadığı ərazidə yaranmış ekoloji vəziyyəti müəllimin köməyilə qiymətləndirir. | Yaşadığı ərazidə yaranmış ekoloji vəziyyəti qiymətləndirərək qeyri-dəqiqliyə yol verir. | Yaşadığı ərazidə yaranmış ekoloji vəziyyəti düzgün qiymətləndirir. |



LAYİHƏ

## Dərs 38/ Mövzu 34: **EKOLOJİ MONİTORİNQ**

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 3.2.5. Ətraf mühitdə yaranmış ekoloji vəziyyəti qiymətləndirir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Ekoloji monitorinq anlayışını izah edir.<br>• Ekoloji monitorinqin təşkilini izah edir. |

**A Şəkil üzrə iş**

– Sizcə, bu avtomobil hansı funksiyanı yerinə yetirir? *(ətraf mühitin çirklənməsinə nəzarət edir).*

**C Şəkil və mətn üzrə iş. Laboratoriyalar**

– Sadalanan laboratoriyaların üstün və çatışmayan cəhətlərini göstərin.

– Sadalanan laboratoriyalardan hansı vəziyyətlərdə və nə məqsədlə istifadə olunduğunu söyləyin.

| **Laboratoriyaların növləri** | **Cəhətləri** | | **Hansı məqsədlə istifadə olunur** |
|---|---|---|---|
| | **Üstün** | **Çatışmayan** | |
| **Stasionar laboratoriya** | Havanın çirklənməsinə fasiləsiz nəzarət edir. | Müşahidələr yalnız müəyyən zona daxilində aparılır. | Atmosfer və hidrosferi çirkləndirən zavod və fabriklərin ərazilərində çirklənmə səviyyəsini müəyyən edib vaxtında lazım olan tədbirlərin həyata keçirilməsinə imkan yaradır. |
| **Mobil laboratoriya** | Böyük ərazidən nümunələrin götürülməsi və aparılmasını həyata keçirir. | Yalnız su hövzəsi və torpağın vəziyyəti barədə xəbər verir. | Mobil laboratoriyalar obyektlərdə baş verən qəzalar nəticəsində yaranan zərərli tullantıların, kimyəvi maddələrin su hövzələrinə və torpağa olan təsirini müəyyən edir. |
| **Mini-laboratoriya** | Su nümunələri götürməklə onların yerindəcə analizini aparmaq mümkündür. | | Tələbələr və şagirdlər mini-laboratoriyalardan istifadə etməklə su və torpaq nümunələrini götürərək onların çirklənmə səviyyəsini müəyyən edə bilərlər. |

**D Biliklərin tətbiq edilməsi və yoxlanılması**

**Şəkil üzrə iş.** İki şəkli müqayisə edin və hansı şəraitlərdə mobil, hansında isə stasionar ekoloji stansiyalardan istifadə etməyin daha əlverişli olduğunu müəyyənləşdirin.

LAYİHƏ

*a – stasionar, çünki çirklənmə mənbəyi daimidir. Çirklənmənin səviyyəsini daima müşahidə etmək tələb olunur.*
*b – mobil. Su mənbəyini içməyə yararlı olduğunu yoxlamaq üçün ondan nümunə götürmək tələb olunur.*

*Qiymətləndirmə meyarları: izahetmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Ekoloji monitorinq anlayışını çətinliklə izah edir. | Ekoloji monitorinq anlayışını müəllimin köməyilə izah edir. | Ekoloji monitorinq anlayışını izah edərkən qeyri-dəqiqliyə yol verir. | Ekoloji monitorinq anlayışını düzgün izah edir. |
| Ekoloji monitorinqin təşkilini çətinliklə izah edir. | Ekoloji monitorinqin təşkilini müəllimin köməyilə izah edir. | Ekoloji monitorinqin təşkilini izah edərkən qeyri-dəqiqliyə yol verir. | Ekoloji monitorinqin təşkilini düzgün izah edir. |

## Dərs 39 / Mövzu 35: TƏBİƏTƏ EKSKURSİYA

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 2.1.8. Yaşadığı ərazinin təbii komponentlərinə dair topladığı məlumatları təqdim edir.<br>3.2.5. Ətraf mühitdə yaranmış ekoloji vəziyyəti qiymətləndirir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Müəyyən ərazidə təbii komponentlər və ətraf mühitin vəziyyəti haqqında məlumat toplayır.<br>• Müəyyən ərazidə ətraf mühitin vəziyyətini qiymətləndirir.<br>• Fəaliyyətinin nəticələrini təqdim edir. |

*Qiymətləndirmə meyarları: informasiya toplama, qiymətləndirmə, təqdimetmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Müəyyən ərazidə təbii komponentlər və ətraf mühitin vəziyyəti haqqında məlumatı çətinliklə toplaya bilir. | Müəyyən ərazidə təbii komponentlər və ətraf mühitin vəziyyəti haqqında natamam məlumat toplayır. | Müəyyən ərazidə təbii komponentlər və ətraf mühitin vəziyyəti haqqında məlumat toplayarkən qeyri-dəqiqliyə yol verir. | Müəyyən ərazidə təbii komponentlər və ətraf mühitin vəziyyəti haqqında məlumatı müstəqil toplayır. |
| Müəyyən ərazidə ətraf mühitin vəziyyətini çətinliklə qiymətləndirir. | Müəyyən ərazidə ətraf mühitin vəziyyətini müəllimin köməyilə qiymətləndirir. | Müəyyən ərazidə ətraf mühitin vəziyyətini qiymətləndirərkən qeyri-dəqiqliyə yol verir. | Müəyyən ərazidə ətraf mühitin vəziyyətini səhvsiz qiymətləndirir. |
| Fəaliyyətinin nəticələrini çətinliklə təqdim edir. | Fəaliyyətinin nəticələrini müəllimin köməyilə təqdim edir. | Fəaliyyətinin nəticələrini təqdim edərkən qeyri-dəqiqliyə yol verir. | Fəaliyyətinin nəticələrini düzgün təqdim edir. |

LAYİHƏ

## DƏRS 40. I BÖLMƏ ÜZRƏ ÜMUMİLƏŞDİRİCİ DƏRS NÜMUNƏSİ

Dərs saatlarının bölgüsündə hər bölmənin sonunda 1 saat ümumiləşdirici dərs nəzərdə tutulmuşdur. İl ərzində ümumi sayı 2 saat olan bu dərslərin əsas məqsədi bölmədə keçirilmiş mövzuları ümumiləşdirmək və şagirdləri qiymətləndirməyə hazırlamaqdır. Aşağıdakı nümunədə bu dərslərin keçirilmə formalarından biri verilmişdir. Müəllim ümumiləşdirici dərsi sinfin hazırlıq səviyyəsindən asılı olaraq özünün məqsədəuyğun bildiyi digər formalarda da qura bilər.

### MATERİK VƏ OKEANLARIN TƏBİƏTİNİN ÜMUMİ XÜSUSİYYƏTLƏRİ VƏ TƏSƏRRÜFATDA İSTİFADƏSİ

(“Bioehtiyatların müxtəlifliyi və ondan istifadə” fəslinin sonunda keçilməsi nəzərdə tutulmuşdur)

*Dərsin gedişi:*
Şagirdləri sayından asılı olaraq 3 və ya 6 nəfərdən ibarət qruplara ayırın. Hər qrupda 6 nəfərdən çox, 3 nəfərdən isə az olmamalıdır.

**I qrup:** Şimal materikləri təbiətinin ümumi xüsusiyyətləri
**II qrup:** Cənub materikləri təbiətinin ümumi xüsusiyyətləri
**III qrup:** Okeanların təbiətinin ümumi xüsusiyyətləri

*Qrup üçün tapşırıq:* Materiklərin ümumi cəhətlərinə aid indiyədək aldığınız məlumatları ümumiləşdirib yazın.

Bu tapşırıqdan sonra şagirdlərə müəllimin tərtib etdiyi material təqdim edilir. Müəllim onlardan özlərinin yazdıqları ilə onlara verilən mətnləri müqayisə etməyi xahiş edir. Şagirdlər təkrarlanan ifadələri, nələri yazmadıqlarını və s. müəyyən etməlidirlər.
Sonra işin müzakirəsi aparılır.
Şagirdlərə verilməsi tövsiyə olunan materiallar:

#### Şimal materikləri təbiətinin ümumi xüsusiyyətləri

1. Coğrafi mövqeyinə görə hər iki materik Arktikadan subekvatorial/ekvatorial enliklərə qədər uzanır.
2. Sahil xətləri çox parçalanmışdır.
3. Materiklərin daha geniş hissəsi mülayim enliklərdə yerləşir. Materiklərin ərazisi buzlaşmaya məruz qalmışdır və ona görə də, bir çox relyef formaları buzlaq mənşəlidir.
4. Buzlaq gölləri geniş yayılmışdır. Materiklərin şimalında – Şimali Kanada və Skandinaviya yarımadasında onların “göllər regionu”nu yaradırlar.

LAYİHƏ

**Şimal materiklərin qədim buzlaşma zonaları**




5. Mülayim qurşaq böyük ərazi tutur.
6. Tundra, tayqa (iynəyarpaqlı meşələr), enliyarpaqlı meşələr və çöllər böyük ərazi tutur.
7. Avrasiya və Şimali Amerika meşə tədarükü regionu hesab olunur. Meşə qurşağında yerləşən ölkələrdə (Kanada, Finlandiya, Rusiya və s.) meşə sənayesi yaxşı inkişaf etmişdir. Bu ölkələr nəhəng ağac ixracatçıları və kağız istehsalçılarıdır.

**Şimal materikinin meşə və çöl zonaları**




8. Çöl zonasında ən məhsuldar olan qara torpaqlar formalaşır ki, onlarda taxıl, soya, kartof, şəkər çuğunduru və s. yetişdirilir. Ona görə də çöl zonasında yerləşən Ukrayna, Rusiya və Qazaxıstan kimi ölkələr iri buğda və şəkər çuğunduru istehsalçılarıdır.
9. Endemik bitki və heyvan növləri azlıq təşkil edir. Bir çox bitki və heyvanlar hər iki materik üçün eynidir. Bu onunla izah olunur ki, materiklər əvvəllər bir ərazini təşkil etmiş, ayrıldıqdan sonrakı zamanlarda Berinq boğazı rayonunda bir neçə dəfə birləşmişdilər. Bu proses canlı orqanizmlərin bir materikdən o birinə keçməsinə yol vermişdir.

LAYİHƏ

10. Materiklərin şərq sahilboyu əraziləri üçün musson sirkulyasiyası səciyyəvidir. Buna uyğun olaraq sahillərdə musson iqlim tipi və dəyişkən rütubətli meşələr formalaşır.

## Cənub materikləri təbiətinin ümumi xüsusiyyətləri

Cənub materikləri qrupuna aid olan Antarktidanın digər Cənub materikləri ilə oxşar cəhəti yalnız Hondvananın bir hissəsi olması və Cənub yarımkürəsində yerləşməsidir. Onun təbiətinin bütün digər xüsusiyyətləri isə – iqlimi, üzvi aləmi başqa Cənub materiklərindən kəskin fərqlənir ki, bu da onun qütbətrafı mövqeyi ilə izah olunur. Afrika, Avstraliya, Cənubi Amerikanın isə oxşar cəhətləri çoxdur.

1. Bütün Cənub materikləri Hondvananın hissələri olmuşdur.
2. Sahil xətləri az parçalanmışdır.
3. Relyeflərində geniş düzənliklər və dağlar aydın seçilir. Onlar faydalı qazıntılarla zəngindir və bu, bir çox ölkələrin iqtisadiyyatının əsasını təşkil edir.
4. Cavan dağlar materiklərin kənarlarında yerləşir.
5. Ekvatora yaxın yerləşən ərazilər böyük sahə tutur ki, bu da temperaturun yüksək olmasına və isti iqlimin yaranmasına səbəb olur.
6. Materiklərin çayları daha çox yağış suları ilə qidalanır. Yeraltı sular materiklərin səhra regionları təsərrüfatlarının inkişafında böyük rol oynayır.
7. Ekvatorial meşələr, subekvatorial savannalar, tropik səhralar geniş ərazi tutur.
8. Bu zonalarda müvafiq olaraq meşə salınır, bitkiçilik inkişaf etdirilir, dəvə və qoyun yetişdirilir.
9. Təbii zonaların yerləşməsində enlik zonallığı aydın görünür.




10. Materiklərin tropik enliklərdə olan qərb sahilləri soyuq, şərq sahilləri isə isti okean cərəyanları ilə yuyulur.

LAYİHƏ




11. Materiklərdə çoxlu endemik heyvan və bitki növləri yayılmışdır. Misal üçün, Avstraliyada üzvi aləmin 75%-dən çoxu endemikdir.

**Okeanların təbiətinin ümumi xüsusiyyətləri**

1. Bütün okeanlar bir-biri ilə əlaqədardır. Onlar bir yerdə Dünya okeanını təşkil edirlər. Bunu ilk dəfə praktiki olaraq Fernan Magellan təsdiq edib.
2. Bütün okeanlarda enlik zonaları olan təbii qurşaqlar ayrılır. Onlar enlik istiqamətində uzanır, şimaldan cənuba doğru bir-birini əvəz edir və qurudakı iqlim qurşaqlarına oxşayır. Hər bir zona temperaturuna, duzluluğuna və üzvi aləminə görə fərqlənir.
3. Dünya okeanın bəzi hissələri üzvi aləmlə çox zəngindir və orada biokütlə maksimal həddə çatır. Məsələn, bunlara misal olaraq mülayim enliklərin şelf zonalarını göstərmək olar. Onlar materiklərin şərq sahillərinin okean akvatoriyalarına uyğun gəlir. Məsələn, ABŞ-ın Atlantik okeanı sahilləri, Rusiyanın, Yaponiyanın Sakit okean sahillərində balıq ovu maksimal həddə çatır. Bu zonalarda yerləşən ölkələrdə balıqçılıq təsərrüfatın vacib sahələrindən biridir və dəniz məhsulları sahilyanı zona əhalisinin qidasında mühüm yer tutur.

**Şimali materiklərin sahil zonalarında əsas balıqçılıq1 rayonları**




4. Okeanların tropik enlikləri "okean səhraları" adlandırılır. Burada biokütlə minimal həddə olur. Yalnız soyuq okean cərəyanı keçən sahələrdə onun miqdarı bir qədər artır.

LAYİHƏ

5. Bütün okeanların dibi qabarıq formaya malik *dağlara* (müsbət), böyük çuxurlar *çökəkliklərə* (mənfi) və geniş düzənliklərə ayrılır. Böyük dərinlikdə yerləşən bu düzənliklər *abissal düzənliklər* adlanır.
6. Bütün okeanların dibində orta-okean dağ silsilələri yerləşir. Bu dağların mərkəzi hissəsində qraben formasında rift dərələri yerləşir.
7. Bütün okeanlarda isti və soyuq cərəyanlar var. İsti cərəyanlar ekvatordan qütblərə doğru, soyuq cərəyanlar isə qütblərdən ekvatora doğru istiqamətlənmişdir.
8. Okeanlarda intensiv gəmiçiliklə fərqlənən akvatoriyalar da vardır. Adətən, dəniz yolları təbii resursları ixrac və idxal edən ölkələri birləşdirir.
9. Okeanların sahillərində limanların, yük terminallarının, gəmi təmiri tərsanələrinin və s. daxil olduğu dəniz təsərrüfatı yaradılmışdır.
10. Okean sahillərində yaşayan insanların həyat tərzi və onların iqtisadi fəaliyyəti okeanlarla əlaqəlidir. Məsələn, əlverişli iqlimi olan ərazilərdə turizm inkişaf etmişdir və əhali, əsasən, turizm sahəsində çalışır.
11. Ən məşhur turizm regionları Atlantik okeanında Antil və Kanar adaları, Hind okeanında Maldiv və Komor adaları, Hind-Çin yarımadasının sahilləri, Zond adaları, Sakit okeanda isə Havay adaları hesab olunur.

LAYİHƏ

## DƏRS 41. IV FƏSİL ÜZRƏ
## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ NÜMUNƏSİ

1. Diaqramda təsvir edilən landşaftların ardıcıllığı respublikamızın hansı ərazisi üçün səciyyəvidir?




A) Baş Qafqaz silsiləsi
B) Şahdağ silsiləsi
C) Talış dağları
D) Zəngəzur silsiləsi
E) Kür-Araz ovalığı

2. İntrazonal landşaftların yayıldığı ərazilər:
A) Şollar düzü, Kür-Araz ovalığı
B) Böyük Qafqazın orta dağlığı, Şirvan düzü
C) Qarabağ vulkanik yaylası, Şahdağ silsiləsi
D) Gəncə-Qazax düzənliyi, Yan silsilə
E) Abşeron yarımadası, Talış dağları

3. Düzgün variantları seçin.
Ekoloji monitorinq sistemi imkan verir:

1. Havanın, suyun, torpağın çirklənmə səviyyəsinə bütün sutka ərzində fasiləsiz nəzarət etmək;
2. Əhalinin sıxlığını müəyyən etmək;
3. Ətraf mühitin vəziyyətinin dəyişməsini proqnozlaşdırmaq;
4. Əhalinin təbii artımı və təzələnməsini tənzimləmək;
5. Nəzarət olunan ərazilərin hava, su hövzələri, torpaq örtüyünün çirklənməsi xəritəsini tərtib etmək;
6. Çirklənmə mənbələrinin coğrafi yerləşməsi və onların ekoloji şəraitə təsirini qiymətləndirmək ___________________________________________

4. Ekoloji siyasəti nümayiş etdirən 2 misal göstərin.

______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________
______________________________________________

LAYİHƏ

5. Eyni təbii zona daxilində, lakin müxtəlif materiklərdə becərilən kənd təsərrüfatı bitkilərinə misal göstərin.

| Kənd təsərrüfatı bitkiləri | Təbii zona | Materik |
|---|---|---|
| | | |

6. Bioehtiyatlarla zəif təmin olunmuş əraziləri seçin. Seçiminizi əsaslandırın.




LAYİHƏ

# FƏSİL – 5

# QƏDİM VƏ MÜASİR SİVİLİZASİYALAR

## FƏSİL ÜZRƏ REALLAŞDIRILACAQ ALT STANDARTLAR

1.1.1. Sivilizasiyaları coğrafi baxımdan təhlil edir.
3.2.2. Tarixi-coğrafi regionları kontur xəritədə qeyd edir.
3.2.3. Təsərrüfat sahələrinin səciyyəsini verir.

FƏSİL ÜZRƏ ÜMUMİ SAATLARIN MİQDARI: **7 saat**
KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ: **1 saat**

LAYİHƏ

# Dərs 42 / Mövzu 36: SİVİLİZASİYALARIN TARİXİ-COĞRAFİ İNKİŞAFI

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 1.1.1. Sivilizasiyaları coğrafi baxımdan təhlil edir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • "Sivilizasiya" anlayışını izah edir.<br>• Qədim və müasir sivilizasiyaları sadalayır və onların yayıldığı regionları xəritədə göstərərək təhlil edir.<br>• Sivilizasiyaların bir-birinə təsirinə dair misallar göstərir. |

## A Mətn və şəkil üzrə iş

Dərsin bu mərhələsində şagirdlər şəkilləri nəzərdən keçirməli, verilən terminləri qruplaşdıraraq cədvəlin uyğun sütununa yazmalıdırlar.

| Sivilizasiyadan qabaq | Sivilizasiya mərhələsi |
|---|---|
| Yığıcılıq, daş silah, ovçuluq, heyvanlara sitayiş | odlu silah, dəmir qılınc, maldarlıq, qəbilə, əkinçilik, dulusçuluq, manufaktura, kağız istehsalı |

*"Sivilizasiya mərhələsi cəmiyyətin inkişafında hansı dəyişikliklərə səbəb olmuşdur?"* sualını müzakirə edərkən şagirdlər mətnin sonunda biliklərin yoxlanılması məqsədilə verilən cədvəli doldura bilərlər. Müəllim cədvəlin doldurulmasını dərsin əvvəlində şagirdlərə tapşırarsa, mətni öyrəndikcə tədricən doldurmaqda davam edər və dərsin sonunda bunu müzakirə edə bilərlər.

Cədvəlin "Mənfi" sütununda şagirdlər müasir cəmiyyətin çatışmazlıqlarını – zorakılığın artması, ekoloji problemlər və s. sadalayarlarsa, bu zaman sivilizasiyanın inkişafının postsənaye mərhələsi haqqında məlumat vermək daha məqsədəuyğun olardı.

---

***Müəllim üçün əlavə məlumat***

Şotland alimi Adam Fergyuson "Vətəndaş cəmiyyətinin tarixi təcrübəsi" (1767) əsərində yazırdı: "Körpəlikdən yetkinliyə aparan yolu yalnız hər bir fərd deyil, bütün bəşəriyyət keçir". O, qeyd edirdi ki, cəmiyyət öz inkişafında 3 mərhələdən keçir: vəhşilik, barbarlıq və sivilizasiya.

Müasir sivilizasiya nəzəriyyəsində iki cür yanaşma mövcuddur: **mərhələli və lokal.**

**Mərhələli yanaşma**

Sivilizasiya müəyyən mərhələləri keçən vahid prosesdir.

1. **Aqrar** və ya ənənəvi mərhələ – ibtidai icmadan orta əsrlərə qədər (sonuncu daxil olmaqla).

2. **Sənaye** və ya texnoloji mərhələ (XVII əsr – XX əsrin ortaları). Şüurun texnologiyalaşması və elmin fetişləşdirilməsi (onun hədsiz gücünə inanma) ilə səciyyələnir. Bu gün sənaye sivilizasiyasının inkişafı bəşəriyyətin mədəniyyəti və mövcud olması üçün getdikcə daha çox təhlükə törədir.

LAYİHƏ

3. **Postsənaye** mərhələsi indi həyata keçirilir. Bir sıra alimlər (D.Bell, M.Maklyuen, O.Toffler və b.) belə hesab edirlər ki, bəşəriyyət artıq sivilizasiyanın 3-cü mərhələsinə gəlib çatmışdır. Bu **postsənaye** və ya **informasiya** cəmiyyətidir. Bu cəmiyyətdə informasiya məhsulu torpaq, xammal, əmək və kapitaldan heç də az əhəmiyyətli deyil, informasiyanın istehsalı isə ictimai inkişafın əsas amilidir.
İstehsalın və həyatın hərtərəfli kompüterləşdirilməsi, destandartlaşdırılması və desentralizasiyası, müxtəlif fəaliyyət növlərinə keçmək qabiliyyəti, zorakılığa nifrət və bəşəriyyətin gələcəyi üçün məsuliyyət – gələcək informasiya cəmiyyətinin ümumi səciyyəsidir.

**Lokal yanaşma**

*Sivilizasiya* – uzun müddət mövcud olan, sabit sərhədlərinə malik, iqtisadi, sosial-siyasi, mənəvi həyatın spesifik formalarını yaradan və özünün fərdi tarixi inkişaf yoluna malik olan böyük sosio-mədəni birlikdir.
Müasir tipləri: Şərq, çin, yapon, hind və s.

Hər tədqiqatçı lokal sivilizasiyaların müxtəlif sayda olduğunu iddia edir. İngilis sosioloqu, tarixçisi və ictimai xadimi A. Toynbi (1889-1975) bəşəriyyətin inkişafında 21 sivilizasiyanın olduğunu göstərir. Onun mülahizəsinə görə, onların sərhədləri dövlətlərin sərhədləri ilə üst-üstə düşə (Çin sivilizasiyası), ya da bir neçə ölkənin ərazisini əhatə edə bilər (antik, Qərb sivilizasiyaları). Lokal sivilizasiyaları müxtəlifliyinə görə iki böyük qrupa bölürlər – **Qərb sivilizasiyası** və **Şərq sivilizasiyası**.

---

**B** Mətn üzrə işi metodik vəsaitin 1-ci blokunda verilən üsullardan biri ilə aparmaq olar. Məsələn: İNSERT, BİBÖ.

**C Xəritə üzrə iş**

1. Ən qədim sivilizasiya mərkəzləri hansı ərazilərdə yayılmışdır? *Qədim sivilizasiya mərkəzləri: Şimali Afrika (Misir), Cənub-Qərbi Asiya (Mesopotamiya); Şərqi Asiya (Xuanxe çayı dərəsi); Hind çayı dərəsi, Aralıq dənizi; Qərbi Afrika, Mezoamerika (astek, Mayya sivilizasiyaları), Mərkəzi And (inklərin sivilizasiyası)*

2. Eramızdan əvvəl III minillikdə mövcud olan sivilizasiyalar hazırda hansı ölkənin ərazisindədir? *(eramızdan əvvəl 3-cü minillikdə yaranmış sivilizasiyalar Türkiyə, Yunanıstan, Albaniya, İtaliya ərazilərində mövcud olmuşlar)*

3. Çin sivilizasiyası hansı minillikdə meydana gəlmişdir? *(Çin sivilizasiyası bizim eradan əvvəl II minillikdə yaranmışdır)*

**Şəkil üzrə iş.** Şəkillərdə hansı sivilizasiyaların bir-birinə təsiri əks olunmuşdur? *(şəkillərdə Şərq və Qərb sivilizasiyalarının qarşılıqlı təsiri əks olunmuşdur)*

**D Biliklərin tətbiq edilməsi və yoxlanılması**

1. Müasir sivilizasiyaların yaranmasının cəmiyyət üçün hansı müsbət və mənfi xüsusiyyətləri vardır?

LAYİHƏ

| Müsbət | Mənfi |
|---|---|
| Bitkiçiliyin və heyvandarlığın, sənayenin inkişafı | Müharibələr |
| Elmin, texnikanın inkişafı; həyat səviyyəsinin yaxşılaşması – şəhərlərin artması | Ətraf mühitin çirklənməsi |

2. Köhnə və yeni dünyada hansı sivilizasiyalar yayılmışdır

| Köhnə dünya | Yeni dünya |
|---|---|
| Qərb, Pravoslav, İslam, Hind, Çin, Afrika, Yapon | Qərb, Latın Amerikası |

*Qiymətləndirmə meyarları: izahetmə, xəritə ilə işləmə, misallar gətirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| "Sivilizasiya" anlayışını çətinliklə izah edir. | "Sivilizasiya" anlayışını müəllimin köməyi ilə izah edir. | "Sivilizasiya" anlayışını izah edərkən qeyri-dəqiqliyə yol verir. | "Sivilizasiya" anlayışını səhvsiz izah edir. |
| Qədim və müasir sivilizasiyaları sadalamaqla və onların yayıldığı regionları xəritədə göstərməkdə çətinlik çəkir. | Qədim və müasir sivilizasiyaları sadalayır, lakin onların yayıldığı regionları xəritədə göstərərkən çətinliklə təhlil edir. | Qədim və müasir sivilizasiyaları sadalayarkən və onların yayıldığı regionları xəritədə göstərərkən və təhlil edərkən qeyri-dəqiqliyə yol verir. | Qədim və müasir sivilizasiyaları səhvsiz sadalayır və onların yayıldığı regionları xəritədə səhvsiz göstərir və düzgün təhlil edir. |
| Sivilizasiyaların bir-birinə təsirinə dair çətinliklə misallar göstərir. | Sivilizasiyaların bir-birinə təsirinə dair misalları müəllimin suallarının köməyi ilə göstərir. | Sivilizasiyaların bir-birinə təsirinə dair misallar göstərərkən qeyri-dəqiqliyə yol verir. | Sivilizasiyaların bir-birinə təsirinə dair müstəqil misallar göstərir. |

LAYİHƏ

## Dərs 43 / Mövzu 37: TÜRK DÜNYASININ SİVİLİZASİYALARARASI ƏLAQƏLƏRDƏ ROLU

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 1.1.1. Sivilizasiyaları coğrafi baxımdan təhlil edir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Müasir türk dövlətləri və dövlət qurumlarını sadalayır və xəritədə göstərir.<br>• Türk xalqlarının miqrasiyasının onların dilinə, xarici görünüşünə, həyat tərzinə, adət-ənənələrinə, dininə, iqtisadiyyatına təsirini izah edir. |

**A Xəritə üzrə iş. Türk xalqlarının yayıldığı ərazilər**

1. Türk xalqlarının yaşadıqları ərazilərin Avrasiyadakı mövqeyini təhlil edin.

*Türk xalqlarının yaşadığı ərazilər Avrasiyanın mərkəzi regionlarındadır. Bu ərazilər, əsasən, kontinentallığı – yüksək illik temperatur amplitudu və quraqlığı, bunun nəticəsi kimi çöl və yarımsəhra landşaftlarında yayılması ilə seçilən mülayim və subtropik iqlim qurşaqlarında yerləşir.*

2. Hansı qonşu sivilizasiyalar türk xalqlarının inkişafına daha çox təsir göstərə bilər? Bu təsir özünü necə büruzə verir? *(Şərq, Qərb, Pravoslav-Slavyan sivilizasiyaları)*

**B** Mövzunu mənimsəmək üçün İNSERT strategiyasından istifadə etmək olar. Şagirdlər qeydlər üçün mətnin kənarlarına qoyulan ensiz kağız zolağından da istifadə edə bilərlər. Mətni oxuyarkən onlar bu vərəqlərdə lazımi qeydlər aparırlar, sonra bütün informasiyanı cədvəldə sistemləşdirir, onu müzakirə edirlər. Həmçinin mətndə verilən kontur xəritəyə coğrafi adların köçürülməsi üsulunu da tətbiq etmək olar. Yerinə yetirilmiş tapşırığa misal:

**Rusiya Federasiyasında türk muxtar respublika dövlət qurumları**




| | |
|---|---|
| Sibir regionu | |
| 1 | Tuva |
| 2 | Altay |
| 3 | Xakasiya |
| 4 | Saxa Yakutiya |
| Ural-Volqaboyu regionu | |
| 5 | Başqırdıstan |
| 6 | Tatarıstan |
| 7 | Çuvaşıstan |
| Şimali Qafqaz regionu | |
| 8 | Qaraçay-Çərkəz |
| 9 | Kabarda-Balkar |

LAYİHƏ

**C** **Tapşırıq.** Rus dilindəki coğrafi adları dəftərinizə yazın və türk mənşəli adlara uyğunluğunu müəyyən edin. Onları xəritədə göstərin.

| **Türkcə** | Yenisu | Bəy-göl | Qara-göl | Tümən | Hacı Tərxan | İsti-göl |
|---|---|---|---|---|---|---|
| **Rusca** | Енисей | Байкал | Каракул | Тюмень | Астрахань | Иссык-кул |

## **D** Biliklərin tətbiq edilməsi və yoxlanılması

2. Mətndən istifadə edərək cədvəli tamamlayın:

| **Müstəqil türk dövlətləri** | **Rusiya Federasiyası tərkibində olan türk dövlət qurumları** | | | **Çin Xalq respublikasının tərkibində olan türk dövlət qurumu** |
|---|---|---|---|---|
| | Sibir | Ural-Volqaboyu | Şimali Qafqaz | |
| Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan. | Altay, Tuva, Xakasiya, Saxa (Yakutiya) | Başqırdıstan, Tatarıstan, Çuvaşıstan | Kabarda-Balkar, Qaraçay-Çərkəz | Sınszyan-Uyğur Muxtar Rayonu |

*Qiymətləndirmə meyarları: xəritə ilə işləmə, izahetmə*

| **I səviyyə** | **II səviyyə** | **III səviyyə** | **IV səviyyə** |
|---|---|---|---|
| Müasir türk dövlətləri və dövlət qurumlarını sadalamaqda və xəritədə göstərməkdə çətinlik çəkir. | Müasir türk dövlətləri və dövlət qurumlarını müəllimin köməyi ilə sadalayır və xəritədə göstərir. | Müasir türk dövlətləri və dövlət qurumlarını sadalayarkən və xəritədə göstərərkən qeyri-dəqiqliyə yol verir. | Müasir türk dövlətləri və dövlət qurumlarını səhvsiz və müstəqil sadalayır və xəritədə göstərir. |
| Türk xalqlarının miqrasiyasının onların dilinə, xarici görünüşünə, həyat tərzinə, adət-ənənələrinə, dininə, iqtisadiyyatına təsirini çətinliklə izah edir. | Türk xalqlarının miqrasiyasının onların dilinə, xarici görünüşünə, həyat tərzinə, adət-ənənələrinə, dininə, iqtisadiyyatına təsirini müəllimin köməyi ilə izah edir. | Türk xalqlarının miqrasiyasının onların dilinə, xarici görünüşünə, həyat tərzinə, adət-ənənələrinə, dininə, iqtisadiyyatına təsirini izah edərkən qeyri-dəqiqliyə yol verir. | Türk xalqlarının miqrasiyasının onların dilinə, xarici görünüşünə, həyat tərzinə, adət-ənənələrinə, dininə, iqtisadiyyatına təsirini müstəqil səhvsiz izah edir. |

LAYİHƏ

## Dərs 44 / Mövzu 38: AZƏRBAYCANIN SİVİLİZASİYALARARASI MÖVQEYİ

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 1.1.1. Sivilizasiyaları coğrafi baxımdan təhlil edir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Qərb və Şərq sivilizasiyalarının Azərbaycan xalqının formalaşmasına təsirini dəyərləndirir. |

**A** 1. Azərbaycan Respublikasının coğrafi mövqeyinin hansı özünəməxsus xüsusiyyətləri vardır?
2. Hansı ərazilər Avropaya, hansılar Asiyaya aiddir?
– Azərbaycan Avropa və Asiyanın sərhədində yerləşir.

***Müəllim üçün əlavə məlumat***

Azərbaycan ərazisinin on altıda bir hissəsi Avropanın hüdudlarına düşür. Azərbaycanın Avropaya düşən hissələri Qusar rayonu, Quba rayonu ərazisinin çox hissəsi, Şabran və Xaçmaz ərazisinin bir hissəsi, Xızı rayonun ərazisinin yarıdan çoxu, Sumqayıt şəhəri, Novxanı daxildir. Qitənin sərhədləri Fatmayı ilə Mehdiabadın arasından keçir və buradan keçdikdən sonra Şüvəlanın ərazisinin də çox hissəsi Avropaya daxil olur. Azərbaycanda Avropanın sərhədinin hüdudları təxminən Abşeron rayonun Zirə qəsəbəsində tamamlanır. Zirənin yarısı Asiya, yarısı isə Avropa hüdudlarına daxildir. Bakı tam olaraq Avropanın hüdudlarına daxil olmur. Bakıda Şüvəlanın çox hissəsi, Binəqədi rayonu, Mərdəkan qəsəbəsinin bir hissəsi Avropanın hüdudlarına daxildir. Ümumilikdə Bakının mərkəzi hissəsi Asiya, şimal-qərb hissəsi isə Avropaya aid olur.

https://az.wikipedia.org/wiki/Avropa
http://www.azxeber.com/news/42121.htm

**B** Mətn üzrə işi mətni birgə və diqqətlə oxumağa, onu dərk etməyə imkan verən ardıcıl suallar (cütlərlə oxuma) üsulu ilə aparmaq olar. Şagirdlər növbə ilə mətnin ayrı-ayrı hissələrini oxuyurlar. Bir abzası oxuduqdan sonra ikinci şagird oxunan abzasa aid suallar verir, birinci şagird isə onun suallarına cavab verir. Sonra onlar rollarını dəyişirlər. Sual verən şagird mətni oxuyur, ikinci isə oxunan abzasa aid ona suallar verir. Tapşırığın yerinə yetirilməsinə aid nümunə:

| | |
|---|---|
| Azərbaycan xalqı tarix səhnəsinə təxminən e.ə. III minilliyin ortalarında çıxmışdır. Xəzər dənizinin qərbində, Cənubi Qafqazda məskunlaşmış Azərbaycan xalqının formalaşmasında Mərkəzi Asiyadan Qərbə doğru geniş miqyasda köç edən oğuz, qıpçaq, qarluq və digər türk tayfaları mühüm rol oynamışdır. | – Azərbaycan xalqı tarix səhnəsinə nə vaxt çıxmışdır?<br>– Azərbaycan xalqının formalaşmasında hansı türk tayfaları mühüm rol oynamışdır? Bunun səbəbi nədir? |

LAYİHƏ

| | |
|---|---|
| VII əsrdə ərəblərin Qafqaza hücumu, İslam dininin yayılması Azərbycada yaşayan xalqların əksər hissəsinin İslam-Şərq mədəniyyətinə daxil olması ilə nəticələndi. | – VIII əsrdə ərəblərin Qafqaza hücumu, İslam dininin yayılması nə ilə nəticələndi? |
| Ölkə ərazisi XVIII əsrin sonu, XIX əsrin əvvəllərindən başlayaraq İran və Rusiyanın hərb meydanına çevrildi. Azərbaycan iki dövlət tərəfindən bölüşdürüldü. Nəticədə Azərbaycan türkləri öz etnik bütövlüklərini qorumalı oldu. | – Azərbaycan nə vaxt və hansı dövlət tərəfindən bölüşdürüldü? |

**D Biliklərin tətbiq edilməsi və yoxlanılması**

İfadələr arasında uyğunluğu müəyyən edib yazın.

A-3, B-1, C-4, D-5, E-2

*Qiymətləndirmə meyarları: dəyərləndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Qərb və Şərq sivilizasiyalarının Azərbaycan xalqının formalaşmasına təsirini çətinliklə dəyərləndirir. | Qərb və Şərq sivilizasiyalarının Azərbaycan xalqının formalaşmasına təsirini müəllimin köməyi ilə dəyərləndirir. | Qərb və Şərq sivilizasiyalarının Azərbaycan xalqının formalaşmasına təsirini dəyərləndirərkən qeyri-dəqiqliyə yol verir. | Qərb və Şərq sivilizasiyalarının Azərbaycan xalqının formalaşmasına təsirini düzgün dəyərləndirir. |

LAYİHƏ

## Dərs 45 / Mövzu 39: **DEBAT DƏRS. Azərbaycan: Avropa, yoxsa Asiya?**

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 1.1.1. Sivilizasiyaları coğrafi baxımdan təhlil edir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Qərb və Şərq mədəniyyətlərinin Azərbaycana təsirinə aid dəlillər göstərir. |

Bu dərsdə müzakirə şagirdlərdə öz mövqeyini dəyərləndirmək və dəlillər gətirmək vərdişlərini inkişaf etdirməyə imkan verir. Debatı keçirmək üçün şagirdlər dərslikdə verilən rollara uyğun olaraq qruplara bölünür.

**I qrup:** Azərbaycan Şərq dövlətidir.
**II qrup:** Azərbaycan Qərbə üzünü tutmalıdır.
**III qrup:** Hakimləri təmsil edənlər.

Qruplar təşkil olunduqdan sonra şagirdlər təlimatlandırılır:

1. Mətni oxuyun və mövqeyinizə uyğun informasiyanı seçin.
2. Onu qrupun üzvləri ilə müzakirə edin və bu haqda əvvəllər sizə məlum olan hər şeyi yada salın.
3. Spikerləri – çıxış edənləri seçin və çıxış üçün dəlillər hazırlayın.
4. Qarşı tərəfə veriləcək sualları hazırlayın.

Debatın keçirilməsinin ssenarisi:

| | **Şagird** | **Fəaliyyət** | **Zaman** |
|---|---|---|---|
| 1 | "Azərbaycan Şərq dövlətidir" komandasının birinci çıxışçısı | Mövzunu dəstəkləyən dəlillər təqdim edir. | 5 dəq. |
| 2 | "Azərbaycan üzünü Qərbə tutmalıdır" komandası | Birinci çıxışçıya suallar verir. | 3 dəq. |
| 3 | "Azərbaycan üzünü Qərbə tutmalıdır" komandasının birinci çıxışçısı | "Azərbaycan Şərq dövlətidir" komandasının dəlillərini tənqid edir, öz dəlillərini göstərir. | 5 dəq. |
| 4 | "Azərbaycan Şərq dövlətidir" komandası | "Azərbaycan üzünü Qərbə tutmalıdır" komandasından birinci çıxış edənə sual verir. | 3 dəq. |
| 5 | "Azərbaycan Şərq dövlətidir" komandasının ikinci çıxışçısı | Mövqeyini təsdiq edən arqumentlər (dəlillər) göstərir. | 5 dəq. |
| 6 | "Azərbaycan üzünü Qərbə tutmalıdır" komandası | İkinci çıxış edənə suallar verir. | 3 dəq. |
| 7 | "Azərbaycan üzünü Qərbə tutmalıdır" komandasının ikinci çıxışçısı | Mövqeyini təsdiq edən arqumentlər (dəlillər) göstərir. | 5 dəq. |
| 8 | "Azərbaycan Şərq dövlətidir" komandası | "Azərbaycan Qərbə üzünü tutmalıdır" komandasının ikinci çıxış edəninə suallar verir. | 3 dəq. |
| 9 | "Azərbaycan Şərq dövlətidir" komandasının sonuncu çıxışçısı | Debatı yekunlaşdırır, öz komandasının üstünlüyünə diqqəti cəlb edir. | 4 dəq. |
| 6 | "Azərbaycan Qərbə üzünü tutmalıdır" komandasının son çıxışçısı | Debatı yekunlaşdırır, öz komandasının üstünlüyünə diqqəti cəlb edir. | 4 dəq. |

LAYİHƏ

Komandaları dinləyən hakimlərin təmsilçiləri qiymətləndirmə üçün müxtəlif vasitə və üsullardan istifadə edə bilər. 6-cı sinfin metodik vəsaitində “Debatların təşkili” adı ilə verilmiş materiallardan istifadə etmək olar

## Dərs 46 / Mövzu 40: TARİXİ-COĞRAFİ REGİONLARIN MÜASİR VƏZİYYƏTİ

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 3.2.2. Tarixi-coğrafi regionları kontur xəritədə qeyd edir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Cənubi Avropa, Cənub-Şərqi Avropa, Cənub-Qərbi<br>• Asiya (Yaxın və Orta Şərq) və Şimali Afrika subregionlarının ölkələrini kontur xəritədə qeyd edir.<br>• Aralıq dənizi sahillərinin subregionlarını müəyyən meyarlara görə müqayisə edir. |

**A** **Tapşırıq**. Tarixən eyni inkişaf səviyyəsinə malik olan Aralıq dənizi regionunun inkişafında kəskin fərqlərin yaranması səbəblərini müzakirə edin (dini müxtəliflik və müharibələrin baş verməsi).

**B** Yeni informasiyanın öyrənilməsini cədvəlin doldurulması ilə müşayiət etmək olar:

| Regionlar | Ölkələr | Dini tərkibi | Təbii şəraiti | İnkişaf səviyyəsi |
|---|---|---|---|---|
| **Cənubi Avropa** | İtaliya, İspaniya, Yunanıstan, Monako, San-Marino | Xristian | Yayı isti və quraq, qışı mülayim və rütubətli | İnkişaf etmiş ölkələr |
| **Şimali Afrika** | Əlcəzair, Misir, Liviya, Tunis | İslam | Yayı və qışı isti quru | İnkişaf etməkdə olan ölkələr |
| **Cənub-Şərqi Avropa** | Xorvatiya, Sloveniya, Bosniya-Herseqovina, Serbiya, Makedoniya və digər ölkələr | Xristian | Yayı isti və quraq, qışı mülayim və rütubətli | Orta səviyyəli inkişaf etmiş ölkələr |
| **Cənub-Qərbi Asiya** | Türkiyə, Livan, Suriya və İsrail | İslam, iudaist | Yay isti və quraq, qış mülayim və qismən rütubətli | İsrail – inkişaf etmiş ölkədir; Türkiyə və Livan-inkişaf etməkdə olan ölkədir; Suriya isə hazırda geri qalmış və mübahisələrin olduğu ölkədir. |

LAYİHƏ

***Müəllim üçün əlavə məlumat***

| Cənubi Avropa | Cənub-Şərqi Avropa | Cənub-Qərbi Asiya | Şimali Afrika |
|---|---|---|---|
| Cənubi Avropa – Avropa qitəsinin cənubda yerləşən hissəsidir. Cənubi Avropaya Aralıq dənizi sahilində yerləşən ölkələr – Pireney yarımadası (Portuqaliya, İspaniya, Andorra), Monako, Apennin yarımadasında yerləşən ölkələr (İtaliya, Vatikan, San-Marino), Yunanıstan, həmçinin ada ölkələri olan Malta və Kipr daxildir. | Xorvatiya, Çernoqoriya, Serbiya, Albaniya, Bosniya və Herseqovina, həmçinin Türkiyənin Avropa hissəsi | Burada 16 müstəqil dövlət yerləşir: Türkiyə, İran, İraq, Əfqanıstan, Səudiyyə Ərəbistanı, Küveyt, Qatar, Bəhreyn, Oman, BƏƏ, İsrail, Suriya, Livan, İordaniya, Yəmən, Kipr, Azərbaycan, Ermənistan, Gürcüstan | Əlcəzair, Misir, Liviya, Sudan, Tunis |
| **Yaxın Şərq** – Qərbi Asiya və Şimali Afrikada yerləşən bu regionu avropalılar onlara yaxın olan Şərq regionu olduğundan belə adlandırmışlar. | | | |

## C Şəkil üzrə iş. Liviya və İtaliya

Müxtəlif regionlarda yerləşən tarixi memarlıq abidələrinin qalıqları onların çox oxşar olduğunu əks etdirir.

– Liviya və İtaliyada oxşar memarlıq abidəsinin olmasının hansı tarixi əsası ola bilər?

İtaliyadakı abidələrdə ildə yüz minlərlə turist axını olduğu halda nə üçün Liviyada bu abidələr baxımsızlıqdan məhv olur? (*bu ərazilər Roma imperiyasına məxsus idi– hazırda Liviyada siyasi-ictimai vəziyyət gərgin olduğuna görə bu ölkəyə turist axını demək olar ki yoxdur*)

https://www.youtube.com/watch?v=jH0hNz0JnA4 (Leptis-Maqna haqqında məlumat, 6 dəq., ingilis dilində).

***Müəllim üçün əlavə məlumat***

Lepsis-Maqna müasir Liviya ərazisində yerləşən qədim şəhərdir. O, Roma imperiyası dövründə yüksək inkişaf səviyyəsinə çatmışdı. Onun xarabalıqları Aralıq dənizi sahillərində, Tripolidən 130 km məsafədə Əl-Xums adlanan ərazidə yerləşir. Tikilmə formasına görə şəhər "Afrika Roması" adını almışdır.

**Bu maraqlıdır. Üzüm bağları**

Aralıq dəniz sahilləri üzümçülüyün inkişafı üçün ən əlverişli ərazilərdən biridir. Lakin Şimali Afrika bu sahədə Cənubi Avropadan xeyli geri qalır.

Bu nə ilə izah oluna bilər? (*İslam dininə görə içkinin qadağan olması ilə*)

LAYİHƏ

### D Biliklərin tətbiq edilməsi və yoxlanılması

1. Cədvəli tamamlayın.

| № | Ölkələr | Region | Dini tərkibi | İnkişaf səviyyəsi | Turizmin inkişafı |
|---|---|---|---|---|---|
| 1 | İtaliya | Cənubi Avropa | Xristian | İnkişaf etmiş | Güclü |
| 2 | Türkiyə | Cənub-Qərbi Asiya | İslam | İnkişaf etməkdə olan | Güclü |
| 3 | Misir | Şimali Afrika | İslam | İnkişaf etməkdə olan | Orta |
| 4 | Fransa | Orta Avropa | Xristian | İnkişaf etmiş | Güclü |
| 5 | Liviya | Şimali Afrika | İslam | İnkişaf etməkdə olan | Zəif |

2. Suallara cavab verin:

1. Afrikaya yaxınlıq Cənubi Avropa regionuna, Avropaya yaxınlıq isə Şimali Afrika regionuna necə təsir edir? *Şimali Afrikanın inkişafı zəiflədir Cənubi Avropaya qaçqınların axını güclüdür. Şimali Afrikaya Cənubi Avropanın yaxın olması isə onun inkişafına müsbət təsir edir)*

2. Aralıq dənizi sahili regionların inkişafındakı müasir fərqlər hansı amillərlə əlaqədar ola bilər?

– Əhalinin dini tərkibi
– Müstəmləkə və ya asılılığın uzun müddət davam etməsi.

*Qiymətləndirmə meyarları: xəritədə qeydetmə, müqayisəetmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Cənubi Avropa, Cənub-Şərqi Avropa, Cənub-Qərbi Asiya (Yaxın və Orta Şərq) və Şimali Afrika subregionları ölkələrini çətinliklə kontur xəritədə qeyd edir. | Cənubi Avropa, Cənub-Şərqi Avropa, Cənub-Qərbi Asiya (Yaxın və Orta Şərq) və Şimali Afrika subregionları ölkələrinin bəzilərini kontur xəritədə qeyd edir. | Cənubi Avropa, Cənub-Şərqi Avropa, Cənub-Qərbi Asiya (Yaxın və Orta Şərq) və Şimali Afrika subregionları ölkələrini kontur xəritədə qeyd edərkən qeyri-dəqiqliyə yol verir. | Cənubi Avropa, Cənub-Şərqi Avropa, Cənub-Qərbi Asiya (Yaxın və Orta Şərq) və Şimali Afrika subregionları ölkələrini kontur xəritədə düzgün qeyd. |
| Aralıq dənizi sahili subregionlarını müəyyən meyarlara görə çətinliklə müqayisə edir. | Aralıq dənizi sahili subregionlarını müəyyən meyarlara görə müəllimin köməyi ilə müqayisə edir. | Aralıq dənizi sahili subregionlarını müəyyən meyarlara görə müqayisə edərkən qeyri-dəqiqliyə yol verir. | Aralıq dənizi sahili subregionlarını müəyyən meyarlara görə müstəqil müqayisə edir. |

LAYİHƏ

## Dərs 47 / Mövzu 41: MÜASİR DÜNYANIN "İQTİSADİ GÜCLƏRİ"

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 3.2.2. Tarixi-coğrafi regionları kontur xəritədə qeyd edir.<br>3.2.3. Təsərrüfat sahələrinin səciyyəsini verir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Dünyanın əsas iqtisadi mərkəzlərini sadalayır və xəritədə göstərir.<br>• Dünyanın "iqtisadi mərkəzləri"nin formalaşma amillərini izah edir.<br>• "Maya dəyəri", "marketinq" anlayışlarını izah edir. |

**A** Motivasiyanı dərslikdə verilən xəritə-sxemin təhlili və suallarla başlamaq olar.

**Xəritə üzrə iş**

1. Dünyanın iqtisadi güclərinin coğrafiyasının tarixən necə dəyişdiyini şərh edin.

*XV əsrədək: Asiya ölkələri, xüsusən Çin, Hindistan*
*XVIII-XIX əsrlər: Avropa regionu*
*XX əsr: ABŞ və Qərbi Avropa, Yaponiya*
*XXI əsrin əvvəli: Yaponiya, Avstraliya, Braziliya, Hindistan və b.*

2. XXI əsrin əvvəlində Cənub yarımkürəsində yerləşən bəzi ölkələrin dünyanın iqtisadi güc mərkəzlərinə çevrilməsinin səbəbi nə ola bilər?

– *Həmin ölkələrdə mineral ehtiyatların bol olması*
– *Ölkələrdə təbii şəraitin təsərrüfatın inkişafı üçün əlverişli olması*
– *İqtisadi əlaqələrin genişlənməsi*
– *İnformasiya mübadiləsinin yüksək həddə çatması*
– *Müasir nəqliyyatın (sürətli, genişutumlu və etibarlı) inkişaf etməsi*

**B** Mətnlə iş zamanı BİBÖ strategiyasını tətbiq etmək olar.

**C** **Cədvəl üzrə iş.** Dünyanın iqtisadi güc mərkəzlərinin müxtəlif göstəricilərinin paylanma diaqramları




**D** **Biliklərin tətbiq edilməsi və yoxlanılması**

LAYİHƏ

1. “G 20”-yə daxil olan ölkələrin adını yazın.

| № | Ölkə | № | Ölkə | № | Ölkə | № | Ölkə |
|---|---|---|---|---|---|---|---|
| **1** | Avstraliya | **6** | Avropa Şurası | **11** | Cin | 16 | Türkiyə |
| **2** | Argentina | **7** | İndoneziya | **12** | Meksika | 17 | Fransa |
| **3** | Braziliya | **8** | Hindistan | **13** | Rusiya | 18 | CAR |
| **4** | Böyük Britaniya | **9** | İtaliya | **14** | Səudiyyə Ərəbistan | 19 | Koreya |
| **5** | Almaniya | **10** | Kanada | **15** | ABŞ | 20 | Yaponiya |

2. Çin Xalq Respublikasında gəlirlərin kəskin şəkildə artması nə ilə əlaqədardır?
- *yeni iqtisadi modelin tətbiq edilməsi;*
- *dünyanın tanınmış şirkətləri Çin iqtisadiyyatına böyük həcmdə sərmayə qoyur;*
- *zəngin xammal və kifayət qədər ucuz işçi qüvvəsi*
- *malların maya dəyərinin ucuz olması*

3. Cədvəldəki rəqəmlər əsasında diaqram qurun və təhlil edin.




*Qiymətləndirmə meyarları: xəritədə göstərmə, izahetmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Dünyanın əsas “iqtisadi mərkəzlə-ri”ni sadalamaq və xəritədə göstərməkdə çətinlik çəkir. | Dünyanın əsas “iqtisadi mərkəzləri”ni müəllimin köməyi ilə sadalayır və xəritədə göstərir. | Dünyanın əsas “iqtisadi mərkəzlə-ri”ni sadalayarkən və xəritədə göstərər-kən qeyri-dəqiqliyə yol verir. | Dünyanın əsas “iqtisadi mərkəzləri”ni səhvsiz sadalayır və xəritədə göstərir. |

LAYİHƏ

| | | | |
|---|---|---|---|
| Dünyanın əsas "iqtisadi mərkəzləri"nin formalaşma amillərini çətinliklə izah edir. | Dünyanın əsas "iqtisadi mərkəzləri"nin formalaşma amillərini müəllimin köməyi ilə izah edir. | Dünyanın əsas "iqtisadi mərkəzləri"nin formalaşma amillərini izah edərkən qeyri-dəqiqliyə yol verir. | Dünyanın əsas "iqtisadi mərkəzləri"nin formalaşma amillərini səhvsiz izah edir. |
| "Maya dəyəri", "marketinq" terminlərini çətinliklə izah edir. | "Maya dəyəri", "marketinq" terminlərini müəllimin köməyi ilə izah edir. | "Maya dəyəri", "marketinq" terminlərini izah edərkən qeyri-dəqiqliyə yol verir. | "Maya dəyəri", "marketinq" terminlərini səhvsiz izah edir. |

## Dərs 48/ Mövzu 42: YER KÜRƏSİNİN MƏNİMSƏNİLMƏSİ

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 3.2.2. Tarixi-coğrafi regionları kontur xəritədə qeyd edir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Zəif və yeni mənimsənilən əraziləri xəritədə göstərir.<br>• Zəif və yeni mənimsənilən ərazilərə misallar göstərir. |

**A** **Xəritə üzrə iş.** Xəritə-sxemlərə əsasən əhalinin məskunlaşma səviyyəsini müəyyən edin və cədvəli tamamlayın.

**C** **Xəritə üzrə iş.** Xəritə-sxemdəki rəqəmləri cədvəldə qeyd olunmuş ərazilərə müvafiq xanalara yazın.

| Yüksək dağlıqlar | Səhra və yarımsəhralar | Çoxillik donuşluq ərazilər | Ekvatorial meşələr |
|---|---|---|---|
| 1, 6 | 2, 3, 5, 7 | 8, 9 | 4, 10 |

**D** **Biliklərin tətbiq edilməsi və yoxlanılması**

1. Mətndən istifadə edərək cədvəli tamamlayın.

| **Zəif mənimsənilmiş ərazilər** | **Mövcud imkanlar** | **Mənimsəməni məhdudlaşdıran amillər** | **Mənimsəmə üçün görülən tədbirlər** |
|---|---|---|---|
| Yüksək dağlıqlar | Otlaq və biçənəklər, zəngin mineral ehtiyatlar | Meyilliyin yüksək olması, nəqliyyat yollarının azlığı | Tunellər çəkilir, terraslaşdırma işləri aparılır |
| Səhra və yarımsəhralar | Qiymətli bitkilərin becərilməsi üçün istiliyin kifayət qədər olması | Su çatışmazlığı | Yeraltı suları mənimsəmək üçün artezian quyuların qazılması |

LAYİHƏ

2. Kontur xəritə üzərindəki rəqəmləri qruplaşdırın və cədvəlin uyğun xanalarına qeyd edin.

| Güclü mənimsənilən | Zəif mənimsənilən |
|---|---|
| 2, 3, 7, 9, 10, 11 | 1, 4, 5, 6, 8, 12 |

*Qiymətləndirmə meyarları: xəritə ilə işləmə, misallar gətirməyi bacarma*

| **I səviyyə** | **II səviyyə** | **III səviyyə** | **IV səviyyə** |
|---|---|---|---|
| Zəif və yeni mənimsənilən əraziləri xəritədə çətinliklə göstərir. | Zəif və yeni mənimsənilən əraziləri xəritədə müəllimin köməyi ilə göstərir. | Zəif və yeni mənimsənilən əraziləri xəritədə göstərərkən qeyri-dəqiqliyə yol verir. | Zəif və yeni mənimsənilən əraziləri xəritədə səhvsiz göstərir. |
| Zəif və yeni mənimsənilən ərazilərə çətinliklə misallar göstərir. | Zəif və yeni mənimsənilən ərazilərə müəllimin köməyi ilə misallar göstərir. | Zəif və yeni mənimsənilən ərazilərə misallar göstərərkən qeyri-dəqiqliyə yol verir. | Zəif və yeni mənimsənilən ərazilərə misalları səhvsiz göstərir. |

LAYİHƏ

## DƏRS 49. V FƏSİL ÜZRƏ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ NÜMUNƏSİ

1. Xəritə-sxemdə hansı qədim sivilizasiyaların yayılma arealları göstərilmişdir?




1____________
2____________
3____________
4____________

2. Amerikanın qədim sivilizasiyalarının mərkəzləri hansı ölkələrin ərazisində yerləşmişdir?
   A) Meksika və Argentina B) Nikaraqua və Peru
   C) Kolumbiya və Argentina D) Meksika və Peru
   E) Meksika və Kolumbiya

3. Şimali Qafqazda yerləşən türk dövlət qurumları:
   1. Tatarıstan 2. Saxa 3. Qaraçay-Çərkəz
   4. Kabarda-Balkar 5. Başqırdıstan
   A) 1, 3 B) 2, 5 C) 3, 4 D) 4, 5 E) 3, 5

4. Azərbaycana Qərb və Şərq mədəniyyətinin təsirinə (iqtisadiyyat, mədəniyyət, memarlıq, təhsil və s.) aid misallar göstərin:

________________________________________
________________________________________
________________________________________
________________________________________
________________________________________
________________________________________

LAYİHƏ

5. Düzgün cavab variantlarını seçin: ___________________




A) 3: Xakasiya – Sibir regionu
B) 5: Tatarıstan – Volqaboyu regionu
C) 8: Kabarda-Balkar – Şimali Qafqaz regionu
D) 6: Başqırdıstan – Volqaboyu regionu
E) 1: Tuva – Volqaboyu regionu

6. Xəritə-sxemdə göstərilən ölkələrin adlarını yazın.




1 _____________________ 6 ________________
2 _____________________ 7 ________________
3 _____________________ 8 ________________
4 _____________________ 9 ________________
5 _____________________ 10 ________________

LAYİHƏ

7. Kontur xəritədə qeyd olunan ölkələrin adlarını müəyyən edin və cədvəldə qruplaşdırın:

| Yüksək dağlıq ərazilər | Rütubətli ekvatorial meşələr zonası | Səhraların yayıldığı ərazilər | Çoxillik donuşluq ərazilər |
|---|---|---|---|
| | | | |
| | | | |




LAYİHƏ

# FƏSİL – 6

# DÜNYA ƏHALİSİNİN MÜXTƏLİFLİYİ

## FƏSİL ÜZRƏ REALLAŞDIRILACAQ ALT STANDARTLAR

3.1.1. Əhalinin artım dinamikasını ölkələrin iqtisadi inkişaf səviyyəsi ilə əlaqələndirir.
3.1.2. Topladığı statistik məlumatlar əsasında hesablamalar aparır.

FƏSİL ÜZRƏ ÜMUMİ SAATLARIN MİQDARI: **6 saat**
KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ: **1 saat**

LAYİHƏ

## Dərs 50 / Mövzu 43: ƏHALİ SAYININ ARTIMI VƏ ONUN TƏNZİMLƏNMƏSİ

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 3.1.1. Əhalinin artım dinamikasını ölkələrin iqtisadi inkişaf səviyyəsi ilə əlaqələndirir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • "Demoqrafik inqilab", "demoqrafik böhran", "demoqrafik partlayış" anlayışlarını izah edir.<br>• Ölkənin inkişaf səviyyəsi ilə demoqrafik siyasətin istiqamətini əlaqələndirir.<br>• İstənilən ölkədə demoqrafik vəziyyəti əhali sayının tənzimlənməsi ilə bağlı dövlət tərəfindən həyata keçirilən tədbirləri misal gətirərək təsvir edir. |

### Ⓐ Xəritə üzrə iş. Əhalinin təbii artımının tipləri

Tapşırıq şagirdlərə 8-ci sinifdə aldıqları bilikləri yada salmağa kömək edə bilər. Onu fərdi formada dəftərə yazmaqla və sonda nəticələri müzakirə edərək yerinə yetirmək olar, yaxud bütün siniflə tapşırığı yerinə yetirərək alınan nəticələri lövhədə qeyd etmək olar.

Tapşırığın yerinə yetirilməsinə dair nümunə:

| | |
|---|---|
| Kanada, ABŞ, Fransa, Rusiya, Avstraliya, Almaniya, İtaliya, Yaponiya, Polşa, Norveç | Braziliya, Argentina, Liviya, Əlcəzair, Hindistan, Meksika, CAR, Konqo |
| Bu ölkələr üçün əhali təzələnməsinin birinci tipi səciyyəvidir – aşağı doğum: orta göstərici 1000 nəfərə 13 nəfər. Ölüm azdır: 1000 nəfərə 10 nəfər, nəticədə aşağı təbii artım. | Bu ölkələr üçün əhali təzələnməsinin ikinci tipi səciyyəvidir – yüksək doğum: orta göstərici 1000 nəfərə 40 nəfər. Ölüm: 1000 nəfərə 20 nəfər, nəticədə yüksək təbii artım. |
| **Müzakirə edin:** Ölkənin inkişaf səviyyəsi ilə əhalinin təbii artım tipi arasında hansı əlaqə vardır?<br>*Yüksək iqtisadi inkişaf səviyyəsinə malik ölkələr üçün təbii artımın az olması, daha aşağı inkişaf səviyyəsinə malik ölkələr üçün təbii artımın yüksək olması səciyyəvidir.* | |

Ⓑ Mətnlə iş zamanı metodiki vəsaitdə təsvir olunan üsullardan biri, məsələn, əsas anlayışların (terminlərin) çıxarılması üsulundan istifadə oluna bilər. Şagirdlər yeni terminləri və onların izahını dəftərlərinə yazırlar. Terminlərə suallar tərtib edirlər.

***Demoqrafik inqilab*** – Əhali artımının kəskin dəyişməsi

***Demoqrafik böhran*** – ölümün və doğumun az olması nəticəsində əhalinin sayının kəskin azalması

***Demoqrafik partlayış*** – ölümün az, doğumun isə çox yüksək olması nəticəsində əhalinin sayının kəskin artması

***Demoqrafik siyasət*** – əhalinin sayının tənzimlənməsi üçün həyata keçirilən inzibati, iqtisadi, təbliğat və s. tədbirlər sistemidir.

LAYİHƏ

## D Biliklərin tətbiq edilməsi və yoxlanılması

1. Mətndə verilən xəritə-sxemdən istifadə edərək Nigeriya, Argentina, ABŞ, Fransa, Estoniya, Hindistan, Avstriya və Meksika dövlətlərinin adlarını cədvəlin uyğun xanalarına qeyd edin:

| Demoqrafik siyasət | |
|---|---|
| Doğum göstəricilərinin artırılması | Doğum göstəricilərinin aşağı salınması |
| *ABŞ, Fransa, Estoniya Avstriya* | *Nigeriya, Argentina, Hindistan, Meksika* |

## E Dərsdən sonra

İnternet axtarış sistemindən istifadə edərək Çin, Yaponiya, Almaniya və Rusiya ölkələrinin hansı demoqrafik siyasət apardığını müəyyən edin. Axtarışın nəticələri haqqında qısa hesabat hazırlayın.

Şagirdlər tapşırığı yerinə yetirməyə başlamazdan əvvəl onlarla qiymətləndirmə meyarlarını müəyyən etmək lazımdır. Yaxşı olar ki, hesabatın tərtib olunması və işin həcmini əks etdirən 1 səhifə həcmində plan tərtib edilsin.

Məsələn:

*İşi icra etdi:* ______________________________
*(şagirdin soyadı, adı)*

*Mövzu: Rusiya Federasiyasının demoqrafik siyasəti*

*1. Ölkədə müasir demoqrafik vəziyyət* ________________________

- 1992-ci ildən etibarən ölüm göstəricilərinin doğuma nisbətən çox olması nəticəsində əhalinin sayı azalmağa başlamışdır (əhalinin təbii azalması).
- Ailədə uşaqların sayının azalması prosesi davam edir. Rusiyalıların çox hissəsi ailədə yalnız bir uşağın olmasını daha məqsədəuyğun sayır.

*2. Demoqrafik siyasətin istiqamətləri* ________________________

Rusiya Federasiyasının demoqrafik siyasəti əhalinin orta ömür müddətinin artırılmasına, ölüm səviyyəsinin azaldılmasına, doğumun artırılmasına, daxili və xarici miqrasiyanın tənzimlənməsinə, əhalinin sağlamlığının təmin olunması və möhkəmləndirilməsinə, bütün bunların əsasında isə ölkədə demoqrafik vəziyyətin yaxşılaşdırılmasına yönəldilmişdir.

*3. Həyata keçirilən konkret tədbirlər*

- Uşaqlı ailələrə dövlət tərəfindən maddi dəstək göstərilməsi;
- Kütləvi informasiya vasitələrində sosial reklamın genişlənməsi, bu mövzuda televiziya və radio proqramlarının təşkili, qəzet, jurnalların buraxılması, tədris proqramları və s.

*4. Mənbələr: http://demoscope.ru/weekly/knigi/koncepciya/koncepciya25.html*

______________________________________________
*(İnternet saytlarına istinadlar)*

*Qiymətləndirmə meyarları: izahetmə, uyğunlaşdırma, təsviretmə*

LAYİHƏ

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| “Demoqrafik inqilab”, “demoqrafik böhran”, “demoqrafik partlayış” anlayışlarını çətinliklə izah edir. | “Demoqrafik inqilab”, “demoqrafik böhran”, “demoqrafik partlayış” anlayışlarını müəllimin verdiyi sualların köməyi ilə izah edir. | “Demoqrafik inqilab”, “demoqrafik böhran”, “ demoqrafik partlayış” anlayışlarının izahında bəzən qeyri-dəqiqliyə yol verir. | “Demoqrafik inqilab”, “demoqrafik böhran”, “demoqrafik partlayış” anlayışlarını səhvsiz izah edir. |
| Ölkənin iqtisadi inkişaf səviyyəsi ilə demoqrafik siyasətin istiqaməti arasında uyğunluğu çətinliklə qurur. | Ölkənin iqtisadi inkişaf səviyyəsi ilə demoqrafik siyasətin istiqaməti arasında uyğunluğu müəllimin verdiyi sualların köməyi ilə qurur. | Ölkənin iqtisadi inkişaf səviyyəsi ilə demoqrafik siyasətin istiqaməti arasında uyğunluğu qurarkən qeyri-dəqiqliyə yol verir. | Ölkənin iqtisadi inkişaf səviyyəsi ilə demoqrafik siyasətin istiqaməti arasında uyğunluğu səhvə yol vermədən qurur. |
| Ölkədəki demoqrafik vəziyyəti, dövlətin əhalinin sayını tənzimləmək üçün gördüyü tədbirlərə dair çətinliklə təsvir edir. | Ölkədəki demoqrafik vəziyyəti, dövlətin əhalinin sayını tənzimləmək üçün gördüyü tədbirlərə aid misallar gətirərək müəllimin verdiyi sualların köməyi ilə təsvir edir. | Ölkədəki demoqrafik vəziyyəti, dövlətin əhalinin sayını tənzimləmək üçün gördüyü tədbirlərə misallar gətirərək təsvir edərkən qeyri-dəqiqliyə yol verir. | Ölkədəki demoqrafik vəziyyəti dövlətin əhalinin sayını tənzimləmək üçün gördüyü tədbirlərə misallar gətirərək səhvsiz təsvir edir. |

## Dərs 51/ Mövzu 44: DÜNYA ƏHALİSİNİN YAŞ-CİNS TƏRKİBİ. ƏMƏK EHTİYATLARI

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 3.1.1. Əhalinin artım dinamikasını ölkələrin iqtisadi inkişaf səviyyəsi ilə əlaqələndirir.<br>3.1.2. Topladığı statistik məlumatlar əsasında hesablamalar aparır. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Əhalinin yaş tərkibi, cins tərkibi, işçi qüvvəsi, iqtisadi cəhətdən fəal əhali, işsizlər, əmək qüvvəsinə daxil olmayanlar, işsizlik səviyyəsi anlayışlarını izah edir.<br>• Ölkənin iqtisadi inkişaf səviyyəsi ilə yaş-cins tərkibi və əhalinin orta ömür müddəti arasında qarşılıqlı əlaqəni izah edir.<br>• Düsturdan istifadə edərək işsizlik səviyyəsini hesablayır. |

**A Diaqram üzrə iş**

Diaqram əsasında şagirdlər nəticə çıxarmalıdırlar:

1. Əhalinin yaş tərkibinə görə hansı qrupları vardır? (*yaşlılar, yetkinlər, uşaqlar*)
2. Hansı regionlarda uşaqlar üstünlük təşkil edir? (*Asiya, Afrika və Latın Amerikasında 14 yaşa qədər uşaqların xüsusi çəkisi yüksəkdir*)
3. Hansı regionlarda yaşlılar üstünlük təşkil edir? (*Avropa, Şimali Amerika və Avstraliyada 65 yaşdan yuxarı əhalinin payı yüksəkdir*)

LAYİHƏ

**B** Dərsdə əsas anlayışları daha yaxşı mənimsəmək üçün *əsas sözlərin çıxarılması* üsulundan istifadə etmək olar.

***Əhalinin yaş tərkibi*** – əhalinin müxtəlif yaş qrupları üzrə paylanması

***Əhalinin cins tərkibi*** – kişi və qadınların faiz nisbəti və ya hər yüz qadın sayına düşən kişilərin sayı

***İşçi qüvvəsi*** (***əmək ehtiyatları***) – 16 yaşdan yuxarı olan əmək qabiliyyətinə malik və işləməyə hazır əhali

***İqtisadi cəhətdən fəal əhali (məşğul olanlar)*** – əmək qabiliyyətinə malik olan və hər hansı bir sahədə işləyən əhali

***İşsizlər*** – məşğul olmayanlar

***Əmək qüvvəsinə daxil olmayanlar*** – iş qabiliyyəti olaraq işləməyən və işləməyə çalışmayan yetkin insanlar, işləməyən pensiyaçılar

***İşsizlik səviyyəsi*** – məşğul olmayanların sayının iş qüvvəsinin sayına nisbəti ilə müəyyən edilir.

***Demoqrafik yük*** **–** ölkədə əmək qabiliyyəti olmayan əhalinin iqtisadi cəhətdən fəal əhalinin sayına olan nisbəti.

**C** **Xəritə üzrə iş**

Əhalinin ən aşağı və ən yüksək orta ömür müddətinə malik olan ölkələri müəyyən edin və adlarını dəftərinizə yazın.

Tapşırığın yerinə yetirilməsinə dair nümunə:

| Ən aşağı orta ömür müddətinin səciyyəvi olduğu ölkələr (45 və ondan az) | Ən yüksək orta ömür müddətinin səciyyəvi olduğu ölkələr (80 və ondan çox) |
|---|---|
| *Zambiya, Botsvana, Əfqanıstan, Namibiya, Anqola* | *Kanada, Avstraliya, Norveç, İrlandiya, Andorra* |
| **Nəticə:** *ölkənin sosial-iqtisadi inkişaf səviyyəsi nə qədər yüksək olarsa, orta ömür müddəti daha yüksək olur.* | |

**Xəritə üzrə iş.** Xəritəyə əsasən cədvəli tamamlayın.

Tapşırığın yerinə yetirilməsinə dair nümunə:

| Kişi və qadınların sayca bərabər olduğu ölkələr | Kişilərin sayca üstün olduğu ölkələr | Qadınların sayca üstün olduğu ölkələr |
|---|---|---|
| *Monqolustan, Efiopiya, İslandiya, Qana, Seneqal* | *Çin, Hindistan, İran, Səudiyyə Ərəbistanı, Anqola, Peru* | *ABŞ, Kanada, Rusiya, Avstraliya, Böyük Britaniya* |
| **Nəticə:** *Şimali Amerika, Avropa və Avstraliyada əhalinin cins strukturunda qadınlar, Asiya, Afrika və Latın Amerikasında isə kişilər üstünlük təşkil edir.* | | |

LAYİHƏ

**Cədvəl üzrə iş.** Mətn və xəritə-sxemlərdən istifadə edərək cədvəli doldurun.

| | Ölkə | İqtisadi inkişaf səviyyəsi: inkişaf etmiş / inkişaf etməkdə olan | Əhalinin yaş strukturunda üstünlük təşkil edən yaş qrupu: uşaqlar – yaşlılar | Əhalinin cins strukturu: qadın / kişi / bərabər | Orta ömür müddəti |
|---|---|---|---|---|---|
| 1 | *ABŞ* | *inkişaf etmiş* | *yaşlılar* | *qadın* | *75-80* |
| 2 | *Fransa* | *inkişaf etmiş* | *yaşlılar* | *qadın* | *75-80* |
| 3 | *Hindistan* | *inkişaf etməkdə olan* | *uşaqlar* | *kişi* | *55-65* |
| 4 | *Sudan* | *inkişaf etməkdə olan* | *uşaqlar* | *kişi* | *45-55* |

Cədvəl əsasında hansı mövcud qanunauyğunluğu müəyyən etmək olar?
*İqtisadi cəhətdən inkişaf etmiş ölkələrdə əhalinin yaş strukturunda yaşlılar, cins tərkibində qadınlar üstünlük təşkil edir, orta ömür müddəti yüksəkdir.*
*İqtisadi cəhətdən geridə qalan ölkələrdə əhalinin yaş tərkibində uşaqlar, cins tərkibində kişilər üstündür, orta ömür müddəti azdır.*

## D Biliklərin tətbiq edilməsi və yoxlanılması

İnsanların hansı qrupa aid olduqlarını müəyyən edin və cədvəli tamamlayın:

| Əmək ehtiyatlarına daxil olmayan əhali | Əmək ehtiyatları | |
|---|---|---|
| | Məşğul olanlar | İşsizlər |
| *1, 4, 6 ,9, 12* | *3,5, 8, 10,11,13* | *2, 7, 14* |

## E Dərsdən sonra

Dövlət Statistika Komitəsinin (*www.stat.gov.az*)saytının məlumatlarından istifadə edərək cədvəli tamamlayın, işsizlik səviyyəsini hesablayın, illər üzrə müqayisə edərək nəticəni qeyd edin.

| | 2010-cu il | 2015-ci il |
|---|---|---|
| Ölkə üzrə əhalinin ümumi sayı (min.nəfər) | *8997.6* | *9356.5* |
| İşsizlərin sayı (min.nəfər) | *258.3* | *236,6* |
| İqtisadi cəhətdən fəal əhalinin sayı (*min nəfər*) | *4329.1* | *4521.2* |
| İşsizlik səviyyəsi | *5,6%* | *4,9%* |
| Nəticə: işsizlik səviyyəsi *artıb/azalıb* | *Azalıb* | |

LAYİHƏ

*Qiymətləndirmə meyarları: izahetmə, hesablama*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Əhalinin yaş tərkibi, əhalinin cins tərkibi, iş qüvvəsi, iqtisadi cəhətdən fəal əhali, işsizlər, əmək qüvvəsinə daxil olmayanlar, işsizlik səviyyəsi anlayışlarını çətinliklə izah edir. | Əhalinin yaş tərkibi, əhalinin cins tərkibi, iş qüvvəsi, iqtisadi cəhətdən fəal əhali, işsizlər, əmək qüvvəsinə daxil olmayanlar, işsizlik səviyyəsi anlayışlarını müəllimin istiqamətləndirici suallarının köməyi ilə izah edir. | Əhalinin yaş tərkibi, əhalinin cins tərkibi, iş qüvvəsi, iqtisadi cəhətdən fəal əhali, işsizlər, əmək qüvvəsinə daxil olmayanlar, işsizlik səviyyəsi anlayışlarını izah edərkən qeyri- dəqiqliyə yol verir. | Əhalinin yaş tərkibi, əhalinin cins tərkibi, iş qüvvəsi, iqtisadi cəhətdən fəal əhali, işsizlər, əmək qüvvəsinə daxil olmayanlar, işsizlik səviyyəsi anlayışlarını səhvsiz izah edir. |
| Ölkənin iqtisadi inkişaf səviyyəsi ilə əhalinin yaş-cins tərkibi və orta ömür müddəti arasında qarşılıqlı əlaqəni çətinliklə izah edir. | Ölkənin iqtisadi inkişaf səviyyəsi ilə əhalinin yaş-cins tərkibi və orta ömür müddəti arasında qarşılıqlı əlaqəni müəllimin köməyi ilə izah edir. | Ölkənin iqtisadi inkişaf səviyyəsi ilə əhalinin yaş-cins tərkibi və orta ömür müddəti arasında qarşılıqlı əlaqəni izah edərkən qeyri-dəqiqliyə yol verir. | Ölkənin iqtisadi inkişaf səviyyəsi ilə əhalinin yaş-cins tərkibi və orta ömür müddəti arasında qarşılıqlı əlaqəni səhvsiz izah edir. |
| Düsturdan istifadə edərək ölkədə işsizlik səviyyəsini çətinliklə hesablayır. | Düsturdan istifadə edərək ölkədə işsizlik səviyyəsini müəllimin köməyi ilə hesablayır. | Düsturdan istifadə edərək ölkədə işsizlik səviyyəsini hesablayarkən səhvlərə yol verir. | Düsturdan istifadə edərək ölkədə işsizlik səviyyəsini səhvsiz hesablayır. |

## Dərs 52 / Mövzu 45: Praktik dərs. YAŞ-CİNS PİRAMİDASININ QURULMASI

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 3.1.2. Topladığı statistik məlumatlar əsasında hesablamalar aparır. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Yaş-cins piramidasını izah edir.<br>• Demoqrafik piramidaya əsasən ölkə əhalisinin sayı, yaş-cins tərkibi haqqında məlumat əldə edir.<br>• Statistik məlumatlara əsasən respublikanın yaş-cins piramidasını qurur. |

Bu dərs praktik istiqaməti ilə seçilir. Şagirdlər əhalinin demoqrafik strukturunu təsvir etmək üçün demoqrafik piramidalardan istifadə etməyi və demoqrafik piramida qurmağı öyrənməlidirlər.

LAYİHƏ

1. Dərsə başlamazdan əvvəl şagirdlərə əvvəlcədən məlumat toplamaq və cədvəli doldurmaq təklif edilir:

| | | |
|---|---|---|
| Sənin ailəndə uşaqların sayı | qardaşlar | 1 |
| | bacılar | 1 |
| Valideynlərin ailəsində uşaqların sayı | qardaşlar | 2 |
| | bacılar | 1 |
| Baba və nənələrin ailəsində uşaqların sayı | qardaşlar | 3 |
| | bacılar | 2 |

2. Bütün sinif üçün ümumi cədvəl tərtib edin. Məsələn:

| | | |
|---|---|---|
| Şagirdlərin ailələrində uşaqların sayı | qardaşlar | 41 |
| | bacılar | 30 |
| Valideynlərin ailələrində uşaqların sayı | qardaşlar | 52 |
| | bacılar | 60 |
| Baba və nənələrin ailələrində uşaqların sayı | qardaşlar | 81 |
| | bacılar | 100 |

3. Əvvəlcədən lövhədə və ya vatmanda sxem tərtib edin.







Qeyd etmək lazımdır ki, sütunların mərkəzindən sağda qadınların sayı, solda isə kişilərin sayı verilmişdir.

Şagirdlərə onların məlumatları təhlil edərkən demoqrafların rolunda çıxış edəcəkləri elan edilir. Demoqraflar əhalinin gender, yaş, peşə və s. əlamətlərə görə paylanmasını öyrənən mütəxəssislərdir. Onların məlumatları təhlil edərkən istifadə etdikləri üsullardan biri demoqrafik piramidaların qurulmasıdır. Bu gün onların qurduğu diaqram əhalinin cins tərkibini əks etdirir.

LAYİHƏ

1. Şagirdlərlə birgə yaş-cins piramidasının qurulması nümunəsini və onun əsasında çıxarılan və dərslikdə verilən nəticələri təhlil edin.
2. Şagirdlərə dərslikdə verilmiş statistik göstəricilər əsasında yaş-cins piramidasını quraraq onu təhlil etməyi tapşırın.

*Qiymətləndirmə meyarları: izahetmə, təhliletmə, diaqram qurma*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Yaş-cins piramidasını izah etməkdə çətinlik çəkir. | Yaş-cins piramidasını müəllimin istiqamətləndirici suallarının köməyi ilə izah edir. | Yaş-cins piramidasını izah edərkən qeyri-dəqiqliyə yol verir. | Yaş-cins piramidasını səhvsiz izah edir. |
| Yaş-cins piramidasını təhlil etməkdə çətinlik çəkir. | Yaş-cins piramidasını müəllimin köməyi ilə təhlil edir. | Yaş-cins piramidasının təhlili zamanı qeyri-dəqiqliyə yol verir. | Yaş-cins piramidasını səhvsiz təhlil edir. |
| Statistik məlumatlara əsasən respublika əhalisinin yaş-cins piramidasını çətinliklə qurur. | Statistik məlumatlara əsasən respublika əhalisinin yaş-cins piramidasını qurarkən kobud səhvlərə yol verir. | Statistik məlumatlara əsasən respublika əhalisinin yaş-cins piramidasını qurarkən qeyri-dəqiqliyə yol verir. | Statistik məlumatlara əsasən respublika əhalisinin yaş-cins piramidasını səhvsiz qurur. |

## Dərs 53 / Mövzu 46: ASİYA, AFRİKA VƏ LATIN AMERİKASININ ƏHALİSİ

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 3.1.1. Əhalinin artım dinamikasını ölkələrin iqtisadi inkişaf səviyyəsi ilə əlaqələndirir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Asiya, Afrika və Latın Amerikası ölkələrində əhalinin yüksək təbii artımının bu regionların aşağı inkişaf səviyyəsi ilə bağlı olduğunu izah edir.<br>• Asiya, Afrika və Latın Amerikası ölkələrində əhalinin yüksək təbii artımının nəticələrini izah edir.<br>• Asiya, Afrika və Latın Amerikası ölkələrində əhalinin yaş-cins piramidasının fərqli xüsusiyyətlərini izah edir. |

**A Sxem üzrə iş. Dünya əhalisinin regionlar üzrə paylanması**

Diaqrama əsasən dünya əhalisinin ümumi sayında Asiya, Afrika və Latın Amerikası əhalisinin payını faizlə təqribi hesablayın. Qrafiklə iş zamanı yuvarlaqlaşdırılmış ədədlərdən istifadə etmək məqsədəuyğundur, yer üzündə əhalinin ümumi sayını 7 milyard götürmək lazımdır.

LAYİHƏ

| Region | Əhalinin sayı (2013-cü il, min nəfər) |
|---|---|
| *Cəmi* | *7 162 119* |
| *Afrika* | *1 110 635* |
| *Asiya* | *4 298 723* |
| *Avropa* | *742 452* |
| *Latın Amerikası* | *616 644* |
| *Şimali Amerika* | *355 361* |
| *Avstraliya və Okeaniya* | *38 304* |

Dünya əhalisinin ümumi sayında Asiya, Afrika və Latın Amerikası əhalisinin payı:

$1110635 + 4298723 + 616\,644 \; - \; x$

$7\,162\,119 \qquad\qquad\qquad - \; 100\%$

$x = 84\%$

Diaqramda iş zamanı şagirdlər yuvarlaq ədədlərdən istifadə edirlər. Məsələn, dünya əhalisinin sayını təqribən 7 mlrd. nəfər götürmək lazımdır. Təbiidir ki, bu zaman alınan nəticələr təqribi olacaqdır.

**B** Şagirdlər mətni metodik vəsaitdə təsvir olunan üsullardan birinin köməyi ilə mənimsəyə bilərlər: məsələn, səbəb-nəticə əlaqələri zəncirinin qurulması, yaxud ziqzaq strategiyası ilə.

**Səbəb-nəticə zənciri**

| | | |
|---|---|---|
| Milli adət-ənənələr, din, gender problemi, ailənin iqtisadi tələbatlarının yüksək olması | → | doğumun yüksək olması |
| Səhiyyənin inkişafı, əhali arasında kütləvi peyvəndlərin aparılması, ana və körpələrə keyfiyyətli tibbi xidmətin göstərilməsi | → | əhali arasında ölüm sayının azalması |
| doğumun yüksək olması, əhali arasında ölümlərin sayının azalması | → | Yüksək təbii artım |

**Ziqzaq**

Ziqzaq strategiyası qısa müddət ərzində genişhəcmli mövzunu öyrənməyə imkan verir. Müəllim şagirdləri qruplara bölür. Bu qruplar "doğma" qruplar adlanır. Qrup üzvləri 1, 2, 3, 4-ə qədər sayırlar (say öyrənilən materialın həcmindən asılıdır: əgər mövzu 4 hissəyə bölünmüşsə, şagirdlər 1-dən 4-ə qədər, 5 hissəyə bölünmüşsə, onda 5-ədək sayırlar). Bu dərsdə şagirdlər üç regionu – Afrika, Asiya və Latın Amerikasını öyrəndikləri üçün onlar 1-dən 3-ə qədər saymalıdırlar.

Sonra eyni rəqəmi alan şagirdlər "ekspert" qruplarında birləşirlər. Müəllim "ekspert" qruplarına onların əsas məqsədlərinin mətnin bir hissəsinin diqqətlə öyrənilməsi olduğunu izah edir. Bir qrup mətnin birinci hissəsini, yəni Afrikanı,

LAYİHƏ

ikinci qrup ikinci hissəni, yəni Asiyanı, üçüncü qrup isə üçüncü hissəni, yəni Latın Amerikasını oxuyub müzakirə edir.

Müəllim şagirdlərə izah edir ki, tapşırıq yerinə yetirildikdən sonra "ekspert" qruplarının hər bir üzvü öz "doğma" qruplarına qayıtmalı və öyrəndiyi informasiyanı bölüşməlidir. Beləliklə, bütün şagirdlər öyrənilən mövzu haqqında tam təsəvvürə malik olurlar.

"Doğma" qruplarda iş başa çatdıqdan sonra yeni materialın ümumi müzakirəsi təşkil edilməlidir. Mətnin mənimsənilməsi metodları müxtəlif ola bilər: Məsələn, şagirdlərə onların "ekspert" qruplarında müzakirə edəcəyi sualları paylamaq olar:

**I qrup**

1. Afrika üçün necə təbii artım səciyyəvidir?
2. Afrikanın hansı ölkələrində ən yüksək təbii artım müşahidə olunur?
3. Afrikanın hansı regionu üçün aşağı təbii artım səciyyəvidir?
4. Sxemi doldurun:

| Əhalinin yüksək təbii artımın doğurduğu sosial, iqtisadi və ekoloji problemlər | → | |
|---|---|---|

5. Əhalinin mexaniki artımı regionda əhalinin sayına necə təsir edir?
6. Tapşırığı yerinə yetirərək nəticə çıxarın: *Əhali təzələnməsinin ikinci tipi, əhalinin təbii artımı, demoqrafik partlayış* terminlərindən istifadə edərək dünya əhalisinin sayında Asiya əhalisinin xüsusi çəkisinin dəyişməsini izah edin.

**II qrup**

1. Tapşırığı yerinə yetirərək nəticə çıxarın: region ölkələrinin demoqrafik və iqtisadi göstəricilərini müqayisə edin. Demoqrafik və iqtisadi göstəricilər arasında hansı əlaqə var?
2. Asiyanın hər regionu üçün səciyyəvi olan əlamətlər haqqında danışın: Şərqi Asiya, Cənubi və Mərkəzi Asiya, Cənub-Qərbi Asiya
3. Əhalinin mexaniki artımı regionda əhalinin sayına necə təsir edir?

**III qrup**

1. Latın Amerikasının hansı ölkələri üçün daha yüksək təbii artım səciyyəvidir?
2. Tapşırığı yerinə yetirin: diaqramlara əsasən göstərilən regionlarda əhalinin yaş tərkibində uşaqların payını faizlə hesablayın. Uşaqların sayının belə yüksək olması nə ilə izah oluna bilər?
3. Əhalinin mexaniki artımı regionda əhalinin sayına necə təsir edir?

C **Cədvəl üzrə iş.** Ölkələrin demoqrafik və iqtisadi göstəricilərini müqayisə edin.
– Demoqrafik və iqtisadi göstəricilər arasında hansı əlaqə var?

*Təbii artımın yüksək olduğu ölkələrdə istehsal edilən məhsulun və xidmətlərin ümumi dəyəri azdır;*
*Təbii artımın aşağı olduğu ölkələrdə istehsal edilən məhsulun və xidmətlərin ümumi dəyəri çoxdur.*

LAYİHƏ

## D Biliklərin tətbiq edilməsi və yoxlanılması

1. Asiya, Afrika, Latın Amerikası ölkələrində demoqrafik hadisələr arasında səbəb-nəticə ardıcıllığını müəyyən edin.

1. Doğulanların → 2. Əhalinin sayı sürətlə artır → 3. İşsizlik artır. Ərzaq çatışmazlığı baş verir. Yoxsulluq artır

2. **Diaqram üzrə iş.** A diaqramı Banqladeş üçün səciyyəvidir. Bu ölkə yüksək təbii artıma malikdir, uşaqların sayı çoxdur (piramidanın aşağı hissəsi enlidir). B diaqramı Çin üçün səciyyəvidir. Bu ölkə demoqrafik keçid yolu ilə daha irəli gedərək əhali təzələnməsinin ikinci tipindən birinci tipinə keçmişdir (piramidanın aşağı hissəsi ensizdir).

*Qiymətləndirmə meyarı: izahetmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Asiya, Afrika və Latın Amerikası ölkələrində əhalinin təbii artımının yüksək olmasının bu regionların aşağı inkişaf səviyyəsi ilə bağlı olduğunu çətinliklə izah edir. | Asiya, Afrika və Latın Amerikası ölkələrində əhalinin təbii artımının yüksək olmasının bu regionların aşağı inkişaf səviyyəsi ilə bağlı olduğunu müəllimin istiqamətverici suallarının köməyi ilə izah edir. | Asiya, Afrika və Latın Amerikası ölkələrində əhalinin təbii artımının yüksək olmasının bu regionların aşağı inkişaf səviyyəsi ilə bağlı olduğunu izah edərkən qeyri-dəqiqliyə yol verir. | Asiya, Afrika və Latın Amerikası ölkələrində əhalinin təbii artımının yüksək olmasının bu regionların aşağı inkişaf səviyyəsi ilə bağlı olduğunu səhvsiz izah edir. |
| Asiya, Afrika və Latın Amerikası ölkələrində əhalinin yüksək təbii artımının nəticələrini çətinliklə izah edir. | Asiya, Afrika və Latın Amerikası ölkələrində əhalinin yüksək təbii artımının nəticələrini müəllimin istiqamətverici suallarının köməyi ilə izah edir. | Asiya, Afrika və Latın Amerikası ölkələrində əhalinin yüksək təbii artımının nəticələrini izah edərkən qeyri-dəqiqliyə yol verir. | Asiya, Afrika və Latın Amerikası ölkələrində əhalinin yüksək təbii artımının nəticələrini səhvsiz izah edir. |
| Asiya, Afrika və Latın Amerikası ölkələrində əhalinin yaş-cins piramidasının fərqli cəhətlərini çətinliklə izah edir. | Asiya, Afrika və Latın Amerikası ölkələrində əhalinin yaş-cins piramidasının fərqli cəhətlərini müəllimin köməyi ilə izah edir. | Asiya, Afrika və Latın Amerikası ölkələrində əhalinin yaş-cins piramidasının fərqli cəhətlərini izah edərkən qeyri-dəqiqliyə yol verir. | Asiya, Afrika və Latın Amerikası ölkələrində əhalinin yaş-cins piramidasının fərqli cəhətlərini səhvsiz izah edir. |

LAYİHƏ

## Dərs 54/ Mövzu 47: AVROPA, ŞİMALİ AMERİKANIN VƏ AVSTRALİYANIN ƏHALİSİ

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 3.1.1. Əhalinin artım dinamikasını ölkələrin iqtisadi inkişaf səviyyəsi ilə əlaqələndirir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Avropa, Şimali Amerika və Avstraliya əhalisinin təbii artımının aşağı olmasının səbəblərini onun inkişaf səviyyəsi ilə əlaqələndirir.<br>• Avropa, ABŞ və Avstraliya əhalisinin sayının dəyişməsini miqrasiya ilə əlaqələndirir. |

**A Sxem üzrə iş**

– “Əhali təzələnməsinin birinci tipi”, “Əhalinin təbii azalması”, “Demoqrafik böhran” terminlərindən istifadə edərək dünya əhalisinin sayında Avropa ölkələrinin payının dəyişməsini izah edin.

*Avropa ölkələri üçün aşağı doğum, az ölüm və nəticədə aşağı təbii artım səciyyəvidir. Bu regionun ölkələrində demoqrafik böhran dünya əhalisinin sayında Avropanın payının azalmasına səbəb olur: əgər 1900-cü ildə bu, 18% təşkil edirdisə, 2000-ci ildə cəmi 7%-ə düşmüşdür.*

**B** Şagirdlər mətni metodiki vəsaitdə verilən üsulların, məsələn, səbəb-nəticə əlaqələri zəncirinin qurulması üsulunun köməyi ilə mənimsəyə bilərlər:

- Qadınların ictimai fəallığının artması (ali təhsil almaları, müxtəlif vəzifələrdə çalışmaları və s.);
- gecikmiş nikahların üstünlük təşkil etməsi (təhsilin gec başa çatması, gələcək üçün karyera və yüksək maddi təminat istəyi);
- uşaqların təhsil və tərbiyəsinə sərf olunan xərclərin artması;
- ailə təməllərinin zəifləməsi;
- əhalinin maddi və mədəni tələbatlarının artması;
- yaşlı valideynlərin övladlarının deyil, dövlət himayəsində yaşaması.

→ doğulanların sayının azalması

Keyfiyyətli qidalanma və tibbi xidmət səviyyəsinin yüksəlməsi → Orta ömür müddətinin artması → Aşağı ölüm göstəriciləri

Aşağı doğum, aşağı ölüm → Aşağı təbii artım

LAYİHƏ

doğulanların sayının azalması və orta ömür müddətinin artması → əhalinin yaş tərkibində uşaq və gənclərin xüsusi çəkisinin azalması, yaşlıların isə artması

“millətin qocalması” → - əmək ehtiyatlarının azalması
- demoqrafik yükün artması

daha əlverişli həyat şəraiti, yüksək əməkhaqqı və normal əmək şəraiti → Avstraliya, Amerika və Qərbi Avropa ölkələrinə immiqrant axınının çoxalması

**C** **Sxem üzrə iş.** Diaqrama əsasən cədvəli tamamlayın.

| Təbii artımı sıfırdan aşağı olan ölkələr | Təbii artımı sıfırdan yuxarı olan ölkələr | Təbii artımı sıfıra bərabər olan ölkələr |
|---|---|---|
| *Bolqarıstan, Macarıstan* | *Fransa* | *İspaniya, Avstriya, Danimarka* |

**Xəritə üzrə iş.** “Əhalinin miqrasiyası” xəritə-sxemindən istifadə edərək immiqrasiya və emiqrasiyanın üstün olduğu Avropa ölkələrini qruplaşdırın və cədvəl şəklində dəftərinizə yazın.

| İmmiqrasiya üstün olduğu Avropa ölkələri | Emiqrasiyanın üstün olduğu Avropa ölkələri |
|---|---|
| *Fransa, Almaniya, Böyük Britaniya, İsveç, Norveç, İsveçrə, Avstriya, Lixtenşteyn, Lüksemburq, Monako* | *İspaniya, Portuqaliya, Albaniya, Yunanıstan, Bolqarıstan, Ukrayna, Polşa, Macarıstan* |

**D** **Biliklərin tətbiq edilməsi və yoxlanılması**

1. Avropa ölkələri, ABŞ, Kanada və Avstraliya ölkələrində demoqrafik hadisələr arasında məntiqi ardıcıllığını müəyyən edin.

Doğulanların sayı azalır, yaşlı əhalinin sayı artır → Əhalinin yaş tərkibində uşaq və gənclərin xüsusi çəkisi azalır, yaşlılarınki isə artır → “Millət qocalır” → Əmək ehtiyatları azalır, demoqrafik yük artır

Şagirdlər digər cavab variantını da təklif edə bilərlər. Bu zaman şagirdlərə cavablarını əsaslandırmağı tapşırmaq olar.

2. Mətndəki düzgün olmayan ifadələri müəyyən edin və doğruya çevirin:

– *Fransa və Almaniya əhali emiqrasiyasının üstünlük təşkil etdiyi ölkələrdir.*

– *ABŞ-da əhalinin yaş tərkibində uşaqların payı 30%-dən azdır.*



LAYİHƏ

*Qiymətləndirmə meyarı: əlaqələndirmə, izahetmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Avropa, Şimali Amerika və Avstraliyada əhalinin təbii artımının aşağı olmasını onun inkişaf səviyyəsi ilə çətinliklə əlaqələndirir. | Avropa, Şimali Amerika və Avstraliyada əhalinin təbii artımının aşağı olmasını onun inkişaf səviyyəsi ilə müəllimin suallarının köməyi ilə əlaqələndirir. | Avropa, Şimali Amerika və Avstraliyada əhalinin təbii artımının aşağı olmasını onun inkişaf səviyyəsi ilə əlaqələndirərək qeyri-dəqiqliyə yol verir. | Avropa, Şimali Amerika və Avstraliyada əhalinin təbii artımının aşağı olmasını səhvsiz onun inkişaf səviyyəsi ilə əlaqələndirir. |
| Avropa, ABŞ və Latın Amerikasında əhalinin sayının dəyişməsində miqrasiyanın rolunu izah etməkdə çətinlik çəkir. | Avropa, ABŞ və Latın Amerikasında əhalinin sayının dəyişməsini müəllimin suallarının köməyi ilə izah edir. | Avropa, ABŞ və Latın Amerikasında əhalinin sayının dəyişməsini miqrasiya ilə əlaqələndirərkən qeyri-dəqiqliyə yol verir. | Avropa, ABŞ və Latın Amerikasında əhalinin sayının dəyişməsini miqrasiya ilə səhvsiz əlaqələndirir. |

## Dərs 55 / Mövzu 48: Praktik dərs. AZƏRBAYCANDA DEMOQRAFİK VƏZİYYƏT

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 3.1.2. Topladığı statistik məlumatlar əsasında hesablamalar aparır. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Respublika əhalisi haqqında məlumat əldə etmək üçün qrafik, diaqram, cədvəl, xəritə-sxemdən istifadə edir. |

**Sxem üzrə iş.** Qrafikə əsasən respublikada əhalinin sayı necə dəyişir?
Azərbaycanda əhali artımı müşahidə olunur: 2000-ci ildən 2019-cu ilə qədər əhalinin sayının artması 120 min - 60 min = 60 min nəfər idi.

**Xəritə üzrə iş.** Xəritə-sxemə əsasən Azərbaycanda əhalinin təbii artımının yüksək və aşağı olduğu rayonları müəyyən edin.

| Təbii artımının yüksək olduğu rayonlar | Təbii artımın aşağı olduğu rayonlar |
|---|---|
| *Bərdə, Beyləqan, Biləsuvar, Saatlı, Sabirabad, Culfa, Şəmkir, Xaçmaz, Qəbələ* | *Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Xocalı, Samux, Qazax, Ağstafa, Qax, Füzuli* |

**Diaqram üzrə iş**
2019-cu ilin statistik göstəricilərinə əsasən tərtib olunan Azərbaycan əhalisinin yaş-cins piramidasını təhlil edin.

LAYİHƏ

1. Əhalinin sayında 16–60 yaş arasında olan insanlar üstünlük təşkil edir.
2. Əhalinin sayında 25–29 yaşlılar daha çoxdur.
3. 60 yaşdan yuxarı yaş qrupuna daxil olan əhalinin sayı azdır.
4. Əhalinin 30 yaşa qədər olan hissəsində kişilərin, 30-dan yuxarı hissəsində isə qadınların sayı çoxdur.

| | | |
|---|---|---|
| Əhalinin yaşlı və uşaq yaş qruplarından hansı üstünlük təşkil edir? | | *Uşaq* |
| Müxtəlif yaş qruplarında əhali arasında kişilərin və qadınların nisbəti necədir? | uşaqlar | *oğlanlar üstünlük təşkil edir* |
| | orta yaşlılar | *kişi və qadınların sayı təqribən bərabərdir* |
| | yaşlı əhali | *Qadınlar üstünlük təşkil edir* |
| Dövlətin qarşısında hansı sosial problemlər durur? | | *Əhali artımına uyğun olaraq yeni məktəb, bağça, idman kompleksləri, xəstəxanalar və s.-in tikilməsi.* |

**Cədvəl üzrə iş**

Miqrasiya artımını (azalmasını) hesablayın və respublika əhalisinin sayına necə təsir etdiyini təhlil edin

| Əhalinin beynəlxalq miqrasiyası (min nəfərlə) | | | |
|---|---|---|---|
| İllər | Ölkəyə daimi yaşamaq üçün gələnlər | Ölkədən daimi yaşamaq üçün gedənlər | Əhalinin artımı, yaxud azalması |
| 1990 | 84.3 | 137.9 | 53.6 azalma |
| 1995 | 6.2 | 16.0 | 9.8 azalma |
| 2000 | 4.4 | 9,9 | 5.5 azalma |
| 2005 | 2,0 | 2,9 | 0.9 azalma |
| 2010 | 2.2 | 0.8 | 1.4 artım |
| 2019 | 2,3 | 0.4 | 1,7 |

2010-cu ildən etibarən respublikada əhalinin sayı həm də mexaniki artım hesabına çoxalır: 2011-ci ildə bu göstərici 1,7 nəfər olmuşdur.

*Qiymətləndirmə meyarı: qrafik, diaqram, cədvəl və xəritə-sxemlə işləmə*

| **I səviyyə** | **II səviyyə** | **III səviyyə** | **IV səviyyə** |
|---|---|---|---|
| Respublikanın əhalisi haqqında məlumat əldə etmək üçün qrafik, diaqram, cədvəl, xəritə-sxemlə çətinliklə işləyir. | Respublikanın əhalisi haqqında məlumat əldə etmək üçün qrafik, diaqram, cədvəl, xəritə-sxemlə müəllimin köməyi ilə işləyir. | Respublikanın əhalisi haqqında məlumat əldə etmək üçün qrafik, diaqram, cədvəl, xəritə-sxemlə işləyən zaman qeyri-dəqiqliyə yol verir. | Respublikanın əhalisi haqqında məlumat əldə etmək üçün qrafik, diaqram, cədvəl, xəritə-sxemlə səhvsiz işləyir. |

LAYİHƏ

## DƏRS 56. VI FƏSİL ÜZRƏ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ NÜMUNƏSİ

1. Xəritə-sxemdə qeyd olunmuş ölkələr üçün səciyyəvi xüsusiyyətləri müəyyən edin:



1. Əhalinin yüksək təbii artımı müşahidə olunur.
2. İmmiqrasiya üstündür.
3. Əhalinin təbii artımı aşağıdır.
4. Yaş strukturunda uşaqların payı yüksəkdir.
5. Dövlətin apardığı siyasət təbii artımın azaldılmasına yönəldilmişdir.
6. Orta ömür müddəti çoxdur.

A) 1, 3, 5 B) 4, 5, 6 C) 1, 4, 5 D) 3, 4, 5 E) 2, 4, 5

2. Ölkədə işsizlik 32%, iqtisadi cəhətdən fəal əhalinin sayı 17 mln. nəfər təşkil edir. Ölkədə əmək qabiliyyətli əhalinin sayını hesablayın.

A) 10 mln. nəfər B) 25 mln. nəfər C) 45 mln. nəfər
D) 5 mln. nəfər E) 1,9 mln. nəfər

3. Əhalinin təzələnməsinin 2-ci tipi üçün səciyyəvi olmayan əlamət:

A) yüksək təbii artım
B) yüksək doğum
C) demoqrafik siyasət təbii artımın azaldılmasına yönəldilmişdir
D) yaş strukturunda yaşlıların payı yüksəkdir
E) orta ömür müddətinin aşağı olması

LAYİHƏ

4. Regionlar, onların səciyyəsi və əhalinin yaş strukturu arasında uyğunluğu müəyyən edin.

| | | |
|---|---|---|
| 1. Doğumun, ölümün və təbii artımın göstəriciləri aşağı, əhali sayının sabit qalması və "millətin qocalması", yəni əhalinin ümumi sayında yaşlıların xüsusi çəkisinin yüksək olması. | A. Afrika, Asiya və Latın Amerikası ölkələri | a) uşaqlar (0-14 yaş) 22%, yaşlılar (65 yaşdan yuxarı) 15% -ə qədər |
| 2. Yüksək doğum və nisbətən aşağı ölüm hesabına yüksək təbii artım, əhalinin sayı durmadan artır, əhalinin yaş tərkibində gənclərin sayı yüksəkdir. | B. Avropa, Şimali Amerika, Avstraliya, Yaponiya | b) uşaqların payı (0-14 yaş), 45%, yaşlılar (65 yaş və yuxarı)2%-ə qədər |

______________________________________________

5. Yaş-cins piramidası ilə ölkələr arasında uyğunluğu müəyyən edin:




1. Nigeriya
2. Somali
3. Böyük Britaniya
4. Almaniya
5. Hindistan
6. Madaqaskar

A______________
B______________



LAYİHƏ

6. Verilən yaş-cins piramidasının aid olduğu ölkə üçün səciyyəvi əlamətlər:




1. Əhalinin yüksək təbii artımı
2. Əhalinin yaş-cins strukturunda uşaqların payı yüksəkdir
3. İnkişaf etmiş ölkədir
4. Orta ömür müddəti yüksəkdir
5. Demoqrafik siyasət əhalinin təbii artımının azaldılmasına yönəldilmişdir
6. Aşağı doğum və aşağı ölüm

___________________________________

7. Qrafiklərdən hansı Azərbaycanda əhalinin sayının dəyişməsini düzgün əks etdirir?

A)




B)




C)




LAYİHƏ

# FƏSİL – 7

# İQTİSADİ-SOSİAL HƏYAT VƏ ONUN İNKİŞAF YOLLARI

## FƏSİL ÜZRƏ REALLAŞDIRILACAQ ALT STANDARTLAR

3.2.3. Təsərrüfat sahələrinin səciyyəsini verir.
3.2.4. Təsərrüfat sahələrinin yerləşməsinin əlaqə prinsiplərinin sxemini qurur.
3.2.5. Ətraf mühitdə yaranmış ekoloji vəziyyəti qiymətləndirir.

FƏSİL ÜZRƏ ÜMUMİ SAATLARIN MİQDARI: **7 saat**
KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ: **1 saat**

LAYİHƏ

## Dərs 57 / Mövzu 49: **TƏSƏRRÜFATIN SAHƏVİ QURULUŞU**

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 3.2.3. Təsərrüfat sahələrinin səciyyəsini verir |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Sahələri təsərrüfat sektorları üzrə qruplaşdırır.<br>• Təsərrüfatın sahəvi strukturunu izah edir. |

**A Cədvəl üzrə iş**

Qədim insanların fəaliyyətini cədvəl üzrə qruplaşdırın.

| Resursların əldə edilməsi | Resursların emal edilməsi |
|---|---|
| 1. Heyvan və balıq ovu | 2. Geyimin hazırlanması |
| 4. Misin çıxarılması | 3. Əmək alətlərinin hazırlanması |
| | 5. Dərinin emal edilməsi |

**B** Mətndəki informasiyanın öyrənilməsini qruplarla təşkil etmək olar.

**1-ci qrup üçün tapşırıq:** "*Birinci sektor*"

1. Birinci blokun məzmununu sxem şəklində ümumiləşdirin və ya tezislərini tərtib edin.
2. Birinci sektorun hər sahəsinə aid 2 sual hazırlayın.

**2-ci qrup üçün tapşırıq:** "*İkinci sektor*"

1. İkinci sektorun sahələri – energetika, metallurgiya, maşınqayırmanın səciyyəsi üçün 3 sual hazırlayın.

**3-cü qrup üçün tapşırıq:** "*İkinci sektor*"

1. İkinci sektorun sahələri – kimya, meşə, yüngül və yeyinti sənayesinin hər biri üçün 3 sual hazırlayın.

**4-cü qrup üçün tapşırıq:** "*Üçüncü sektor*"

1. Üçüncü sektoru səciyyələndirən 3 sual hazırlayın.

Hər qrup yerinə yetirdiyi işin təqdimatını aşağıdakı alqoritmlə aparır:
a) öyrənilən informasiyanı təqdim edir;
b) hazırlanan suallarla sinfə müraciət edir;
c) sinifdə kiminsə sualı olarsa, qrup təmsilçiləri onu cavablandırır.

İşin sonunda müəllim təqdimatı ümumiləşdirə və şagirdlərə 4-cü sektor haqqında informasiya verə bilər.

Ümumiləşdirməni sxem şəklində təqdim etmək olar:

LAYİHƏ




**C Diaqram üzrə iş**

1. Nə üçün ABŞ-da iqtisadi cəhətdən fəal əhalinin payı Nigeriyadan daha çoxdur? (*ABŞ inkişaf etmiş dövlət olduğuna görə çoxsahəli təsərrüfat sisteminə malikdir. Ona görə də əhalinin işlə təmin olunmasında problem yoxdur)*

2. ABŞ-ın və Nigeriyanın işləyən əhalisi müvafiq olaraq hansı sahələrdə daha çox çalışır? *(ABŞ-da ikinci, üçüncü xidmət sektorları, emaledici sahələrdə; Nigeriyada birinci sektorda – kənd təsərrüfatında hasilat sənayesi)*

3. İşləyən əhalinin sektorlar üzrə bölgüsü ölkənin iqtisadi inkişafına dair məlumat verə bilirmi? (*Bəli. Çünki əhalinin kənd təsərrüfatı və hasilat sənayesində daha çox çalışması mexanikləşmənin zəif tətbiq edilməsinin əsas göstəricisidir)*

## Diaqram üzrə iş

– İnkişaf etməkdə olan ölkələrdə əhalinin əksəriyyətinin kənd təsərrüfatı sahələrində işləməsinə baxmayaraq, bu məhsulların əsas ixracatçısı inkişaf etmiş ölkələrdir. Səbəbini izah edin. *(inkişaf etmiş ölkələrin əksəriyyətində müasir texnologiya və avadanlıqların, yüksək məhsuldarlığa malik kənd təsərrüfatı bitkilərinin yüksək səviyyədə tətbiqi mövcuddur. ABŞ və Kanadada kənd təsərrüfatında əhalinin 2-4%-i çalışır. Bununla bərabər, bu ölkələr kənd təsərrüfatı məhsullarının ixracatçılarıdır. Malidə, Niger və Çadda isə əhalinin 80-90 %.-i bu sahədə məşğuldur. Yəni əsas göstərici sahədə çalışanların sayı deyil, onun inkişaf səviyyəsidir).*

**D Biliklərin tətbiq edilməsi və yoxlanılması**

LAYİHƏ

**1. Cədvəl üzrə iş.** Təsərrüfat sahələrinə uyğun olaraq hər bir ölkə üçün diaqram qurun və ölkələri gəlir mənbələrinə görə qruplaşdırın.

| **Ölkələr** | **% ilə** | | |
|---|---|---|---|
| | **Kənd təsərrüfatı** | **Sənaye** | **Xidmət sahələri** |
| Küveyt | 0 | 53 | 47 |
| ABŞ | 2 | 25 | 73 |
| Fransa | 2 | 27 | 71 |
| Polşa | 6 | 39 | 55 |
| Rusiya | 7 | 39 | 54 |
| Çin | 21 | 48 | 31 |
| Hindistan | 29 | 30 | 41 |
| Efiopiya | 57 | 10 | 33 |




| **Kənd təsərrüfatı** | **Sənaye** | **Xidmət sahələri** |
|---|---|---|
| Efiopiya | Küveyt, Çin | ABŞ, Fransa, Polşa, Rusiya |

2. Avstraliyada boksit istehsalı Yamaykadan yeddi dəfə artıqdır. Lakin Avstraliyada bu sahədə əhalinin 1%-i, Yamaykada isə 25%-i çalışır. Bunu nə ilə izah etmək olar? *(Yüksək səviyyəli texnoloji avadanlıqları tətbiq etməklə inkişaf etmiş ölkələrdə ağır əl əməyi aradan qaldırılmışdır. Belə ölkələrdə ağır sahələrdə texnikanı tətbiq*

LAYİHƏ

*etməklə keyfiyyətli və az materialtutumlu məhsullar istehsal olunur. Belə ölkələrdə sənaye və kənd təsərrüfatında çalışanların sayı azdır)*

**E Dərsdən sonra**

Şagirdlərin fəaliyyətinin nəticələri bütün siniflə ümumiləşdirilməli və nəticə çıxarılmalıdır: hansı sektorda daha çox əhali çalışır.

*Qiymətləndirmə meyarları: qruplaşdırma, izahetmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Sahələri təsərrüfat sektorları üzrə çətinliklə qruplaşdırır. | Sahələri təsərrüfat sektorları üzrə müəllimin köməyilə qruplaşdırır. | Sahələri təsərrüfat sektorları üzrə qruplaşdırarkən qeyri-dəqiqliyə yol verir. | Sahələri təsərrüfat sektorları üzrə müstəqil olaraq səhvsiz qruplaşdırır. |
| Təsərrüfatın sahəvi strukturunu çətinliklə izah edir. | Təsərrüfatın sahəvi strukturunu müəllimin köməyilə izah edir. | Təsərrüfatın sahəvi strukturunu izah edərkən qeyri-dəqiqliyə yol verir. | Təsərrüfatın sahəvi strukturunu müstəqil, səhvsiz izah edir. |

## Dərs 58 / Mövzu 50: İSTEHSAL VƏ QEYRİ-İSTEHSAL SAHƏLƏRİ

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 3.2.3. Təsərrüfat sahələrinin səciyyəsini verir.<br>3.2.4. Təsərrüfat sahələrinin yerləşməsinin əlaqə prinsiplərinin sxemini qurur. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • İsrehsal və qeyri- istehsal sahələrini qruplaşdırır.<br>• Xidmət sahəsinin səciyyəsini verir. |

**A Sxem üzrə iş**

Suallara cavab verin və sxemi tamamlayın.

**I qrup:** İqtisadiyyatın müxtəlif sahələrinin inkişafında elektrik enerjisinin rolu nədir? (*Enerji olmadan insanın təsərrüfat fəaliyyətinin heç bir növü mövcud ola bilməz. Elektroenergetika insan fəaliyyətinin bütün sahələrinə – sənaye və kənd təsərrüfatına, elm və kosmosa nüfuz edir. Təsərrüfatın digər sahələri onun inkişaf səviyyəsindən asılıdır. Sənayedə enerji müxtəlif mexanizmlərin hərəkətə gətirilməsi üçün və birbaşa texnoloji proseslərdə tətbiq edilir. Müasir rabitə vasitələrinin (teleqraf, telefon, radio, televiziya) işi elektrik enerjisinə bağlıdır. Onsuz kibernetika, hesablama texnikası, kosmik sahələrin inkişafı mümkün deyildir. Nəqliyyatda elektrik enerjisinin çox böyük rolu vardır. Elektriklə işləyən nəqliyyat ətraf mühiti çirkləndirmir. Elektrikləşdirilmiş dəmir yolu nəqliyyatı böyük miqdarda elektrik enerjisi işlədir. Bu isə qatarların sürətinin artması ilə əlaqədar yolların yükdaşıma qabiliyyətini artırmağa, yükdaşımaların maya dəyərini azaltmağa, yanacağa qənaət etməyə imkan verir)*

LAYİHƏ

**II qrup:** Yeni elmi nailiyyətlərin əldə edilməsi və ixtisaslı kadrlar istehsal prosesinə nə kimi təsir göstərir?*(elmi-texniki tərəqqi dövlətin iqtisadi inkişafını şərtləndirən amillərdən biridir. Bu, yeni texnika və texnologiyanın tətbiqi prosesidir, elmi biliklərin əldə olunması və reallaşdırılması əsasında istehsal və əməyin təşkilidir. Bu zaman iqtisadi inkişafa istehsala yeni avadanlıqlar və texnikanın tətbiqi, həmçinin resurslardan istifadənin təkmilləşdirilmiş texnologiyasının həyata keçirilməsi yolu ilə nail olunur).*

**III qrup:** Xidmət sahələrinin inkişafının hər hansı məhsul istehsalı prosesinə nə kimi təsiri vardır? *(xidmət sahələrinin səviyyəsi digər sahələrin inkişafına güclü təsir edir. Tətbiq edilən avadanlıqların təmir edilməsi, onların istehsal prosesində fasiləsizliyinin təmin edilməsi üçün vacib şərtdir. Bundan əlavə, xidmət sahələri işləyən əhalinin mənəvi tələbatının təmin olunmasında mühüm rola malikdir).*

**IV qrup:** İstehsal prosesində nəqliyyatın rolu nədən ibarətdir? *(nəqliyyat xammal, yanacaq və hazır məhsulun bütün növlərinin onların istehsal olunduğu məntəqələrdən istehlak məntəqələrinə çatdırılmasında böyük əhəmiyyətə malikdir, yəni sahələr arasında əlaqələndirici rol oynayaraq, istehsal prosesinin fasiləsiz davam etməsinə imkan verir. O, təsərrüfatın ixtisaslaşması və kooperasiyası üçün əsasdır. Nəqliyyat olmadan yeni rayonların və təbii ehtiyatların mənimsənilməsi qeyri-mümkündür. Nəqliyyat xarici ticarət əlaqələrinin əsasıdır)*

B Mətnlə iş zamanı şagirdlər əsas anlayışlar əsasında suallar hazırlama üsulundan istifadə edə bilərlər.
**Təsərrüfat sahələri** – eyni tələbatı ödəyən müəssisələr
**İstehsal** sahələri – istehsalatda maddi nemətlər yaradan və onu istehlakçıya çatdıran bütün sahələri əhatə edir
**Qeyri-istehsal** sahələri – insanların mənəvi tələbatını təmin edən sahələr
**Ağır sənaye** – digər məhsulu istehsal etmək üçün istifadə olunan məhsulu istehsal edən sahələr
**Xidmət sahələri** – istehsal və qeyri-i istehsal sahələrinin əhalinin tələbatına xidmət edən sahələri
**Ümumtəsərrüfat xidmətləri** – istehsal prosesini tənzimləmək üçün göstərilən xidmətlərdir
**Fərdi xidmətlər** – əhalinin fərdi olaraq məişət tələbatını ödəmək üçün göstərilən xidmətlərdir
**İşgüzar xidmətlər** – istehsalçının təsərrüfat fəaliyyətinin səmərəliliyinin artırılmasına xidmət edir
**Sosial xidmətlər** – vətəndaşların təhsil, səhiyyə, idman, mədəniyyət və s. sahələrə olan tələbatlarının ödənilməsinə xidmət edir



LAYİHƏ

### C Şəkil üzrə iş

1. Qrafikə əsasən IV sektorda işləyənlərin əməkhaqları daha yüksəkdir. Bu nə ilə izah oluna bilər? *(Müasir dünyada ən mühüm kapital kimi intellektual (əqli) mülkiyyətdir. Bədii və elmi əsərlər, musiqi və incəsənət nümunələri, müxtəlif kompüter proqramları intellektual mülkiyyətdir)*

### D Biliklərin tətbiq edilməsi və yoxlanılması

– Müəssisələri maddi və qeyri-maddi istehsala aid olmasına görə qruplaşdırın və cədvəli tamamlayın:

| İstehsal | Qeyri- istehsal |
|---|---|
| 1) Sumqayıt Boru-Prokat; 2) Qəbələ Konserv; 6) QaradağSement; 8) Azərdəmiryolservis; 10) Zaqatala Fındıqtəmizləmə Kombinatı; 11) Şirvan Elektrik Stansiyası; 12) Lənkəran Çay fabriki; 14) Naxçıvan Badamlı suyu; 15) Mingəçevir su anbarı. | 3) ASAN Xidmət; 4) Azərsığorta; 5) Mərkəzi Klinik xəstəxana; 7) Hilton hotel; 9) Qusarda "Şahdağ" qış kurort bazası; 13) Xalça muzeyi. |

**Dərsdən sonra.** Sizin yaşadığınız ərazidə (rayon, şəhər, kənd) hər hansı müəssisənin təsərrüfat fəaliyyətinə dair verilmiş plan üzrə təqdimat hazırlayın.
*Tapşırığın yerinə yetirilməsinə nümunə*

| | |
|---|---|
| *1* | *Gəncə Cihazqayırma Zavodu*<br>*Gəncə ş. 28 May küç. 121* |
| *2* | *Elektrik avadanlığı, isti və soyuq su sayğacları, elektron qaz sayğacları, elektrikötürücü, elektrik açarları, transformatorlar, elektrik mühərrikləri, məftillər, naqillər, kanalizasiya lyükləri üçün qapaqlar* |
| *3* | *Fransanın "Aktarius" şirkəti tərəfindən zavoda elektron qaz sayğaclarının istehsalı üçün lazım olan avadanlığın təxminən 30%-i gətirilmişdir.* |
| *4* | *İstehsal sferası: maşınqayırma* |
| *5* | *Bu müəssisənin məhsulunu məişətdə istifadə edirik.* |

LAYİHƏ

*Qiymətləndirmə meyarları: qruplaşdırma, səciyyələndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Maddi və qeyri-maddi sferaları üzrə istehsal sahələrini çətinliklə qruplaşdırır. | Maddi və qeyri-maddi sferaları üzrə istehsal sahələrini müəllimin sualları-nın köməyilə qruplaşdırır. | Maddi və qeyri-maddi sferaları üzrə istehsal sahələrini qruplaşdırarkən qeyri-dəqiqliyə yol verir. | Maddi və qeyri-maddi sferaları üzrə istehsal sahələrini səhvsiz qruplaşdırır. |
| Xidmət sahəsinin səciyyəsini çətinliklə verir. | Xidmət sahəsinin səciyyəsini müəlli-min suallarının köməyilə verir. | Xidmət sahəsinin səciyyəsini verərkən qeyri-dəqiqliyə yol verir. | Xidmət sahəsinin səciyyəsini səhvsiz verir. |

## Dərs 59 / Mövzu 51: SƏNAYE SAHƏLƏRİ NECƏ YERLƏŞDİRİLİR?

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 3.2.4. Təsərrüfat sahələrinin yerləşməsinin əlaqə prinsiplərinin sxemini qurur. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Sənaye sahələri və xidmət sferasının yerləşmə prinsiplərini izah edir. |

**A Şəkil üzrə iş**

1. Hansı müəssisələr şəhərin mərkəzinə ən yaxın yerləşdirilmişdir və bunun səbəbi nədir? (*Kinoteatr, ticarət mərkəzi – xidmət sahəsi olduqları üçün*)
2. Şəhərin enerji ilə təminatı hansı mənbədən ödənilir və onun yerləşdirilməsində hansı amil əsas götürülmüşdür? (*SES vasitəsilə təmin olunur, əsas amil – meyillilik, suyun olması və çayın axım sürəti*)
3. Ayaqqabı fabrikinin şəhərə daha yaxın, metallurgiya zavodunun isə uzaqda yerləşdirilməsi hansı amillərlə əlaqədardır? *(ekoloji amil)*
4. Şəhər əhalisi hansı müəssisələrdə işləsə daha az nəqliyyat xərcləri ödəyər? *(şəhərin içərisində yerləşən müəssisələrdə – ayaqqabı fabriki, kinoteatr, ticarət mərkəzi).*

**B** Mətnlə iş zamanı şagirdlərə informasiyanı cədvəl vasitəsilə ümumiləşdirməyi tapşırmaq olar: Məsələn:

LAYİHƏ

| İstehsal sahəsi | Yerləşmə prinsipi | Səbəbi |
|---|---|---|
| *Metallurgiya (yüngül əlvan metalların istehsalı)* | *enerji mənbələrinə yaxın* | *mövcud enerji amili məhsulun daha ucuz başa gəlməsinə imkan verir* |
| *Metallurgiya (ağır əlvan metalların istehsalı)* | *xammala yaxınlıq prinsipi* | *saflaşdırma zamanı xeyli miqdarda tullantı yaranır. Tullantı ilə qarışıq olan filizi kənara daşımaq üçün daha çox nəqliyyat xərcləri tələb olunur* |

**C Sxem və cədvəl üzrə iş**

Sxemdəki rəqəmlər əsasında ağır və yüngül əlvan metallar istehsal edən müəssisələrin harada yerləşdirilməsinə aid nəticə çıxarın və cədvəli tamamlayın

| Əlvan metallar | Xammal mənbələrində | Enerji mənbələrində |
|---|---|---|
| *Qalay* | + | |
| *Mis* | + | |
| *Sink* | + | |
| *Qurğuşun* | + | |
| *Titan* | | + |
| *Maqnezium* | | + |
| *Alüminium* | | + |

– Ağır əlvan metallar yüngül əlvan metallardan hansı xüsusiyyətlərinə görə fərqlənir? (*ağır metallarda filizin payı azdır, bu səbəbdən müəssisələrin yerləşdirilməsində xammal amili nəzərə alınır; yüngül əlvan metalların istehsalında əsas xərclər elektrik enerjisinə sərf olunur, ona görə də bu müəssisələrin yerləşdirilməsi zamanı enerji amili nəzərə alınır).*

**Şəkil üzrə iş**

Təsvir edilmiş məntəqələrin hansında

1. Təsvir edilmiş məntəqələrin hansında yaşayış məntəqəsini salmaq daha məqsədəuyğundur. (*F, C, D- ərazinin relyefi düzənlikdir, tikinti üçün daha əlverişlidir, nəqliyyat magistralları mövcuddur.*

2. Hansı nöqtələrdə yaşayış məntəqəsinin yerləşdirilməsinə relyef amili mənfi təsir edir? *(A, B, E – dik yamaclar)*

3. Hansı məntəqədə daşqın təhlükəsi böyükdür? (*F – çay dərəsində yerləşir)*

LAYİHƏ

## D Biliklərin tətbiq edilməsi və yoxlanılması

**Cədvəl üzrə iş**

| İqtisadi amillər | Təsərrüfat sahələri |
|---|---|
| İxtisaslı kadr | Dəqiq maşınqayırma |
| Xammal | Metallurgiya (ağır əlvan metalların istehsalı), yeyinti sənayesinin bir çox sahələri (meyvə konservi, şəkər, şərab, balıq konservi), quşçuluq |
| Enerji amili | alüminium istehsalı (əlvan metallurgiya) |
| Qadın əməyi | Yüngül və qida sənayesi |

**Xəritə üzrə iş**

– Xəritə-sxemdə təsərrüfat müəssisələrinin yerləşmə prinsiplərinə uyğun gələn məntəqələri müəyyən edin və cədvəli tamamlayın.

| Mineral ehtiyat amili | İşçi qüvvəsi amili | Enerji amili | Elmilik amili |
|---|---|---|---|
| A İ K R | B M | T D | C Ç T |

*Qiymətləndirmə meyarları: izahetmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Sənaye sahələri və xidmət sferasının yerləşmə prinsiplərini çətinliklə izah edir. | Sənaye sahələri və xidmət sferasının yerləşmə prinsiplərini müəllimin istiqamətləndirici suallarının köməyilə izah edir. | Sənaye sahələri və xidmət sferasının yerləşmə prinsiplərini izah edərkən qeyri-dəqiqliyə yol verir. | Sənaye sahələri və xidmət sferasının yerləşmə prinsiplərini səhvsiz izah edir. |

## Dərs 60 / Mövzu 52: KƏND TƏSƏRRÜFATI SAHƏLƏRİNİN YERLƏŞDİRİLMƏ PRİNSİPLƏRİ

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 3.2.3. Təsərrüfat sahələrinin səciyyəsini verir.<br>3.2.4. Təsərrüfat sahələrinin yerləşməsinin əlaqə prinsiplərinin sxemini qurur. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Kənd təsərrüfatı sahələrinin səciyyəsini verir.<br>• Kənd təsərrüfatı sahələrinin yerləşmə prinsiplərini izah edir. |

## A Şəkil üzrə iş

– Nə üçün heyvandarlıq fermaları dağətəyi ərazilərdə yerləşdirilmişdir? *(Yem bazası orada çox olduğuna görə)*

– Nəyə görə taxıl əkinləri yaşayış məntəqəsindən uzaqda, tərəvəz əkinləri isə daha yaxında yerləşdirilmişdir? (*Daşınma zamanı tərəvəz xarab olur, taxıl isə korlanmır)*

LAYİHƏ

– Quşçuluq fermalarını yerləşdirmək harada daha əlverişlidir? *(istehlakçıya, daha doğrusu, yaşayış məntəqələrinə yaxın, həm də xammal – taxılla yaxşı təmin olunmuş rayonlarda)*
– Pambıq əkinləri çaysahili düzənliklərdə yerləşmə səbəbini müzakirə edin (*pambıq quru iqlimdə suvarma şəraitində becərilir).*

B




**C Xəritə üzrə iş**
– Mətn və aktiv temperaturların illik cəmi xəritəsindən istifadə edərək cədvəli tamamlayın:

| Bitkilər | Yayıldığı regionlar |
|---|---|
| Düyü (çəltik) | Şərqi, Cənub-Şərqi, Cənubi Asiya |
| Kartof | Şərqi Avropa |
| Buğda | Şimali Amerika, Mərkəzi Asiya |
| Şəkər çuğunduru | Orta Avropa |
| Şəkər qamışı | Cənubi Amerika |

**Xəritə üzrə iş**
1. Suvarma əkinçiliyinin daha geniş inkişaf etdiyi ölkələr əsasən hansı iqlim qurşağında yerləşir? *(tropik, subtropik, subekvatorial).*
2. Avropanın hansı ölkələrində suvarma əkinçiliyi inkişaf etmişdir? *(Cənubi Avropa ölkələri: İtaliya, İspaniya, Yunanıstan və b.).*

LAYİHƏ

## **D** Biliklərin tətbiq edilməsi və yoxlanılması

**Xəritə üzrə iş**

– Xəritə-sxemdəki rəqəmləri cədvələ uyğun qruplaşdırın.

| Dəmyə əkinçiliyi | Suvarma əkinçiliyi | | |
|---|---|---|---|
| 2, 4, 8 | İlboyu | iyun-avqust | dekabr-fevral |
| | 3, 6, 7 | 5, 14 ,9 | 1, 10, 11, 12, 13 |

2. Təsərrüfatın yerləşmə prinsiplərinə əsasən dağlıq ərazilərdə hansı kənd təsərrüfatı sahələrini inkişaf etdirmək mümkündür?

*1 – a; 2 – b; 3 – e; 4 – d; 5 – c.*

*Qiymətləndirmə meyarları: izahetmə, səciyyələndirmə*

| **I səviyyə** | **II səviyyə** | **III səviyyə** | **IV səviyyə** |
|---|---|---|---|
| Kənd təsərrüfatı sahələrinin səciyyəsini çətinliklə verir. | Kənd təsərrüfatı sahələrinin səciyyəsini müəllimin suallarının köməyilə verir. | Kənd təsərrüfatı sahələrinin səciyyəsini verərkən qeyri-dəqiqliyə yol verir. | Kənd təsərrüfatı sahələrinin səciyyəsini düzgün verir. |
| Kənd təsərrüfatı sahələrinin yerləşmə prinsiplərini çətinliklə izah edir. | Kənd təsərrüfatı sahələrinin yerləşmə prinsiplərini müəllimin suallarının köməyilə izah edir. | Kənd təsərrüfatı sahələrinin yerləşmə prinsiplərini izah edərkən qeyri-dəqiqliyə yol verir. | Kənd təsərrüfatı sahələrinin yerləşmə prinsiplərini səhvsiz izah edir. |

LAYİHƏ

## Dərs 61 / Mövzu 53: **BAZAR İQTİSADİYYATI**

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 3.2.3. Təsərrüfat sahələrinin səciyyəsini verir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Tələb və təklif arasında qarşılıqlı əlaqəni izah edir. |

**A Mətn və şəkil üzrə iş**

– Şəkildə təsvir edilmiş bazarlarda hansı məhsullar satılır? (*birinci şəkildə əsasən kənd təsərrüfatı məhsulu; ikincidə isə qiymətli kağızlar – səhmlər, istiqraz vərəqləri və s. satılır)*

– Bazarlarda ticarət etmək üçün hansı bilik və bacarıqlara malik olmaq lazımdır? *(bazar qanunlarını bilmək, iqtisadi, hüquqi təhsil, birjada oyun qaydaları)*

**B** Yeni mövzunun mənimsənilməsini açar sözlərin çıxarılması üsulu ilə həyata keçirmək olar.

Açar sözlər:

**Tələb** – istehlakçının müəyyən bir qiymətə ala biləcəyi, **təklif** isə istehsalçının təqdim etdiyi məhsuldur.

**Rəqabət** – eyni növ məhsul istehsal edən və ya eyni xidmət sahələri ilə məşğul olan müxtəlif müəssisələr arasında gedən mübarizədir.

**Sahibkar –** gəlir əldə etmək üçün öz biznesini (istehsal, yaxud xidmət müəssisəsi) yaradan şəxsdir.

**D Biliklərin tətbiq edilməsi və yoxlanılması**

1. Rəqabətin istehlakçıya verdiyi faydalar haqqında qısa esse yazın.

*Şagirdlər qeydlərini aşağıdakı kimi apara bilər:*

- *çoxlu sayda məhsul və seçim imkanı;*
- *yüksək keyfiyyətli məhsul;*
- *müştəri qazanmaq üçün rəqabətin güclənməsi ona göstərilən xidmətin səviyyəsini artırır;*
- *keyfiyyət və qiymətlər arasında tarazlığın yaradılması imkanı.*

2. Tələb və təklifin 2 vəziyyətini təhlil edin.

Qrafiklərdən hansı tələb və təklifi əks etdirir?

*(1-ci qrafik. Qiymətin artması tələbin aşağı düşməsinə səbəb olur)*

3. İfadələrdən hansılar doğrudur?

a. Qiymətin qalxması tələbin aşağı düşməsinə gətirib çıxarır (düz cavab).
b. Qiymətin qalxması tələbin yuxarı qalxması ilə nəticələnir.
c. Qiymətin qalxması təklifin həcminin artmasına səbəb olur.
d. Alıcının tələbi ilə məhsulun qiyməti arasında əlaqə yoxdur.

Cavab: a

LAYİHƏ

4. Hadisələrin düzgün ardıcıllığını müəyyən edin:
*d – a – e – b – c*

*Qiymətləndirmə meyarları: qarşılıqlı əlaqələndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tələb və təklif arasında qarşılıqlı əlaqəni çətinliklə izah edir. | Tələb və təklif arasında qarşılıqlı əlaqəni müəllimin köməyilə izah edir. | Tələb və təklif arasında qarşılıqlı əlaqəni izah edərkən qeyri-dəqiqliyə yol verir. | Tələb və təklif arasında qarşılıqlı əlaqəni səhvsiz izah edir. |

## Dərs 62 / Mövzu 54: MÜLKİYYƏT FORMALARI

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 3.2.3. Təsərrüfat sahələrinin səciyyəsini verir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Mülkiyyət formalarını fərqləndirir. |

**A Şəkil üzrə iş**
– Şəkillərdən hansılar şəxsi, hansılar isə dövlət mülkiyyəti ola bilər?
*a, b, d – dövlət; c,e,k – şəxsi.*
– Hansı mülkiyyətin qorunması daha çətindir? (*dövlət*)

**B** Yeni materialın öyrənilməsini qruplarla təşkil etmək olar. Qrupların sayı mətnin əsas abzaslarının sayına uyğun olmalıdır: *xüsusi mülkiyyət, bələdiyyə mülkiyyəti, dövlət mülkiyyəti.*

Müxtəlif iş formaları təklif etmək olar:
1. Şagirdlər mətnlə müstəqil işləyirlər. Onlar iş formasını özləri seçir, sualları hazırlayır, mətni qrafik formaya keçirirlər (sxem, məntiqi sxem və s.)
2. Müəllim hər qrup üçün iş vərəqlərində suallar tərtib edir.
3. Ziqzaq üsulunun tətbiqi

Nəticələri ümumiləşdirərkən lövhədə ümumi sxem tərtib etmək olar.

**mülkiyyət formaları**

**xüsusi (şəxsi)** | **dövlət mülkiyyəti** | **qarışıq**

LAYİHƏ

## **D** Biliklərin tətbiq edilməsi və yoxlanılması

2. Mətndən istifadə edərək dövlətə məxsus olan mülkiyyəti aşağıdakı cədvəl üzrə qruplaşdırıb yazın:

| Fiziki-coğrafi obyektlər | İqtisadi-sosial obyektlər |
|---|---|
| *torpaq, yerin təki, daxili sular və ərazi suları, bitki və heyvanlar aləmi, hava hövzəsi* | *təsərrüfat müəssisələri, energetika, nəqliyyat və rabitə şəbəkələri, dövlət mənzil fondu, dövlət idarələrinin əmlakı, mədəni sərvətlər və tarixi abidələr, dövlət bankları, maliyyə və kredit ehtiyatları, qiymətli kağızlar* |

## **E** Dərsdən sonra

Müəllim şagirdləri qanunu əldə etmək üçün internet ünvana yönəldə bilər: http://www.wipo.int/edocs/lexdocs/laws/az/az/az003az.pdf

*Qiymətləndirmə meyarları: fərqləndirmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Mülkiyyət formalarını fərqləndirməkdə çətinlik çəkir. | Mülkiyyət formalarını müəllimin köməyi ilə fərqləndirir. | Mülkiyyət formalarını fərq-ləndirərkən bəzən səhvlərə yol verir. | Mülkiyyət formalarını düzgün fərqləndirir. |

## Dərs 63 / Mövzu 55: AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAFI

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 3.2.3. Təsərrüfat sahələrinin səciyyəsini verir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Cədvəllər, diaqramlardan istifadə edərək respublikanın iqtisadi göstəriciləri haqqında məlumat toplayır.<br>• Topladığı informasiyanı təhlil edir. |

## **A** Sxem üzrə iş

– 2003-2019-cu illər üzrə Azərbaycanda istehsal olunan məhsul və xidmətlərin dəyəri necə dəyişmişdir?

(*2003--cü ildən 2015-ci ilə qədər artmış, 2015-2017-ci illəar arasında kəskin enmə baş vermiş və 2019-cu ilə doğru artım müşahidə olunur.)*

– Yoxsulluq səviyyəsinin dinamikasını əks etdirən qrafiklərin arasında hansı əlaqə olduğuna dair fikirlərinizi yazın

*(Birinci cədvəli təhlil edərək şagirdlər nəticə çıxarırlar: Diaqramı təhlil edərkən şagirdlər bu nəticəyə gəlirlər: əhalinin yoxsulluq səviyyəsi aşağı düşür. Bütün bu məlumatları tutuşduraraq onlar bu nəticəni çıxarırlar: ölkədə istehsal edilən məhsul və xidmətlərin dəyəri artıdıqca, yoxsulluq səviyyəsi də bir o qədər aşağı olar)*

LAYİHƏ

**C Cədvəl üzrə iş**

– Cədvəldəki rəqəm göstəriciləri əsasında diaqram qurun.
– Gəlirlərin daha sürətli artım dövrü hansı illəri əhatə edir? *(2006-2009; 2011-2014)*
– Sizcə, gəlirlərin kəskin artımına hansı amillər təsir edə bilər? *(təsərrüfatın inkişafı)*




**Diaqram üzrə iş**




– Diaqrama əsasən maddi və qeyri-maddi istehsal sahələrindən alınan gəlirlərin cəmini hesablayın.
*İstehsal sahələri: 56,9 (sənaye) + 6,6 (kənd təsərrüfatı) + 5,2 (nəqliyyat) + 7,8 (tikinti) = 76,5*
*Qeyri-i istehsal sahələri: 7,8 (ticarət və xidmət) + 2,8 (rabitə və informasiya texnologiyaları) + 11,8 (digər sahələr) = 22,4*
– Sənayenin payının yüksək olması hansı amillərlə əlaqədardır? *(təbii ehtiyat amili ilə)*

**D Biliklərin tətbiq edilməsi və yoxlanılması**

LAYİHƏ

Mətndən istifadə edərək Azərbaycanda iqtisadi inkişafın mərhələlərinin səciyyəsini müəyyən edin və cədvəli tamamlayın:

| Mərhələlər | İllər | Səciyyəvi əlamətlər |
|---|---|---|
| 1 | 1900-cü ilə qədər | Kənd təsərrüfatı şəxsi təsərrüfatlarda cəmlənmişdi. Yüngül və yeyinti sənayesi qismən inkişaf etmişdi. Azərbaycandan xarici ölkələrə yun, ipək parça, xalça, kürü ixrac edilirdi. |
| 2 | 1900-1940-cı illər | Azərbaycan aqrar ölkədən aqrar-sənaye ölkəsinə çevrildi. Azərbaycan nefti ölkəyə xeyli miqdarda gəlir gətirirdi. Neft-mədən avadanlığının istehsalına tələbat artdı. Neft maşınqayırması məhsulları daxili bazarı təmin etməklə yanaşı, həm də xarici ölkələrə satılmağa başladı. |
| 3 | 1940-1990-cı illər | Sənayenin digər sahələrinin inkişafı ilə fərqlənir. Təsərrüfat strukturunda mühüm dəyişikliklər baş verdi. Neft maşınqayırması ölkənin ixtisaslaşmış sahəsinə çevrildi. Bu mərhələdə qeyri-neft sektorunun inkişafına da diqqət artırıldı. Gəncə Alüminium, Daşkəsən Dəmir Filizi Saflaşdırma, Sumqayıt Boru-Prokat və Sintetik Kauçuk zavodları, Mingəçevir Su elektrik stansiyası, Bakı Məişət kondisionerləri zavodu və onlarla iri istehsalat müəssisəsi fəaliyyətə başladı. Bu müəssisələri ixtisaslı kadrlarla təmin etmək üçün mütəxəssis hazırlığına diqqət artırıldı. |
| | 1990-2016-cı illər | Bu mərhələ ölkə iqtisadiyyatının dünyaya inteqrasiyası kimi səciyyələnir. Azərbaycanın zəngin təbii sərvətləri, aqroiqlimi, rekreasiya ehtiyatları və əlverişli iqtisadi mövqeyi xarici kapital axınını ölkəyə cəlb edir. 1994-cü ilin 20 sentyabrında Azərbaycan Respublikası ilə dünyanın 20-dək ölkəsinin neft şirkətləri arasında bağlanan "Əsrin müqaviləsi" iqtisadiyyatda dönüş yaratdı. Müqaviləyə əsasən yeni neft yataqlarının ("Azəri", "Günəşli", "Çıraq") istismarı üçün investisiyalar qoyuldu. Müstəqillik illərində ölkə iqtisadiyyatına 120 milyarda qədər ABŞ dolları həcmində sərmayə qoyulmuşdur. Müasir dövrdə ölkədə nəhəng beynəlxalq nəqliyyat layihələri həyata keçirilir. Bakı – Tbilisi – Ceyhan neft kəməri, Bakı – Ərzurum qaz kəməri, Bakı – Tbilisi – Qars dəmiryol xətti, TANAP və s. |

LAYİHƏ

**Diaqram üzrə iş**

Diaqrama əsasən Azərbaycanın müxtəlif rayonlarına qoyulan sərmayənin miqdarını müqayisə edin və səbəblərinə dair fərziyyələrinizi şərh edin.

*(əhalinin sayının çox olması, neft sənayesinin inkişafı, Bakı şəhərində beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi üçün tikilən binalar və şəhərin abadlaşdırılmasına görə.)*

*Qiymətləndirmə meyarları: məlumat əldəetmə, məlumatı təhliletmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Cədvəllər, diaqramlardan istifadə edərək respublikanın iqtisadi göstəriciləri haqqında məlumatı çətinliklə toplayır. | Cədvəllər, diaqramlardan istifadə edərək respublikanın iqtisadi göstəriciləri haqqında məlumatı müəllimin köməyi ilə toplayır. | Cədvəllər, diaqramlardan istifadə edərək respublikanın iqtisadi göstəriciləri haqqında məlumat toplayarkən qeyri-dəqiqliyə yol verir. | Cədvəllər, diaqramlardan istifadə edərək respublikanın iqtisadi göstəriciləri haqqında dəqiq məlumat toplayır. |
| Topladığı informasiyanı çətinliklə təhlil edir. | Topladığı informasiyanı müəllimin köməyilə təhlil edir. | Topladığı informasiyanı təhlil edərkən qeyri-dəqiqliyə yol verir. | Topladığı informasiyanı düzgün təhlil edir. |

## Dərs 64 / Mövzu 56: “TÜSTÜSÜZ SƏNAYE” – TURİZM

| | |
|---|---|
| **ALT STANDARTLAR** | 3.2.5. Ətraf mühitdə yaranmış ekoloji vəziyyəti qiymətləndirir. |
| **TƏLİM NƏTİCƏLƏRİ** | • Ekoloji meyarların turizmin inkişafında nəzərə alınmasını izah edir. |

**A Xəritə üzrə iş**

Dünyanın siyasi xəritəsindən istifadə edərək turizm və səyahət üçün cəlbediciliyə görə ölkələri qruplaşdırın və cədvəli tamamlayın.

| Çox yüksək | Yüksək | Orta | Aşağı | Çox aşağı |
|---|---|---|---|---|
| *Avropa ölkələri (İsveç, Fransa, Böyük Britaniya, Almaniya), ABŞ, Kanada, Avstraliya, Yaponiya* | *Şərqi Avropa ölkələri (Polşa, Rumıniya, Ukrayna), Rusiya, Asiya ölkələri (Türkiyə, Azərbaycan, Cin), Latın Amerikası ölkələrinin əksəriyyəti* | *Qazaxıstan, Monqolustan İran, Boliviya, Misir* | *Mərakeş, Mali, Nigeriya, Kamerun, Madaqaskar, Banqladeş, Qviana və b.* | *Mərkəzi Afrika ölkələri (Konqo, Çad, Anqola, Tanzaniya, Sudan, Niger* |

LAYİHƏ

– Sizcə, ölkələr hansı meyarlar əsasında qruplaşdırılmışdır? *(iqtisadi inkişaf səviyyəsi siyasi cəhətdən sabitlik; yüksək xidmət səviyyəsi; insan və zəngin təbii şərait)*

**B** Mətnlə işi İNSERT üsulu ilə yerinə yetirmək məqsədəuyğundur.

**C Qrafik üzrə iş**

*Nəticə: Turizmdən əldə olunan gəlir ildən-ilə artır. Turizmdən gələn gəlirlərin artım dinamikasının qrafiki:*




**Mətn və şəkil üzrə iş**

– Dünyanın hansı ölkələrində SSS istiqamətli turizm mərkəzləri mövcuddur? *(Aralıq dənizi sahilləri: İspaniya, Türkiyə, Yunanıstan; Qara dəniz sahilləri: Ukrayna, Rusiya; Kanar adaları)*

– Azərbaycanın hansı rayonlarında LLL istiqamətli turizmin inkişafına imkan vardır? *(Lənkəran, Masallı, Şamaxı, İsmayıllı, Zaqatala, Şəki, Gədəbəy, Quba)*

**E Dərsdən sonra**

**Cədvəl üzrə iş**

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|
| Azərbaycana gələn xarici ölkə vətəndaşlarının sayı (min nəfər) | 1962,9 | 2239,2 | 2484,1 | 2508,9 | 2297,8 |
| Xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının sayı (min nəfər) | 3175,6 | 3550,2 | 3874,4 | 4284,7 | 4244,3 |

LAYİHƏ

– Ayrı-ayrı illər üçün ölkəyə gələn və ölkədən gedən turistlərin sayı arasında fərqi əks etdirən diaqram tərtib edin.




*Qiymətləndirmə meyarları: izahetmə*

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Ekoloji meyarların turizmin inkişafında nəzərə alınmasını çətinliklə izah edir. | Ekoloji meyarların turizmin inkişafında nəzərə alınmasını müəllimin istiqamətləndirici suallarının köməyilə izah edir. | Ekoloji meyarların turizmin inkişafında nəzərə alınmasını izah edərkən qeyri-dəqiqliyə yol verir. | Ekoloji meyarların turizmin inkişafında nəzərə alınmasını səhvsiz izah edir. |

LAYİHƏ

## DƏRS 66. VII FƏSİL ÜZRƏ
## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ NÜMUNƏSİ

1. Hansı sənaye sahələrini xammal rayonlarında yerləşdirirlər?

A) gəmiqayırma, hesablama texnikası istehsalı
B) mis istehsalı, meşə tədarükü
C) mebel istehsalı, biskvit istehsalı
D) çay istehsalı, cihazqayırma
E) avtomobilqayırma, mineral gübrələr istehsalı

2. Uyğunluğu müəyyən edin:

Maşınqayırma: A – dəqiq, B – ümumi, C – ağır

1 – elektrotexnika, 2 – cihazqayırma, 3 – kənd təsərrüfatı maşınqayırması, 4 – energetika maşınqayırması, 5 – nəqliyyat maşınqayırması, 6 – şaxta avadanlığı istehsalı, 7 – robot istehsalı

A_______________ B_________________ C________________

3. Qeyri-istehsal sferasına daxil *deyil:*

A) yüngül sənaye, meşə tədarükü B) elm, əlvan metallurgiya
C) təhsil, nəqliyyat D) səhiyyə, tikinti
E) elektroenergetika, təhsil

4. Sahillərindən rekreasiya (turizm) məqsədləri ilə istifadə olunan dənizlər:

A) Xəzər, Qara; B) Laptevlər, Ağ; C) Aralıq, Qara;
D) Yapon, Kara; E) Karib, Berinq

5. Düzgün *olmayan* ifadəni seçin:

A) Ət-süd sənayesi müəssisələri istehlak rayonlarında yerləşdirilir.
B) Rəqabət – eyni növ məhsul istehsal edən və ya eyni xidmət sahələri ilə məşğul olan müxtəlif müəssisələr arasında gedən mübarizədir.
C) Boksit emalı müəssisələrinin yerləşdirilməsi zamanı elektrik enerjisi mənbələri nəzəri alınır.
D) Almaniya, Yaponiya və inkişaf etmiş digər dənizsahili ölkələrdə ağır sənaye müəssisələri əsasən sahilboyu rayonlarda yerləşdirilir
E) İnkişaf etmiş ölkələrdə istehsal olunan kənd təsərrüfatı məhsullarının çox olması bu sferada çalışanların yüksək payı ilə izah olunur.

LAYİHƏ

6. Düzgün *olmayan* sıranı müəyyən edin:

| Təsərrüfat sahələri | | Yerləşmə prinsipləri |
|---|---|---|
| A | Donuzçuluq | Şəhərlər, ərzaq və yeyinti sənayesi tullantıları olan yerlər |
| B | Balıqçılıq | Sahilboyu ölkələrdə |
| C | Elektrotexnika | Yüksəkixtisaslı kadrların olması |
| D | Meşə sənayesi | İstehlak rayonlarında |
| E | Ağır metalların istehsalı | Xammalın olması |

7. Sxemdə buraxılan səhvi müəyyən edin:




____________________________________________________________________
____________________________________________________________________

LAYİHƏ

## TÖVSİYƏ OLUNAN MƏNBƏLƏR


1. Ümumi təhsilin fənn standartları (I–XI siniflər). Bakı, 2012.
2. Q.Hüseynov və b. İnklüziv təhsil (ibtidai təhsil pilləsi üçün), 2010.
3. Müəllim hazırlığının və orta təhsilin perspektivləri (Qərb təhsil sisteminin təcrübəsi əsasında). Müəllimlər üçün vəsait (müəllif qrupu). Bakı, 2005 (İREX təşkilatının xətti ilə).
4. İnteqrativ kurikulum: mahiyyəti və nümunələr. Müəllimlər üçün vəsait (müəllif qrupu). Bakı, 2005 (İREX təşkilatının xətti ilə).
5. Z.Veyisova. Fəal/interaktiv təlim. Müəllimlər üçün vəsait, 2007.
6. N.Seyfullayeva və E.Əliyeva. Coğrafiya fənni üzrə təlimin təşkili formaları və üsulları. Bakı, 2009.
7. Энциклопедия интерактивного обучения. Е.Пометун, Киев, 2007.
8. Основы критического мышления. Группа авторов, Киев, 2010.
9. Geography 360. “Heinemann”, 2006.
10. Earth science. “McDougal Little”, 2000.
11. Geography Success-3. Oxford, 2002.
12. Geography Success-4. Oxford, 2002.
13. География. Планета Земля. В.В.Барабанов. “Просвещение”, 2012.
14. География. Энциклопедия. Москва. “РОСМЭН”, 2001.
15. Справочник учителя географии. А.Д.Ступникова, Л.В.Бражникова. Волгоград. “Учитель”, 2012.
16. Настольная книга учителя географии Нормативные документы, методические рекомендации и справочные материалы для организации работы учителя. Н.Н.Петрова, В.И.Сиротин. Издательство “Астрель”, 2002.
17. http://www.uchportal.ru/load/65 учительский портал.
18. http://guzvenag.ucoz.ru/index/0-13 сайт учителя географии.
19. http://my-geography.ru сайт учителя географии.
20. http://geo.1september.ru/urok/


LAYİHƏ

*BURAXILIŞ MƏLUMATLARI*

**Coğrafiya – 9**
*Ümumtəhsil məktəblərinin 9-cu sinfi üçün*
*Coğrafiya fənni üzrə dərsliyin*
*metodik vəsaiti*

**Tərtibçi heyət:**

Müəlliflər: **Elbrus Kərim oğlu Əlizadə**
**Nərminə Səftər qızı Seyfullayeva**
**Yelena Ələkbər qızı Şabanova**
**İrkən Fatixovna Aktoprak**

Nəşriyyat redaktoru **Kəmalə Abbasova**
Texniki redaktor **Zeynal İsayev**
Dizayner **Taleh Məlikov**
Korrektor **Aqşin Məsimov**

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi: 11,8. Fiziki həcmi: 12,75 çap vərəqi.
Formatı: 70 × 1001/16. Səhifə sayı: 204.
Şriftin adı və ölçüsü: Times qarnituru 9-11 pt. Ofset kağızı. Ofset çapı.
Sifariş ____ . Tiraj . Pulsuz. Bakı – 2020.
Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix:

Nəşriyyat:
"Bakı" nəşriyyatı (Bakı ş, H.Seyidbəyli küç., 30)

Çap məhsulunu istehsal edən:
"Radius" MMC (Bakı ş, Binəqədi şosesi, 53)

LAYİHƏ